**AZƏRBAYCAN RESPUBLİKASI**
**TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT**
**İQTİSAD UNİVERSİTETİ**

**RAMİN QURBANOV**

# TÜRK XALQLARININ TARİXİ

***Dərs vəsaiti***

II hissə

Azərbaycan Respublikası təhsil nazirinin 09.07.2010-cu il tarixli 1069 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.

**BAKI - 2011**

**Elmi redaktor:** t.e.d., prof. **B.M.Abdullayev**

**Rəyçilər:** t.e.d., prof. **O.B.Sultanov**

t.e.d., prof. **S.A.Məmmədov**

**Ramin Qurbanov. Türk xalqlarının tarixi. Ali məktəblərin Azərbaycan bölmələri üçün dərs vəsaiti. Bakı: ”İqtisad Universiteti” Nəşriyyatı, 2011. - 216 səh.**

Azərbaycan Dövlət İqtisad Universitetinin “Beynəlxalq münasibətlər” ixtisası üzrə təhsil alan tələbələri üçün nəzərdə tutulmuş dərs vəsaiti türk xalqlarının yeni və müasir dövrünün tarixinə həsr olunmuşdur. Burada Rusiyanın Orta Asiyanı işğal etməsi, işğaldan sonra Rusiyanın bölgədə yaratdığı hərbi-inzibati idarəetmə sisteminə, eləcə də Volqaboyu, Sibir və Krımda həyata keçirilmiş burjua islahatlarına da yer verilmişdir. Eyni zamanda türk xalqlarının Birinci və İkinci Dünya müharibələri dövründə sosial-iqtisadi vəziyyətləri dərs vəsaitində öz əksini tapmışdır. Müasir dövrdə Azərbaycanın türk dövlətləri ilə siyasi əlaqələri, türk dövlət başçılarının çoxtərəfli əlaqələr sistemində iştirakı da işıqlandırılmışdır. Dərs vəsaitinin məzmunu “Türk xalqlarının tarixi” fənninin proqramına uyğundur. “Azərbaycan tarixi” fənni beynəlxalq münasibətlər ixtisasında ayrıca fənn kimi tədris olunduğundan dərs vəsaitində Azərbaycan türklərinin tarixinə yer verilməmişdir.

**©Ramin Qurbanov - 2011**
**© “İqtisad Universiteti” - 2011**

# M Ü N D Ə R İ C A T

## RUSİYANIN ORTA ASİYANI İŞĞAL ETMƏSİ

1. XIX əsrin birinci yarısında Rusiyanın Orta Asiya xalqları ilə iqtisadi və siyasi əlaqələri........................
2. Orta Asiyada Rusiya və İngiltərə mübarizəsi................
3. Orta Asiyanın işğalı və bölgənin Rusiyaya birləşdirilməsi…………………...........................................
4. Orta Asiyada çar Rusiyasının siyasəti. Hərbi-inzibati idarəetmə...................................................................

## XIX ƏSRDƏ VOLQABOYU, SİBİR VƏ KRIM

1. Volqaboyu, Sibir və Krım XIX əsrin birinci yarısında.....................................................................
2. XIX əsrin 60-70-ci illərinin burjua islahatları...............
3. Kapitalist münasibətlərinin inkişafı..............................

## OSMANLI İMPERİYASI XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

1. XIX əsrin birinci yarısında Osmanlı imperiyasının iqtisadi və siyasi vəziyyəti..........................................
2. Osmanlı imperiyası XIX əsrin ikinci yarısında.............
3. Gənc türklər və Balkan müharibələri...........................
4. Osmanlı imperiyası Birinci Dünya müharibəsi illərində………………………………………………......

## TÜRK XALQLARI XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

1.Türk xalqları birinci rus inqilabı ərəfəsi və inqilab illərində…………………………………….....................
2. Rusiya Dumalarında türk deputatlarının fəaliyyəti……

3. Türk xalqları yaşayan bölgələrdə Stolıpin aqrar islahatının həyata keçirilməsi.......................................
4. Türk xalqları Birinci Dünya müharibəsi illərində..........
5. 1917-ci il fevral inqilabından sonra Orta Asiya, Volqaboyu, Sibir və Krımda ictimai-siyasi vəziyyət.....

## TÜRKİYƏ CÜMHURİYYƏTİNİN YARANMASI. TÜRKİYƏ CÜMHURİYYƏTİ XX ƏSRİN 20-80-Cİ İLLƏRİNDƏ

1. Milli-azadlıq hərəkatı və Türkiyə Cümhuriyyətinin yaranması...................................................................
2. Türkiyə Cümhuriyyəti 20-40-cı illərdə.........................
3. Türkiyə Cümhuriyyəti 50-80-ci illərdə.........................

## TÜRK XALQLARI SSRİ-nin TƏRKİBİNDƏ

1. SSRİ-nin təşkili. 20-30-cu illərdə türk xalqlarının sosial-iqtisdi vəziyyəti……………………………....
2. İkinci Dünya müharibəsi və türk xalqları......................
3. Türk xalqları 50-80-ci illərdə.......................................

## TÜRK DÖVLƏTLƏRİ XX ƏSRİN 90-cı İLLƏRİ-XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ

1. Azərbaycan-Türkiyə münasibətləri...............................
2. Azərbaycan Respublikasının Orta Asiyanın türk dövlətləri ilə əlaqələri……………………………....
3. Türk dövlətləri çoxtərəfli siyasi əlaqələr sistemində.....

**Ədəbiyyat siyahısı**.........................................................

# RUSİYANIN ORTA ASİYANI İŞĞAL ETMƏSİ

## 1. XIX əsrin birinci yarısında Rusiyanın Orta Asiya xalqları ilə iqtisadi və siyasi əlaqələri

Orta Asiya xalqları ictimai-iqtisadi, siyasi və mədəni inkişaf səviyyəsinə görə geridə qalırdılar. Özbəklər, qaraqalpaqlar oturaq həyat tərzinə keçsələr də onlar hələ də köçəri maldarlıqdan tamamilə əl çəkməmişdilər. Qazaxlar, qırğızlar və türkmənlərin çox hissəsi köçəri idilər. Qazaxıstanın təsərrüfat həyatında sənətkarlıq və ticarət də mühüm yer tuturdu. Dəri məmulatı, keçəçilik və yun emalı kimi maldarlıqla bağlı olan sənət sahələri inkişaf etmişdi. Mübadilə səciyyəsi daşıyan ticarət, əsasən yay mövsümündə aullar arasında həyata keçirilirdi. Qazax köçlərinin birliyinə aul deyilirdi. Qazaxıstan Kokand, Buxara, Xivə xanlıqları ilə ticarət əlaqələri saxlayır, maldarlıq məhsulları və mal-qara ixrac edir, əkinçilik məhsulları idxal edirdi. Ölkə ərazisinin genişliyi və əlverişli yolların olmaması daxili və xarici ticarətin inkişafına mane olurdu. Əhalinin əksəriyyətinin köçəri və yarımköçəri həyat tərzi keçirməsi, feodal-patriarxal qaydalarının hökmranlığı, juzlar arasında iqtisadi əlaqələrin zəifliyi Qazaxıstanda vahid və mərkəzləşdirilmiş dövlət yaratmağa imkan vermirdi. Qazaxıstan ərazisinin bir hissəsi - Kiçik və Orta juz XVIII əsrin 30-40-cı illərindən Rusiya imperiyasının tərkibinə daxil idi. Qazaxıstanda Kiçik və Orta juz Rusiya tərəfindən işğal edildikdən sonra bu ölkə ilə iqtisadi-ticarət əlaqələri genişlənməyə başlanmışdı.Yerli sənətkarlıq məhsulları Rusiyadan gətirilmiş ucuz mallarla rəqabət apara bilmirdi. Bu da yerli məhsulların qiymətlərinin aşağı düşməsinə səbəb olurdu. Qazaxıstan tədricən inkişaf edən rus sənayesi üçün xammal bazasına çevrilirdi. Qazaxıstanda xalqın mövcud üsul-idarəyə qarşı etirazları getdikcə geniş miqyas alırdı. Çar hökuməti isə juzlara təsirini gücləndirirdi. Belə şəraitdə qazaxlar XIX əsrin birinci yarısında

rus müstəmləkəçilərinə qarşı mübarizə aparmışdılar. Lakin onların müstəqillik və siyasi birləşmə uğrunda apardıqları mübarizə uğursuzluqla nəticələndi. Qazaxıstanın hələ Rusiyaya tabe edilməmiş cənub hissəsi siyasi cəhətdən Orta Asiya xanlıqları ilə bağlı idi. Oturaq əhali məskunlaşan bölgələrdə şəhərlər də var idi ki, onlar ticarət və sənət mərkəzləri idi. Oturaq əhali, birinci növbədə özbəklər Orta Asiyanın Buxara, Kokand və Xivə xanlıqlarından ibarət olan üç əsas dövlət birləşməsi yaratmışdılar. Bunların hər birində özbəklərdən başqa digər millətlərdən olan çoxlu əhali yaşayırdı.

Orta Asiya xanlıqlarından ən böyüyü Kokand xanlığı idi. Xanlığın əsas ərazisi Fərqanə hövzəsi idi ki, burada özbək, tacik və qırğızlar yaşayırdı. Daşkənd bu xanlığın tərkibinə daxil idi və əlverişli coğrafi mövqedə yerləşirdi. Əkinçilik və köçəri rayonları birləşdirən nöqtədə yerləşən Daşkəndin coğrafi mövqeyi qədimdən onun inkişafına əlverişli təsir göstərirdi. Orta Asiya ilə Rusiyanın iqtisadi əlaqələrinin inkişafı Daşkəndin ticarət əhəmiyyətini artırdı. Daşkənd və bir çox sərhəd məntəqələri uğrunda xanlıqlar arasında uzun sürən müharibələr gedirdi. Kokand xanlığında Kokand və Daşkənddən başqa əhalisi ticarət və sənətkarlıqla məşğul olan Əndican, Namanqan, Margilan, Xocənt, Çimkənd kimi şəhərlər var idi.

Buxara xanlığı Kokand xanlığının cənub-qərbində yerləşirdi. Buxara xanlığının əsas hissəsini Zərəfşan vadisi təşkil edirdi ki, burada özbəklər və qismən taciklər yaşayırdılar. Orta Asiyanın qədim mədəni və iqtisadi mərkəzləri olan Buxara və Səmərqənd bu xanlığın tərkibinə daxil idi. Buxara xanlığının ərazisində olan şəhərlərdə sənətkarlıq yüksək inkişaf etmiş, pambıq və ipək parçalar toxunur, mis və tuncdan dulusçuluq məmulatları və soyuq silah hazırlanırdı. Şəhərlərdə sənətkarlar istehsal sahələri üzrə sexlərdə birləşmişdilər.

Xivə xanlığının torpaqları Amudəryanın aşağı axını boyunda yerləşmişdi. Ərazisinə və əhalisinin sayına görə Xivə xanlığı digər xanlıqlardan xeyli kiçik idi. Bu xanlıqlardan

başqa Orta Asiyanın cənub hissəsində bir neçə xırda feodal birləşmələri var idi ki, bunlar da gah bu xanlıqların hakimiyyəti altına düşür, gah da onlardan ayrılırdılar. Xanlıqlarda yaşayan tayfalar arasında daim hərbi toqquşmalar baş verirdi ki, bu da xalq kütlələrinin vəziyyətini daha da ağırlaşdırırdı. Vergilərin bütün ağırlığı kəndlilərin və sənətkarların üzərinə düşürdü. Vergiləri xanın məmurları toplayırdılar. Onlar əhalinin hesabına yaşayır və olmazın özbaşınalıqlar edirdilər.

XIX əsrin birinci yarısında Orta Asiyanın İran, Əfqanıstan, Çin və Rusiya kimi qonşu ölkələrlə ticarət əlaqələri var idi. XIX əsrin 20-40-cı illərində Rusiyanın Orta Asiya xalqları ilə ticarəti daha müvəffəqiyyətlə inkişaf edirdi. Rusiya hökumətinin bir sıra tədbirləri buna kömək edirdi. Karvan yolu ilə Orenburq və Petropavlovsk, həmçinin karvan və su yolu ilə Həştərxan vasitəsilə Orta Asiyadan Rusiyaya yun, quru meyvə, pambıq aparılırdı. Qazaxıstandan Orenburqa mal-qara aparılırdı. Rusiya Orta Asiya ilə ticarət əlaqələrini genişləndirmək üçün dəmir, polad, mis, çuqun və onlardan hazırlanan məhsulların da xanlıqlara gətirilməsinə icazə vermişdi. Rusiya bazarı ilə əlaqələrin genişlənməsi xanlıqlar üçün böyük perspektivlər açırdı.

XIX əsrin birici yarısında Orta Asiya iqtisadi cəhətdən Rusiyanın təsiri altına düşmüşdü. Bununla əlaqədar olaraq, ticarətin inkişafı və əmtəə-pul münasibətlərinə keçilməsi təsərrüfatın natural qapalılığını dağıtmağa başlamışdı. Bu region ilə ticarət əlaqələrinin inkişaf etdirilməsində marağı olan çar hökuməti rus tacirlərinə himayəçilik edirdi. Rusiya dövləti Orta Asiya ilə iqtisadi əlaqələri möhkəmləndirmək və genişləndirmək üçün bir sıra tədbirlər görmüşdü. Belə ki, ticarət yolları mühafizə olunur, tacirlərə müəyyən imtiyaz və üstünlüklər verilir, gömrük haqqının minimuma endirilməsi ticarət əlaqələrinə müsbət təsir göstərirdi. Rusiya Orta Asiya bazarında öz mövqeyini möhkəmləndirməyə çalışırdı. Orta Asiya ilə Rusiya arasında yerli məhsullarla mal dövriyyəsi getdikcə artırdı.

Çarizm Orta Asiyanı zəngin pambıq mənbəyi və rus sənayesinin, xüsusilə onun sürətlə inkişaf edən sahələrinin malları üçün mühüm bazar kimi qiymətləndirirdi. Orta Asiya bazarının Rusiya iqtisadiyyatı üçün belə böyük əhəmiyyətə malik olması Rusiyanı Orta Asiyada şəriksiz hökmranlığa can atmağa sövq edirdi. Orta Asiya Rusiyanın İran, Əfqanıstan, Hindistan və Çinlə ticarət aparmasına imkan yaradırdı. Orta Asiya ilə iqtisadi əlaqələrin inkişafından istifadə edən çarizim bu yerlərdə müstəmləkə işğallarını genişləndirməyə çalışırdı. Çar Rusiyasının hakim dairələri Orta Asiya torpaqları və xalqları haqqında öz hərbi-müstəmləkə siyasətini hazırlayıb həyata keçirməyə çalışırdılar. Çar Rusiyasının Orta Asiyaya yiyələnməsi, onun geniş işğalçı xarici siyasət planlarının həyata keçirilməsini asanlaşdırmalı idi. Nüfuzlu hərbi və məmur dairələri işğal olunacaq ərazilərdə gəlirli və yüksək vəzifələr tutmağı arzu edirdilər.

Çar hökuməti bildirirdi ki, Rusiyanın Orta Asiya ilə ticarət əlaqələrinin genişləndirilməsi və təhlükəsizliyin təmin edilməsi üçün, ilk növbədə, Xivə xanlığı alınmalıdır. Rusiyanın Buxara ilə diplomatik münasibətləri Xivəyə nisbətən daha yaxşı idi. Xanlıqlar arasındakı hərbi toqquşmalar zamanı xivəlilər rus karvanlarını Buxaraya buraxmamağa çalışırdılar. 1839-1840-cı illərdə çar I Nikolayın icazəsi ilə Orenburq hərbi qubernatoru general V.Perovski Xivəyə yürüş etdi. Lakin ruslar iki ay ərzində bütün canlı qüvvələrinin xeyli hissəsini itirərək geri qayıtmağa məcbur oldular. Lakin davam etdirilən danışıqlar nəticəsində əldə olunan razılığa əsasən Xivə xanı Rusiyaya qarşı düşmənçilik hərəkətlərinə yol verməməyi, ticarət karvanlarına hücum etməməyi və rus mallarına qoyulan gömrüyü 5 faizə qədər azaldılması təəhüdünü öz üzərinə götürdü.

Rusiya XIX əsrin birinci yarısında Orta Asiya məsələsinə böyük maraq göstərirdi. Rus diplomatlarının fəaliyyətlərinin genişlənməsi ilə əlaqədar olaraq xanlıqların iqtisadi və siyasi vəziyyəti, Orta Asiyaya gedən karvan yolları hərtərəfli

öyrənilirdi. Bu dövrdə Orta Asiyada mövcud olan vəziyyət çar Rusiyası üçün əlverişli idi. Xanlıqlar arasında birlik yox idi və hər bir xanlıq digərinin hesabına öz ərazisini genişləndirməyə çalışırdı. Kokand xanlığında vəziyyət daha mürəkkəb idi. Burada yaşayan xalqlar arasında daim münaqişələr olurdu. Feodallar arasında gedən mübarizələr də xanlıq hakimiyyətini zəiflədirdi. Rusiya Orta Asiyada mövcud olan xanlıqlar arasındakı daxili çəkişmələrdən istifadə etməklə siyasi əlaqələrini genişləndirir, gələcək planlarını həyata keçirmək üçün müvafiq tədbirlər proqramı üzrə hərəkət edirdi.

XIX əsrin ortalarında çar hökuməti Orta Asiyaya doğru planlı şəkildə irəliləməyə başladı. Bu istiqamətdə çar hökuməti Sırdərya çayının mənsəbində bir sıra istehkam və qalaların inşasına başladı. Rusiyanın Orta Asiya xanlıqları ilə XIX əsrin əvvəllərindən genişlənən ticarət əlaqələri, eyni zamanda Rusiyanın Orta Asiya xalqlarına güclənən siyasi və mədəni təsiri, bu ərazini birləşdirməkdə çarizm üçün əlverişli şərait yaratdı. Orta Asiya geniş yarımdairə şəklində rus sərhədləri ilə əhatə edilmişdi. Rusiyanın Sırdərya boyunca irəliləməsi Cənubi Qazaxıstan əhalisi üzərində öz hakimiyyətini itirmək istəməyən Kokand xanlığının müqavimətinə səbəb oldu. Rusiyanın hərbi dəstələri Kokand qüvvələrini sıxışdırırdılar. Orenburq general-qubernatoru Perovskinin dəstəsi 1853-cü ilin yayında Sırdərya çayı sahilindəki mühüm strateji məntəqə olan Kokand qalasını aldı. Kokand xanları həmin qalaya arxalanaraq qazaxların xeyli hissəsini uzun müddət özlərinə tabe vəziyyətində saxlamışdılar. 1854-cü ildə Alma-Ata qəsəbəsinin yerində ruslar tərəfindən Vernoye istehkamının təməli qoyuldu ki, bu yer sonralar böyüyüb Vernı (Alma-Ata) şəhərinə çevrildi. Semipalatinskdən Vernıya qədər Sibir xətti adlanan yeni bir hərbi yol çəkildi. 1854-cü ildə Rusiyanın hakim dairələri Sırdərya ilə Sibir hərbi xətlərini birləşdirmək qərarına gəldilər. Bu xətlərin birləşdirilməsi bütün Qazaxıstanın Rusiya tərkibinə qatılmasına şərait yaratmalı idi. Beləliklə, çarizm Orta Asiya xanlıqlarına qarşı

həlledici yürüşlərə hazırlaşırdı. Lakin bu planların həyata keçirilməsi bir müddət təxirə salınmalı oldu. Buna səbəb Rusiyanın Krım müharibəsində məğlubiyyəti ilə onun beynəlxalq vəziyyətinin xeyli zəifləməsi və Rusiyada təhkimçilik hüququnun ləğv edilməsi ilə bağlı hazırlıq işləri idi.

## 2.Orta Asiyada Rusiya və İngiltərə mübarizəsi

XIX əsrin birinci yarısında Orta Asiya xanlıqlarında siyasi vəziyyət qeyri-sabit idi. Xanlıqlar arasında gedən müharibələr, ayrı-ayrı bölgələrdə xalq üsyanları, qonşu dövlətlərlə münaqişələr xanlıqları zəiflədirdi. Belə bir vəziyyət Rusiya və İngiltərə kimi dövlətlərin Orta Asiyaya marağını artırırdı. Rusiyanın xarici siyasi mənafeyi başqa böyük dövlətlərin, ilk növbədə İngiltərənin mənafeyi ilə toqquşurdu, çünki İngiltərə nəinki Yaxın Şərqdə, habelə Orta və Uzaq Şərqdə də Rusiyanın güclü düşməni idi. İngiltərə-Rusiya ziddiyyətləri, xüsusən, Orta Asiyada çox mürəkkəbləşmişdi, ona görə ki, Kokand, Buxara, Xivə xanlıqlarından hər iki ölkə əlverişli satış bazarları və öz sənayesi üçün xammal mənbələri kimi istifadə etməyə çalışırdı. Satış bazarları ələ keçirmək məqsədilə İngiltərə eyni vaxtda iki istiqamətdən: Hindistan, Əfqanıstan istiqamətindən və Qara dəniz sahillərindən Asiya daxilinə nüfuz etməyə alışırdı. Beləliklə, İngiltərə Yaxın və Orta Şərqdə iqtisadi üstünlüyünü möhkəmlətmək və bu rayonda rusların rəqabətini qırmaq, həm də Orta Asiyanı Rusiyaya qarşı əməliyyat meydanına çevirmək istəyirdi.

İngilis casusları Əfqanıstanda məskən salmışdılar və Orta Asiya xanlıqlarına daxil olurdular. Onlar, öz növbəsində, yerli əhalidən də sıralarına casuslar cəlb edirdilər. XIX əsrin 20-ci illərində İngiltərə casusları həm kəşfiyyat, həm də yerli əhalini Rusiyaya qarşı sövq etmək məqsədilə Orta Asiyaya gəlirdilər. 1824-cü ildə bir neçə İngiltərə vətəndaşı tacir adı ilə

Buxaraya gəlib gizli şəkildə şəhərin planını çəkmişdilər. Buxara və Xivədə bəzi yerli tacirlər də ingilis casusları idi.

İngiltərə-Əfqanıstan müharibəsi ilə əlaqədar olaraq 1838-ci ildən ingilislərin Orta Asiyaya nüfuz etməsi gücləndi. İngilis casusları tərəfindən təhrik edilən Xivə hərbi dəstələri rus karvanlarına tez-tez hücum edirdilər. Buna cavab olaraq Orenburq general-qubernatoru A.Perovski 1839-cu ilin noyabrında 5 min nəfərlik hərbi dəstə ilə Xivə xanlığına hücuma keçdi. Lakin Perovski xeyli canlı qüvvə və texnika itirərək geri çəkilmişdi. XIX əsrin 40-cı illərindən ingilislərin Orta Asiyaya soxulması gücləndi. 1840-cı ildə Xivəyə gələn iki İngiltərə casusu Xivə xanını inandırmağa çalışırdılar ki, rusları Xivəyə buraxmasın və ruslar Xivəyə hücuma hazırlaşır. Lakin Xivə xanı onlara inanmadığından ingilis casusları geri qayıtmışdılar. XIX əsrin 50-ci illərində ingilislər Kokand və Xivə xanlarını öz tərəflərinə çəkmək üçün Əfqanıstan əmirindən istifadə edərək xanlıqlarla Rusiya arasında yaranmış iqtisadi əlaqələri pozmaq istəyirdilər. Lakin onların bu cəhdi baş tutmadı. Belə ki, ingilislərdən pul yardımı və lazımi silah almış əfqanların xanlıqların ərazisinə hücumları müvəffəqiyyət qazanmadı. Xanlıqların lap sərhədləri yaxınlığında inşa edilən istehkam və qalalar Rusiyanın bu bölgədə hökmranlığını təmin edir, Orta Asiyanın qəti işğalı üçün şərait yaradır, bu rayonda İngiltərənin müstəmləkəçilik siyasətini xeyli məhdudlaşdırırdı.

Krım müharibəsində İngiltərənin Türkiyəni müdafiyə etməsi və Rusiyaya qarşı hərbi əməliyyatlarda iştirakının bir səbəbi də Rusiyanı Qafqaz və Orta Asiyadan sıxışdırıb çıxartmaq idi. İngiltərə Rusiyaya qarşı Türkiyə başda olmaqla Orta Asiya xanlıqlarının ittifaqını yaratmağa çalışırdı. Lakin xanlıqlar arasında mövcud ədavət və çəkişmələr onların birləşməsinə mane olurdu. İngiltərə Rusiyaya qarşı nəzərdə tutduğu ittifaqı yarada bilmədi. Çar Rusiyası Krım müharibəsindən sonra özünün Orta Asiya siyasətindən nəinki əl çəkdi, əksinə, onu daha da gücləndirdi. Rusiya ehtiyat edirdi ki,

İngiltərə açıq şəkildə Orta Asiyaya daxil olar, ona görə də bu regiona hücuma keçməyi sürətləndirdi. Rusiyanın Orta Asiyaya doğru irəliləməsi İngiltərə ilə kəskin rəqabət şəraitində baş verirdi.Xanlıqlarla sərhəddə toqquşma zamanı rus əsgərləri dəfələrlə Orta Asiya döyüşçülərindən ingilis silahları ələ keçirmişdilər. Çarizmin Orta Asiyaya sahib olmaq istəməsi, onun geniş işğalçı xarici siyasət planlarının həyata keçirilməsini asanlaşdırmaqla yanaşı, Yaxın və Orta Şərqdəki mübahisəli məsələlərdə İngiltərəyə təzyiq göstərmək üçün çarizmə mənfəətli ola bilərdi. Rusiyanın Orta Asiyadakı müvəffəqiyyəti İngiltərənin Rusiya əleyhinə yeni kampaniyaya başlamasına səbəb oldu. İngiltərə 1865-ci ildə diplomatik təzyiq yolu ilə Rusiyanı Orta Asiyadakı işğallarından əl çəkməyə məcbur etmək istəsə də buna nail ola bilmədi. Belə olduqda, İngiltərə müstəmləkəçiləri Əfqanıstanda və Qaşqarda öz fitnələrini gücləndirdilər. İngilislərin bu siyasəti nəticəsində rus tacirləri Əfqanıstan və Qaşqardan qovuldular. İngilis məşvərətçiləri və casusları Əfqanıstanı silahla təchiz edir və onu Amudərya boyundakı yerləri işğal etməyə təhrik edirdi. 1869-cu ildə ingilis hökuməti çar hökumətinə Orta Asiyada bitərəf zona yaratmaq haqqında təklif verdi. Bitərəf zona hər iki dövlət üçün toxunulmaz olmalı idi. Rusiya hökuməti buna razılıq verdi və bu zonaya Əfqanıstanı da daxil etməyi irəli sürdü. Bununla, Rusiya İngiltərə tərəfindən Əfqanıstanın işğal edilməsinin qarşısını almaq istəyirdi. İngiltərə buna qarşı Rusiyanın himayəsində olan Şimal vilayətləri hesabına bitərəf zonanı genişləndirməyi irəli sürdü. Bu isə hər iki tərəfin bitərəf zona haqqında razılığa gələ bilməməsinə səbəb oldu. 1873-cü ildə Xivə xanlığının mərkəzi rus qoşunları tərəfindən tutuldu. Xivənin işğalı ciddi beynəlxalq təzyiq olmadan qəbul edildi. Yalnız İngiltərə öz etirazını bildirdi. 1873-cü ildə İngiltərə ilə Rusiya arasında bağlanmış saziş gər-ginliyi müvəqqəti olaraq zəiflətdi. Bu sazişə əsasən, Rusiya Əfqanıstanda İngiltərənin hakim hüququnu qəbul edirdi. İngiltərə Xivəyə qarşı tələblərindən əl

çəkir və bununla da Xivə xanlığının Rusiya tərəfindən siyasi cəhətdən tabe edilməsinə razılıq verirdi. İngiltərə ilə sonrakı danışıqlarda Rusiya tərəfi bildirdi ki, Rusiya Orta Asiyada nə Buxaraya doğru, nə də türkmən düzənliklərində ərazilərini genişləndirmək fikrində deyil. İngiltərədə hakimiyyətə gəlmiş mühafizəkarlar isə Britaniya müstəmləkə imperiyasını genişləndirməyi gizlətmirdilər.

1876-cı ilin fevralında Rusiya hökuməti İngiltərənin yeni mövqeyi ilə əlaqədar olaraq 1873-cü il sazişini müdafiə etdiyini bildirdi. Bununla yanaşı, göstərdi ki, hər iki dövlət sərbəst fəaliyyət göstərmək hüququnu özündə saxlayır. Bundan istifadə edərək çar hökuməti 1876-cı ildə Kokand xanlığının Rusiya imperiyasına birləşdirilməsi haqqında fərman verdi.

XIX əsrin 80-ci illərinin əvvəllərində Orta Asiyada Rusiya İngiltərənin güclü müqavimətinə rast gəlirdi. İngiltərə onun protektoratlığı altında olan Əfqanıstan vasitəsilə Türkmənistanda işğallara can atırdı. Rusiya Türkmənistanda irəlilədikcə İngiltərə-Rusiya münasibətləri yenidən pisləşdi. 1881-ci ildə Skobelovun başçılığı altında Axal-Təkin düzənliyi, üç il sonra 1884-cü ildə Mərv şəhəri tutuldu. Rus qoşunları bilavasitə Əfqanıstan sahillərinə çıxdılar. Lakin Əfqanıstanın sərhədləri hələ dəqiq müəyyən edilməmişdi.

1885-ci ilin martında ingilislərin təhriki ilə əfqan qoşunları və general Komarovun rus ordu dəstələri arasında toqquşma baş verdi. Əfqanlar məğlub edildikdə və rus qoşunları Əfqanıstanın şimalına daxil olduqda, İngiltərədə yenidən narahatlıq yarandı. Avropada belə hesab edilirdi ki, İngiltərə ilə Rusiya arasında müharibə labüddür. Lakin kəskin ixtilaflar 1885-ci ilin sentyabrında Peterburqda İngiltərə-Rusiya sazişinin imzalanması ilə başa çatdı. Sazişə əsasən, Rusiya-Əfqanıstan sərhədi müəyyən edildi və İngiltərə türkmən torpaqları üzərində Rusiyanın hüququnu qəbul etdi. Eyni zamanda Rusiya Əfqanıstanın daxili işlərinə qarışmamaq öhdəliyi götürdü. 1895-ci ildə İngiltərə ilə Rusiya arasında yeni saziş imzalandı.

Bu saziş Rusiya, Əfqanıstan və Hindistan arasında İrandan Pamirə qədər sərhəd xətlərinin müəyyən edilməsi ilə başa çatdı. İngiltərənin Türkmənistanı işğal etmək planları həyata keçirilmədi.

## 3. Orta Asiyanın işğalı və bölgənin Rusiyaya birləşdirilməsi

Orta Asiya torpaqlarının siyasi cəhətdən tabe edilməsi məsələsi XIX əsrin 60-cı illərində Rusiyanın hakim dairələri qarşısında tam kəskinliyi ilə durdu. Orta Asiya məsələsi Rusiyanın istər hökumət, istərsə də ticarət-sənaye dairələrinin diqqətini getdikcə daha çox cəlb edirdi. Rus sənaye məhsullarının Avropa bazarlarında Avropanın daha çox inkişaf etmiş sənayesi ilə rəqabətə davam gətirmədiyi bir şəraitdə Orta Asiyada yeni bazarların əldə edilməsi Rusiya üçün xüsusilə vacib idi. İstər daxili vəziyyət, istərsə də xarici şərait Rusiyanı Orta Asiyaya qarşı daha inamlı addımlar atmağa sövq edirdi. 1859-cu ildə Qazaxıstanla Şimali Qırğızıstanın sərhədində Kastek istehkamı yaradıldı. Bu, Kokand xanlığının içərilərinə irəliləməyə imkan yaradırdı. Bütün bunlar sərhəddə Rusiya ilə Kokand xanlığının hərbi qüvvələrinin toqquşmasına gətirib çıxartdı. Çar Rusiyası yalnız 1864-cü ildə Orta Asiyada qəti işğallara başladı. Rus qoşunlarının hələ XIX əsrin 40-cı illərinin sonu 50-ci illərində Orta Asiya xanlıqlarına qarşı başlanan hərbi əməliyyatları XIX əsrin 60-70-ci illərində bir neçə mərhələdən keçdi.

1.1864-1865-ci illərdə Kokand xanlığına qarşı hərbi yürüşlər;

2.1866-1868-ci illərdə Buxara xanlığına qarşı hərbi yürüşlər;

3.1873-cü il Xivə xanlığına qarşı hərbi yürüşlər;

1864-cü ildə rus qoşunları öz hücumlarını şərqdə Vernıdan və şimalda Perovskdan başlayaraq Kokand xanlığının

sərhədlərinə daxil oldular. Kokandlıların ağalıq etdikləri Əliyyi-Ata, Türküstan və Çimkənd şəhərləri 1864-cü ildə rus qoşunları tərəfindən tutuldu.Orta Asiyanın ən böyük şəhəri, nəinki təkcə Kokand xanlığının, həm də bütün Orta Asiyanın mühüm iqtisadi mərkəzi olan Daşkənd 1865-ci ilin yayında general Çernyayevin qoşunlarına təslim oldu. Kokand xanının qüvvələri tezliklə tam məğlubiyyətə uğradı.

Buxara əmiri Kokand xanının məğlubiyyətini gördükdə, Kokand xanlığını işğal etmək üçün əlverişli məqam olduğu qərarına gəldi. Buxara əmirinin Kokand xanlığına müdaxilə etməsi, Buxara xanlığına qarşı hərbi əməliyyata başlamaq üçün çar generallarına bəhanə oldu. 1866-cı ilin yazında Buxara xanlı-ğının qoşunları Xocənt şəhəri ətrafında ağır məğlubiyyətə uğradı. Rus qoşunları Xocənti, Cizəki, Ura-Tyubəni tutdular. Rus qoşunları tərəfindən tutulmuş yerlərdə 1867-ci ildə Türküstan general qubernatorluğu yaradıldı. General-qubernatorluğun mərkəzi Daşkənd şəhəri idi. General K.Kaufman Türküstanın ilk general-qubernatoru təyin edildi. General-qubernatora Orta Asiya xanlıqları ilə müstəqil hərbi əməliyyat və diplomatik danışıqlar aparmaq səlahiyyəti verilmişdi. Cizəkin alınması Zərəfşan vadisinə-Buxara xanlığının mərkəz şəhərləri Səmərqəndə və Buxaraya yol açdı. Orta Asiyanın qədim şəhərlərindən biri olan Səmərqənd 1868-ci il mayın 2-də təslim oldu. Rus qoşunlarına qarşı hücuma keçən Buxara xanlığının hərbi qüvvələri Buxara yolunu qoruyan Zərbulaq yüksəkliklərində yeni məğlubiyyətə uğradılar. 1864-1868-ci illərdə rus qoşunlarının hərbi əməliyyatları zamanı Kokand və Buxara xanlıqları məğlub oldular. 1868-ci ilin yanvarında Rusiya ilə Kokand arasında, həmin ilin iyun ayında isə Buxara ilə sülh müqaviləsi imzalandı. Sülh müqavilələrinin şərtlərinə əsasən Kokand xanı Xudayar və Buxara əmiri Müzəffərəddin Rusiyanın vassallığını qəbul edir, işğal edilmiş yerlərin Rusiyaya çatmasını qəbul edir və hər iki xanlığın ərazisində Rusiya təbəələrinin azad ticarət etmək hüququnu tanıyırdılar. Buxara əmiri Rusiyaya 500 min

manat təzminat verməyi öhdəsinə götürdü. 1873-cü ildə general Kaufmanın komandanlığı altında rus qoşunları Xivə xanlığının ərazisinə daxil oldu. Xivə şəhəri 1873-cu il mayın 29-da təslim oldu. 1873-cü ilin avqustunda tərəflər arasında sülh müqaviləsi bağlandı. Xivə xanlığı Amudəryanın sağ sahilindəki yerləri Rusiyaya verdi, Rusiyanın vassalı olmağı qəbul etdi. Rusiya tacirləri gömrük vergisindən tamamilə azad edilirdi. Xivə xanı 2,2 milyon manat məbləğində təzminat verməyi öhdəsinə götürdü.

Beləliklə, Rusiya on il ərzində Orta Asiya xanlıqlarının müqavimətini qırdı, əraziləri və hüquqları xeyli məhdudlaşdırılan Kokand və Xivə xanları və Buxara əmiri Rusiya imperiyasının vassalları oldular. Əslində isə bu xanlıqlarda ixtiyar Rusiya hökumət orqanlarının əlində idi. 1873-cü ildə Xudayar xana qarşı üsyan baş verdi. Üsyana xanlarla düşmənçiliyi olan ayrı-ayrı iri feodallar, müsəlman ruhaniləri də qoşulmuşdular. Düşmənə qarşı "müqəddəs müharibə" kimi dini şüar da ortalığa atılmışdı. Çünki üsyançılara milli və dini şüarlar təlgin olunduqda onlar düşmənə qarşı daha amansız olurdular. Daha geniş yayılmaq qorxusu olan antifeodal üsyanın vüsətindən qorxan Rusiya hökuməti üsyanı yatırmaq üçün bölgəyə xeyli hərbi qüvvə göndərdi. Üsyançılar rus qoşunlarına qarşı mübarizəyə qalxdılar, beləliklə də antifeodal üsyanı milli-azadlıq xarakteri alaraq müstəmləkəçilik əleyhinə yönəldildi. Xalq içərisində şöhrət qazanmış Pulat xan xalq kütlələrinin başçısı oldu. Xalqın şikayətlərini Pulat xan özü dinlə-yir və xalq üçün xüsusilə ağır olan vergiləri tamamilə ləğv edirdi. Pulat xan 1875-ci ilin oktyabrında Əndican yaxınlığında məğlub edildi. Kortəbii xarakter daşıyan bu üsyanların təşkilati cəhətdən zəif idarə edilməsi, üsyançıların pis silahlanması, vahid rəhbərliyin olmaması məğlubiyyətə gətirib çıxarmışdı. Orta Asiyada ruslar belə uzunmüddətli və qətiyyətli mübarizə ilə rastlaşmamışdılar. Xalq üsyanı yatırıldıqdan sonra, 1876-cı il fevralın 19-da Kokand xanlığı ləğv edilmiş və bu vaxtadək Kokand xanının ha-

kimiyyəti altında qalan yerlər Fərqanə vilayəti adı altında Rusiyanın tərkibinə daxil oldu.

Hələ ruslar tərəfindən Xivə yürüşünün hazırlanması ilə əlaqədar olaraq, Xəzər dənizinin şərq sahilində 1869-cu ildə Krasnovodsk şəhərinin təməli qoyulmuşdur. Xivə xanlığı tabe edildikdən sonra türkmənlərin yaşadığı ərazilərə Rusiya təsirinin yayılması üçün əsas baza Krasnovodsk oldu. Krasnovodskdan şərqə doğru Orta Asiyada ilk dəmiryolu çəkilməyə başladı. Dəmiryolu çəkənlər rus qoşunlarının arxasınca gedirdilər. Ruslara qarşı türkmən tayfaları güclü müqavimət göstərirdilər. Axal-Təkin vahəsi və Göytəpə qalası uğrunda mübarizə 1877-ci ildən 1881-ci ilə qədər davam etdi. 1881-ci ilin yanvarında Göytəpə qalası və Aşqabad,1884-cü ildə isə Mərv şəhəri rus qoşunları tərəfindən işğal olundu. Türkmənistanın bütün ərazisi XIX əsrin 80-ci illərinin ortalarında Rusiyanın tərkibinə daxil edildi. 1895-ci ildə Pamirin alınması ilə Orta Asiyanın Rusiyaya birləşdirilməsi başa çatmış oldu.

Beləliklə,kiçik bir tarixi dövr ərzində Rusiyanın Orta Asiya ilə bağlı planları tam həyata keçdi. Orta Asiyanın sosial-iqtisadi və siyasi geriliyi və xanlıqların hərbi qüvvələrinin zəifliyi bu bölgənin Rusiya tərəfindən işğalını asanlaşdırdı. Çarizmin işğalına qarşı hər şeydən əvvəl feodal-əyanlar və müsəlman ruhaniləri fəal çıxış edirdilər. Ən böyük çıxışlar 1885-ci il Fərqanə və 1898-ci il Əndican üsyanı olmuşdur. Lakin bu üsyanlar rus hərbi qüvvələri tərəfindən amansızlıqla yatırılmışdır. Öz nüfuzlarını, torpaq mülklərini və gəlirlərini itirməkdən qorxan hakim təbəqə və müsəlman ruhaniləri fəal müqavimət göstərsə-lər də xanlıqları məğlubiyyətdən qurtara bilmədilər. Orta Asiyada yürüdülən milli-müstəmləkəçilik siyasəti Rusiyanın hakim dairələrinin xətti idi. Bu siyasət Orta Asiya xalqlarına yeni ağır iqtisadi və milli zülm gətirdi. Çar Rusiyasının ağır müstəmləkəçi siyasətinə baxmayaraq, Orta Asiyanın  Rusiyaya qatılması onların təsərrüfatlarının Rusiyanın iqtisadi həyatı və dünya əmtəə dövriyyəsinə cəlb edil-

məsində müəyyən rol oynamışdır. Bu da nəticə etibarı ilə regionda iqtisadi və sosial dəyişikliklərə səbəb olmuşdur. Əmtəə-pul münasibətlərinin və bazar üçün məhsul istehsalının inkişafı muzdlu əməkdən istifadəyə gətirib çı-xartmışdı. Yerli burjuaziya və fəhlə sinfinin təşəkkülü prosesi başlanmışdı. Rusiyadan gələn elmi ekspedisiyalar tərəfindən Orta Asiyanın tədqiq edilməsinə başlanıldı. Elm, maarif və səhiyyənin inkişafına bir qədər diqqət artırıldı. Rus alimləri Orta Asiyanın maddi ehtiyatları, tarix və mədəniyyətinin öyrənilməsinə başladılar. Bütün bunlarla yanaşı Orta Asiya xalqlarının siyasi müstəqilliyinə son qoyuldu.

## 4. Orta Asiyada çar Rusiyasının siyasəti. Hərbi-inzibati idarəetmə

Orta Asiyanın Rusiyaya birləşdirilməsi Orta Asiya xalqlarının bütün ictimai-siyasi, iqtisadi və mədəni həyatında dəyişikliklərə səbəb oldu. Çar Rusiyası Orta Asiyanı öz müstəmləkəsi hesab edirdi. Çar generalları və məmurları Orta Asiya ərazisində yeni inzibati-siyasi bölgü, yeni hərbi-inzibati idarə qaydaları tədbiq etdilər. 1867-ci ildə yaradılmış Türküstan general-qubernatorluğunda tədricən Sırdərya, Mavərənnəhr, Fərqanə, Səmərqənd, Zakaspi vilayətləri yarandı. 1867-ci il "Əsasnamə"sinə görə Türküstan vilayətlərə, qəzalara və nahiyələrə bölünürdü. İnzibati bölgü tayfa bölgüsü nəzərə alınmadan ərazi prinsipi üzrə aparılırdı. Bu da tayfaları zəiflətməyə yönəldilmişdi. XIX əsrin 50-ci illərinin ortaları və 60-cı illərinin əvvələrində Rusiya təbəəliyini qəbul etmiş İssıkkul, Çu, Tyanşan dağının ətəklərində yaşayan qırğızlar Qərbi Sibir general-qubernatorluğunun Semipalatinsk vilayətinin Altay mahalına daxil edilmişdi.

Qazaxıstanın böyük hissəsi 1882-ci ilədək Orenburq general-qubernatorluğunun Ural və Turqay vilayətlərinə, Qərbi Sibir general-qubernatorluğunun Akmolinsk və Semipalatinsk

vilayətlərinə daxil idi. 1882-ci ildən isə bütün bu vilayətlər yeni təşkil edilmiş Step general-qubernatorluğunun tərkibinə daxil edildi. Torpaqları xeyli azaldılan və Rusiya asılılığını qəbul edən Buxara və Xivə xanlıqları çar hökuməti orqanlarının nəzarəti altında olan xan və əmir tərəfindən əvvəlki kimi idarə olunurdu. Rusiyaya birləşdirildikdən sonra da Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistan əraziləri müxtəlif inzibati-siyasi vahidlər arasında parçalanmış olaraq qaldılar. Lakin indi bu yerləri yerli feodallar deyil, çar məmurları istədikləri kimi bölmüşdülər.

1867-ci il "Əsasnamə"si general-qubernatora böyük səlahiyyətlər vermişdi. Bu səlahiyyətlərə qonşu ölkələrlə diplomatik əlaqələr qurmaq, əhalidən alınan verginin miqdarını müəyyən etmək, rus vətəndaşlığının verilməsi, büdcə üzrə vəsaitin xərclənməsi, yerli əhalidən olan şəxslər üçün ölüm cəzası haqqında hökmün təsdiqi və əfv olunması daxil idi.

Qazaxıstanın çox hissəsinin idarə olunması haqqında 1868-ci il və 1891- ci ildə nəşr edilmiş "Əsasnamələr" qazax xalqının həyat və məişətində dəyişiklik etdi. "Əsasnamələr"ə görə, sultanlar və nəsli zadəganların nümayəndələri qazaxların idarə olunmasında intiyazlarını və rəhbər mövqelərini itirdilər. Vilayətlər qəzalara, qəzalar isə volost və aullara bölündü. Hər bir volostda, təxminən 2 minədək ev,aulda isə 120-200 ev var idi. Bu cür inzibati bölgü köhnə qəbilə-tayfa birləşmələrinin dağılmasına səbəb olurdu. Vilayət və qəzalarda hökumət idarələrinə və məhkəmələrə rus məmurları başçılıq edirdilər. Volost və aula başçılar yerli qazaxların içərisindən seçilirdi. 1868-ci il "Əsasnamə"si bütün qazax torpaqlarını dövlət mülkiyyəti elan edir və bununla da qazax torpaqlarının müstəmləkəyə çevrilməsi üçün hüquqi əsas yaradırdı. Orta Asiya torpaqlarında hərbi rejim tətbiq edildi. Bütün hərbi hakimiyyət tamamilə Türküstan general-qubernatorununun əlində idi. Vilayətləri isə hərbi qubernatorlar idarə edirdilər. Orta Asiyada bərqərar olmuş hərbi-məmur idarə üsulu uzun müddət davam etdi. Həmin

idarə üsuluna arxalanaraq çar Rusiyası tabe edilmiş xalqları ağır zülm altında saxlayırdı. Vilayətlərin hərbi qubernatorları vəzifəsini daşıyan çar generallarının yerli əhali üzərində qeyri-məhdud hakimiyyəti var idi. Belə idarəçiliyin bütün ağırlığı xalq kütlələrinin üzərinə düşürdü. Yerli bəy və xanlar rus hökuməti tərəfindən müdafiə olunurdu, çünki onlar mərkəzi hakimiyyətin yerlərdə siyasi dayağını təşkil edirdilər. Çar məmurları və zabitləri yeni ölkədə kobud şəkildə ağalıq edir, xəzinəni talan edir və yerli əhalidən zorla rüşvət alırdılar.

1891-ci il "Əsasnamə"sində torpaqdan istifadə və vergi qaydaları müəyyənləşdirilmişdi. "Əsasnamə"də köçəri tayfaların istifadəsində olan" artıq torpaqlar" əllərindən alınırdı. Bu "Əsasnamə"nin qəbulundan sonra Yeddisu vilayətində qazaxların istifadəsində olan 838 min desyatin və Sırdərya vilayətində 159 min desyatin torpaq sahəsi müsadirə edilmişdi. Eyni zamanda torpaqların icarəyə verilməsinə məhdudiyyət qoyulmurdu.

Çar hökuməti feodal zadəganların torpaq hüquqlarının bir qədər məhdudlaşdırılması siyasətini yeritməyə başladı. Bu siyasət ölkənin idarə edilməsi haqqında 1886-cı il "Əsasnamə"sində təsbit edildi. Feodallar tərəfindən icarəyə verilən torpaqlar nəsli mülkiyyət hüququ əsasında bu torpaqları becərən kəndlilərin əlinə keçdi. Bu proses nəticəsində, yoxsulların torpaq sahələrini satın alan qolçomaqların torpaq mülkləri artdı. Lakin bu proses feodal münasibətlərini tamamilə aradan qaldırmadı.Qolçomaqlar kəndliləri feodal üsulları ilə istismar edirdilər. 1886-cı il "Əsasnamə"si Rusiyanın tərkibinə daxil edilmiş olan Orta Asiya ərazisində əvvəlki torpaq vergilərini dövlət tərəfindən alınan torpaq vergisi ilə əvəz etdi. Yerli hökumət orqanları tərəfindən alınan vergilər və müxtəlif ağır rüsumlar xalq kütlələrinin vəziyyətini daha da ağırlaşdırırdı. Torpaq münasibətlərində, vergi sistemində baş verən bu dəyişikliklər Buxara və Xivə xanlıqlarına şamil edilmədi. 1886-cı il

"Əsasnamə"si işğal olunmuş ərazilərin Rusiyaya daha möhkəm bağlanılması məqsədi daşıyırdı.

Çar Rusiyasının Orta Asiyadakı siyasəti xalq kütlələrinin qanuni narazılığına səbəb olur və bəzi hallarda bu narazılıqlar üsyanlara gətirib çıxarırdı. Bu üsyanlara yerli feodallar və müsəlman ruhaniləri başçılıq edirdilər ki, onlar da bu çıxışlardan öz məqsədləri üçün istifadə edirdilər. Yerli feodalların bu üsyanlara qoşulmasından istifadə edən hökumət orqanları onları ələ almaq yolu ilə bu çıxışları asanlıqla yatırırdılar.

Çar Rusiyası mərkəzi quberniyalardan kəndliləri Türküstana köçürməklə Orta Asiyada ruslardan ibarət özünə sosial dayaq yaratmaq istəyirdi. Orta Asiyaya köçürülən kəndlilərə xüsusi imtiyazlar da verilirdi. Belə ki, hər bir kişiyə 30 desyatin torpaq sahəsi ayrılması nəzərdə tutulurdu. Gəlmələr bütün vergi mükəlləfiyyətlərdən azad edilmişdilər. Hətta onlara hərbi mükəlləfiyyətdən də möhlət verilirdi. Bu siyasət nəticəsində yerli əhali öz doğma yurdlarından köçürülür və onlar müəyyən çətinliklərlə üzləşirdilər. Məskunlaşma nəticəsində əvvəllər yal-nız köçəri maldarlıq üçün istifadə edilən yerlərdə əkinçilik inkişaf etməyə başlayırdı. Qazaxıstanın daha münbit torpağı olan şimal və qismən də cənub-şərq hissəsində əkinçilik inkişaf edirdi. Çar hökuməti köçürmə siyasətini həyata keçirmək üçün Orta Asiyanın yerli əhalisindən xeyli torpaq sahəsi müsadirə etmişdi. Əslində çar Rusiyasının torpaq siyasəti Orta Asiyanın bütünlüklə Rusiyanın müstəmləkəsinə çevrilməsi, bölgədə gəlmələrin yerləşdirilməsi, ruslaşdırma siyasətinin aparılması məqsədi ilə həyata keçirilirdi. Çar Rusiyasının köçürmə siyasəti həm də hərbi-strateji və siyasi xarakter daşıyırdı.

Orta Asiyada əvvəllər hərbi-strateji məqsədlər üçün çəkilən dəmir yolları indi ölkənin iqtisadi inkişafında da böyük rol oynayırdı. Zakaspi dəmiryolu 1885-ci ildə Aşqabad, 1888-ci ildə Səmərqənd, 1898-ci ildə Daşkənd və 1899-cu ildə isə Əndicana çatdırıldı. 1899-cu ildə inşasına başlanan Orenburq-

Daşkənd dəmiryol xətti 1906-cı ildən istifadəyə verilmişdi. Rusiyanın kapitalist təsərrüfatının tələbatı elmin və ictimaiyyətin diqqətini Orta Asiyanın təbii sərvətlərinin öyrənilməsinə və ondan istifadə edilməsinə cəlb edirdi. Xəzər dənizinin Türkmənistan sahillərində və Fərqanədə neft çıxarılması işlərinə başlanılmışdı. Orta Asiyada pambıqçılığın inkişafı, xüsusilə böyük əhəmiyyət kəsb edirdi. Pambıqçılığın inkişafı daxili Rusiya bazarının artan tələbatı ilə bağlı idi. Orta Asiya Rusiyanın əsas pambıq bazasına çevrilməyə başladı. Türküstanın sənayesində iş şəraiti olduqca ağır, əməyin mühafizəsi isə lazimi səviyyədə təşkil olunmurdu. Yerli millətlərdən olan fəhlələrin vəziyyəti dözülməz idi. Məhz bu səbəbdən də zavod fəhlələrinin iqtisadi xarakter daşıyan tətilləri baş verirdi.

# XIX ƏSRDƏ VOLQABOYU, SİBİR VƏ KRIM

## 1.Volqaboyu, Sibir və Krım XIX əsrin birinci yarısında

XVI əsrin ikinci yarısından başlayaraq - XVI əsrin sonlarına qədər Rusiya Volqaboyu və Sibirin işğalını başa çatdırdı. Volqaboyu və Sibir torpaqlarının ruslar tərəfindən mənimsənilməsi prosesi başlandı. Volqaboyu və Sibirdə yeni şəhərlər meydana gəldi. Rusiya feodalları Volqaboyunda torpaqları ələ keçirir və kəndliləri əsarət altına alırdılar. Əhalinin zorla xristianlaşdırılması başlandı, milli zülm və xalqlar arasında milli və dini düşmənçiliyi qızışdırmaq siyasəti yeridilirdi.

Rusiyanın Sibir xalqları ilə əlaqələri genişləndi. Rus feodallarının yeni ərazilər ələ keçirməkdə və bu ərazilərdən gəlir götürməkdə marağı vardı. Xaricdə xəzə tələbat artdı ki, bu tələbatı da yalnız Sibir xəzi ödəyə bilərdi. Volqaboyu və Sibirin işğal olunmasının hərbi-strateji əhəmiyyəti də var idi. Bu yerlərin işğal edilməsi ilə Orta Asiyanın içərilərinə doğru yollar açıldı. Rus feodalları və tacirləri Sibirin yerli əhalisini əsarət altına almağa  və qarət etməyə başladılar. Rusiyadan köçüb gələnlər Sibir torpaqlarını istifadəyə verir, əkinçiliklə məşğul olurdular.

1774-cü il Kiçik Qaynarca sülhü ilə Rusiya Krım və Kuban tatarlarının Osmanlı dövlətinin asılılığından çıxmasına nail oldu. Krımda Kerç və Yeniqala Rusiyaya verilirdi. 1783-cü ildə axırıncı Krım xanı Şahin Gəray hakimiyyətdən əl çəkdi, Krım və Kuban torpaqları Rusiyaya birləşdirildi. Krım xanlığı Tavriya vilayəti adlandırıldı. 1802-ci ildən isə Tavriya vilayəti quberniya adlandırılmışdır. Rusiyadan bura köçürülənlər yerli əhalinin torpağı hesabına məskunlaşdırılır və onlara xüsusi imtiyazlar verilirdi. Bununla əlaqədar olaraq köçüb gələnlərin sayı artmağa başlamışdı. XIX əsrin birinci yarısında Rusiya iqtisadiyyatında böyük dəyişikliklər baş verdi. Rusiya iqtisa-

diyyatı üçün kənd təsərrüfatı mühüm rol oynayırdı. Rusiyada bütün təbəqələrə torpağı azad surətdə alıb satmaq olmazdı. Buna görə də kapitalist kənd təsərrüfatı sahibkarlığını inkişaf etdirməyin mümkünlüyü son dərəcə məhdudlaşmışdı. Mülkədarların əksəriyyəti torpaq üzərindəki inhisarçı hüququndan istifadə edərək, kəndlilərin pay torpaqlarını azaltmaq və biyarı genişləndirməklə öz təsərrüfatlarını təhkimçilik zəminində davam etdirirdilər. Nəticədə kəndli təsərrüfatı zəifləyirdi. Bunun nəticəsində ölkənin əhalisinin artdığı və ayrı-ayrı təsərrüfat sahələrinin qeyri-bərabər inkişaf etdiyi bir şəraitdə kənd təsərrüfatında böhran vəziyyəti güclənirdi.

XIX əsrin birinci yarısında türk xalqlarının məskunlaşdığı ərazilərdə sosial-iqtisadi inkişaf eyni səviyyədə olmamışdı. Volqaboyunun kənd təsərrüfatında zəif olsa da inkişaf var idi. Volqaboyunun kənd təsərrüfatı zəif inkişaf etsə də kənddə ictimai təbəqələşmə getdikcə artırdı. Yoxsul kəndlilərin vəziyyəti ağırlaşır, dövlət kəndlilərinə verilən torpaqlar hər il azalırdı. Bölgəyə rus kəndlilərinin köçürülməsi müstəmləkəçilik siyasətini gücləndirirdi. XIX əsrin 40-cı illərində Volqaboyunda dövlət kəndliləri arasında "kartof qiyamları" adlandırılan geniş hərəkat başlandı. Bu hərəkat dövlət torpaqlarında kəndlilərin kartof əkməyə məcbur edilməsinə qarşı yönəlmişdi. "Kiselyov islahatı"na görə dövlət kəndliləri üçün tətbiq edilən qaydalar kəndliləri əsarət altına almağın yeni forması idi. Yeni təşkil olunan dövlət mülkləri nazirliyinin başçısı təyin edilmiş P.Kiselyov islahatın təşəbbüsçüsü və fəal tərəfdarı idi. Bütün dövlət kəndliləri bu nazirliyin sərəncamına verilirdi. İslahatın məqsədi dövlət gəlirlərini artırmaqdan və mülkədarlara kəndliləri necə idarə etmək lazım olduğunu göstərməkdən ibarət idi. İslahata əsasən dövlət kəndliləri üçün yerli idarəetmə orqanları yaradıldı. Bu tədbirlər mövcud sistemi qoruyub saxlamaq və möhkəmləndirmək, feodal iqtisadiyyatının böhranını zəiflətmək məqsədilə görülürdü. "Kiselyov islahatı" kənd icmalarının işlərinə qarışmağa imkan yaratmış, vergiləri artırmışdı. Kəndli-

lərin hərəkatı elə güclü idi ki, hərbi dairələr bir sıra yerlərdə çox çətinliklə sakitlik yarada bildilər.

Sibir kəndliləri əkinçilik, maldarlıq və balıqçılıqla məşğul olurdular. Əvvəllər olduğu kimi, XIX əsrin birinci yarısında da Sibirə Rusiyanın mərkəzi quberniyalarından əhalinin köçürülməsi davam etmişdi. Köçürülənlərin çox hissəsi Sibirin kənd təsərrüfatına yararlı torpaqlarında məskunlaşırdılar. Bu isə Sibir xalqlarının əkinçiliyi öyrənib oturaq həyat tərzinə keçməsinə şərait yaradırdı. Sibirdə kənd icmaları feodal asılılığı şəraitində fəaliyyət göstərirdi. Mülkədar torpaq sahibliyinin olmaması, boş torpaqların mövcudluğu və torpaqların zəbt edilməsi kəndlilərin ictimai təbəqələşməsinə səbəb olurdu. XIX əsrin birinci yarısında əkinçiliyin qeyri-bərabər inkişaf etməsinə baxmayaraq, kənd təsərrüfatı məhsullarının istehsalında artım özünü göstərirdi. Sibirə köçüb gələnlərin əkin sahələrini genişləndirməsi kənd təsərrüfatı məhsullarının artımına səbəb olmuşdu.

Krımın kənd təsərrüfatında maldarlıq, əkinçilik, bağçılıq əsas yer tuturdu. Kənd əhalisinin xeyli hissəsinin pay torpaqları olmadığına görə torpağı icarəyə götürürdülər. Əsasən yerli kəndlilərin vəziyyəti ağırlaşmışdı. Belə ki, köçüb gələnlərə yerli əhalinin hesabına torpaqlar verilmiş, bir hissəsi də satın almaq yolu ilə torpaq əldə etmişdilər. Kənd təsərrüfatında muzdlu əməkdən geniş istifadə olunmağa başlanmışdı. Bu da kənddə əmtəə-pul münasibətlərinin inkişafını sürətləndirirdi. Əmtəə-pul münasibətləri inkişaf etdikcə mülkədar təsərrüfatları bazar əlaqələrinə cəlb olunurdu. Onlardan bəziləri kapitalist sahibkarlığı yolu ilə getməyə çalışırdı, lakin mülkədarların əksəriyyəti torpaq üzərindəki inhisarçı hüququndan istifadə edərək öz təsərrüfatlarını təhkimçilik zəminində genişləndirirdilər. Nəticədə kəndli təsərrüfatı zəifləyir, bununla da istehsalçının xüsusi təsərrüfatının olması sarsılırdı. Bu isə iri mülkədar torpaq sahibliyinin meydana çıxmasına səbəb olurdu.

Rusiyada metal emal edən köhnə rayonları arxada qoymuş Ural sənayesi XIX əsrin birinci yarısında xeyli inkişaf etmişdi. Uralda zavodların yaradılması xüsusi sahibkarlığın nəticəsi idi və daxili bazarda dəmirə, misə tələbatın artmasından, xarici ticarətin inkişafından irəli gəlirdi. Bu zavodlarda muzdlu fəhlələrin və təhkim edilmiş kəndlilərin əməyindən istifadə edilirdi. Sonradan muzdlu fəhlələrin xeyli hissəsi "daimi təhkim edilmişlərə" çevrilir və əslində zavod sahiblərindən təhkimçi asılılığı vəziyyətinə düşürdülər. Volqaboyunun mədən-zavod müəssisələrində işin böyük hissəsi muzdlu fəhlələr tərəfindən görülürdü. Muzdlu fəhlələrin böyük əksəriyyətindən kapitalist sənayesinin inkişaf etdiyi, kəndlilərin təbəqələşməsi prosesinin getdiyi yerlərdə istifadə olunurdu. Şəhərlərdə və sənaye rayonlarında çoxlu muzdlu fəhlə cəmləşirdi. Su nəqliyyatında, gəmiqayırmada və yükvurma-yükboşaltma işlərində muzdlu əmək böyük əhəmiyyət kəsb edirdi. Volqa su yolunda fasiləsiz olaraq çoxlu gəmi hərəkət edirdi. Bunlar ən müxtəlif tipli və su basımlı çay gəmiləri idi. Bu gəmilər taxıl, mal-qara, duz, dəmir və başqa sənaye malları daşıyırdılar. Volqa-boyunda yerləşən şəhərlər Orta Asiya və Cənubi Qafqazla ticarət əlaqələrini genişləndirirdilər. Daxili bazarın və xarici ticarət əlaqələrinin genişlənməsi iqtisadi inkişafın nəticəsi idi. Sənayenin və ticarətin inkişafı feodal cəmiyyəti sistemində burjuaziyanın yaranmasına gətirib çıxartdı. Kapitalizmin təşəkkülü prosesində sənaye aparıcı rol oynayırdı və sənaye təhkimçiliyin ləğv olunmasını daha təkidlə tələb edirdi.

Zəngin təbii sərvətlərə malik olan Sibirdə əsas sahə dağ-mədən sənayesi idi. Lakin dağ-mədən sənayesində texniki gerilik özünü göstərirdi. Sibirdə torpaq yolların şəbəkəsi böyüyürdü və son dərəcə uzun olan böyük Sibir yolu Sibiri Avropa Rusiyası ilə birləşdirirdi. Yenisey və Lena kimi suyu çox olan Sibir çaylarından yük daşımaları üçün istifadə edilirdi. Sibir Rusiyanın xarici ticarətində mühüm rol oynayırdı. Rusiya Sibir vasitəsilə Orta Asiya, Çin və Monqolustan ilə ticarət edirdi.

Rusiyadan bu yerlərə toxuculuq məhsulları, dəmir, mis, metal məmulatları ixrac olunur, çay, ipək, pambıq parçalar, çini məmulatı idxal edilirdi.

Krım Rusiyaya ilhaq edildikdən sonra Rusiya Qara dəniz sahillərindəki torpaqlarını xeyli genişləndirdi. Həmin vaxtdan etibarən Rusiyanın Qara dəniz ticarəti başlandı. Rusiya hökuməti Qara dəniz sahillərində bir sıra ticarət limanlarının açıldığını elan etdi. 1794-cü ildə isə Odessa açıq liman elan olundu. Qara dəniz limanlarında gömrük rüsumları aşağı salındı. XIX əsrin əvvəllərindən Krımda yeni şəhərlər salınır, əhali artır və ticarət genişlənirdi. Sevastopol, Simferopol və Kerç kimi şəhərlər getdikcə böyüyürdü. Krımda kərpic, duz emalı və şərabçılıq zavodları fəaliyyət göstərirdi. Sürətlə məskunlaşan Qara dəniz sahilləri, Kuban və Krım Ümumrusiya bazarına daxil olurdu.

Çoxmillətli Rusiya xalqları çar mütləqiyyətinin zülmünü öz üzərlərində daha çox hiss edirdilər. Çar hökuməti milli ucqarlarda birinci növbədə hələ keçmiş vaxtlardan saxlanılmış olan müstəqil idarələri ləğv edir, sonra da bununla kifayətlənməyərək, qəti surətdə ruslaşdırma siyasəti yeridirdi. Tatarların, başqırdların, çuvaşların və başqa xalqların ruslaşdırılması gücləndirildi. Milli zülm mədəniyyət sahəsində və ictimai həyatın başqa sahələrində, həmçinin dini sahədə özünü göstərirdi.

## 2. XIX əsrin 60-70-ci illərinin burjua islahatları

Çar Rusiyasının ağır məğlubiyyəti ilə qurtaran Krım müharibəsi ölkədə ictimai-iqtisadi böhranın inkişafını sürətləndirdi. Bu müharibə təhkimçilik Rusiyasının çürüklüyünü və gücsüzlüyünü göstərdi. Kapitalist dövlətləri ilə toqquşmada Rusiyanın hərbi və iqtisadi cəhətdən geriliyi açıq surətdə özünü göstərdi. Müharibə və onun iqtisadi təsiri nəticəsində kəndlilərin vəziyyətinin pisləşməsi onların zadəgan-mülkədarlara qarşı mübarizəsini gücləndirdi. Kəndlilər təhkimçilik zülmünə qarşı

daha fəal çıxış etməyə başladılar. Rusiyanın mərkəzi rayonları ilə yanaşı Volqaboyu və Krımda da kəndli çıxışları baş verirdi. Mülkədarlara qarşı kəndli çıxışlarının sayı ilbəil artırdı. Rusiya imperiyasının ucqarlarında kəndli hərəkatı ilə birlikdə milli zülmə qarşı xalqların mübarizəsi də davam edirdi. Kəndlilər yalnız mülkədar hakimiyyətindən şəxsən azad olmaq uğrunda deyil, eyni zamanda torpaq uğrunda da mübarizə aparırdılar. Xalqın etirazı özünü ən müxtəlif formalarda göstərirdi. Kəndlilər töycü verməkdən və biyara getməkdən imtina edir, mülkədarları və onların təsərrüfatlarını idarə edənləri öldürür, sahibkarların yanından qaçırdılar. Kəndlilərin kütləvi qaçma halları artırdı ki, bu da sinfi mübarizənin yayılmış formalarından biri idi.

1859-cu ilin birinci yarısında şərab iltizamı sisteminə qarşı yönəlmiş hərəkat özünün vüsətinə və kütləviliyinə görə daha qorxulu idi. Bu hərəkat Rusiyanın mərkəzi rayonları ilə yanaşı Volqaboyu, Krım və Uralboyunu da əhatə etmişdi. Şərab iltizamı sisteminə qarşı çevrilmiş hərəkat hökm sürməkdə olan təhkimçilik zülmünün bütün sisteminə qarşı yığılıb toplanmış nifrətin kütləvi ifadəsi idi. Baş vermiş hərəkat kəndli kütlələrinin böyük potensial qüvvəyə malik olduğunu sübut edir, inqilabi şəraitin yarandığını göstərirdi. Volqaboyunda kənd təsərrüfatı böhran keçirirdi. Kəndlilərin ictimai təbəqələşmə prosesinin güclənməsinə baxmayaraq, feodal-təhkimçilik qaydaları əvvəlki kimi davam edirdi. Mülkədar və kəndli torpaqlarında kənd təsərrüfatı işləri köhnə qayda ilə aparılırdı. Mülkədarlar kəndlilərin istismarını gücləndirirdilər və təhkimli kəndlilərin əksəriyyətini biyar təsərrüfatına keçirirdilər. XIX əsrin ikinci yarısında yeni dəmir yollarının tikintisində əsasən mülkədar kəndliləri içərisindən çıxmış çoxlu fəhlə cəmləşmişdi. Onlar amansız istismar edilir, qeyri-insani şəraitdə işləyirdilər. Volqa-Don yolunun tikintisində bir il ərzində 2000 fəhlədən 500-ü ölmüşdü. Kəndlilər bu zülmə kütləvi halda qaçmaqla, işdən imtina etməklə və sahibkarlara qarşı çıxışlarla

cavab verirdilər. Kəndlilərin mübarizəsi ilə fabriklərdəki fəhlələrin mübarizəsi qovuşurdu. Aşağı əmək haqqı, ağır rejim, sahibkar və zavod müdiriyyəti tərəfindən edilən zorakılıq və özbaşınalıq fəhlələri mülkədar kəndlilərinin vəziyyətindən heç də yaxşı olmayan bir vəziyyətə salırdı. Fəhlələr özlərinin iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq uğrunda mübarizə apararaq əslində təhkimçiliyə qarşı da çıxırdılar, çünki onlardan çoxu hələlik mülkədarlardan asılı idi.

Rusiyanın mərkəzi rayonlarında olduğu kimi Krımın kənd təsərrüfatında da kapitalist münasibətləri inkişaf edirdi. Krım müharibəsi regionun təsərrüfat həyatına böyük zərbə vurmuşdu. Krımda sosial-iqtisadi vəziyyət ağırlaşmışdı. Müharibə ilə bağlı əhalinin müəyyən hissəsi yaşayış yerlərini tərk etmişdi ki, bu da əkin sahələrinin becərilməməsinə səbəb olurdu. Eyni zamanda təkimçilik istehsal münasibətləri də məsuldar qüvvələrin inkişafına mane olurdu. Krımda kapitalizmin təşəkkülü prosesində sənaye aparıcı rol oynayırdı. Krımda sənayenin inkişafı sahəsində inkişaf var idi. Sənaye məhsullarının həcmi ildənilə artırdı, həm də artım sürəti mexanikləşdirilmiş istehsal sahələrində daha çox idi.

Sibirdə natural təsərrüfat və feodal-patriarxal münasibətlər qalmaqda idi. Kəndlilərin çoxu aztorpaqlı idi. Burada əkinçilik mədəniyyətinin aşağı olması, texnikanın geriliyi üstünlük təşkil edirdi. Sibir çar Rusiyasının geniş müstəmləkə istismarı obyekti idi. Çarizm ucqarların iqtisadi inkişafını məhdudlaşdıraraq, bu yerlərdən sənaye mallarının satış bazarı və xammal mənbəyi kimi istifadə etmək siyasəti yeridirdi. Feodalizm xüsusiyyətlərini xeyli dərəcədə qoruyub saxlamış bu rayonların iqtisadiyyatının çox geridə qalması özünü göstərirdi.

Rusiyada 1861-ci il fevralın 19-da "Təhkimçilik asılılığından çıxmış kəndlilər haqqında Əsasnamə" verildi. Hökumət islahat vasitəsilə ölkənin iqtisadiyyatını və siyasi quruluşu kapitalizm təməli üzərinə keçirirdi. Kəndlilərin şəxsən azad edilməsi məsələsi, azad edilmiş kəndlilərin pay torpaqları və

mükəlləfiyyətləri haqqında məsələ, pay torpaqlarının kəndlilər tərəfindən satın alınması məsələsi və kəndli idarəsi təşkili haqqında məsələ 1861-ci il 19 fevral qanunlarının əsasını təşkil edirdi.

Qanun elan edilən gündən təhkimli kəndlilərə şəxsi azadlıq verilirdi. Həmin gündən etibarən mülkədar artıq kəndli üzərində ağalıq edə bilməz və onun şəxsi həyatına müdaxilə edə bilməzdi. Bundan başqa kəndlilər öz xahişlərinə görə ictimai özünüidarə orqanlarında iştirak edə bilər, başqa silklərə keçə bilər, öz yaşayış yerlərindən gedə bilər, məktəblərə və qulluğa daxil ola bilərdilər.

1861-ci il kəndli islahatına görə kəndlilər torpaq alırdılar, lakin onu pulla, məhdudlaşdırılmış həcmdə və xüsusi şərtlərlə mülkədarlardan alırdılar. Mülkədarlar özlərinə məxsus olan bütün torpaq üzərində mülkiyyət hüququnu saxlayırdılar. Mülkədarların kəndlilərlə "könüllü" razılığı əsasında onlara verdiyi pay torpağının ölçüsü qanunla müəyyən edilmiş həcmdən artıq ola bilməzdi, bu həcm imperiyanın müxtəlif yerləri üçün 3 desyatindən 12 desyatinədək nəzərdə tutulurdu. Əgər kəndlinin istifadəsində qanunla müəyyən edilmiş həcmdən artıq torpaq olardısa mülkədarın bu artıq torpağı kəsib götürməyə ixtiyarı var idi. Kəndlinin torpağı müəyyən edilmiş həcmdən az olardısa onlara əlavə torpaq payı verilmirdi. Kəndlinin pay torpağı xalis əkin torpağı deyildi. 1861-ci il islahatına qədər orta kəndli pay torpağı 4,4 desyatinə bərabər idisə, islahatdan sonra azalıb 3,6 desyatinə endi. İslahat elan olunandan sonra ilk 9 il ərzində kəndlinin pay torpağından imtina etmək hüququ yox idi, deməli, kəndli bu müddət içərisində kənd cəmiyyətinin tərkibindən çıxa bilməzdi. Bu müddət qurtardıqdan sonra da kəndlinin cəmiyyətdən çıxması üçün çox məhdudiyyət vardı. Azad edilmiş kəndlinin pul və məhsul mükəlləfiyyətlərini müntəzəm yerinə yetirməsi üzərində ellik zəmanət qoyulmuşdu. Borclu olanlar kənd cəmiyyətinin qərarı ilə əlavə işlərə göndərilə bilərdilər.

Mülkədar və kəndlinin "könüllü" razılığı əsasında kəndlinin pay torpağını alması üçün hökumət "ödənc əməliyyatı" təşkil etdi. Ödənc əməliyyatı kəndliləri aldatmaq, onları mülkədarın xeyrinə soymaq idi. Torpaq üçün bazar qiyməti deyil, kəndlinin mülkədara verdiyi töycünün miqdarına görə hesablanan bir məbləğ vermək lazım gəlirdi. Bu məbləğ torpağın həqiqi dəyərindən xeyli artıq idi və kəndli onu verməklə yalnız torpağı deyil, özünün şəxsi azadlığını da almış olurdu. Kəndli əvvəlcədən mülkədara pay torpağının dəyərinin 20-25 faizini nəğd pulla verməli idi. Hökumət mülkədara ödənc pulunu birdəfəlik əldə etmək imkanı yaratmaq üçün qalan 75-80 faizi kəndlinin əvəzinə ona verirdi, kəndli isə həmin borcu 49 il müddətində ildə 6 faiz üstünə gəlmək şərti ilə dövlətə ödəməli idi. Ödəncə keçilməsi müvəqqəti mükəlləfiyyət münasibətlərini aradan qaldırır, beləliklə də feodal asılılığı sistemini ləğv edirdi. Lakin imperiyanın ucqarlarında kəndliyə borc pul verilməmişdi, onun torpağı satın almağı məcburi deyildi və bunun üçün müəyyən vaxt qoyulmamışdı. Bu, çarizmin milli-müstəmləkə siyasətinin təzahürü idi.

Rusiyanın ucqar vilayətləri üçün islahat daha gec və xüsusi "Əsasnamə"- lər üzrə keçirildi. Türk xalqları yaşayan bölgələrdə həyata keçirilmiş torpaq islahatı sahibkar kəndlilərin böyük hissəsinin torpaqsızlaşması ilə nəticələnmişdi. Çünki kəndlilər vergi və digər borcları ödəyə bilmədiklərinə görə mülkədarlar kəndlilərin pay torpaqlarını icarəyə götürür, bu torpaqlarda həmin kəndlilərin özlərini işlədirdilər. İcarə müddəti qurtardıqdan sonra isə mülkədarlar bu torpaqları geri qaytarmırdılar. Türk xalqları yaşayan ərazilərdə torpağı satın almaq üçün elə ağır şərtlər qoyulmuşdu ki, bu bölgələrdə feodal münasibətlərinin ləğv edilməsi 1913-cü ilədək uzandı. Kəndli islahatı Sibir kəndlilərinin əsas hissəsini əhatə etməmişdi. Lakin təhkimçiliyin ləğvi Sibirə köçürülənlərin artmasına və kapitalizmin inkişafına təsir etmişdi. Bu dövrdə

Mərkəzi Asiyada Rusiya işğalları davam etdiyindən kəndli islahatının həyata keçirilməsi bura şamil edilməmişdi.

Kəndlilər verilmiş qanunlarda bu cür azadlıq gözləmirdilər. Hər yerdə kəndlərdə gizli həyəcanlar müşahidə olunurdu. Bu gizli həyəcanlar bu və ya başqa yerlərdə biyara çıxmaqdan imtina etmək, sahibkarların sərəncamlarına tabe olmamaqda özünü göstərirdi. Ən böyük hadisələr Penza, Tambov və Kazan quberniyalarında baş verdi. Kazan quberniyasının Bezdna kəndində Anton Petrov " Əsasnamə"ləri oxuyarkən onları kəndlilərin mənafeyinə uyğun izah edirdi. Burada da kəndlilər manifestin məzmununa inanmayıb, mülkədar və məmurlar tərəfindən gizlədilən əsil azadlığı axtarmağa başladılar. Kəndlilər mülkədarlar üçün işləməkdən imtina etməyə başladılar. Həqiqi azadlıq haqqında məlumat almaq üçün hər tərəfdən kəndlilər Bezdnaya axışıb gəlirdilər. Hərbi dəstələrlə buraya gəlmiş general Apraksin, Anton Petrovun təslim verilməsini tələb etdi. Lakin kəndlilər generalın əmrini yerinə yetirməkdən boyun qaçırdılar. Əsgərlər atəş açdılar, çoxlu ölən və yaralanan oldu. Anton Petrov tutuldu və səhra məhkəməsinin hökmü ilə camaat qarşısında güllələndi. Bezdna kəndindəki hadisələrin xəbəri geniş yayıldı, demokratik ziyalılar içərisində hiddət və nifrətə səbəb oldu.

1861-ci il islahatından sonra fəhlə çıxışları da genişlənməyə başladı. Fəhlələrin kapitalistlərin istismarına məruz qaldığı Uralda fəhlələr pay torpaqlarından da istifadə etdiklərindən onların tələblərində kəndlilərin mənafeyi də əks olunmuşdu. Nizamnamə fərmanlarının tətbiq edilməsi Demidovların zavodunda fəhlələrin həyəcanına səbəb oldu. 1863-cü ilin yanvarında fəhlələr nizamnamə fərmanları üzrə müəyyən edilən pay torpağından imtina etmək, becərdikləri torpağın onların öz əllərində qalmasını istədilər. Nizamnamə fərmanlarının tətbiqi fəhlələrin vəziyyətini əlavə mükəlləfiyyətlərlə ağırlaşdırırdı. Bu bir çox zavodlarda həyacanların baş verməsinə səbəb olmuşdu. Fəhlə və kəndlilərin çıxışları inqilabi-

demokratik hərəkatın inkişafı üçün əlverişli zəmin oldu. Kazan quberniyası da inqilabi-demokratik hərəkatın mərkəzinə çevrilirdi.

Təhkimçilik hüququnun ləğv edilməsi məhkəmə, şəhər, hərbi və maarif sahəsində burjua islahatlarının keçirilməsi məsələsini qarşıya qoydu. Bu islahatların həyata keçirilməsi ölkənin iqtisadi inkişafının bütün gedişindən irəli gəlirdi. Bu islahatalr bütün Rusiyada, eyni zamanda Volqaboyu, Sibir və Krımda baş verən sosial-iqtisadi dəyişikliklərlə, feodal münasibətlərinin kapitalist istehsal münasibətləri ilə əvəz olunmağa başlaması ilə bilavasitə bağlı idi. Adlarını qeyd etdiyimiz islahatlar əvvəlcə Rusiyanın daxili quberniyalarında keçirilmiş, sonra isə imperiyanın ucqarlarına şamil edilmişdi.

XIX əsrin 60-cı illərindəki ən iri islahatlardan biri zemstvo idarələri yaradılmasından ibarət idi. 1864-cü il yanvarın 1-də “Quberniya və qəza zemstvo idarələri haqqında” qanun verilmişdi. ”Əsasnamə”yə görə zemstvo idarələri bütün silklərin nümayəndələrindən ibarət olmalı idi ki, bu da formal olaraq burjua nümayəndəliyi prinsipinə uyğun gəlirdi.Yerli işlərin idarə olunması zemstvo idarələrinin ixtiyarına verilmişdi. Zemstvo idarəsinə əvvəllər yalnız imtiyazlı silkə aid olanların seçki hüququ var idisə, yeni qanuna görə hamı, yəni vergi verən əhali seçkilərdə iştirak edə bilərdi. Zemstvo idarələrində rus zadəganlarına rəhbər rol verilmişdi. Zemstvolar hər yerdə tətbiq edilmədi. Zadəgan mülkədar torpaq sahibliyi olmayan, yaxud zəif olan bir sıra quberniyalar zemstvo idarələrindən məhrum edimişdi. Həştərxan, Sibir, Qafqaz və Orta Asiyada belə idarələr yaradılmadı.

Zemstvo idarələrinin vəzifələri “hər bir quberniya və qəzanın yerli təsərrüfatının mənfəət və ehtiyaclarına aid işlərlə”, yəni yerli təsərrüfat işləri ilə müəyyən edilirdi. Bu vəzifələr başlıca olaraq yerli nəqliyyat yollarını qaydada saxlamaq, əhaliyə tibbi yardım təşkil etmək,məktəblər tikdirmək və digər kiçik təsərrüfat işlərindən ibarət idi. Zemstvo idarələri quber-

natorun şəxsində hökumət oqanlarının nəzarətinə tabe edilmişdi. Zemstvoların hər hansı bir qərarı mövcud qanunlara və ya "ümumi dövlət mənafeyinə" zidd olduqda, qubernatorun bu qərarları dayandırmaq hüququ var idi. Zemstvolara inzibati səlahiyyət verilməmişdi, onlar öz qərarlarını zemstvolara tabe olmayan yerli qəza və quberniya idarələri vasitəsilə həyata keçirməli idilər. Zemstvoların hüquqlarını məhdudlaşdırmağa çalışaraq hökumət 1866-cı ildən etibarən onlara qarşı hücuma keçməyə başalyır. 1866-cı il noyabrın 21-də verilən qanun, zemstvo idarələrinin maliyyə vəsaitini xeyli məhdudlaşdırırdı. 1867-ci il iyunun 13-də verilən qanun zemstvo idarələrinə qubernatorlardan icazəsiz öz qərar və hesabatlarını nəşr etdirməyi qadağan edirdi. Bütün bunlar hökumətin zemstvo idarələrinin hüquqlarını məhdudlaşdırmaq istəyindən irəli gəlirdi.

1870-ci il 16 iyun "Şəhər əsasnamə"si üzrə silksiz şəhər idarəsi orqanları yaradılırdı. Bu orqanlar əmlak senzi əsasında 4 ildə bir dəfə seçilirdi. Əgər əvvəllər şəhər dumalarına seçkilərdə yalnız imtiyazlı silkə mənsub şəxslərin iştirak etmək hüququ var idisə, yeni "Əsasnamə"yə görə hamı, yəni şəhərdə yaşayıb vergi verən əhali seçkidə iştirak edə bilərdi. Şəhər özünüidarəsinin səlahiyyətlərinə şəhərin abadlığı, yanğından mühafizə tədbirləri, ticarət və sənaye işlərinə himayədarlıq etmək, habelə səhiyyə və maarifin ehtiyacları qayğısına qalmaq daxil idi. Çar hökuməti çalışırdı ki,şəhər özünüidarə orqanlarında tatar, başqırd, çuvaş və başqa rus olmayan xalqların nümayəndələri az təmsil olunsunlar. Ümumiyyətlə, "Şəhər əsasnamə"si Volqaboyu, Sibir və Krımın şəhərlərində daha məhdud şəkildə tətbiq edilmişdi. Şəhər islahatının bütünlüklə yarımçıq və məhud keçirilməsinə baxmayaraq, bu islahatın həyata keçirilməsi, islahatdan əvvəlki dövrdə şəhərlərin idarə olunmasına nisbətən irəliyə dogru bir addım idi. Bu islahat şəhər təsərrüfatının inkişafı üçün hər halda əlverişli şərait yaradırdı.

Məhkəmə islahatı haqqında "Əsasnamə" 1864-cü il noyabrın 20-də təsdiq edilmişdi. İslahatin məhkəmə quruluşuna

və məhkəmə prosesinə gətirdiyi dəyişikliklər, islahatdan əvvəlki məhkəmə ənənələrindən və təcrübəsindən xeyli fərqlənirdi. Yeni məhkəmə qanun qarşısında bütün silklərin formal bərabərliyi məhkəmənin açıqlığı və hakimlərin müstəqilliyi, məhkəmə orqanlarının sadələşdirilməsi prinsipləri əsasinda qurulurdu. Lakin yeni məhkəmənin qeyd edilən burjua xüsusiyyətlərinin elə düzəlişləri var idi ki, bunlar mahiyyətcə burjua prinsiplərinə zidd idi. Hakimlərin "müstəqilliyi" son dərəcə şərti idi. Lakin çar hökuməti bu dəfə də özünün milli müstəmləkə siyasətinə sadiq qalaraq Rusiyaya nisbətən ucqarlarda məhkəmə islahatını yarımçıq keçirmişdi. Rusiyada hakimlər seçildiyi halda, ucqarlarda təyin olunur, həm də yalnız ruslardan təyin olunur və işlər rus dilində aparılırdı. Xalqın dili, adət ənənəsi ilə tanış olmayan hakimlərin fəaliyyətində özbaşınalıq hökm sürürdü. Məhkəmə islahatı Orta Asiyada, Sibirdə, Ufa, Orenburq və Həştərxan quberniyalarında tətbiq edilmədi. Məhkəmə islahatının o dövrün burjua islahatlarindan biri olmasına baxmayaraq, bütün başqa islahatlarda oldugu kimi, bu islahatda da feodal- təhkimçilik qalıqları saxlanmışdı.

Krım müharibəsindəki məğlubiyyət silahlı qüvvələrin yenidən təşkilini bir vəzifə olaraq qarşıya qoydu. Sinfi ziddiyyətlərin kəskinləşməsi və inqilabi hərəkatın artması da hökuməti dövlət hakimiyyətinin əsası olan ordunu möhkəmlətmək üçün tədbirlər görməyə vadar etdi. Milyutin hərbi nazir təyin edildikdən sonra, 1862-ci ildən etibarən hərbi dəyişikliklər keçirilməyə başlandı. Daha yüksək ixtisaslı hərbi mütəxəssislər heyəti hazırlamaq üçün hərbi akademiyalar təsis olunmuş və dənizçilik məktəbi yaradılmışdı. Yeni tələblərə uyğun olaraq hərbi nazirlik yenidən təşkil edilmiş, ölkəni hərbi dairələrə bölmüşdülər. 1874-cü ildə Rusiyada hərbi mükəlləfiyyət haqqında nizamnamə təsdiq edildi. Hərbi islahat ordunun komplektləşdirilməsi prinsiplərinin dəyişdirilməsindən, əsgər toplamaq sistemindən, bütün silklər üzrə hərbi mükəlləfiyyətə keçilməsindən ibarət idi. Bu qanuna əsasən, mənsub olduğu

silkdən asılı olmayaraq 20 yaşına çatmış bütün kişi əhalisi hərbi mükəlləfiyyətə cəlb olunmalı idi. Quru qoşunlarda hərbi xidmət müddəti 6 il həqiqi qulluq və 9 il ehtiyat qulluq, donanmada 7 il həqiqi qulluq və 3 il ehtiyat qulluq müəyyən edilirdi. Təhsil almış şəxslər üçün həqiqi hərbi xidmət müddəti xeyli azaldılırdı. Orduda xidmət etməyi bütün silklərə şamil etməsinə baxmayaraq, nizamnamə əhalinin müəyyən bir hissəsini, əsasən müsəlmanları müxtəlif səbəblərə görə hərbi xidmətdən azad edirdi.

Kapitalizmin inkişafı xalq maarifi sahəsində də islahat keçirilməsini zəruri etdi. 1864-cü ildə təsdiq edilmiş "Əsasnamə"yə görə ibtidai xalq məktəbləri artıq ictimai müəssisələr və xüsusi şəxslər tərəfindən hökumət orqanlarının icazəsi ilə açıla bilərdi. Bu, məktəb şəbəkəsinin genişlənməsinə səbəb oldu. Lakin tədris işinə rəhbərlik hökumət orqanlarının əlində qalırdı. Gimnaziyalarda təhsil haqqının çox yüksək olması və gimnaziyaların sayının isə az olması aşağı təbəqələrin uşaqlarının təhsil almaq imkanını məhdudlaşdırırdı. XIX əsrin 60-70-ci illərində xüsusi ali təhsil məktəbləri açıldı. Xüsusi və ictimai təşəbbüs nəticəsində Moskvada, Peterburqda, Kazanda ali qadın kursları açıldı. İbtidai məktəblər barəsində hökumət, inzibati nəzarəti hər vasitə ilə gücləndirmək vəzifəsini qarşıya qoyurdu. Bu məqsədlə 1869-cu ildə hər bir quberniyada xalq məktəbləri müfəttişi vəzifəsi müəyyən edildi.

Ümumiyyətlə, çarizmin milli ucqarlarda o, cümlədən türk xalqları yaşayan ərazilərdə həyata keçirdiyi islahatlar əsasən yerlərdə müstəmləkə hakimiyyətini möhkəmləndirmək məqsədi güdürdü. XIX əsrin 60-70-ci illərinin burjua islahatları kapitalist münasibətlərinin inkişafında mühüm rol oynamışdı.

## 3.Kapitalist münasibətlərinin inkişafı

Təhkimçilik hüququ ləğv edildikdən sonra Rusiyada kapitalist münasibətləri inkişaf etməyə başladı. Məhsuldar qüv-

vələrlə istehsal münasibətləri arasındakı ziddiyyətlər tamamilə aradan qalxmasa da, çox zəiflədi. Bu isə məhsuldar qüvvələrin sürətlə inkişafına və cəmiyyətin sinfi quruluşunda xeyli dəyişikliklərə səbəb oldu. Çar hökuməti öz iqtisadi siyasətində ilk növbədə mülkədar sinfinin mənafeyini müdafiə edirdi. Belə ki, hökumət mülkədar sinfinin öz torpaq mülkiyyətini əlində saxlamasında və bu torpaqlardan mümkün qədər çox gəlir götürməsində maraqlı idi. Kapitalist təsərrüfat sisteminə keçən mülkədarlar indi yeni kənd təsərrüfatı alət və maşınlarını daha çox tətbiq etməyə başlayır, bəzi hallarda çoxtarlalı növbəli əkinə keçirdilər. Lakin kəndlilərin əsas kütləsi torpağı əvvəlki köhnə alətlərlə becərirdilər.

Təhkimçilik hüququ ləğv edildikdən sonra mülkədarlar öz təsərrüfatlarını yeni şəraitə, kapitalist şəraitinə uyğunlaşdırmalı oldular. Mülkədarların öz təsərrüfatlarını feodal təsərrüfatından kapitalist təsərrüfatına çevirib yenidən qurması onlar üçün çətin idi. Kapitalist istehsalı üçün tələb olunan şərtlər hələ yox idi. Muzdla çalışmağa adət etmiş fəhlə sinfi lazım idi və kəndli avadanlığı mülkədar avadanlığı ilə əvəz edilməli idi. Bütün bu şərtlər tədricən həyata keçirilə bilərdi. Mülkədarlar həm kapitalist, həm də biyar sisteminin xüsusiyyətlərini özündə birləşdirən keçid təsərrüfat sistemindən istifadə edirdilər. İslahatdan sonrakı illərin mülkədar təsərrüfatı məhz iki sistemin, işləyib-ödəmə sistemi ilə kapitalist sisteminin əlaqələndirilməsinə əsaslanırdı.

İşləyib-ödəmə sistemi ondan ibarət idi ki, kəndlilər mülkədarın torpağını öz alətləri və iş heyvanları ilə becərirdilər. Bunun müqabilində mülkədar çox zaman öz torpağının bir hissəsini kəndlilərin istifadəsinə verirdi. Bəzən mülkədar kəndlinin haqqını məhsulla və ya pulla ödəyirdi. Çox zaman bu pul və ya məhsul kəndliyə qabaqcadan, tarla işləri başlanmamışdan verilirdi, beləliklə də, kəndlilər işləyib borclarını və borcların faizlərini ödəyirdilər. Təsərrüfatı kapitalist sistemi ilə idarə etdikdə mülkədar özü üçün iş heyvanı və kənd təsərrüfatı

alətləri almalı idi, halbuki təhkimçilik hüququ dövründə onun iş heyvanı və kənd təsərrüfatı alətləri yox idi və torpağı onun tutduğu fəhlələr becərirdilər.

İşləyib-ödəmə sistemində torpağın becərilməsi mülkədara kapitalist sistemində olduğundan ucuz başa gəlirdi, lakin becərmə işinin keyfiyyəti xeyli aşağı olur və az məhsul alınırdı. Kapitalist sistemi iş heyvanı və kənd təsərrüfatı aləti almaq, həmçinin dövriyyə vəsaiti üçün mülkədardan xərc tələb edirdisə də, əkinçiliyin satlıq məhsulunun artdığı bir şəraitdə ona işləyib-ödəmə sistemindəkindən xeyli çox gəlir verirdi. İşləyib-ödəmə sistemi ilə kapitalist sistemi hər ikisi eyni təsərrüfatda mövcud idi. Təsərrüfat sahibi hər iki sistemi əlaqələndirərək, işlərin bir qismini işləyib-ödəmə sistemi ilə, digər qismini isə kapitalist üsulu ilə gördürürdü.

İslahatdan sonrakı dövrdə Rusiyada kapitalizmin inkişafı milli ucqarların, o cümlədən türk xalqlarının təbii sərvətlərini mənimsəməyə yönəldilmişdi. Həmin müstəmləkə bölgələrində kapitalist münasibətlərinin meydana gəlməsi və genişlənməsi, öz növbəsində bu bölgələrin ümumi iqtisadi inkişaf yoluna cəlb olunması üçün müəyyən şərait yaradırdı. Lakin mərkəzi Rusiya quberniyalarına nisbətən türk xalqları yaşayan bölgələrdə kapitalizm nisbətən ləng inkişaf edirdi.

Volqaboyunda kəndli təsərrüfatlarının kapitalist təməli üzərinə keçirilməsi üçün yenidən qurulması prosesi daha mürəkkəb və daha çətin gedirdi. Mükəlləfiyyətlər, ödənişlər və vergilər altında əzilən, mülkədarlar tərəfindən amansızcasına istismar edilən kəndlilər yeni şəraitə tez bir zamanda uyğunlaşa bilmirdilər. Təhkimçilik qalıqlarının xüsusilə güclü olduğu Orta Volqaboyu rayonlarında mülkədarların böyük bir hissəsi işləyib-ödəmə təsərrüfat sistemini gücləndirirdilər. Volqaboyunun taxılçılıq rayonlarında mülkədarlar kənd təsərrüfatı maşınları tətbiqini çoxaltmaqla taxıl istehsalı dəyərini aşağı salmağa çalışırdılar. Lakin təsərrüfatı bu şəkildə yenidən təşkil etmək üçün mülkədarların çoxunun pul vəsaiti və iş bacarığı yox idi.

Onlar işləyib-ödəmə sistemini genişləndirmək yolu ilə təsərrüfata sərf olunan xərclərin pulunu azaltmağa çalışırdılar. İşləyib-ödəmə sisteminin üstün yer tutduğu rayonlarda təhkimçilik qalıqlarının güclənməsi müşahidə olunurdu. İşləyib-ödəmə sisteminin əsas bazası ortabab kəndlilər idi. Kəndlilərin təbəqələşməsi prosesində ortabab təbəqənin azalması işləyib-ödəmə sisteminin təsərrüfatın kapitalist sistemi tərəfindən sıxışdırılmasına səbəb olurdu.

Volqaboyunda kapitalist qaydaları əsasında qurulan bir sıra təsərrüfatlar meydana gəlmişdi. Burada muzdlu əməkdən, təkmil istehsal alətlərindən, bəzən isə kənd təsərrüfatı maşınlarından istifadə olunurdu. Burjuaziya nümayəndələri, rus zadəganları və ayrı-ayrı mülkədarlara məxsus olan bu cür təsərrüfatların sayı o qədər də çox deyildi. Lakin ümumilikdə islahatdan sonra Volqaboyunun kənd təsərrüfatında kapitalist münasibətləri inkişaf etməyə başlamışdı. Orta Volqaboyu rayonlarında kəndlilərin vəziyyəti xüsusilə ağır idi. Bu yerlərdə ciddi torpaqsızlıqla yanaşı, təhkimçilik qalıqları da güclü idi. Əhalinin təbii artımı nəticəsində torpaqsızlıq getdikcə artırdı. Bu isə kəndlinin iqtisadi cəhətdən mülkədardan asılılığını daha da gücləndirirdi. Bu dövrdə çarizmin köçürmə siyasətinin geniş miqyas alması da yerli kəndlilərin torpağa ehtiyacını artırmışdı.

Təhkimçilik hüququ ləğv edilən zaman Rusiyada iri sənaye başlıca olaraq manufakturadan fabrikə keçid pilləsində idi. Sənayedə icbari əmək üstün yer tuturdu ki, bu da texniki tərəqqini ləngidirdi. Təhkimçilik hüququnun ləğv edilməsi sənayedə icbari əməyi aradan qaldırdı. Lakin muzdlu əməyə keçilməsi asan iş deyildi və müvafiq sahələrdə istehsalın azalmasına səbəb olurdu. Təhkimçilik hüququnun ləğvindən sonra Rusiyada kapitalist sənayesi inkişaf etməyə başlamışdı. Volqaboyu rayonlarında fabrik-zavod sənayesi kapitalist inkişaf yoluna keçirdi. 80-ci illərdə istehsalın təmərküzləşməsi ilə iri kapitalist sənaye sahələri yaranırdı. Sənayenin inkişafı ilə əlaqədar burjuaziya və fəhlə sinfi formalaşırdı. Sənaye sahə-

lərinə milli kapital qoyuluşu getdikcə artırdı. Tatar milli burjuaziyası yerli işçi qüvvəsindən istifadə etməyə çalışırdı. Milli burjuaziya əldə etdiyi kapital hesabına yeni xəz, dəri və başqa yüngül sənaye müəssisələri açırdı.

Başqırdıstanda kapitalizmin inkişafı dağ-mədən, meşə və fabrik-zavod sənayesində özünü göstərirdi. Başqırdıstanda kapitalist sənayesinin inkişafı ilə bərabər bir çox sənət sahələrinin manufaktura səviyyəsinə yüksəlməsi cəmiyyətdə əsaslı dəyişikliklərin baş verməsinə səbəb olmuşdu. Kapitalist cəmiyyətinin burjuaziya və fəhlə sinfi təşəkkül tapmışdı. Sənayenin inkişafına baxmayaraq Başqırdıstan yenə də Rusiyanın kənd təsərrüfatı bölgəsi olaraq qalırdı.

Rusiyada iri fabrik-zavod sənayesi ilə yanaşı nəqliyyat da inkişaf edirdi. Dəmiryol tikintisinin, çaylarda və dənizlərdə gəmiçiliyin sürətlə inkişaf etməsi islahatdan sonrakı dövr üçün səciyyəvi idi. Su yolları ilə daşınan yüklərin əsas hissəsi Volqa hövzəsinin və onu Baltik dənizi ilə birləşdirən su sistemlərinin payına düşürdü. XIX əsrin 80-ci illərində dəmiryol çəkilişi sürətlə davam edirdi. Bu onillik ərzində Batuma qədər uzanan Zaqafqaziya dəmiryolu, Aşqabada qədər uzanan Zakaspi dəmiryolu, Volqa üzərindəki Pokrovskdan Ural çayına qədər Ural dəmiryolu, Xarkov və Donbası Orta və Aşağı Volqaboyu ilə birləşdirən Xarkov-Balaşov-Kamışin dəmiryolu çəkilmişdi. 1880-1890-cı illərdə dəmiryollarında yük daşınması iki dəfə artmışdı. Dəmiryol çəkilişi və dəmiryolları ilə yük daşınmasının artması rayonlararası əlaqənin və təsərrüfat əlaqələrinin möhkəmlənməsinə səbəb olurdu. Dəmiryol çəkilişinin genişlənməsi bir-birindən çox uzaq iqtisadi rayonları olan Rusiyada daxili bazarın genişlənməsi və dünya bazarı ilə ticarət əlaqələrinin möhkəmlənməsinə səbəb oldu. Yollar həm dövlət tərəfindən, həm də xüsusi şirkətlər tərəfindən çəkilirdi.

Sibirin kənd təsərrüfatı ilk növbədə mərkəzi Rusiya quberniyalarından mülkədar torpaq sahibliyinin olmaması ilə fərqlənirdi. Bundan başqa, Sibirdə əkinçiliyə yararlı olan və

hələ becərilməyən çoxlu torpaq var idi. Buna görə də Sibir kəndlilərinin bir çoxu Rusiyanın əhalisi sıx olan yerlərinin kəndlilərindən yaxşı yaşayırdılar. Lakin Sibir kəndində çox zaman varlılara muzdurluq edən yoxsullar da var idi. Sibirin geniş torpaq sahələri Rusiyadan köçüb gələnlərin diqqətini cəlb edirdi. Lakin 60-70-ci illərdə köçüb gələnlər hələ çox deyildi. Sibirə ildə 12 minədək adam köçüb gəlirdi. 90-cı illərdə Sibir dəmiryolunun çəkilməsinin köçmə hərəkatı üçün böyük əhəmiyyəti oldu. O, Sibirə köçənlərin yolunu xeyli asanlaşdırırdı.1881-ci ildən 1900-cü ilədək Sibir və Uzaq Şərq quberniyalarına təxminən bir milyon adam köçmüşdü. Sibirə köçüb gələnlərin sayı, Sibir əhalisinin təbii artımından xeyli çox idi. Köçənlərin əsas axını Qərbi Sibirə, xüsusilə Altaya yönəlmişdi.

Sibir dəmiryolunun çəkilməsi Sibir taxılının Rusiya bazarına çıxarılmasına yol açdı. Sibirdə buğda əkini artmağa başladı. Sibirdə dincəqoyma tarlaçılıq sistemi üstün yer tuturdu. Dəmiryolu sayəsində Qərbi Sibirdə yağ istehsalı inkişaf etməyə başladı. Yağ qismən daxili bazara aparılır, əsas etibarı ilə xaricə ixrac edilirdi. Beləliklə,dəmiryol çəkilişi XIX əsrin axırlarında Sibirdə taxılçılığın və maldarlığın inkişafına şərait yaratdı. Rusiyanın kənd təsərrüfatında Sibirin rolu artmağa başladı.

Rusiyanın milli ucqarları arasında Krım kapitalizmin inkişaf sürətinə görə xeyli fərqlənirdi. İslahata qədər Krımda əmtəə-pul münasibətləri də inkişaf etmişdi. Təhkimçilik hüququnun ləğvi və Krıma dəmiryolun çəkilməsi buraya daimi və mövsümi işləmək üçün ucuz işçi qüvvəsinin axınını gücləndirmişdi. Dəmiryol xəttinin çəkilişi Krımın iqtisadiyyatının inkişafında mühüm rol oynayırdı. Belə ki,dəmiryolu Krımı Rusiyanın mərkəzi sənaye rayonları ilə əlaqələndirir, kənd təsərrüfatı məhsullarının daşınmasını asanlaşdırırdı. Krımda da yeni müəssisələr açılmışdı. Sevastopolda ən iri müəssisələr gəmi təmiri müəssisələri idi. Krımda torpağın iri torpaq sahiblərinin əlində cəmlənməsi prosesi güclənmişdi. Kəndlərdə ictimai

təbəqələşmə Rusiyaya nisbətən daha sürətlə gedirdi. Kənddə ictimai təbəqələşmə prosesinin kapitalist sənayesinin inkişafı üçün də mühüm əhəmiyyəti var idi. Kəndlilərin təbəqələşməsi daxili bazarın genişlənməsi üçün şərait yaradırdı. Krım ölkənin xarici ticarət əlaqələrində mühüm yer tuturdu.

Rusiya imperiyasının bütün milli ucqarları üçün həmin ucqarlarda məhsuldar qüvvələrin inkişafını ləngidən ümumi səbəb milli-müstəmləkə zülmü idi. Çarizm öz siyasi məqsədləri üçün türk xalqları yaşayan bölgələrdə feodal münasibətlərini müdafiə edirdi. Çarizm ucqarların iqtisadi inkişafını məhdudlaşdıraraq, onlardan sənaye mallarının satış bazarı kimi, xammal mənbəyi kimi istifadə etmək siyasəti yeridirdi. Belə siyasət təkcə ucqar rayonların inkişafı üçün deyil, bütövlükdə ölkə üçün mənfi nəticələr verirdi. Lakin öikənin kapitalistcəsinə inkişafı çarizm tərəfindən ucqarların iqtisadiyyatının salındığı buxovları aradan qaldıraraq onları vahid iqtisadi sistemə cəlb edirdi. Milli ucqarların həm ölkənin mərkəzi ilə, həm də öz aralarındakı iqtisadi əlaqələri artıb möhkəmlənirdi. Kapitalizm inkişaf etdikcə, həmin milli ucqarlar get-gedə kapitalist Rusiyası iqtisadiyyatının tərkib hissələrinə çevrilirdi.

# OSMANLI İMPERİYASI XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

## 1. XIX əsrin birinci yarısında Osmanlı imperiyasının iqtisadi və siyasi vəziyyəti

XIX əsr dünyanın ən böyük imperiyalarından biri olan Osmanlı üçün çətin dövrlərdən biri idi. Bu əsr Osmanlı tarixinə "geriləmə dövrü" kimi daxil olmuşdur. XIX əsrin əvvəllərindən Osmanlı imperiyasının geriliyi, zəifləməsi daha açıq şəkildə özünü göstırməyə başladı. Artıq XVIII əsrin sonlarında Osmanlı imperiyasının taleyi Qərb dövlətlərindən asılı idi. Avropanın Fransa, Rusiya, İngiltərə kimi dövlətləri Osmanlı dövlətini zəifləməsini sürətləndirmək üçün əllərindən gələni edirdilər. Onlar imperiyanın xristian xalqlarını dövlətə qarşı qaldırırdılar. Hətta türk olmayan müsəlman xalqlarını da dövlətə qarşı qaldırmağa çalışır və istədiklərinə çatırdılar. Həmin dövrdə Osmanlı dövlətinə qarşı "Şərq məsələ"si planı ortaya atılmışdı. Osmanlı imperiyasının məruz qaldığı iqtisadi və siyasi böhran bu dövrdə daha da gücləndi. Fransa burjua inqilabı və İngiltərədə sənaye çevrilişi buna öz təsirini göstərirdi. Avropada kapitalist münasibətləri gücləndiyi bir halda, Osmanlı hələ də feodalizm dövrünü yaşayırdı. Kənd təsərrüfatı böhran içərisində idi. Osmanlı dövləti öz tarixində ilk dəfə idi ki, xaricdən borc almaq məcburiyyətində idi, lakin bu da vəziyyəti düzəltməyə kifayət etmirdi. Rusiya-Osmanlı müharibələrində Osmanlının məğlubiyyəti Osmanlının işğalı altında olan Balkan ölkələrində, Misir və Ərəbistan yarımadasında milli-azadlıq hərəkatına təkan verdi.

Osmanlı imperiyasının tənəzzülünün qarşısını almaq məqsədilə islahatlar keçirilməyə başlandı. III Səlimin (1789-1807) "Nizami-Cədid"(Yeni quruluş) adlanan islahatlarında torpaq sahibliyini tənzimləmək, ordu və donanmanı Avropa qaydasında yenidən qurmaq, əsasən hərbi məqsədlər üçün

manufaktura istehsalını genişləndirmək və başqa məsələlər nəzərdə tutulmuşdu. 1791-ci ildə III Səlim ordunun Avropa qaydasında qurulması haqqında sərəncam verdi. İslahatların əsasını ordu quruculuğu təşkil edirdi. 1793-cü ildə Osmanlı sultanı III Səlim ordu islahatına başladı. Ordu islahatı Avropa hərbçilərinin rəhbərliyi altında aparılırdı. Bu dövr imperiyada nisbi sakitlik idi. "Nizami-Cədid" adı altında verilən bir islahatla 1793-cü ildə yeni bir ordu quruldu. Bundan sonra yeniçərilər islahatın nəticəsində yeniçəri ordusunun məhv edilməsindən ehtiyat edərək, bu islahata qarşı çıxdılar. Məhz bu zaman Napoleon Bonapart Misirin işğalına başlamışdı. Ehramlar savaşında qələbə qazanan Napoleon Cənuba tərəf yönəldi və burda Osmanlı qoşunu ilə qarşılaşma artıq labüd idi. Əslində Napoleon apardığı işğallar nəticəsində artıq Osmanlı ilə qonşu olmuşdu. Təbii ki, bu Osmanlı hökumətini narahat edirdi. Napoleon isə Şərqə olan marağını Rumelidə deyil, məhz Osmanlı Afrikasında davam etdirməyi seçdi. Napoleonun məqsədi Ağdəniz və Orta Şərqdə İngiltərə və Rusiyanın güclənməsini dayandırmaq, Misir vasitəsilə Hindistan üzərində strateji üstünlüyünü artırmaq istəyən ingilislərə mane olmaq və bununla da Fransanın hərbi, strateji gücünü təmin etmək idi.

Napoleonun Misirə yürüşü, 1806-cı ildə Rusiya ilə müharibənin başlanması, 1807-ci ildə İstanbulda yeniçərilərin qiyamı III Səlimin hakimiyyətinə və "Nizami-Cədid" islahatlarına son qoydu.

Napoleonun işğalları ilə Avropada mürəkkəb bir vəziyyət yaranmışdı. Belə bir şəraitdə Napoleonun apardığı işğalçı müharibələr Osmanlı dövləti ilə Rusiyanı yaxınlaşdırdı. 1805-ci ildə Rusiya ilə Osmanlı arasında müqavilə imzalandı. Qara dəniz boğazlarını Rusiya və Türkiyə birlikdə qorumalı idi. Bu müqavilədə rus hərbi gəmilərinin Bosfor və Dardanel boğazlarından keçmək hüququ təsdiq edilirdi. Rusiyanın Balkanlarda fəallaşması Austerlits döyüşündən sonra Osmanlı dövlətini Fransa ilə yaxınlaşdırdı.

1806-cı ildə rus qoşunlarının Valaxiya və Moldovanı tutması Osmanlı dövlətinin Rusiyaya müharibə elan etməsinə səbəb oldu. 1807-ci ildə Fransa ilə Rusiyanın imzaladığı Tilzit sülhündə Osmanlı imperiyasının lehinə sayıla bilməyəcək bir çox hökmlər var idi. Tilzit sülh müqaviləsinin şərtləri Avropada siyasi nüfuz dairələrinin Fransa ilə Rusiya arasında bölüşdürülməsini nəzərdə tuturdu. Napoleon İsveç və Türkiyə barəsində Rusiyaya hərəkət sərbəstliyi verdi, I Aleksandr isə Qərbi Avropada Napoleonun eyni hərəkət sərbəstliyini təsdiq etdi. Napoleon I Aleksandrı Rusiyanın kontinental sistemə daxil olmağa və İngiltərə ilə diplomatik münasibətləri kəsməyə də razı saldı.

Rusiyanın Türkiyə ilə başlanmış müharibəsi 1811-ci ilədək sönük surətdə aparıldı və Rusiya üçün heç bir əhəmiyyətli nəticə vermədi. Fransa ilə hərbi toqquşmanın yaxınlaşdığı şəraitdə Türkiyə ilə müharibənin qurtarmasını sürətləndirmək lazım idi. 1811-ci ildə M.Kutuzov türklərə qarşı əməliyyat aparan orduya komandan təyin edildi. Türklər Şumlu qalasında məğlub olduqdan sonra Dunay çayının sol sahilinə keçdilər. Bu vaxt Kutuzov sürətli əks-həmlə ilə Dunay çayının sağ sahilini tutdu və türklərin geriyə yolunu kəsdi. Türkiyə ordusu mühasirəyə alındı. Müharibə meydanındakı müvəffəqiyyətdən istifadə edən Kutuzov 1812-ci ilin mayında Buxarestdə türklərlə sülh bağladı. Buxarest sülhünün şərtlərinə görə Bessarabiya Rusiyaya keçdi və Dunay çayında Rusiya gəmilərinin gediş-gəliş hüququ təsdiq edildi. Osmanlı dövləti Rusiyanın Qafqazdakı işğallarını tanımalı oldu. Serbiyaya isə özünüidarə hüququ verildi. Moldova və Valaxiya Osmanlı dövlətinə qaldı. Eyni zamanda siyasi və hərbi məhkumların əfvinə qərar verildi. Osmanlı dövləti üzərində qələbə və onunla sülh müqaviləsinin bağlanması Napoleonun Türkiyənin simasında Rusiya əleyhinə müttəfiq qazanmaq niyyətlərini pozdu. Beləliklə, Osmanlı imperiyası 1806-1812-ci illər müharibəsində məğlub oldu.

Fransa inqilabının gətirdiyi milliyyətçi fikirlərlə təməlləndirilən, arxasında Rusiya və digər Avropa dövlətlərinin durduğu etnik və məhəlli üsyanlar bu dövrdə daha da alovlandı. Buxarest müqaviləsinə əsasən bəzi imtiyazalr alan serblər buna rəğmən yenidən ayağa qalxdı. 1821 -ci ildə Moreyada yunanlar üsyan qaldırdılar, onlar da serblər kimi müstəqillik tələb edirdilər və Avropa dövlətləri tərəfindən daha böyük dəstəyə malik idilər. Əvvəlcə, böyük dövlətlər Balkan hadisələrinə qarışmaq istəmirdilər. Onlar yunanların üsyanına türk sultanına qarşı qiyam kimi baxırdılar. Rusiya öz protektoratı altında Balkanlarda yunan dövləti yaratmaq istərdi, xüsusilə ona görə ki, yunanlar Rusiyaya meyl göstərirdilər. Avropada inqilabi hərəkatın artdığı bir şəraitdə "Müqəddəs ittifaq"a nifaq salmaqdan qorxan I Aleksandr yunanların üsyanına kömək göstərməkdən imtina etdi. Lakin yunan üsyanının genişlənməsi bu məsələyə beynəlxalq münasibətin dəyişməsinə səbəb oldu.

I Nikolay daha qətiyyətlə hərəkət etməyə başladı. O, hakimiyyətə gələndə İtaliyada və İspaniyada inqilabi hərəkat dağıdılmışdı. "Müqəddəs ittifaq"ın birliyi əvvəlki kimi zəruri deyildi. Digər tərəfdən, "Şərq məsələ"sində Rusiyanın qətiyyətsizliyi Balkan xalqları arasında onu nüfuzdan sala bilərdi. I Nikolay Balkan hadisələrinə son qoymaq niyyətində olduğunu bildirdi. Rusiya istəmirdi ki, "yunan məsələ"sinin həllində təşəbbüs İngiltərəyə keçsin. Rusiyanın birtərəfli qaydada "yunan məsələ"sinə qarışmasını və onun Yaxın Şərqdə təsirinin artmasını istəməyən İngiltərə 1826-cı ilin aprelin 4-də Rusiya ilə Peterburqda saziş imzaladı. I Nikolay "yunan məsələ"sində İngiltərə ilə əməkdaşlıq etməyə razılıq verərək, İngiltərə-Rusiya sazişinə zəruri halda ona Türkiyəyə qarşı təkbaşına çıxış etmək azadlığı verən bənd saldırdı.

1826-cı ilin oktyabrında Rusiya Türkiyə ilə Akkerman konvensiyasını bağladı, bu konvensiyaya görə Rusiyanın Dunay knyazlıqlarına və Serbiyaya himayəçiliyi qanuniləşdirildi. Rusiyanın müstəqil çıxışına yol vermək istəməyən İngiltərə və

Fransa Türkiyə qoşunlarının Yunanıstana göndərilməsinə mane olmaq üçün Yunanıstan sahillərini birgə mühasirə etmək haqqında Rusiya ilə razılığa gəldilər. Lakin müttəfiqlərin eskadrası Türkiyə donanmasının yerləşdiyi Navara limanına daxil olduqda türklər atəş açdılar. Şiddətli döyüş baş verdi. Türkiyə donanması demək olar bütünlüklə məhv edildi. İngiltərə və Fransa səfirləri hiddətlənmiş sultanı sakitləşdirməyə çalışır və əmin edirdilər ki, onların dövlətləri Türkiyə ilə müharibə etmək istəmirlər. Rusiya-Türkiyə müharibəsi baş verərsə Rusiyaya kömək etməyəcəklər. Sultan II Mahmud Akkerman müqaviləsini pozdu və öz təbəələrini Rusiyaya qarşı müharibəyə çağırdı. Rusiya-Türkiyə müharibəsi 1828-ci ilin mayında başladı. Hərbi əməliyyatlar Qafqazda və Balkanlarda aparılırdı. Balkanlarda Türkiyə ordusu Rusiya qoşunlarına güclü müqavimət göstərirdi. Balkanlarda rus ordusu döyüşə-döyüşə Prut və Dunay çaylarını keçdi, Brailov və Varnanı işğal etdi. Lakin Silistriya və Şumlanı ala bilməyən rus qoşunları Dunayın sol sahilinə qayıtdı. İşğal olunmuş qalalarda rus qarnizonları saxlandı. Qafqazda Paskeviçin ordusu bütün yayı irəliləyərək Qarsı, Axaltsixi, Axalkalakini və başqa qalaları tutdu. Paskeviçin qoşunları Ərzurumu ələ keçirərək Trabzona doğru hərəkət edirdilər. Rusiya ordusu Balkanları keçib Ədirnəni tutmuşdu. İstanbulun süqutuna yol verməmək üçün qərb dövlətləri sultanı sülh danışıqları aparmağa sövq etdilər. Osmanlı sultanı II Mahmud Rusiyaya sülh danışıqlarına başlamağı təklif etdi və tərəflər arasında danışıqlar başlandı.

1829-cu il sentyabrın 14-də Rusiya ilə Osmanlı dövləti arasında Ədirnə sülhü imzalandı. Bu Osmanlıların Kiçik Qaynarcadan sonra imzaladıqları ən ağır sülh idi. Rusiya Dunayın deltasındakı adaları, Kuban çayının mənsəbindən müqəddəs Nikolay körpüsünədək Qara dəniz sahillərini, Axaltsixi və Axal-kalakini, həmçinin 33 milyon manat təzminat alırdı. Daha sonra müqavilə Qara dəniz boğazlarında Rusiyanın və xarici ölkələrin ticarət gəmilərinin azad gediş-gəlişinə və Osmanlı

imperiyası ərazisində rus tacirlərinin ticarət azadlığına təminat verirdi.Osmanlı tərəfi Cənubi Qafqazın Rusiya tərəfindən işğalını tanıyırdı. Nəhayət, müqavilədə Moldaviyanın, Valaxiyanın və Serbiyanın muxtariyyatı təsdiq olundu. Yunanıstanın müstəqilliyi haqqında 3 dövlətin protokolu Osmanlı dövlətinə qəbul etdirildi. Az sonra yəni, 1830-cu ildə Yunanıstanın istiqlaliyyəti də elan edildi.

Yunanıstanın müstəqilliyinin bərpası və Ədirnə sülhü Osmanlı imperiyasının zəifləməsini göstərdi. Misir paşası Məhəmmədəli yaranmış şəraitdən istifadə edib İstanbula hücum etmək qərarına gəldi. Onun məqsədi Misirin müstəqilliyinə nail olmaq idi. 1832-ci ildə Misir qoşunu Suriyanı ələ keçirdi, Konya yaxınlığındakı döyüşdə Osmanlı ordusu ağır məğlubiyyətə uğradı. Yaranmış vəziyyətdən çıxış yolu axtaran II Mahmud Fransa və İngiltərədən yardım istəməyə məcbur oldu. Fransa rədd cavabı verdikdən sonra, İngiltərə Avstriya vasitəsilə kömək etmək qərarına gəldi. Bu vaxt Məhəmmədəlinin Yaxın Şərqdə möhkəmlənə bilməsindən qorxuya düşən Rusiya gözlənilmədən Osmanlıya yardım əlini uzatdı. 1833-cü il fevral-aprelində Bosforun Asiya sahilindəki Ünkər-İskələ yaxınlığında 14 min rus əsgəri quruya çıxarıldı. 1833-cü ildə sultan ilə onun rəsmi vassalı olan Məhəmmədəli arasında Kütahya sülhü imzalandı və Misir ordusunun hücumu dayandırıldı. Bu müqaviləyə görə Mə-həmmədəlinin Misir valiliyinə Suriyada əlavə olundu. 1833-cü il iyulun 8-də Türkiyə ilə Rusiya arasında Ünkər-İskələ müqaviləsi imzalandı. Müqaviləyə əsasən, hər iki tərəf razılaşdırılmış siyasət yeritməyi tərəflər əmin-amanlıq və təhlükəsizliyi təmin etməyə ehtiyac duyduqda bir-birinə kömək etməyi öhdəsinə götürürdü. Müqavilənin gizli maddəsi Türkiyəni Rusiyaya yardım göstərmək öhdəçiliyindən azad edirdi, lakin bunun əvəzində Rusiyanın tələbi Türkiyənin xarici hərbi gəmilərə boğazlardan keçməyə icazə verməməsi idi. Müqavilədən sonra rus qoşunları Türkiyəni tərk etdi. Ərəb Şərqində Məhəmmədəlinin mövqelərinin

möhkəmlənməsi ilə heç bir vəchlə razılaşmayan İngiltərə 1838-ci ildə bağlanmış türk-ingilis ticarət konvensiyasına Misir canişininin məhəl qoymamasından istifadə edərək sultan Mahmudla Məhəmmədəli arasında yeni münaqişə törətdi. 1839-cu ildə iyulun 24-də Suriyanın şimalında, Nəzib kəndi yaxınlığında sultan ordusu ilə Misir qoşunları arasında baş vermiş döyüşdə türklər məğlub oldu. Vəziyyətin ağırlığını görən Türkiyə hökuməti barışıq yolları axtarmağa başladı. Lakin 1839-cu il iyulun 27-də İngiltərə, Rusiya, Fransa və Avstriya Türkiyəyə kollektiv nota göndərərək bildirdilər ki, onların razılığı olmadan Məhəmmədəli ilə sülh danışıqları apara bilməz, Sultan bu əmrə tabe olmağa məcbur oldu.1840-cı ildə Londonda bir tərəfdən Türkiyə, o biri tərəfədən də İngiltərə, Rusiya, Avstriya və Prussiya arasında saziş imzalandı. Bu saziş "Osmanlı imperiyasının bütövlüyünü və istiqlaliyyətini təmin etməyə nəzarət" pərdəsi altında həmin dövlətlərin Türkiyə üzərində qəyyumluğunu təsbit edirdi. Saziş bütün dövlətlərin hərbi gəmilərinin Bosfor və Dardanelə gəlməsini qadağan edirdi. Sazişdə Məhəmmədəliyə verilməli olan tələblər də göstərilmişdi. Əgər, bu tələblər rədd edilərdisə, onda saziş bağlamış dövlətlər silaha əl atacaqlarını öhdələrinə götürmüşdülər. Məhəmmədəli əvvəlcə bu ultimatumu rədd etdi, sonradan sultana xərac verməyi, ordusunu 18 min nəfərədək azaltmağa razı oldu və 1838-ci il türk-ingilis konvensiyasını qəbul etməyi öhdəsinə götürdü. Misir məsələsini həll etdikdən sonra 13 iyul 1841-ci ildə Osmanlı, İngiltərə, Rusiya, Fransa, Avstriya və Prussiya dövlətləri Londonda boğazlar haqqında müqavilə imzaladılar. Sazişə görə Türkiyənin iştirak etmədiyi müharibə zamanı Qara dəniz boğazları bütün dövlətlərin hərbi gəmiləri üçün bağlanmalı idi, Türkiyənin iştirak etdiyi müharibə zamanı isə Türkiyə hökuməti istədiyi ölkənin hərbi gəmilərini boğazlardan buraxa bilərdi.

XIX əsrin I yarısında ölkədə xarici kapitalın ağalığı türk ticarət və sənaye burjuaziyasını çox pis bir vəziyyətə salmışdı.

Xarici kapitalistlər öz iqtisadi üstünlüyü və kapitulyasiya hüquqlarından istifadə edərək hazır sənaye məhsullarının idxalını və kənd təsərrüfatı məhsullarının ixracını öz əllərində cəmləşdirmişdilər. Osmanlının kapitalist dövlətlərinin xammal bazasına çevrilməsi prosesi güclənirdi. Osmanlının iqtisadiyyatı getdikcə daha çox birtərəfli şəkildə inkişaf edirdi. Beləliklə, XIX əsrin 30-50-ci illərində Osmanlının həm siyasi, həm iqtisadi cəhətdən Avropanın iri dövlətlərinin, başlıca olaraq İngiltərə və Fransanın müstəmləkəsinə çevrilməsi üçün zəmin yaranmışdı.

Osmanlı dövlətinin geriliyini başa düşən mütərəqqi qüvvələr islahatların keçirilməsini istəyirdilər. Onlar bu yolla Avropa dövlətlərinin Osmanlı dövlətinin daxili işlərinə qarışmasının qarşısını almaq, daxili böhranı zəiflətmək niyyətində idilər. Sultan II Mahmud hakimiyyətinin son illərində islahatlar keçirməyə başladı, belə ki o, imperiyanın ciddi bir islahata ehtiyacı olduğunu yaxşı anlayırdı. Yeni nazirliklər quruldu, bunlardan ən önəmlisi Ticarət nazirliyi idi. Baş vəzirin səlahiyyətlərinin azaldılması və onun işlərinin nazirlərə paylanılması sarayın qüvvətlənməsi ilə nəticələndi. Əhalinin siyahıya alınması aparıldı, təhsil sahəsində ciddi qərarlar qəbul olundu, hərbi məktəblər açıldı. Lakin II Mahmud islahatlarını tamamlaya bilmədi, o, 1839-cu ildə vəfat etdi və hakimiyyətə Mahmudun böyük oğlu Əbdülməcid gəldi. Türkiyə tarixində o, tənzimat padşahı kimi tanınır. Belə ki, 1839-cu il noyabrın 3-də Musatafa Rəşid paşanın komissiyası tərəfindən sultanın ali fərmanı elan edildi. Bu fərman Gülxana sarayında oxunduğu üçün "Gülxana fərmanı"adlandı. Fərmanda Osmanlı imperiyasının əhalisinin həyat, şərəf və əmlak təhlükəsizliyinin təmini elan edilirdi. "Gülxana fərmanı" xristian xalqların hüququnu daha da genişləndirdi. Tənzimat dövründə xristian təbəələr dövlətə qarşı fəaliyyətlərini daha da gücləndirdilər. İkinci ən vacib məsələ vergi məsələsi idi. Vergi hər kəsin bacarığına görə müəyyən edilməli və bundan artıq alınmamamlı idi.

1840-cı ildə vergi toplanması tamamilə qaydaya salındı. Belə ki, vergi toplama işi valilərin və mültəzimlərin əlindən alınaraq maaşlı xüsusi maliyyə məmurlarının əlinə keçdi. Valilər isə yalnız asayiş və hərbi işlərlə məşğul olmalı idilər. Toplanan pullar birbaşa xəzinəyə təhvil verilməli idi. İltizam sistemi ləğv edildi. Orduya çağırış qaydaya salınmalı idi. Hərbi xidmət müddəti azaldılmalı idi. Dini etiqadından asılı olmayaraq imperiyada yaşayan bütün zümrələr hüquq və vəzifə cəhətdən tam bərabər elan edildi. Bu islahatlar bir tərəfdən sultan Mahmud islahatlarının davamı, digər tərəfdən isə yeni islahatların başlanğıcını qoydu. Türkiyə tarixşünaslığında buna "tənzimati xeyriyyə" deyilir. 1843-cü ildə verilən yeni islahatla ordunun yeni quruluşu müəyyən edildi. Orduda xidmət müddəti 15 ildən 5 ilə endirildi. Hüquq sahəsində də islahatlar keçirildi. 1840-cı ildə cəza qanunnaməsi çıxdı. Hüquq sahəsində aparılan islahatlarda əsasən fransız hüququndan bəhrələnmişdilər. Bütün osmanlıların qanun qarşısında bərabər olması vurğulanırdı. "Tənzimati-xeyriyyə" Mustafa Rəşid paşa tərəfindən hazırlanmışdı. O, mütərəqqi fikirli bir şəxs idi, lakin çox təəssüf ki, fərmandan qısa bir müddət sonra paşa vəzifədən kənarlaşdırıldı. Çünki onunla eyni ideya və məqsəddə olan adamlar çox az idi. "Tənzimati-xeyriyyə" demək olar ki, İstanbulda yerləşən bütün xarici ölkə səfirliklərinə göndərilmişdi. Bütün məhdud cəhətlərinə və tam tətbiq olunmamasına baxmayaraq bu islahatlar burjua səciyyəsi daşıyırdı, birbaşa ölkənin inkişafına xidmət edirdi.

## 2. Osmanlı imperiyası XIX əsrin ikinci yarısında

1848-1849-cu illər inqilabına qarşı Avropa irticasının qələbəsində Rusiya mühüm rol oynamış, beynəlxalq aləmdə mövqeyi güclənmişdi. Bu qələbə Rusiyanın Yaxın Şərqdə itirdiyi mövqeləri bərpa etməsi üçün I Nikolaya yaranmış əlverişli vəziyyətdən istifadə etməyə şərait yaradırdı. Lakin I Nikolay

yanılmışdı, Avropanın iri dövlətləri Osmanlı imperiyasının zəifləməsində maraqlı olmalarına baxmayaraq, Rusiyanın Balkanlarda və Yaxın Şərqdə möhkəmlənməsinə də yol vermək istəmirdilər.

"Müqəddəs yerlər"lə bağlı diplomatik ixtilaf Rusiyanın mövqeyinin düzgün olmadığını göstərdi. Xristianlar üçün müqəddəs sayılan bu yerlərin müdafiəsi katolik və pravoslavlar arasında bir rəqabət mövzusu idi. Ruslar bu məsələdə pravoslavların, fransızlar isə katoliklərin arxasında idi. Çar Nikolay hesab edir di ki, ingilislərlə dil tapsa,məsələni həll edə bilər. Rusiya çalışırdı ki, Türkiyə ona sultanın bütün pravoslav təbəələrini müdafiə etməyə icazə versin. Türkiyə sultanı "müqəddəs yerlər" məsələsində güzəştə hazır olduğunu bildirdi. Rusiyanın İstanbuldakı səfiri Menşikov gördü ki, Dunay knyazlıqlarını tutmaq üçün bəhanə əldən çıxır, Türkiyə ilə Rusiya arasında yeni müqavilə bağlamaq tələbi ilə çıxış etdi. Türkiyə tərəfi İngiltərə səfiri ilə məsləhətləşəndən sonra Rusiyanın tələbini rədd etdi. 1853-cü il iyunun 4-də Türkiyə sultanı imperiya ərazisində xristian pravoslav kilsəsinin hüquq və imtiyazlarına təminat verən fərman imzaladı. 1853-cü il iyunun 21-də Rusiya ordusu Prut çayını keçib Dunay knyazlıqlarına daxil oldu.

İngiltərə və Fransa səfirlərinin təkidi ilə 1853-cü ilin oktyabrında Türkiyə Rusiyaya müharibə elan etdi.Krım müharibəsinin səbəbləri başlıca olaraq Yaxın Şərqdə və Balkanlarda İngiltərə, Fransa, Rusiya və qismən Avstriyanın müstəmləkəçilik mənafelərinin toqquşması idi. Həm İngiltərə, Fransa, həm də Rusiya bu müharibədə eyni məqsədə, yəni göstərilən rayonlarda hökmranlığa can atırdılar, lakin onlar müxtəlif yollarla gedirdilər. Osmanlı dövlətinin Rusiyaya qarşı daimi əks qüvvə olması və onun təhlükəsizliyini qorxu altında saxlaması İngiltərə və Fransa üçün sərfəli olduğuna görə onlar Osmanlı imperiyasını ancaq əsarət altına almaq istəyirdilər. Rusiya isə Osmanlıları Balkan yarımadasından və boğazlardan sıxışdırıb çıxartmağa çalışırdı. İngiltərə və Fransa Osmanlı dövlətində

möhkəmləndikdən sonra Rusiyanı Qara dəniz sahillərindən sıxışdırıb çıxartmaq və beləliklə, Yaxın Şərqdə onun hücumunun qarşısını almaq ümidində idilər. Osmanlı dövləti isə Krımı və Qafqazı Rusiyadan qoparmağa can atırdı. Eyni zamanda müharibədə iştirak edən dövlətlərin hər biri qələbə qazanmaq və bununla öz xalqlarının diqqətini daxili çətinliklərdən yayındırmaq istəyirdilər. Fələstindəki "müqəddəs yerlər" üstündə katolik və pravoslavlar arasında gedən mübahisə müharibə üçün əsas bəhanə olmuşdu.

Müharibənin ilk mərhələsində Osmanlı dövləti ilə təkbətək mübarizədə Rusiya müəyyən uğurlara nail oldu. 1853-cü ilin noyabr ayında Sinop buxtasında dəniz döyüşü oldu. Rus gəmiləri Sinopun müsəlman məhəllələrini xəbər vermədən topa tutdular, dinc əhalinin böyük bir hissəsi öldü və yaralandı. Bu hadisə Avropaya "Sinop qətliamı" adı ilə çatdırıldı. Məhz bu döyüş Avropanın müharibəyə qatılmasını surətləndirdi. Belə ki, həmin vaxt İngilis və fransız qoşunları İstanbulda idi və onlar burda ikən Rusiyanın belə etməsini özlərinə təhqir saydılar. Amma şübhəsiz ki, əsil məsələ imperialistlər arasındakı rəqabət idi. Nəhayət, 1854-cü il martın 27-28-də Fransa və İngiltərə Rusiyaya müharibə elan etdi. Daha öncə isə Osmanlı, İngiltərə və Fransa müqavilə imzalayaraq, Krımı savaş bölgəsi olaraq qəbul etdilər. Eyni zamanda Prussiya və Avstriya Rusiyadan Dunay knyazlığından öz qoşununu çıxartmağı tələb etdi. Balkanlarda Silistriya qalasının mühasirəsi Rusiyanın əl-qolunu bağlamışdı. Onların tələbi ilə 1854-cü ilin iyulunda rus qoşunları Silistriyanı mühasirədən çıxarmağa və Dunay knyazlıqlarını boşaltmağa məcbur oldular. 1854-cü ilin yayında türk qoşunları Qafqazda yeni məğlubiyyətlərə düçar oldular. Buna görə həmin ilin payızından müttəfiqlər Krımda əməliyyata başladılar.

İngilis-fransız ordusu Yevpatoriya yaxınlığında quruya çıxdı, sonra da cənuba, Sevastopola doğru hərəkət etdi. 1855-ci ilin sentyabrında Sevastopol ələ keçirildi. Bəlkə də, mü-

haribə davam edə bilərdi. Lakin Avstriyanın ultimatumu Rusiyanı sülhə məcbur etdi. Qafqaz cəbhəsində döyüşlərin Rusiyanın xeyrinə olmasına baxmayaraq, bu müharibənin gedişinə həlledici təsir göstərmirdi. Rusiya biabırçı şəkildə məğlubiyyətə uğradı. 1856-cı il martın 30-da Parisdə Rusiya ilə müttəfiqlər arasında müqavilə imzalandı. Paris danışıqlarında Osmanlı, İngiltərə, Fransa, Prussiya, Rusiya, Avstriya, Sardiniya krallığı iştirak edirdi. Baxmayaraq ki, Osmanlı imperiyası Krım müharibəsində qalib gəldi və danışıqlarda qalib dövlət kimi təmsil olunurdu, o, bu sülhlə siyasi tərəfdən itkilər verdi. Müqaviləyə əsasən Rusiya Bessarabiyanın bir hissəsini Moldaviyaya verdi. Dunay çayının mənsəbi ilə birlikdə Qara dənizdə hərbi donanma və sahilboyu hərbi dəniz cəbbəxanaları saxlamaq hüququnu da itirirdi, nəticədə Rusiyanın Qara dəniz sahili müdafiəsiz qalırdı. Müqaviləyə görə Türkiyə xristianlarına və Dunay knyazlıqlarına himayəçilik bütün böyük dövlətlərə həvalə edilirdi. Müharibə vaxtı işğal edilmiş ərazilər mübadilə edilməli idi, bununla əlaqədar olaraq Rusiya Qarsı Türkiyəyə qaytarırdı, müttəfiqlər isə Sevastopoldan, Yevpatoriyadan və işğal etdikləri digər rus şəhərlərindən imtina edirdilər.

1856-cı il fevralın 18-də Osmanlı sultanı ölkədə islahatların keçirilməsi haqqında yeni bir fərman verdi. Bu fərman 1836-cı il fərmanından onunla fərqlənirdi ki, burda Fransa və İngiltərənin Türkiyəyə təqdim etdiyi memorandum tətbiq edilmişdi. Bu fərman qeyri-müsəlmanlara müsəlmanlarla bərabər hüquqlar verir, dini etiqadından asılı olmayaraq, bütün təbəələrin şəxsiyyət və mülkiyyət təhlükəsizliyinin təmin olunmasını, insan şərəfinin qorunmasını təsdiq edirdi. Burada yolların çəkilməsi, bankların açılması, Avropa dövlətlərinin kapitalından, həmçinin elm və incəsənətin nailiyyətlərindən istifadə edilməsi nəzərdə tutulmuşdu. Bəzi dəyişiklikləri istisna etməklə tənzimatın ikinci mərhələsi də ölkədə əsaslı dəyişikliklərə gətirib çıxarmadı. İmperiya feodal-mütləqiyyət qaydaları və sultanların iradəsi ilə idarə olunurdu. Xarici dövlətlər hələ də

Osmanlının daxili işlərinə qarışmaqda davam edirdilər. Ölkənin milli sərvəti komprador burjuaziya tərəfindən talan olunurdu. İmperianın maliyyə vəziyyəti lap ağır şəraitdə idi, belə ki, hər müharibədə olduğu kimi Krım müharibəsində də maliyyə sistemi alt-üst oldu, Avropadan  böyük miqdarda borc alındı. Artıq 1860-cı ildə Avropa  maliyyə dairələri Osmanlıya borc verməkdən imtina edirdilər. Hökumətin  400 milyon xarici borcu var idi və üstəlik bir fransız iş adamı ilə bağlanan sazişə əsasən ondan böyük miqdarda, böyük faizlə borc götürülmüşdü. Əslində Avropa dövlətlərinin məqsədi əsrlərdir hərbi yolla çökdürə bilmədikləri imperiyanı iqtisadi asılılığa salmaq və tədricən müstəmləkəyə çevirmək idi. Ölkədəki ağır vəziyyət xalq kütlələrinin etirazına səbəb olurdu, bir sıra yerlərdə pərakəndə olsa da, kəndli üsyanları baş verirdi. 1859-cu ildə sultanı devirmək məsədi ilə mədrəsə tələbələri, məmurlar və zabitlərin təşkil etdikləri qəsdin  üstü açıldı. Onların çoxu həbs edildi və İstanbuldakı Güləli həbsxanasına  salındı. Ona görə də  bu hadisə "Güləli təşəbbüsü" adını almışdı.

Osmanlı dövlətinin çoxmillətli ictimai quruluşu, müasir tələblərə cavab verməyən siyasi-intellektual səviyyəsi Qərbin inkişafı qarşısında geriləməkdə idi. Bu, Osmanlı dövlət xadimləri tərəfindən erkən dərk edilmişdi. Bu vəziyyətdən xilas olmaq üçün irəli sürülən çıxış yollarındakı fərqlər Osmanlı ziyalılarının birliyini pozdu və mübahisələrə səbəb oldu. Lakin Osmanlı ziyalıları əsaslı bir dəyişiklik ehtiyacının mövcud olması fikrində birləşdilər. Qərb tərzindəki islahatlar ciddi bir müqavimətlə qarşılaşmadı. XIX əsrin ikinci yarısında Türkiyənin siyasi həyatına istiqamət verəcək yeni bir ziyalı nəsli ortaya çıxdı. Ziyalılar xalqın nicat yolunu  maariflənməkdə, konstitusiyalı monarxiyada görürdülər.

İmperiya tarixində Avropa anlamında ilk müstəqillik hərəkatı "Yeni Osmanlılar" hərəkatıdır. 1831-ci ildə Osmanlıda ilk qəzet çap olunmuşdur. 1864-cü ildə hökumətin mətbuat nizamnaməsi ilə belə qəzetlərə qadağa qoyulması 1865-ci ildə

Belqrad meşəliyində təşkil olunan bir gizli toplantıda təşkilat qurmaqla nəticələndi. Bu təşkilata Namiq Kamal, İbrahim Şinasi, Sübhi Paşazadə, Rəşad Qayazadə və Əli Suəvi kimi ziyalılar daxil idi. Qısa müddət ərzində gizli təşkilatın üzvlərinin sayı 245 nəfər oldu. Onlar sultana birbaşa və açıq məktublar göndərməyə başladılar. Nəticədə bir çoxu və fəalları sürgün olundu. "Yeni Os-manlılar" cəmiyyətinin azadlıqda olan üzvləri Londanda "Müxbir" adlı qəzet çıxarmağa başladılar. Daha sonra Namiq Kamal Londonda "Hürriyyət" qəzetini çıxarmağa başladı. Lakin bunlar hamısı cəmi bir il davam elədi. Həm daxili ziddiyyətlərin yaranması, həm də hökumətin təzyiqi ilə cəmiyyət tədricən dağıldı.

50-70-ci illərin isalahatları ölkənin məhsuldar qüvvələrinin inkişafına yol aça bilmədi və xalq kütlələrinin vəziyyəti yaxşılaşmadı. Kənd təsərrüfatında demək olar ki, heç bir inkişaf yox idi. Torpağın köhnə qaydalarla becərilməsi, ağır vergilər, feodal zorakılığı bol məhsul əldə etmək yolunda ciddi maneəyə çevrilmişdi. Kəndlilər təkcə ağır vergilərdən deyil, həm də becərilmiş məhsullara qoyulmuş çox ucuz icbari qiymətlərdən, eləcə də məhsulları bir bölgədən digərinə apararkən alınan daxili gömrük rüsumlarının çoxluğundan əziyyət çəkirdilər. Sənaye məhsullarının istehsalında da vəziyyət yaxşı deyildi. Xaricdən idaxal olunmuş mallarla rəqabət apara bilməyən yerli sənaye müəssələri müflisləşir, bir-birinin ardınca bağlanırdı. Hakim dairələrdə çaşqınlıq və inamsızlıq hökm sürürdü. Müxalifətə qarşı mübarizəni gücləndirmək məqsədi ilə sultan Əbdüləziz tənzimat siyasətindən üz döndərərək, açıq şəkildə mürtəce kurs götürdü. 1871-ci il-də Mahmud Nədim paşa baş vəzir vəzifəsinə təyin edildi ki, o da qatı irticaçı idi. Müxalifəti daim nəzarətdə saxlamaq üçün "Yeni Osmanlılar"a amnistiya tətbiq etdi. Lakin o yanılmışdı, çünki geri qayıdan "Yeni Osmanlılar" yenidən öz qə-zetlərinin nəşrinə başladılar, Əbdüləziz və Nədim paşanın siyasətini kəskin tənqid etdilər. Belə bir şəraitdə Avropa dövlətləri Balkanlarda yeni iğtişaşlar

törədirdilər. Salonikdə əcnəbilər tərəfindən qızışdırılan və dini zəmində başlayan qarşıdurma zamanı Fransa və Almaniya konsulları öldürüldü. Avropa dövlətləri bu hadisədən Balkan məsələlərinə qarışmaq üçün dərhal istifadə etdilər. Osmanlı imperiyasından Balkanlarda əsaslı islahat aparması tələb olunurdu. Osmanlı dövləti bu tələbləri qəbul etmək məcburiyyətində qaldı. 1876-cı ilin mayında xalqa müraciət edən "Yeni Osmanlılar"ın nümayəndələri, sultanın sarayı qarşısında 40 mindən çox insanın keçirdiyi mitinqdə Nədim paşanın istefasını tələb etdilər. Sultan güzəştə getdi və Məhəmməd Rüşti paşa baş vəzir təyin olundu. "Yeni Osmanlılar"ın liderlərindən olan Midhət paşa kabinetin tərkibinə daxil edildi. Lakin xalqın qəzəbinin qarşısını almaq mümkün olmadı. 1876-cı il may ayının 30-da saray çevrilişi oldu. Əbdüləziz taxtdan salındı və V Murad hakimiyyətə gəldi. Lakin onun ağır ruhi xəstə olması səbəbindən hakimiyyətə II Əbdülhəmid gətirildi. Midhət paşa baş vəzir təyin edildi. Ona yeni konstitusiya hazırlamaq tapşırıldı. Bu vaxt Balkanlarda vəziyyət daha da gərginləşmişdi. Bolqarıstanda üsyan baş vermiş, Çernoqoriya Türkiyəyə qarşı müharibəyə başlamışdı. Rusiya ilə münasibətlər kəskinləşmişdi. 1876-cı il dekabrda İstanbulda Balkanlarda keçiriləcək islahatların layihəsini hazırlamaq məqsədi ilə Avropa dövlətləri nümayəndələri konfransının keçirilməsi nəzərdə tutulmuşdu. 1876-cı il dekabrın 23-də İstanbulda beynəlxalq konfrans öz işinə başladı. Yeni konstitusiya elan edildi. Belə gərgin bir şəraitdə Türkiyə İngiltərənin köməyi ilə konfransda Balkanlarda islahatlar keçirilməsi təklifinin rədd edilməsinə nail oldu. Bu isə Rusiya ilə ziddiyyətləri daha da dərinləşdirdi. Bu konstitusiya ilə Osmanlı konstitusiyalı monarxiya elan edildi. İki palatalı parlament nəzərdə tutulmuşdu. İslam dövlət dini elan olundu, sultana isə çox böyük imtiyazlar verilirdi. İmperiya ərazisində yaşayan bütün əhali "osmanlı" adlandırılırdı. Qəddarlığı ilə tanınan Əbdülhəmid 1877-ci ildə Midhət paşanı vəzifəsindən azad etdi və sürgünə göndərdi. 1883-cü

ildə isə onu öldürtdürdü. 1877-ci il ilk parlament seçkilərində "Yeni osmanlılar"ın iştirakına yol verilmədi, iyirmi iclasdan sonra parlament 14 fevral 1878-ci ildə buraxıldı.

II Əbdülhəmid "Yeni Osmanlılar"ın ölkəyə gətirdikləri azadlıq fikrinin müsəlmanlardan çox qeyri-müsəlmanların xeyrinə olacağına inanırdı. Qeyri-müsəlmanların təhsil və mədəniyyət səviyyələrinin müsəlmanlarınkından daha yüksək olduğu üçün, Avropa dövlətlərinin köməyi ilə əvvəlcə muxtariyyət, daha sonra isə istiqlaliyyət qazanmalarına imkan yaranacaq və dövlətin parçalanmasının qarşısı alınmayacaqdır. Konstitusiyalı monarxiyanın elanından sonrakı hadisələr bu qorxunun haqlı olaraq ortaya çıxdığını göstərdi.

Krım müharibəsindən sonra beynəlxalq vəziyyəti olduqca gərgin olan Rusiya 1871-ci ildə Londonda keçirilən beynəlxalq konfransda yenidən Qara dəniz sahillərində qalalar tikmək və orda hərbi donanma saxlamaq hüququ aldı. Rusiya işğalçılıq planlarını həyata keçirməyə, ilk növbədə Balkan yarımadasında nüfuzunu möhkəmləndirməyə və orada möhkəm hərbi istinadgah yaratmağa can atırdı. 1875-1876-cı illərdə Türkiyəyə qarşı Bosniyada və Bolqarıstanda üsyanlar baş vermişdi. Rusiya bu üsyanlara yaxından kömək edirdi. Rusiya hökuməti Osmanlını slavyanlara güzəştə getməyə məcbur etmək üçün bütün vasitələrdən istifadə edirdi. Osmanlının Rusiyanın tələblərini rədd etməsi 1877-ci ilin aprelində müharibəyə səbəb oldu.

Hərbi əməliyyatlar Balkan yarımadasında və Qafqazda aparılırdı. Rumelidə rus ordusunun Osmanlı torpaqlarını işğal etməsi üçün Rumuniyadan keçməsi lazım idi. Ruminiya Osmanlıdan müstəqilliyini tanımasını istədi, lakin nail ola bilmədi, nəticədə Rusiya ilə müqavilə bağladı. Rus ordusunun başlıca qüvvələri Rumıniyada, Buxarest yaxınlığında toplanmışdı. Rus ordusu tərkibinə bolqar yığma qoşunu daxil idi. Müharibənin ilk mərhələsində ruslar bir həmlədə Dunayı keçdi, bir neçə ay sonra isə Şipka aşırımını ələ keçirdilər. Bu aşırım

Balkan sıra dağlarında Osmanlılar üçün strateji əhəmiyyətə malik idi.

İlk müvəffəqiyyətlərdən sonra rus ordusu məğlubiyyətə uğradı. Belə ki, Osman paşanın komandanlığı altında türklər mühüm strateji məntəqə olan Plevnanı tutdular. Türklər buradan rus ordusunun sağ cinahı və rabitə yolları üçün təhlükə yaratdı. Plevnanın mühasirəsi başladı. Ərzaq ehtiyatları tükənmiş olan Osman paşa dekabrın əvvəlində mühasirədən çıxmaq üçün cəhd göstərdi, lakin bu cəhd baş tutmadı. Osman paşa əsir düşməyə məcbur oldu. Qafqaz cəbhəsində də türklər məğlubiyyətə uğrayırdılar. Ruslar Qars, Bəyazid, Ərdahanı aldılar və Ərzuruma yaxınlaşdılar. Osmanlı tərəfi sülh istəməyə məcbur oldu. Rus ordusu İstanbul yaxınlığındakı San-Stefano adlı kiçik bir yeri tutdu. Türkiyə komandanlığı bütün var qüvvəsini çəkib İstanbula gətirdi. Rus qoşunları İstanbula girsəydi, İngiltərə və Avstriya ilə əlaqələrin kəsilməsi labüd idi. Buna görə də ixtilafa yol verməmək üçün San-Stefano qəsəbəsində rus qoşunlarının hərəkəti dayandırıldı.

San-Stefanoda 1878-ci il martın 3-də müharibə edən tərəflərin səlahiyyətli nümayəndələri sülh müqaviləsi imzaladılar. Bu müqaviləyə əsasən Türkiyə Çernoqoriyanın, Serbiyanın və Rumıniyanın müstəqilliyini tanıyırdı, həm də Çernoqoriya və Serbiya öz ərazilərini bir qədər böyüdürdülər. Bolqarıstan knyazlığı yaradılırdı, Bosniya və Hersoqovina muxtariyyət alırdılar. Bessarabiyanın Rumıniyaya birləşdirilmiş hissəsi Rusiyaya qaytarıldı, bunun əvəzində Rumıniya Dobrucanı aldı. Ərdahan, Batum, Qars, Bəyazid Rusiyaya verilirdi. Türkiyə 310 milyon manat təzminat verirdi.

İngiltərə və Avstriya Rusiyanın Yaxın Şərqdə güclənməsinə yol vermək istəmirdilər və San-Stefano müqaviləsinin şərtlərinə etiraz etdilər. Rusiya müharibəni yeni rəqiblərlə davam etdirməkdən ehtiyat edərək sülh şərtlərinə yenidən baxılması üçün beynəlxalq konfrans çağırılmasına razılıq verdi. 1878-ci il 13 iyun-13 iyul arası Berlin konfransı keçirildi və 13

iyulda Berlin müqaviləsi imzalandı.Müqavilənin şərtlərinə görə Bolqar knyazlığının muxtariyyəti təsdiq olunurdu, lakin onun sərhədləri Balkanlardan şimala doğru Dunayboyu olan ərazi ilə məhdudlaşırdı. Balkanlardan cənuba sultanın hakimiyyəti altında Şərqi Rumeliya muxtar vilayəti yaradıldı.Makedoniya Türkiyənin hakimiyyəti altında qaldı. Çernoqoriya, Serbiya və Rumıniya müstəqil elan edilirdilər, lakin Çernoqoriya və Serbiyanın ərazisi genişlənmirdi. Rusiya isə Bessarabiyanın bir hissəsini, Ərdahan, Batum və Qarsı alırdı. Təzminat əvvəlki məbləğdə təsdiq olunurdu. Avstriya Bosniya və Hersoqovinanı idarə etmək hüququ aldı, İngiltərə isə Kipr adasını tutdu, sonralar onu hərbi dəniz bazasına çevirdi.

## 3.Gənc türklər və Balkan müharibələri

"Yeni Osmanlılar"ın mütərəqqi addımları hədər getmədi. Yenilikçi ziyalılar Sultan ağalığına qarşı mübarizəni davam etdirdilər. 1889-cu ildə hərbi tibb məktəbində oxuyan tələbələr İshaq Sükuti, Mehmet Rəşid, Abdullah Cevdət, İbrahim Temo gizli bir cəmiyyət "İttihad və tərəqqi"ni yaratdılar. Bu o demək idi ki, türk burjua demokratik hərəkatı rəsmi şəkildə fəaliyyətə başlayır. Cəmiyyətin əsas məqsədi II Əbdülhəmid rejiminə son verərək Konstitusiyanın yenidən elanına nail olmaq idi. "İttihad və tərəqqi" cəmiyyətinin üzvlərini və tərəfdarlarını "Gənc türklər" adlandırırdılar. 1895-ci ilə qədər gizli hürriyyətçi kitablar buraxılır, toplantılar keçirilirdi. 1889-cu il Fransa inqilabının 100 illiyi münasibəti ilə Parisə yollanan bir çox mücahidlər oradan yeni fikirlər və mütərəqqi ideyalarla qayıdırdılar. Gənc türklər hərəkatının ikinci mərhələsi 1895-1897-ci illəri əhatə edir. Berlin konfransından sonra böyük dəstək alan ermənilər 1895-ci ildən başlayaraq İstanbulda bir neçə qətllər törətdilər. Əbdülhəmid rejimi isə bu məsələni həll etmək üçün heç bir addım atmırdı. Belə olduğu halda gənc türkçülər özləri xalqı mübarizəyə qaldırırdı. Parisdə

olan hərəkat üzvlərindən də dəstək gəldi. Onların belə fəallığı Əbdülhəmidin xoşuna gəlmədi və bir çoxu uzaq yerlərə sürgün olundu, ya da həbsə düşdü. Bəziləri isə hərəkat tərəfindən bir müddətliyə Misir və Avropaya qaçırıldı. Artıq 1896-cı ildə bir çox hərbi məmurlar, komandirlər hərəkatın üzvü idi. 1896-cı ildə Əb-dülhəmidi taxtdan salmaq üçün bir plan qurulmuşdu. Lakin üzvlərdən birinin satqınlığı planın həyata keçməsinə mane oldu. Tutulanlar uzaq yerlərə sürgün olundu. Beləliklə, bu illərdə hərəkat istəyinə nail olmadı. 1897-1899-cu illərdə hərəkatın daxilində fikir ayrılıqlarının olması durğunluğa gətirib çıxardı. Hərəkatın yenidən canlanmasına səbəb İngiltərə və Almaniyanın dəmiryolu məsələsində rəqabəti oldu. Belə ki, Almaniya İngiltərəyə zərbə vurmaq üçün Türkiyəni yaxın Şərqdə özünün əsas müttəfiqinə çevirmişdi. 1896-cı ildə bir alman şirkəti tərəfindən Konya Eskişehir dəmiryolu xətti açılmışdı. Sonra Almaniya tərəfindən xəttin Bağdada qədər davam etdirilməsi məsələsi gündəmə gəldi. Almaniya kralı II Vilhelm biri rəsmi, digəri qeyri-rəsmi olmaqla 2 dəfə İstanbula gəlmiş və Əbdülhəmidlə danışıqlar aparmışdı. Əbdülhəmid almanlarla razılığa gəlmişdi. Bağdad dəmiryolu konsessiyasını alandan sonra Almaniya Türkiyəyə bütövlükdə sahiblənmək və onu özünün müstəmləkəsinə çevirmək üçün fəaliyyətini gücləndirmişdi. Türkiyə sultanı II Əbdülhəmid də özünün zəifləmiş hakimiyyətini Almaniyanın və alman kapitalının köməyi ilə möhkəmləndirmək istəyirdi. O, Almaniyadan Balkanlarda milli azadlıq hərəkatına qarşı istifadə etmək fikrində idi. Almaniya türk sultanının bu istəyinə tərəfdar çıxırdı. Canlanan hərəkatın üzvləri 1902-ci il Parisdə toplaşdılar. Onlar qərara aldılar ki, yalnız mətbuatla nəyəsə nail olmaq olmaz, hərbi gücdən də istifadə olunmalıdır. Amma konfransda fikir ayrılığının olması gənc türklərin parçalanması ilə nəticələndi. 1907-ci ilin sonlarında Parisdə "İttihad və tərəqqi" cəmiyyətinin və ona qoşulmuş təşkilatların birləşmiş konfransı çağırıldı. Konfrans mövcud rejimi silahlı üsyan yolu ilə devirmək və 1876-cı il

konstitusiyasını bərpa etmək qərarını qəbul etdi. Məhz bu illərdə Osmanlı üçün digər bir önəmli hadisə Revel danışıqları oldu. 1908-ci il iyunun 9-10 da Reveldə İngiltərə ilə Rusiya arasında Osmanlı imperiyasının bölüşdürülməsi haqqında razılıq əldə olundu. Makedoniya tamamən türklərdən alınmalı və İngiltərə ilə Rusiyanın himayasində müstəqil olmalı idi. Anadolunun şərq bölgələri Rusiyaya, bütün ərəb ölkələri isə İngiltərəyə verilməli idi. Əbdülhəmid yenə də ölkənin müdafiəsi üçün heç bir tədbir gör-mədi. Gənc türklər müəyyən olunmuş vaxtdan tez çıxış etməyi qərara aldılar. İnqilab təşkilatın Makedoniya komitəsi üzvlərinin təşəbbüsü ilə başladı. 1908-ci il iyulun 3-də Makedoniyada Resne şəhərinin komendantı leytenant Niyazi bəy 200 əsgər və 200 mülki vətəndaşdan ibarət bir qrupla dağlara çəkildi. İyulun 6-da Ənvər bəyin komandanlığı ilə başqa bir hərbi dəstə də üsyançılara qoşuldu. Ədirnəni də üsyan bürüdü. Təkcə əhali deyil, bütün ordu üsyançılar tərəfə keçdi.

II Əbdülhəmid bu hərəkat qarşısında dayanmağa və hərəkatın liderlərini ələ almağa çalışsa da ancaq buna müvəffəq olmadı. Solonik və Monastrdakı ordular açıq surətdə sultana qarşı cəbhə təşkil etdilər və Ədirnədəki ikinci ordudan da kömək aldılar. 1908-ci il iyulun 23-də "İttihad və tərəqqi" təşkilatının Mərkəzi Komitəsi Monastr şəhərində böyük bir mitinqlə konstitusiyanın bərpa olunmasını elan etdi, sultana isə ultimatum göndərdi. Əbdülhəmidə qəti olaraq bildirildi ki, 3 gün ərzində konstitusiya bərpa olunmasa, İstanbul üzərinə hərbi hücum təşkil olunacaqdır. Çıxılmaz vəziyyətdə qalan Əbdülhəmid 1908-ci il 23 iyulda 1876-cı il konstitusiyasının bərpası və tezliklə parlament seçkiləri haqqında fərman imzaladı. Türkiyə konstitusiyalı monarxiya elan edildi və Əbdülhəmidin 32 illik diktaturası sona çatdı. Hökumətə gənc türklərin Kamil paşa, Süleyman paşa və Səid paşa kimi nümayəndələri daxil edildi. 1908-ci il 2 noyabr tarixində parlamentin açılışı və ilk iclası keçirildi. Parlamentə seçilmiş

230 deputatdan 150 nəfəri gənc türklərdən idi. Ancaq gənc türklər parlamentdəki çoxluqlarından antifeodal islahatlar keçirmək üçün istifadə etmədilər. Onların bu hərəkəti rəhbərliyin sosial tərkibi ilə izah olunurdu. Rəhbərlik əsasən, feodal və bürokratik dairələrdən təşkil olunduğu üçün "Gənc türklər" burjuaziyanın mənafeyini ifadə edirdi. Bu zaman gənc türklərə qarşı müxalifətdə olan Əhrar partiyası fəaliyyət göstəriridi və onları ingilislər müdafiə edirdilər. II Əbdülhəmid və onun ətrafındakılar Əhrar partiyası və "İttihadi müsəlman" təşkilati ilə birgə əksinqilabi çevriliş edərək, hakimiyyəti ələ aldı. "İttihadi müsəlman" feodal qaragürühçuların toplaşdığı bir təşkilat idi. İnqilabçıların təqib olunmasına başlanıldı. Ölkədə vətəndaş müharibəsi təhlükəsi yarandı. Gənc türklər 1909-cu ilin 23 aprelində Mahmud Şövkət paşanın komandanlığı altında Makedoniya ordusunu İstanbul üzərinə yeritdilər. Əbdülhəmid hakimiyyətdən kənarlaşdırıldı. Onun iradəsiz qardaşı V Mehmet Rəşad sultan elan edildi. Beləliklə, Osmanlı tarixində çox önəmli rol oynayan inqilab Osmanlı imperiyasının siyasi quruluşunu dəyişə bilmədi. Çünki bu yuxarı təbəqələrin inqilabı idi. Gənc türklərin daxili zəifliyini görən Avropa məhz bundan yararlanmaq istəyirdi. 1909-1911-ci illərdə "İttihad və tərəqqi" yavaş-yavaş ölkədə yeganə hakim siyasi partiya halına gəldi. Osmanlı dövlətinin daxildə qarşılaşdığı çətinliklər xarici müdaxilələrdən qaynaqlanırdı. Gənc türklər isə parlamentli bir rejim yaratdıqdan sonra Qərb dövlətlərinin onlara göstərəcəkləri himayə ilə daxili çətinlikləri aradan qaldıra biləcəklərini düşünürdülər. Ancaq hadisələr heç də belə olmadı. Avstriya-Macarıstanın Bosniya və Hersoqovinanı ilhaq etməsi, Bolqarıstanın istiqlaliyyətinin elanı gənc türklərin gözlərini açdı. İnqilabın yarımçıqlığına baxmayaraq "Gənc türklər"in hakimiyyəti dövründə ölkədə bir sıra islahat və tədbirlər həyata keçirildi. İqtisadi baxımdan gənc türklərin ilk və ən mühüm addımları 1914-cü ildə kapitulyasiyanın aradan qaldırılması oldu. Bu hərəkat Türkiyədə iş yerlərinin milliləşdirilməsi üçün

şərait yaratdı. 1916-cı ilin 24 martında verilən bir qanunla bütün şirkətlərin yazışmalarının türk dilində aparılması məcburi idi. Bu dəyişikliklərə müvafiq olaraq, Ziraət bankı yenidən təşkil edilərək 1917-ci ilin martında Osmanlı Milli Bankı adı altında quruldu. Bu və digər tədbirlərlə gənc türklər bir növ dövlətin nəzarəti altında iqtisadi dəyişikliklər etməyə, sənayeləşməni genişləndirərək milli burjuaziya yaratmağa çalışırdılar.

Şərq məsələsində Qərb dövlətləri ilə Rusiyanın mənafeləri toqquşurdu. Bu da gənc türklərin xarici siyasətinə təsir edirdi. 1909-cu ildə Osmanlı əleyhinə Rusiya ilə İtaliya arasında Rakkoniki razılaşması imzalandı. Burada dövlətlər razılığa gəlmişdilər ki, İtaliya Rusiyanın Balkanlardakı, Rusiya isə İtaliyanın Trablisdəki mənafeyini tanısın. İtaliya hesab edirdi ki, müharibə zamanı Avstriya və Almaniya bitərəf qalacaq. Mərakeş böhranı İtalyanın müharibəyə başlamasına şərait yaratdı. 1911-ci il sentyabrın 28-də İtaliya hökuməti Türkiyəyə nota göndərdi. Notada deyilirdi ki, Türkiyə İtaliyanın Tripolitaniya və Kirenaika ilə əlaqələrinə mane olur. Türkiyə Şimali Afrikada yerləşən vilayətlərin İtaliya tərəfindən işğalına mane olmamalı idi. Türkiyə İtaliyanın tələblərini təbii ki, rədd etdi.Sentyabrın 29-da İtaliya hərbi əməliyyatlara başladı. Vilayətlərin əhalisi İtaliya qoşunlarına ciddi müqavimət göstərirdi. Trablisdə çox az qüvvəsi olan Osmanlı dövləti İtaliyanın hücumuna ilk anda lazımi hərbi müqavimət göstərə bilmədi. İtalyanlar sahildə əlverişli mövqe ələ keçirdilər. Lakin Misir və Tunis vasitəsilə Trablisə gələn könüllü türk zabitləri İtaliya işğalının genişlənməsinə mane ola bildilər. İtaliya Türkiyəni sülhə məcbur etmək üçün Dardanel boğazına donanma göndərdi və Dardanelin girişini bombaladı. İtaliyanın bu hərəkəti Qərbin və Rusiyanın ciddi narazılığına səbəb oldu. Lakin boğazlarda daha ciddi hərəkət etməyə İtaliya cəsarət etmədi. Avstriya-Macarıstan qorxurdu ki, İtaliya vəziyyətdən istifadə edib Albaniyanı işğal etsin. İtaliya-Türkiyə müharibəsi ilə bağlı Osmanlıya Almaniyanın təsiri zəiflədi. Ancaq bu müharibənin

gedişinə əsaslı təsir göstərə bilmədi. Türkiyə müqavilə bağlamağa məcbur oldu. 1912-ci il oktyabrın 18-də Lozannada müqavilə bağlandı. Trablis və Kirenaika İtaliyanın müstəmləkəsinə çevrildi.

İtaliya-Türkiyə müharibəsi artıq çoxdan yetişmiş Balkan böhranını sürətləndirdi. Balkan dövlətləri bu müharibədən istifadə edərək, Türkiyəyə qarşı bir ittifaqda birləşmək qərarına gəldilər. Rusiyanın Serbiya ilə Bolqarıstanı yaxınlaşdırmaq cəhdləri 13 mart 1912-ci il Serb-Bolqar ittifaqının yaranmasına səbəb oldu. 1912-ci il mayın 29-da Yunanıstan, oktyabrın 6-da isə Çernoqoriya bu ittifaqa qoşuldu. Osmanlı dövlətinə qarşı Balkan dövlətləri birliyi yaradılmış oldu. 1912-ci ildə əvvəlcə Çernoqoriya, sonra isə Bolqarıstan, Serbiya və nəhayət 25 oktyabrda Yunanıstan Osmanlıya müharibə elan etdi. Türklər səfərbərliyə çox gec başladılar. Osmanlılar bolqarlarla savaşda Trakyanı itirdilər, Çatalçaya qədər geri çəkilmək məcburiyyətində qaldı. Kumovada isə türklər Serbiyaya məğlub oldular. Yunanlar Soloniki ələ keçirdi, bütün şimali Albaniya isə Çernoqoriya tərəfindən işğal edildi. Balkan dövlətlərinin qələbələri imperialist dövlətlərini inandırdı ki, Balkanlarda əvvəlki vəziyyəti saxlamaq mümkün deyildir. Bununla bərabər bu dövlətlər Balkanlardakı hadisələrdən müstəmləkə işğalları məqsədi ilə istifadə etməyə çalışırdılar. Rusiya İstanbulu və boğazları, Avstriya-Macarıstan, Soloniki, İtaliya Albaniyanı, Almaniya Anadolunu, İngiltərə isə Ərəbistan və Mesopotamiyanı işğal etməyə çalışırdı.

Bu məğlubiyyətlərdən sonra Osmanlı dövləti Qərb dövlətlərinin vasitəsilə 1912-ci ilin 3 dekabrında atəşin dayandırılmasına nail oldu. 1913-cü il mayın 30-da Londonda Balkan dövlətləri ilə Osmanlı arasında sülh müqaviləsi imzalandı. Bu müqavilə ilə Türkiyə Albaniya və Egey adalarının sərhədini müəyyən etməyi böyük dövlətlərin öhdəsinə buraxırdı. Krit Yunanıstana verildi, Ədirnə də Bolqarıstana keçdi. Avropada Türkiyənin əlində boğazlara bitişik dar bir ərazi

qaldı. Eniz-Midiya xəttindən Qərbə Avropa Türkiyəsinin bütün ərazisi qalib ölkələrə keçdi. Yüz minlərlə türk bütün var-yoxlarını qoyaraq İstanbula və Anadoluya qayıtdılar. Londan konfransının qərarları ilə Türkiyə çox böyük itkilərlə üzləşdi.

Osmanlı dövlətinin ağır məğlubiyyətlə Balkanlardan geri çəkilməsi siyasi baxımdan çox böyük bir boşluq yaratmış, Balkan torpaqlarının bölüşdürülməsi ilə əlaqədar bir-biri ilə dil tapa bilməyən müttəfiqlər arasında mübahisələr başlamışdı. 1913-cü il iyunun 1-də Solonikdə Serbiya ilə Yunanıstan arasında Bol-qarıstana qarşı hərbi ittifaq bağlandı. Rusiya Balkan ittifaqının dağılmasının qarşısını ala bilmədi. Avstriya-Macarıstan tərəfindən qızışdırılan Bolqarıstan 1913-cü il iyunun 30-da Serbiya və Yunanıstana qarşı hərbi əməliyyatlara başladı. Beləliklə, ikinci Balkan müharibəsi başladı. Osmanlı dövləti Bolqarıstanın işğal etdiyi türk torpaqlarına doğru hərəkət edərək Ədirnəni geri aldı. Rumıniya qoşunları Dunayı keçərək, demək olar müqavimətə rast gəlmədən Dobrucanı tutub Sofiyaya doğru hərəkət etdilər. Bolqarıstan tezliklə məğlub oldu. 1913-cü il avqustun 10-da Buxarestdə sülh müqaviləsi imzalandı. Buxarest sülhünün şərtləri ümumiyyətlə, bolqarlar üçün əlverişli deyildi. Bolqarıstan birinci Balkan müharibəsi zamanı işğal etdiyi yerlərin çox hissəsini, hətta birinci Balkan müharibəsinə qədər olan yerlərinin bir hissəsini itirdi. Belə ki, Dobruca Rumıniyaya, Makedoniyanın böyük hissəsi Serbiyaya, Ədirnə isə Osmanlı dövlətinə verildi. Yunanıstan Balkan müharibələri nəticəsində Egey dənizindəki bütün adaları, Cənubi Makedoniyanı, Soloniki aldı. Balkan müharibələri Osmanlı imperiyasının bu regionda mövqelərini zəiflətdi.

## 4.Osmanlı imperiyası Birinci Dünya müharibəsi illərində

Balkan müharibələri beynəlxalq vəziyyətin daha da kəskinləşməsinə səbəb oldu. Bu müharibələr Balkan yarımadasında Türkiyənin ağalığına son qoymaqla yanaşı, Balkan dövlətləri arasında ziddiyyətləri kəskinləşdirdi. Balkan dövlətlərinin arxasında böyük dövlətlər dururdular və bir-biriləri ilə Yaxın Şərqdə nüfuz uğrunda mübarizə aparırdılar. Balkan dövlətlərini öz təsirləri altına salmaq uğrunda mövcud qruplaşmalar arasında güclü mübarizə gedirdi.

1913-cü ilin dekabrında general Liman fon Sanders başda olmaqla Türkiyəyə yeni alman hərbi nümayəndəliyi gəldi. Bu nümayəndəliyə Balkan müharibələri dövründə dağıdılmış türk ordusunu yenidən təşkil etmək tapşırılmışdı. Nümayəndəliyin başçısı İstanbulda yerləşən birinci türk korpusunun komandanı təyin edilirdi. Paytaxtda olan türk qoşunlarının alman generalına tabe edilməsi, əslində Almaniyanı boğazların ağasına çevirirdi. Buna görə də general Limanın nümayəndəliyi təbii olaraq Rusiyanın hakim dairələrində güclü həyəcana səbəb oldu. Müttəfiqlər maliyyə boykotu, Bosforda dəniz qüvvələrinin nümayiş etdirilməsi və ya Türkiyənin bəzi limanlarının tutulması yolu ilə Türkiyəyə qarşı müxtəlif təzyiq tədbirləri haqqında Rusiya hökumətinin təklifini də rədd etdilər. Müttəfiqlərdən yardım ala bilməyən çar hökuməti belə bir formal güzəştlə kifayətlənməli oldu ki, general Liman korpus komandanı əvəzinə türk ordusunun baş müfəttişi vəzifəsinin tutsun. Aydındır ki, general Limanın yeni vəzifəsi Türkiyənin hərbi işlərinə onun həlledici təsirini zəiflətmirdi. Çünki alman generalı İstanbul korpusuna daxil olan Skutar diviziyasının rəisi olaraq qalırdı.

Müharibənin ilk günlərindən hər iki tərəf Türkiyəni öz tərəfinə çəkməyə cəhd edirdi. Gənc türklər hökuməti Almaniyaya meyl edirdi. Lakin Türkiyənin Antanta dövlətlərindən

maliyyə-iqtisadi asılılığı çox böyük idi. 1914-cü il avqustun 2-də alman-türk ittifaq müqaviləsi imzalandı. Müqaviləyə görə, əgər Rusiya Avstriya-Macarıstan münaqişəsinə qarışarsa, Almaniya Avstriya-Macarıstan tərəfindən müharibəyə qoşularsa, Türkiyə də Rusiyaya müharibə elan etməlidir. Türkiyə ordusunu bütünlüklə Almaniyanın ixtiyarına verirdi. Bununla yanaşı, ittifaq müqaviləsi imzalanandan bir gün sonra Türkiyə özünün bitərəfliyini elan etdi. Bu onunla izah edilirdi ki, Türkiyə hələ müharibəyə hazır deyil.

Osmanlı dövlətinin 1914-cü ilin ortalarındakı xarici siyasətinin qeyri-müəyyənliyi hökumət daxilindəki fikir ayrılığı idi. Belə ki, Ənvər paşa başda olmaqla bir qrup Almaniya ilə ittifaq tərəfdarı oduğu halda, maliyyə naziri Cavid bəy başda olmaqla digər bir qrup isə Antanta dövlətləri ilə ittifaq tərəfdarı idi. 1914-cü ilin avqustun 18-də Rusiya ilə İngiltərə birlikdə irəli sürdükləri təklifdə Türkiyənin bitərəf qalması müqabilində Osmanlı dövlətinin müstəqilliyinə və ərazi bütövlüyünə təminat verdiklərini və hər hansı bir təcavüzə qarşı çıxacaqlarını bildirdilər. Rusiya və İngiltərənin müştərək təklifinə qarşı Türkiyə aşağıdakı təklifləri irəli sürdü:

1.Kapitulyasiyaların tam ləğv edilməsi;

2.Müharibənin başlanğıcında İngiltərə hökumətinin müsadirə etdiyi iki zirehli gəminin geri verilməsi;

3. Qərbi Frakiyanın Osmanlı dövlətinə geri verilməsi;

4. Yunanıstan tərəfindən işğal edilmiş adaların Türkiyəyə qaytarılması;

5. Misir məsələsinin həll edilməsi;

6. Rusiyanın Türkiyənin daxili işlərinə qarışmamasına təminat verilməsi;

7. Rusiyanın Türkiyə üzərinə hücum edəcəyi təqdirdə İngiltərə və Fransanın həqiqətən Osmanlı dövlətini müdafiə edəcəklərinə vəd verməsi.

Camal paşa bu təklifləri İstanbuldakı ingilis səfiri Malletə təqdim etmiş, o da öz növbəsində bu təklifləri Londona

çatdırmışdı. Üç gündən sonra Mallet Türkiyənin irəli sürdüyü təkliflərə ətraflı cavab verdi. İndiki vaxtda İngiltərə öz müttəfiqlərinin razılığı ilə bəzi maliyyə kapitulyasiyalarının ləğv edilməsinə razı ola bilər Türkiyənin adalarla bağlı Yunanıstanla olan mübahisənin müəyyən vaxta qədər təxirə salınması lazım bilindi. Misir məsələsi müharibədən sonra həll edilərsə daha yaxşı olar. Mallet həm də bildirdi ki, rusların Türkiyə üzərinə hücum etmək məqsədi yoxdur, həm də İngiltərə və Fransa Türkiyənin ərazi bütövlüyünə təminat verən memorandum imzalamışlar.

Kapitulyasiyaların Osmanlı dövləti tərəfindən ləğv edilməsi ərəfəsində ingilis səfiri Mallet İngiltərə və Fransanın adından Türkiyəni inandırmağa çalışmışdı ki, Rusiyanın Türkiyəyə qarşı təcavüzkar niyyəti yoxdur, əgər Türkiyə ordusu təcili tərxis olunarsa, "Heben" və "Breslau" gəmiləri tərksilah edilərsə, alman təlimatçıları ölkədən kənarlaşdırılarsa, onda müttəfiqlər Türkiyənin toxunulmazlığına təminat verər, adalar məsələsini Türkiyənin xeyrinə həll edər, iqtisadi kapitulyasiyalar məsələsində güzəştə gedərlər. Malletin irəli sürdüyü şərtlər Türkiyə hökuməti tərəfindən Antanta dövlətlərinin zəiflik əlaməti kimi qəbul edildi. İngiltərə Türkiyənin bitərəf qalması üçün çox səy göstərirdi. Sentyabrın 27-də ingilis səfiri bildirmişdi ki, əgər Türkiyə bitərəfliyini qoruyub saxlayarsa İngiltərə hökuməti müharibənin başlanğıcında müsadirə etdiyi hərbi gəmiləri geri qaytara bilər. Lakin müharibəyə qoşulmaqla daha çox fayda əldə edəcəyini düşünən və getdikcə daha çox Almaniyanın təsiri altına düşən Türkiyə hökuməti İngiltərənin bu müraciətini cavabsız qoydu.

1914-cü ilin iyulun sonunda alman hərbi gəmilərinin Aralıq dənizindən keçib Osmanlıya gəlməsi ölkənin hakim dairələrindəki almanpərəst qrupun mövqeyini xeyli möhkəmləndirmişdi. Türkiyənin ordu və donanması tamamilə Almaniyanın nəzarəti altında idi. Osmanlı oktyabra qədər müharibəyə hazırlaşdı. Oktyabrın 16-17-də alman-türk donanması Odessa,

Sevastopol, Feodosiya və Novorossiyski atəşə tutdular. Oktyabrın 20-də Rusiya Osmanlıya müharibə elan etdi, ertəsi gün isə ingilislər Dardaneli bombardman etdilər. Asiyada bir neçə yeni cəbhə əmələ gəldi ki, bunlardan başlıcası Qafqaz cəbhəsi idi. Qafqaz cəbhəsində aparılan ən mühüm döyüşlərdən biri Sarıqamış döyüşü olmuşdur. Ənvər paşanın rəhbərlik etdiyi bu döyüşün məqsədi 1878-ci ildə ruslara verilmiş Qars, Ərdahan və Batumu geri almaq idi. Almanlar bunun yerinə Osmanlı qüvvələrinin Qalitsiyaya çıxarılıb Avstriya cəbhəsində vuruşmasını məsləhət vermişdilər. Amma Ənvər paşa qəbul etməmişdi. Bunun da səbəbi o idi ki, türklər bilirdilər ki ruslar tez-gec Qafqaz və İrandakı mövqelərindən faydalanaraq Şərqi Anadolunu işğal etməyə çalışacaqlar. Ənvər Paşa bütün qüvvələri ilə birlikdə döyüşə girdi. Dekabrda üçüncü türk ordusu hücuma başlayıb, rus ordusunun arxasına keçdi. Lakin Sarıqamışın müdafiəsi və Türkiyə qoşun qruplarını cinahlardan dövrəyə alan rus qoşunlarının hərbi əməliyyatı dekabrın axırlarında Türkiyənin bir korpusunun mühasirəyə salınması və digərinin darmadağın edilməsi ilə nəticələndi. Türk ordusu ağır qış şəraitində aparılan bu döyüşdə böyük itkilər verərək geri çəkilməyə məcbur oldu. 1916-cı ilin yazında rus qoşunları bütün Qafqaz cəbhəsi boyunca hücuma keçdi. Müharibənin çətin şəraitdə, dağlarda aparılmasına baxmayaraq, rus qoşunları 1916-cı ilin fevralında Ərzurumu, apreldə isə Trabzonu tutdular və bununla ruslar bütün Şərqi Anadolunu işğal etmiş oldular. Bu tarixdən etibarən türk qoşunlarının zəif qüvvələrlə təşkil olunan hücumları nəticəsiz qaldı. Ərzincan barışığının imzalanmasından sonra rus ordusu işğal etdiyi bölgələrdən çəkilməyə başladı.

Hələ Birinci dünya müharibəsi ərəfəsində Rusiya istifadə etmək üçün "erməni məsələsi"ni yenidən irəli sürmüşdü. Ermənilərin "Daşnakstyun" partiyası "öz milli müqəddaratını təyin etmək" şüarı ilə pərdələnərək Antanta dövlətlərinin, ilk növbədə Rusiyanın əlaltısına çevrilmişdi. Bütün ermənilərin

katolikosu 1912-ci ilin payızında II Nikolaya müraciət edərək Osmanlıda yaşayan erməniləri "müdafiə etməyi xahiş etmişdi". Rusiya hökuməti Osmanlıda yaşayan ermənilərdən gələcəkdə bir vasitə kimi istifadə etmək üçün onları müdafiə edəcəyinə söz vermişdi.

Osmanlının 1914-cü ildə İngiltərə, Fransa və Rusiyaya qarşı müharibəyə girməsi, erməni komitələrində böyük bir fürsət olaraq dəyərləndirilmişdi. Könüllü alaylar toplayaraq rus ordusuna qatılan ermənilər, rus işğalçı orduları ilə birlikdə Şərqi Anadolu torpaqlarına soxulmuşlar. Həm də Anadolunun müxtəlif bölgələrində erməni əhalisi yeni qiyamlar qaldırmış, Osmanlı dövlətinə xəyanət etmiş və dinc əhali böyük bir soyqırıma məruz qalmışdı. Bu soyqırımda təkcə türklər deyil, Trabzon ətrafında yaşayan rumlar və kürdlər də ermənilər tərəfindən qətlə yetirilmişdir. Osmanlı dövləti ermənilərin xəyanətinə cavab tədbirləri görməyə məcbur oldu. Çünki ermənilər ruslarla ittifaqda idilər və onlar dinc əhaliyə qanlı divan tuturdular. Erməni başkəsənləri heç kəsə aman vermirdilər: qocaları, uşaqları, hamilə qadınları, körpələri misli görünməmiş vəhşiliklərlə qətlə yetirirdilər.

Bunlara cavab olaraq Osmanlı hökuməti erməniləri hərbi xidmətə cəlb etməməyə, erməni komitə mərkəzlərini ləğv etməyə, onların başçılarını həbs etməyə başladı. Osmanlı hökuməti qiyamçı erməniləri həm də Suriya və Livana köçürmək haqqında qərar verdi. O zaman bu ərazilər Osmanlı imperiyasına daxil idi. Köçürülmə və həbslər 1915-ci il aprelin 24-də başladığına görə ermənilər bu günü qondarma erməni soyqırımı kimi qeyd edirlər və bunun digər ölkələr tərəfindən tanınmasına çalışsalar da məkrli məqsədlərinə nail ola bilməmişdilər.

1915-ci ildə Qafqaz cəbhəsində böyük hərbi əməliyyat olmadı. Türk ordularının diqqəti müttəfiqlərin Dardanelə çıxardığı desanta qarşı mübarizəyə cəlb olunmuşdu. İngilis donanması 18 mart 1915-ci ildə Çanaqqala (Dardanel) boğazını

keçməyə təşəbbüs etsədə, sahil topçularının müvəffəqiyyətli müdafiəsi nəticəsində məqsədinə nail olmadı və ağır itkilərə məruz qaldı. İrəliləmək istəyən ingilislərlə tez-tez şiddətli vuruşmalar olurdu, lakin hər bir hücum türk əsgərinin müdafiəsi qarşısında müvəffəqiyyətsizliyə uğrayırdı. Düşmən Çanaqqalada müvəffəqiyyətə nail olmadığına, irəliləyə bilməməsinə baxmayaraq, yeni bir desant əmliyyatına başlamaq istəyirdi. İngilislər bu məqsədlə 1915-ci ilin avqustunda möhkəmləndirilmiş qüvvələrlə daha bir hücuma əl atdılar. Düşmən qüvvələri ilə türklər arasında şiddətli vuruşmalar oldu. Ancaq Mustafa Kamalın rəhbərlik etdiyi 19-cu diviziyanın əsgərləri düşmənin bu hücumunun da qarşısını aldı. Beləliklə, düşmənin irəliləməsinə imkan verilməmiş, əksinə, onlar tutduqları mövqelərdən çıxarılmışdılar. Aylarla davam edən desant əməliyyatlarına və döyüşlərə baxmayaraq irəliləyə bilməyən ingilislər, nəhayət, 1915-ci ilin dekabrında müttəfiqlərlə bərabər Çanaqqaladan geri çəkildilər. Düşmənlərin Çanaqqala boğazını keçə bilməməsi İstanbulun işğalının qarşısını almış, ingilislərin Mərmərə və Qara dəniz vasitəsilə müttəfiqləri olan Rusiya ilə əlaqə yaratmaq imkanını puç etmişdi.

1914-cü ildə İraqa ordu çıxaran ingilislər ruslarla birləşib Anadolunu mühasirəyə almaq fikrində idilər. Eyni zamanda türk qoşunlarının İrana girməsinin və Hindistanı hədələməsinin qarşısını almağı düşünürdülər. İranın şimal hissəsi rus qoşunları tərəfindən tutulmuşdu, lakin rusların İraqda hərbi əməliyyat keçirən ingilislərlə sıx əlaqə yaratmaq cəhdləri müvəffəqiyyətsiz oldu. 1915-ci ildə hərbi qüvvələrinin çox hissəsini itirən ingilislər geri çəkilsələr də, 1917-ci ildə Bağdada daxil olmuşlar. Türklərin Misirdə Osmanlı hakimiyyətini yenidən qurmaq və Süveyş kanalını ələ keçirərək İngiltərənin Hindistana yolunu kəsmək məqsədilə apardıqları döyüş əməliyyatları da uğursuzluqla nəticələnmişdir.

Uzun və mürəkkəb danışıqlardan sonra Antanta dövlətləri Türkiyənin bölüşdürülməsi məsələsində müəyyən razılığa

gəlmişdilər. 1916-cı ilin aprel və may aylarında ingilis və fransız diplomatları olan Sayks və Pikonun lahiyəsi əsasında İngiltərə, Fransa və Rusiya arasında Asiya Türkiyəsini bölüşdürmək haqqında ümumi saziş bağlandı. Sazişə əsasən, müharibədən sonra İstanbul, boğazlar, Ərzurum, Van, Bitlis, Bəyazid, Trabzon və Trabzonun qərbində Qara dəniz sahillərinin xeyli hissəsi Rusiyaya verilməli idi. Lakin bunun müqabilində Rusiya Türkiyə torpaqlarının böyük bir hissəsinə İngiltərə və Fransanın hüququnu təsdiq etməli oldu.

Sazişə görə Fransa Suriya, Livan, Kilikiya və Mosul bölgələrini, İsgəndəriyyə körfəzini almalı idi. İngiltərə fransız zonasından cənuba İran körfəzinə qədər olan əraziyə sahib olmalı idi. Ərəbistan yarımadasının böyük hissəsi ingilis təsir dairəsi hesab olunurdu. Beləliklə, gələcək ərəb dövlətləri İngiltərə və Fransanın siyasi, iqtisadi və hərbi asılılığına düşürdülər. 1917-ci ilin aprelin 19-da İngiltərə və Fransa İtaliyanın Kiçik Asiyanın fransız mülklərindən şərqə doğru İzmirə qədərki əraziləri tutmaq hüququnu tanıdılar.

1917-ci ilin 7 noyabrında baş verən bolşevik çevrilişi hadisələrə yeni axar verdi, rus siyasətində əsaslı dönüş oldu. Bolşevik rəhbərlərinin müraciəti ilə Almaniya sülh təklifini qəbul etdi və 1917-ci ilin 15 dekabrında Brest-Litovsk şəhərində bir tərəfdən Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Türkiyə, digər tərəfdən də Rusiya arasında sülh danışıqları başlandı. 1918-ci ilin martın 3-də bağlanmış Brest-Litovsk müqaviləsinə görə Qars, Ərdahan və Batum Osmanlı dövlətinə qaytarılırdı. Brest-Litovsk müqaviləsinin Osmanlıya aid şərtlərinin həyata keçirilməsi üçün üçüncü ordu komandanı Vəhib paşa Zaqafqaziya Seyminə 10 mart 1918-ci ildə nota göndərərək Qars, Ərdahan və Batumdan erməni və gürcü qoşunlarının geri çəkilməsini tələb etdi. Ancaq gürcülər Batumun, ermənilər də digər vilayətlərin osmanlılara verilməsinin əleyhinə oldular. Zaqafqaziya Seymi Brest-Litovsk müqaviləsini tanımadıqlarını elan edərək Osmanlı dövlətinə ayrıca danışıq

aparmağı təklif etdi. Osmanlı dövləti bu təklifi qəbul etdi və 14 mart-14 aprel 1918-ci ildə tərəflərin Trabzon konfransı oldu. Bu danışıqlardan bir nəticə alınmayacağı aydın olduqdan sonra türk ordusu hücuma keçdi. Qars, Ərdahan və Batum azad edildi.

1918-ci il sentyabrın 30-da Almaniyada yeni hökumət təşkil edildi və bu hökumət oktyabrın 4-də Amerika prezidenti Vudro Vilsona müraciət edərək sülh bağlamağa razı olduğunu bildirdi. Barışıq haqqında danışıqlar davam edərkən Almaniyanın müttəfiqləri bir-bir hərbi əməliyyatları dayandırırdılar. 1918-ci ilin oktyabrında türk ordusu Fələstində və Suriyada məğlubiyyətə uğradı. 1918-ci il oktyabrın 30-da türklərlə ingilislər arasında Mudros barışığı imzalandı. Mudros barışığı ərəb ölkələrinin ərazisinin Antanta qüvvələri tərəfindən tutulması ilə kifayətlənməyərək, Türkiyənin qarşısında aşağıdakı ağır tələbləri qoymuşdu:

Dardanel və Bosfor boğazları müttəfiqlərin ixtiyarına verilsin; ölkədəki bütün malları almaq üçün müttəfiqlərə üstünlük verilir və Türkiyə xaricə mal apara bilməz; Türkiyənin bütün dəmiryolları müttəfiqlərin nəzarəti altına keçir; ərəb ölkələrində olan bütün ordular müttəfiqlərin ixtiyarına verilməlidir; Trablis və Kirenaykada olan bütün türk zabitləri İtaliya qarnizonuna verilməlidir; Türkiyə ərazisində olan alman və Avstriya təbəələri ölkədən sürgün edilməlidirlər; Türkiyə hərbi əsirləri isə müttəfiqlərin ixtiyarında qalmalıdır; müttəfiqlərin hərbi əsirləri İstanbula gətirilərək müvafiq ölkəyə təslim edilməli idi; Osmanlı hökuməti daxili nizam-intizamı və sərhədləri qorumaq üçün lazım olacaq hərbi qüvvələrdən başqa qüvvə saxlamaq hüququndan məhrum edilirdi; Osmanlı sularında üzən hərbi gəmilər müttəfiqlərə təslim edilməli idi; müttəfiq dövlətlər öz mövqelərinə qarşı təhlükə hiss edərdilərsə, onda imperiyanın istənilən strateji yerini işğal etmək hüququna malik idilər. Barışığın şərtlərinə görə türk ordusu tezliklə Azərbaycan tərk etməli, türklər Cənubi Qafqaz

dəmiryolu üzərində nəzarət hüququnu Antantaya verməli, müttəfiqlərin Bakını və Batumu tutmasına qarşı Türkiyə heç bir narazılıq etməməlidir.

Mudros barışığı Türkiyəni Antanta dövlətlərinə təslim etdi. Bununla da Antanta dövlətləri Osmanlı imperiyasını parçalamaq haqqındakı öz əvvəlki planlarını həyata keçirməyə başlayaraq, ölkənin bir çox yerlərini işğal etdilər.

# TÜRK XALQLARI XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

## 1.Türk xalqları birinci rus inqilabı ərəfəsi və inqilab illərində

XIX əsrin sonlarında türk xalqlarının oyanışı güclənir, onlar arasında türkçülük ideyası yaranır və yayılırdı. Millətçilik ideyasının yoxluğunun, milli özünüdərkin, türk xalqlarının birliyi uğrunda güclü çalışmaların olmamasını türk dünyasının dirçəlişi və tərəqqisi yolunda ciddi maneələr kimi qiymətləndirən ayrı-ayrı ictimai xadimlər və ziyalılar türkçülük məfkurəsinin formalaşdırılmasına başlamışdılar. Türk xalqlarının yaşadıqları ərazilərdə kapitalist münasibətlərinin inkişafı, Rusiyada baş vermiş ilk burjua demokratik inqilabı milli hərəkatın formalaşmasına təkan verməyə bilməzdi. XX əsrin əvvəllərində Rusiyada türkçülük ideologiyasının formalaşması türk xalqları yaşayan bölgələrdə milli burjuaziyanın meydana gəlməsi və inkişafı ilə bağlı idi. H.Zərdabinin "Əkinçi" qəzetində, sonra isə İ.Qaspıralının "Tərcüman" qəzetində geniş yayılan türkçülük ideyaları Rusiya əsarətində olan türk xalqlarının milli şüurunun formalaşmasında və inkişafında mühüm rol oynadı. Sonrakı dövrlərdə Rusiyanın bir sıra digər şəhərlərində nəşri başlanılmış qəzet, jurnal və digər çap materiallarında türkçülük və turanclıq ideyaları daha sistemli işıqlandırılmağa başlandı.

Yusif Akçura oğlu qeyd edirdi ki, nəsiltayfa hisslərinin milli təfəkkür səviyyəsinə yüksəlməsi Qərbdə baş vermişdir. İlkin olaraq Avropa ilə sıx əlaqələrdə və qarşılıqlı münasibətlərdə olan türklər tərəfindən mənimsənilmişdir. Bu əsasən osmanlılar adlanan Qərb türklərinə, Krım, Volqa və Qafqaz türklərinə aiddir. Beləliklə, bu dövrdə biz "türklər"in bu dörd qrupunda milli təfəkkürün yaranması və yayılmasının şahidi oluruq.

Bu dövrdəki gerilik, tənəzzül, müstəmləkə əsarəti türk xalqlarının dinə və millətçiliyətürk birliyinə söykənməsini şərt-

ləndirirdi. Məhz bu və digər amillər zəminində bir sıra ideologiya və hərəkatlar formalaşmağa başladı. Krımlı İsmayıl bəy Qaspıralı "dildə, fikirdə, işdə birlik" şüarı və fəaliyyəti ilə türklərin birlik şüurunun dirçəldilməsi sahəsində böyük xidmət göstərmişdir. O, vahid türk millətindən bəhs etməsinə baxmayaraq mövcud mühiti nəzərə alaraq siyasi fəaliyyətə çağırmırdı. Türkçülüyü mədəniyyət sahəsi ilə məhdudlaşan Qaspıralı türk xalqlarının birliyinin din və mənəviyyat ümumiliyi əsasında həyata keçirilməsi xəttini yeritməyə çalışırdı. O, "Rusiyada müsəlmanlar" adlı əsərində yazırdı: "Asiya və Avropanın hissələrini türk-tatarlar adlanan böyük millət məskunlaşdırmışdır. Bu millət hissələrə parçalanmışdır və buna görə də zəifdir, digər millətlərlə müqayisədə o, elm, maarif və mədəniyyət sahəsində geridə qalmışdır. Əgər belə davam edərsə təbii ki, o məhv olacaq, digər millətlər tərəfindən udulacaqdır. " Türk xalqlarını bütöv bir millət kimi qiymətləndirən İsmayıl bəy, onları ümumi təmiz ədəbi dil əsasında birləşməyə, ana dili vasitəsilə Avropa maarifi və elmi fikrinə, mədəniyyəti və ictimai-siyasi məfkurəsinə yiyələnməyə çağırırdı. Krımda "Gənc tatarlar" adlı təşkilatın yaranmasına fəal təsir göstərən Qaspıralı Krım tatarlarını muxtariyyət tələb edən digər xalqlara baxaraq boş durmamağa, xalqı bu fikrə alışdırmağa çalışırdı. Rusiya türklərinin qabaqcıl mədəniyyət və siyasət xadimləri ilə əlaqələr yaradaraq bir sıra ümumtürk toplantılarında türklərin məsələsini vahid halda ortaya qoymağa müəyyən problemləri həll etməyə çalışırdı.

Ə.Hüseynzadə, Ə.Ağayev, Ə.Topçubaşov, M.Rəsulzadə və başqaları Azərbaycanda türkçülüyün əsasını qoymuş, türkçülük ideyalarının formalaşdırılması və yayılmasında fəal iştirak etmişlər. Onlar İsmayıl bəy Qaspıralı, Zəki Validi Toğan, Yusif Akçura oğlu, Ziya Göyalp və başqa bu kimi liderləri ilə birlikdə türkçülük ideyasını yaymaqla türk xalqlarının əsarətdən qurtularaq dirçəlişə və tərəqqiyə çatmasına çalışmışlar.

Rusiya imperiyasında inqilabi-demokratik və milli azadlıq hərəkatlarının XX əsrin əvvəllərində yeni dalğası şəraitində Ə.Hüseynzadə özünün siyasi fəaliyyətini və ictimai ideyalar axtarışlarını xeyli genişləndirir. Azərbaycana qayıdan kimi türkçülük hərəkatı və ideyaları məsələləri ilə daha fəal və sistemli məşğul olmağa başlayır. 1905-ci il inqilabı ərəfəsində Ə.Hüseynzadə Rusiya imperiyasının müstəmləkə zülmü altında əzilən məhkum millətlərin ictimai-siyasi faciəsini açıqlayır, Qafqaz müsəlmanlarının öz faciəsini dərk etmələrinə çalışırdı.

XX əsrin əvvəllərində Rusiya imperiyasının asılı xalqlarının milli-azadlıq mübarizəsinə qalxması nəticəsində Ə.Ağayev ümumtürk problemi ilə daha yaxından məşğul olmağa başlayır. Ə.Ağayevin ictimai-siyasi baxışları ilə yaxından tanışlıq belə bir nəticəyə gəlməyə əsas verir ki, XX əsrin əvvəlində o artıq mükəmməl milli intibah ideyaları və proqramının formalaşdırılması işinə başlamışdı.

Birinci rus inqilabının məğlubiyyətindən sonra bir çox görkəmli türkçülər Rusiyadan xaricə, xüsusilə Türkiyəyə mühacirət etməli olurlar. Onların içərisində tatar Yusif Akçura oğlu, Ə.Hüseynzadə, Ə.Ağayev və başqaları da var idi. Bu görkəmli türkçülər Türkiyədə və Avropada türkçülük ideyalarının yayılmasında mühüm rol oynamışdılar. Sonralar "Türk dili" külliyatı qeyd edirdi ki, Əli bəy Hüseynzadənin poetik türkçülüyü "1905-ci ildən sonra İstanbulda digər türkçülərin, o cümlədən Ziya Göyalpın meydana gəlməsinə şərait yaratdı". Məhz Rusiya türkçülərinin axışıb Türkiyəyə gəlməsi İstanbulun türkçülük təbliğatının mərkəzinə çevrilməsinə, Türkiyədə və Avropanın müxtəlif şəhərlərində türk cəmiyyətlərinin yaranmasına səbəb oldu. Türklərin yeganə müstəqil dövləti olan Türkiyə türkçülük ideologiyasının mərkəzinə çevrildikcə türk xalqlarının birlik, yekdillik ideyaları son nəticədə Türkiyə ilə bağlanırdı.

Fəhlə və kəndlilərin yoxsul vəziyyəti, çar hökumətinin türk-müsəlman əhaliyə qarşı ayrı-seçkilik siyasəti xalqda nara-

zılıq yaradırdı. 1900-cü ilin noyabrında Krasnavodskda yükdaşıyan fəhlələrin tətili başlamışdı. Artıq dekabrın əvvəllərində bu tətil dayandırılmışdı. Buna baxmayaraq onlar sahibkarları bir neçə güzəştə getməyə məcbur edə bilmişdilər. Orta Asiya siyasi məhbusların sürgün yerinə çevrilmişdi. Birinci rus inqilabı ərəfəsində Rusiyada inqilabi hərəkat genişləndikcə siyasi görüşlərinə görə Orta Asiyaya sürgün olunanların sayı artırdı. Hətta yerli hakimiyyət orqanları buraya sürgün edilənlərin sayca artmasından narazılıqlarını bildirirdilər.

1902-1903-cü illərdə Orta Asiyada gizli sosial-demokrat təşkilatları yaranmağa başlamışdı. Gizli iş aparan sosial-demokratların əksəriyyəti buraya sürgün olunan ruslardan ibarət idi. Qafqaz sosial-demokratlarının Bakı komitəsinin mətbəəsində hökumət əleyhinə nəşr olunmuş vərəqələri Bişkek şəhərində yayan Ponomaryov və Oleynikov həbs edilmişdilər. Qazax və qırğız dilini bilən Berezovski hökumət əleyhinə əhali arasında təbliğat aparırdı.

Mərkəzi Asiyanın türk əhalisi bütün siyasi hüquqlardan məhrum edilmişdilər, ən yaxşı torpaqlar əllərindən alınmış ənənəvi istehsal üsulu, sosial struktur dağıdılmışdı. Müstəmləkəçi hökumət qarşılarına bu bölgənin ruslaşdırılması məsələsini qoymuşdular. Bununla bərabər, XX əsin əvvəllərində milli azadlıq hərəkatı yeni mərhələyə qədəm qoyur. Azadlıq hərəkatında əsas yeri milli ziyalılar tuturdular. Onların möhkəmlənməsi XX əsrin əvvəllərində siyasi partiyaların yaranmasına gətirib çıxartdı.

İnqilab ərəfəsində Rusiyanın mərkəzində olduğu kimi Volqaboyu, Sibir və Krımda da ictimai-siyasi vəziyyət mürəkkəb idi. Çar hökuməti bu regionların xalqlarını siyasi, iqtisadi və milli əsarət altında saxlayırdı. Bu regionlarda da sosial-demokrat dərnək və təşkilatlarının yaradılmasına başlanmışdı. Sosial-demokratlar çarizmə qarşı mübarizədə fəhlə və kəndliləri birləşməyə çağırırdılar. Milli-azadlıq hərəkatının yüksəlişi fəhlə və kəndli hərəkatının güclənməsi ilə əlaqədar idi.

Çarizm milli-azadlıq hərəkatına qarşı mübarizədə cəza tədbirlərini gücləndirir, milli burjuaziya isə milli-azadlıq hərəkatını öz məqsədinə tabe etməyə can atırdı. Milli burjuaziya mütləqiyyətlə sövdələşmək yolu ilə muxtariyyət almaq və yaxud da iqtisadi və siyasi xarakterli güzəştlər əldə etmək ümidində idi.

XX əsrin əvvəllərində aqrar ölkə olan Rusiyada quraqlıqlar başlamış, şəhərlərdə ərzaq məhsulları, istehlak malları tükənmiş, qıtlıq başlamış, nəticədə xalqın vəziyyəti xeyli pisləşmişdi. Böhran nəticəsində üç yüzdən artıq zavod və fabriklər bağlanmış, yüz minə qədər adam işsiz qalmışdı. Ölkə iqtisadiyyatındakı feodalizm qalıqları da fəhlələrin həyat şəraitini ağırlaşdırırdı. Ölkənin iqtisadi və siyasi inkişafını ləngidən bu maneələrin aradan qaldırılması fəhlə sinfinin əsas vəzifəsinə çevrilirdi. Ölkənin milli ucqarlarında iqtisadi və siyasi inkişaf getdikcə daha çox ləngiyirdi, çünki Rusiyanın mərkəzinə nisbətən burada feodalizm qalıqları daha çox idi. Milli ucqarların mütərəqqi inkişafı yolunda bu əngəllərin aradan qaldırılması cəmiyyətin zəruri tələbatına çevrilirdi.

Fəhlələrin, kəndlilərin və qeyri-rus xalqlarının heç bir siyasi hüququ yox idi. Mülkədarların, kapitalistlərin zülmü, milli zülm Rusiyada sinfi ziddiyyətləri xeyli kəskinləşdirmişdi. 1900-1904-cü illərdə fəhlələrin bütün ölkədə başlanan geniş tətil mübarizəsi və kəndlilərin çıxışları inqilabın yaxınlaşdığından xəbər verirdi. 1904-cü ilin yanvarında başlanan rus-yapon müharibəsi Rusiyanın məğlubiyyəti ilə başa çatdı. Bu məğlubiyyət nəticəsində II Nikolay xalq qarşısında öz nüfuzunu itirir. Rus dövlətinin iqtisadi quruluşu pozulur, bahalıq artır, vergilər yüksəlir, onsuz da fəhlələrin az olan əmək haqqı daha da azalır. Beləliklə, rus hökuməti nüfuzdan düşür, inqilabçıların isə çoxdan gözlədikləri şərait yetişir.

1905-ci il yanvarm 9-da Petroqradda baş verən qanlı hadisələr qısa zamanda Rusiyada, çarizmin milli müstəmləkələrində, o cümlədən Orta Asiya, Volqaboyu, Sibir və Krımda

inqilabi fırtınanın baş qaldırmasına, milli-azadlıq hərəkatının geniş vüsət almasına səbəb oldu.

1905-ci il inqilabından sonra Rusiyada başlanan inqilabi hərəkat milli ucqarların bütün bölgələrinə sirayət etdi. Bu bölgələrin qabaqcıl ziyalıları hürriyyət və maarif yoluna cəlb olundular. Bakıda, Daşkənddə, Səmərqənddə, Kazanda, Alma-Atada, Həştərxanda, Krımda türk dünyasının digər bölgələrində milli və dini məsələlərə dair kitablar, kitabçalar, publisistik yazılar dərc olunmağa başladı. Birinci rus inqilabı Orta Asiyada, Volqaboyunda və digər bölgələrdə baş verən inqilabi hərəkata, milli və dini oyanışa təsir etdi. Hürriyyət abı-havası imperiyanın sərt qanunlarmı xeyli yumşaltdı, ölkədə söz, mətbuat azadlığına zəmin yaranmasına səbəb oldu. Qazax, özbək, türkmən, tatar yazıçıları və publisistləri ana dilində mətbuat orqanları yaratmağa imkan tapdılar. Daşkənddə 10 adda, Səmərqənddə 5 adda, Alma-Atada 6 adda, Kazanda 9 adda mətbuat orqanları nəşr olundu. İnqilab havası partiyaların, cəmiyyətlərin, dərnəklərin fəaliyyəti üçün şərait yaratdı. Başqa sözlə, inqilab türk xalqları arasmda milli oyanışa güclü təkan verdi. Daşkənddə, Buxarada, Xivədə, Həştərxanda yerli bəy və xanlarla yanaşı, çar üsul-idarəsinə qarşı mübarizə gücləndi.

1905-ci ilin yazında Orta Asiya və Volqaboyunda kütləvi kəndli hərəkatı başladı. Kəndli hərəkatının genişlənməsindən qorxuya düşən mülkədarlar çar qoşunları tərəfindən mühafizə olunmaq üçün şəhərlərə qaçır, çardan və qubernatorlardan xahiş edirdilər ki, kəndli hərəkatının qarşısını almaq üçün bölgələrə əlavə qoşun hissələri göndərsinlər. Çar hökuməti kəndli çıxışlarını yatırmaq üçün kəndlərə kazaklar və əsgərlər göndərirdi. Çar qüvvələri tərəfindən öldürülən, döyülən və işgəncə verilən kəndlilər mübarizəni dayandırmırdılar. Onlar fəhlələr tərəfindən müdafiə edilirdilər. Çar hakimiyyət orqanlarının sənaye mərkəzlərindən sürgün etdikləri inqilabçı fəhlələr çarizmə və mülkədarlara qarşı mübarizədə kəndlilərə yardım edirdilər. Hələ xeyli dərəcədə kortəbii xarakter daşı-

masına baxmayaraq, bu hərəkat kəndlilərə fəhlə hərəkatının və inqilabi sosial-demokrat təbliğatının təsirinin gücləndiyini sübut edirdi.

Peterburqda baş vermiş yanvar hadisələri Krımda da inqilabi hərəkatın başlanmasına səbəb oldu. 1905-ci il yanvarın 17-də Sevastopolda sosial-demokrat təşkilatlarının yığıncağı keçirildi, yanvar hadisələrinə etiraz əlaməti olaraq kütləvi tətillər keçirilməsi qərara alındı. 1905-ci il iyunun 14-də Qara dənizdə "Potyomkin" zirehli gəmisində matrosların üsyanı baş verdi. Zirehli gəmi Odessanın yaxınlığında idi, bu vaxt Odessada fəhlələrin ümumi tətili keçirilirdi. Matroslar Odessada baş vermiş hadisələrdən xəbərdar idilər və fəhlələrə yardım göstərməyə çalışırdılar. İlk dəfə olaraq hərbi gəmi inqilabçıların tərəfinə keçmişdi. "Potyomkin" gəmisinin xalqın tərəfinə keçməsi hakim dairələri bərk qorxutdu, lakin üsyançı matrosların kifayət qədər təcrübəli rəhbərlərinin olmamasından matrosların üsyanı məğlubiyyətlə qurtardı. "Potyomkin" zirehli gəmisindəki üsyandan sonra Krımda fəhlələrin siyasi tətilləri gücləndi.

1905-ci il oktyabrın 7-də Moskva-Kazan dəmiryolunda tətil başlandı. Tətilin təşəbbüsçüsü maşinistlər idi. Bu tətil ölkənin əksər dəmiryollarını əhatə etdi. Oktyabrın 12-də tətildə 750 min dəmiryol fəhləsi və qulluqçusu iştirak edirdi. Dəmiryolunda başlanan tətil bütün Volqaboyunu və Uralı da əhatə etdi. Bu tətil bütün xalqı fəhlə sinfi ətrafında birləşdirdi. Ümumi siyasi tətil çarizmə ciddi zərbələr vurdu. Ümumi tətilin başlanğıcında fəhlələrə divan tutmaq haqqında göstəriş verən çar hökuməti Oktyabr ümumi tətilinin vüsətindən qorxuya düşərək, bir sıra güzəştlərə getməyə məcbur oldu.

1905-ci il oktyabrın 17-də çar II Nikolay manifest imzaladı. Manifestdə əhaliyə demokratik azadlıqlar-vicdan, söz, ittifaqlar və yığıncaq azadlığı "bəxş" ediləcəyi və qanunverici duma çağırılması vəd edilirdi. Manifest inqilab nəticəsində çardan qoparılan güzəşt idi. Manifest məhkum xalqlara o cümlədən, türklərə heç bir yenilik vəd etmirdi. Əsasən sosialist

inqilabçılar və radikal demokratlar bu manifestin səmimi olduğuna inanmırdılar. Mitinqlər yenə davam edir, çarın portretləri və manifesti cırılaraq ayaqlar altında tapdalanırdı. Çarın işlətdiyi bu siyasi hiylənin məqsədi, əksinqilabi qüvvələri səfərbərliyə almaq üçün vaxt qazanmaqdan ibarət idi.

1905-ci ilin dekabrında qazaxların I ümumqazax qurultayı keçirildi. Bu toplantıda qazaxların milli maraqlarına əsaslanan partiyalarını yaratmağa təşəbbüs göstərilmişdi. Yaradılacaq partiya yerli əhalinin maraqlarına əsaslanmalı idi. 1906-cı ilin fevralında Semipalatinskdə qazaxların ikinci qurultayı keçirildi. Qurultayda qəbul olunmuş proqramda kəndlilərin vilayətlərə köçürülməsinin dayandırılması, Qazaxıstanın bütün ərazilərinin yerli əhalinin mülkiyyəti olmasının qəbul edilməsi, yeni məktəblərin açılması və başqa məsələlər əks etdirilmişdi. Qazaxlar din azadlığı, milli mədəniyyətin inkişafı, Qazaxıstanda qazax dilinin rus dili ilə yanaşı işlənməsi üçün mübarizə aparırdılar. Lakin repressiyalar və həbslər qazaxlara öz siyasi partiyalarını yaratmağa imkan vermədi.

1905-1906 illərdəki inqilabi hərəkatlar Orta Asiyada siyasi təşkilatların yaranmasında mühüm rol onamışdı. 1905-ci ilin sonu və 1906-cı ilin əvvəllərində Orta Asiyanın Daşkənd, Səmərqənd, Kokand, Əndican kimi şəhərlərində belə təşkilatlar qurulmuşdu. 1905-ci ildən başlayaraq "Soldatskiy listok", "Pravda" qəzetləri dərc olunurdu. 1906-cı ilin fevralında Daşkənddə Türküstan sosial-demokrat təşkilatlarının konfransında RSDFP-nin Türküstan təşkilatlarının ittifaqı yaradıldı. Konfransın qərarı ilə bu təşkilat yerli fəhlələr arasında təbliğat və təşviqatı genişləndirməli idi.

1905-ci ilin avqustun 15-də Nijni-Novqorodda Ə.Topçubaşov, İ.Qaspıralı, Y.Akçura oğlu, F.Kərimi və başqalarının təşəbbüsü ilə Ümumrusiya müsəlmanlarının birinci qurultayı keçirildi. Çar Rusiyası işğalı altında olan türk xalqları ilk dəfə olaraq birlikdə milli mübarizəyə qoşulurdular. Qurultayda Krım, Qafqaz, Kazan, Ural, Orta Asiya və Sibirdən nümayən-

dələr iştirak edirdi. Qurultayın keçirilməsinə rəsmi razılıq olmadığından nümayəndələr gəzinti qayığında toplandılar. Qurultay "Rusiya Müsəlmanları İttifaqı" yaratmağı qərara aldı. "İttifaqın qarşısında aşağıdakı vəzifələr dururdu:

1. Vahid hərəkat çərçivəsində bütün Rusiya müsəlmanlarının birləşdirilməsi;

2. Bütün millətlərin nümayəndələrinin bərabər surətdə təmsil olunması əsasında konstitusiyalı monarxiyanın qurulması;

3. Müsəlman və rus əhalisinin hüquqi cəhətdən bərabərliyi, müsəlmanlara qarşı bütün ayrıseçkilik salan qanunların və idarəetmə metodlarının ləğv edilməsi;

4. Müsəlmanların mədəni və maarif tərəqqisinə nail olunması;

"Rusiya Müsəlmanları İttifaqı"nın ikinci qurultayı 1906-cı il yanvarın 15-23-də Peterburqda keçirildi. Mübahisəli şəraitdə keçən bu qurultayda İsmayıl bəy Qaspıralı sədr seçilsə də öz namizədliyini geri götürmüş, onun yerinə Əlimərdan bəy Topçubaşov sədr seçilmişdi. Nümayəndələr Əlimərdan bəyin "İttifaq" üçün hazırladığı layihəni qəbul edib, bəzi çatışmazlıqların gələcək qurultayda aradan qaldırılmasını qərara aldılar. Bu arada Bakıda "Həyat" qəzeti nəşr olunmağa başlamış və qurultay haqqında oxuculara ətraflı məlumatlar vermişdi.

"İttifaq"ın üçüncü qurultayı yenə də Nijni-Novqorodda 1906-cı il avqustun 16-21-də olmuşdur. Qurultay Ə.Topçubaşovun sədrliyi ilə keçmişdir. Qurultay "İttifaq"ın Rusiyanın bütün müsəlmanlarının mənafeyini ifadə edən siyasi partiyaya çevrilməsi haqqında qərar qəbul etdi. Qurultayda eyni zamanda türk xalqlarının siyasi, iqtisadi və mədəni problemləri müzakirə edilmişdi. Əsarətdə ömür sürən türklərin öz təşkilatlarını yaratdıqlarını görən çar rejimi bu hərəkatı boğmağa, "İttifaq" partiyasının fəaliyyət göstərməsinə hər cür maneələr törətməyə başladı. Stolıpinin irtica rejimi hakimiyyətə gəldikdən sonra "İttifaq"ın fəaliyyəti tamamilə qadağan edildi.

Məğlubiyyətə baxmayaraq, 1905-1907-ci illər inqilabında fəhlə sinfi və kəndlilər öz mübarizəsi ilə çar hökumətini bəzi güzəştlərə getməyə məcbur etdi. Sənayenin bir sıra sahələrində əməkhaqqı artırıldı, iş günü qısaldıldı. Kəndlilər ödənc əməliyyatlarının ləğv edilməsinə nail oldular. Birinci rus inqilabı ölkədəki siniflərin və partiyaların mövqeləri arasındakı fərqi, onların əməli fəaliyyətləri əsasında dəqiq müəyyənləşdirdi. İnqilab fəhlə və kəndliləri siyasi mübarizəyə cəlb etdi və onlar üçün mühüm siyasi məktəb oldu. Bu inqilab məğlubiyyətlə nəticələnsə də çar üsul-idarəsini xeyli sarsıtdı. İnqilab beynəlxalq imperializmin müstəmləkəçilik siyasətinə qarşı azadlıq hərəkatının başlanmasına da təsir göstərdi.

1905-1907-ci illər inqilabı, mərkəzdə olduğu kimi, milli ucqarlarda da, o cümlədən türk xalqları yaşayan bölgələrdə də məğlubiyyətlə nəticələndi. Birinci rus inqilabı zamanı türk xalqlarının ictimai hərəkatları istər rus, istərsə də başqa mətbuat səhifələrində geniş təsir bağışlamışdı.

## 2. Rusiya Dumalarında türk deputatlarının fəaliyyəti

1905-ci ilin oktyabr manifesti ilə çar bir sıra azadlıqlarla yanaşı Dövlət dumasının çağırılmasına da icazə verirdi. Çar Duma çağırılmasından inqilaba qarşı mübarizə aparmaq üçün istifadə etmək ümidində idi. I Dövlət dumasına seçkilər Dekabr üsyanının güclü vaxtında, 1905-ci il dekabrın 11-də çarın verdiyi seçki qanununa əsasən təyin edilmişdi. Çar hökuməti bu qanunla kütlələr içərisində Duma haqqında fikirlər yaymağa, onların inqilabi yoldan üz döndərməsinə nail olmağa, fəhlələrlə kəndlilərin möhkəmlənən ittifaqını dağıtmağa çalışırdı. Qanun elə tərtib edilmişdi ki, Dumada deputatların əksəriyyətinin mülkədarların və burjuaziyanın nümayəndələrindən ibarət olmasını təmin etsin. Seçki hüquqlarının genişləndiyini bəyan edən bu qanun fəhlələrin bir hissəsinə seçki hüquqlari verilməsini nəzərdə tuturdu. Əvvəlki seçki qanunun

kəndlilər haqqında qoyduğu qaydalar saxlanılırdı. Hökumət hələ də kəndlilərin şəxsində Dumada mühafizəkar dayaq yaratmaq ümidində idi. Lakin bu dəfə də qadınlar, 25 yaşına qədər olan gənclər, həqiqi hərbi xidmətdə olan hərbi qulluqçular və köçəri həyat tərzi sürən xalqlar seçki hüququndan məhrum edilmişdilər.

Çar hökuməti elan etdi ki, seçki qanununa əsasən 1906-cı il fevralın sonları-martın əvvəllərində Dövlət dumasına seçkilər keçiriləcəkdir. Lakin fəhlə üsyanlarını və kəndli çıxışlarını yatırdıqca çar hökuməti hücuma keçirdi və inqilabçı siniflərə etdiyi güzəştləri geri almağa başlayırdı. Çar hökuməti təkcə antidemokratik seçki sistemi ilə kifayətlənməyərək, Duma çağırılması ərəfəsində onun qanunvericilik təşəbbüsünü məhdudlaşdırdı. 1906-cı il fevralın 20-də Dövlət şurasının yenidən qurulması haqqında fərman verərək, Dövlət şurasını ikinci yuxarı palataya çevirdi və ona Dumada qəbul edilən qanunları təsdiq etmək hüququ verildi. Dövlət şurası üzvlərinin yarısı çar tərəfindən təyin olunurdu. Nəzərdə tutulurdu ki, Duma beş il müddətində fəaliyyət göstərməli və çarın istəyi ilə vaxtından əvvəl buraxıla bilərdi. Qafqaz, Orta Asiya və Sibirdə seçkilərin keçirilməsi prosesi Avropa Rusiyasının quberniyalarındakı seçkilərdən ayrı keçirilməli, Volqaboyu və Krımda Dumaya seçkilər mərkəzi Rusiya quberniyaları ilə eyni vaxtda keçirilməli idi.

Azərbaycan quberniyaları da Dövlət Dumasında təmsil olunmaq hüququ qazandı. Lakin hökumət milli ucqarların əhalisinin Dumada təmsil olunmasını məhdudlaşdırmaq və maksimum surətdə azaltmaq məqsədilə ucqarlarda seçkilər haqqında qaydaların tətbiq edilməsi məsələsini öyrənmək adı altında bir sıra komissiyalar yaratdı. Uzun bürokratik hazırlıqdan sonra 1906-cı il fevralın 2-də çar "Qafqazda seçkilər haqqında əsasnamə"ni təsdiq etdi. "Əsasnamə" kəndlilərin seçkilərini torpaq sahiblərinin seçkiləri ilə birləşdirərək, Qafqaz kəndlilərini dumada müstəqil təmsil olunmaqdan məhrum etdi.

Canişinə seçkilərin vaxtını Qafqaz quberniyaları "əhalisinin sakitləşdirilməsindən" asılı olaraq müəyyən etmək hüququ həvalə edilmiş və bununla da Qafqaz duma seçkilərini qeyri-müəyyən müddətə ləngitmək imkanı vermişdi. Lakin, buna baxmayaraq, Azərbaycanda dumaya seçkilər 1906-cı il mayında, yəni aprelin 27-də açılmış I Dövlət Duması artıq fəaliyyətə başladıqdan sonra keçirildi.

Türküstan diyarında Dövlət dumasına seçkilərlə bağlı xüsusi vəziyyət elan olunmuşdu. Əvvəlcə Fövqəladə Şura Mərkəzi Asiyanı güyakı onların inkişaf səviyyəsinin aşağı olması ilə əlaqədar seçkilərdə iştirak hüququndan məhrum etmək istəyirdi. Lakin buna baxmayaraq Türküstanda Dövlət Dumasına seçkilər baş tutdu. Yeddisu, Səmərqənd, Zakaspi, Sırdərya və Fərqanə vilayətlərinin nümayəndələri üçün ayrılan 13 deputat yerindən 6-sı ruslar, 6-sı yerli əhaliyə, 1-i Yeddisu kazakları üçün nəzərdə tutulmuşdu. Baxmayaraq ki, ruslar bölgə əhalisinin 5 faizini təşkil edirdilər. Akmolinsk, Semipalatinsk, Ural və Turqay vilayətlərinin nümayəndələri üçün isə 10 deputat yerindən 4-ü qazax və qırğızlar, 2-si kazaklar, 4-ü ruslar üçün ayrılmışdı. Halbuki qazax və qırğızlar göstərilən vilayətlərin əhalisinin 70 faizindən çoxunu təşkil edirdilər. Dumaya seçilən müsəlman-türk deputatları içərisində əsas çəki Ufa və Orenburq quberniyalarına mənsubdur. Bu əsasən quberniyanın müsəlman əhalisinin çoxluğu və burada yaşayan başkırdlar və tatarların “Müsəlman İttifaqı” partiyasının keçirdiyi seçkiqabağı kompaniyasında fəal iştirak etməsi ilə bağlıdır. Sibir və Yakutiyada isə Dövlət dumasına seçkilər keçirilmədi.

Dövlət dumasının onsuzda məhdud hüquqlarını daha da məhdudlaşdırmaq məqsədilə çar hökuməti onun iclaslarının açılışına bir neçə gün qalmış “Əsas dövlət qanunları məcəllə”sini yeni redaksiyada dərc etdi. Burada bütün qanunvericilik hüquqları əslində çarın ixtiyarında saxlanılmışdı. Dövlət dumasının və Dövlət şurasının hüquqları azaldılmışdı. Birinci çağırış Dövlət duması 1906-cı il aprelin 27-də açıldı. Çarın və

əyanların arzu etdikləri kimi birinci Dumada kəndlilər çoxluq təşkil edirdilər. Kəndlilərin Dumada 43 faiz millət vəkili var idi. Kəndlilərin tərəfini saxlayan Rus sosialist inqilabçılar partiyası istənilən qədər Dumaya kəndli deputatları keçirmişdilər. Kəndli deputatlarının təkidi ilə hökumət bəyannaməsinin əksinə olaraq, Duma aqrar məsələsinin geniş müzakirəsinə başladı. Kəndlilər çar hökumətindən torpaqları onların ixtiyarına verilməsini tələb edirdilər. Belə də olmalı idi. Çünki kəndlilər bu yolda çox qan axıtmışdılar. Lakin kəndlilərin düşündükləri kimi olmadı, çar tərəfindən təyin edilən baş vəkil Dumada çıxış edərək dedi ki, “Torpaq heç bir vaxt paylanmayacaqdır, xüsusi mülkiyyət toxunulmazdır”. Kəndlilər çardan üz döndərərək “biz sizə torpaq, bir də azadlıq verəcəyik” deyən eserlərin arxasınca getdilər. Dumada çar hökumətinin nümayəndələri ilə millət vəkilləri arasında mübarizə başladı. Torpaqla yanaşı başqa məsələlərdə də millət vəkilləri hökumət adamları ilə razılığa gələ bilmədilər. Beləliklə, 1906-cı il aprelin 27-də işinə başlayan Duma iyulun 7-də çar tərəfindən buraxıldı.

Rusiyanın türk əhalisi, burada yaşayan başqa xalqlar kimi öz kəskin etirazlarını bildirdilər. Çar hokuməti iyulun 7-də Duma deputatlarının iclasları keçirilən Tavriya sarayının bütün qapılarını bağlı saxladı. Bu, deputatlar üçün gözlənilməz idi. Kadet fraksiyasının təşəbbüsü ilə hökumətə etiraz bildirildi və iclasları Vıborqda keçirmək qərara alındı. Sosial-demokratlar və trudoviklər də kadetlərlə həmrəy idilər. Vıborqdakı iclaslarda Azərbaycan deputatları da iştirak edirdilər. Ə.Topçubaşov və İ.Ziyadxanov kadetlər tərəfindən tərtib olunmuş və Vıborq iclaslarının bütün iştirakçıları tərəfindən bəyənilmiş “Xalq deputatlarından xalqa” müraciətini imzaladılar. Onlar Rusiyanın bütün əhalisini Dumanın buraxılması əleyhinə etiraz çıxışlarına  çağırırdılar. Çar özünüidarəsinə qarşı etiraz xarakteri daşıyan “Vıborq müraciəti”ni 200-ə yaxın şəxs imzalamışdır. Bakı qubernatoru 1906-cı il iyulun 15-də bütün yerli qəzetlərin redaktorlarına və mətbəələrə "Dövlət dumasının keç-

miş deputatlarının müraciətini" çap etməyin qadağan olduğu barədə sərəncam göndərərək, onları inzibati qaydada ən sərt cəzalar veriləcəyi ilə hədələdi. Vıborq iclaslarının iştirakçılarına divan tutuldu. Onlar barəsində cinayət işi qaldırıldı. Deputatlar məhkəməyə verildi. Onları xalqa ünvanlanmış xüsusi müraciətlə "Rusiya əhalisini itaətsizliyə və qanun əleyhinə çıxmağa qızışdırmaq niyyətində olmaqda və bu müraciətin çoxsaylı nüsxələrini Rusiya hüdudlarında yaymaqda" təqsirləndirirdilər. 1907-ci ilin dekabrında keçirilmiş məhkəmənin hökmünə görə, onlara üç aylıq həbs cəzası verilir, 167 nəfər, o cümlədən də Ə.Topçubaşov və İ.Ziyadxanov Dövlət Dumasının tərkibinə seçilmək hüququndan məhrum edilirdilər. Ə.Topçubaşov "Kaspi" qəzetinə rəhbərlikdən uzaqlaşdırıldı və Bakı şəhər dumasının tərkibindən çıxarıldı.

Qazaxıstanda siyasi fikrin inkişafında Dövlət Dumasına seçkilər mühüm rol oynamışdı. Bu zaman siyasi partiyalar arasında seçicilərin "səs"i uğrunda mübarizə başlamışdı. Ölkənin daha iri vilayətlərində, rus əhalisinin çoxluq təşkil etdiyi bölgələrdə sosial-demokratlar və zəhmətkeşlər, qazax əhalisinin üstünlük təşkil etdiyi bölgələrdə isə liberal-demokratik milli ziyalılar böyük təsir gücünə malik idilər. Ümumiyyətlə Qazaxstandan I Dövlət Dumasına 9 deputat seçilmişdi ki, onlardan 4-ü qazax, 5-i isə rus millətinə mənsub idi.

Ufa, Orenburq, Kazan və Krımdan birinci Dumaya seçilən türk deputatları ümumi pulsuz ibtidai təhsilin tətbiqi, milli və dini hüquqların bərpa edilməsi, aqrar məsələsə və başqa problemlərin həll edilməsini irəli sürmüşdülər. Ə.Topçubaşov, İ.Axtyamov və digər deputatlar aqrar məsələ və hüquqi vəziyyətlə bağlı türk xalqlarının narazılıqlarını Duma üzvlərinə çatdırmışlar. Ş.Sırtlanov bildirmişdir ki, başqırdların kazak adlandırılması adi hal almışdır. Onlardan ucuz işçi qüvvəsi kimi istifadə olunur. Başqırdları öz torpaqlarını rus kəndli icmalarına satmağa məcbur edirdilər. Başqırdlar torpaqlarının onlara qaytarılmasını istəyirlər. Müsəlmanlar heç də rus əhalisinin

istifadə etdikləri hüquqlardan istifadə etmirlər. Lakin rus şovinist millət vəkilləri başqa millətlərin nümayəndələri ilə çox sərt davranırdılar. Çox vaxt da müsəlman millət vəkillərinə danışmaq üçün söz verilmirdi. Göründüyü rus millətçi deputatları başqa millətlərə yuxarıdan-aşğıya baxır, hətta onları bir millət kimi tanımaq belə istəmirdilər.

Baş verə biləcək xalq çıxışlarından qorxuya düşən çar II Nikolay II Dövlət Dumasına seçkilərin keçirilməsi barədə sərəncam verdi. 1907-ci ilin yanvar-fevral aylarında II Dövlət Dumasına keçirilən seçkilər monarxist və oktyabrist partiyaların yeni məğlubiyyəti ilə nəticələndi. II Duma birinciyə nisbətən daha sol və müxalifətçi duma oldu. 1907-ci ilin fevralın 20-də fəaliyyətə başlayan II Dumada aqrar məsələsi başlıca məsələ olaraq qalırdı. Dumada, mülkədar mülkiyyətinə qarşı çevrilən aqrar qanun keçirilməsinə yol verməmək üçün əksinqilabi partiyalar birləşdilər. Sol partiyalar əvvəlki kimi yenə də mülkədar torpaqlarının "müsadirə edilməsi"ni təkidlə irəli sürdülər. Onlar mülkədar torpaqlarının "müsadirə edilməsi"ni bütün torpaqların kəndli komitələri tərəfindən milliləşdirilib, kəndlilərə pulsuz verilməsi kimi başa düşürdülər.

II Duma heç də birinci dumadan fərqlənmirdi. Ancaq bu Duma da demokratik və sol meyilli partiyalardan, bir çox tanınmış fəal üzvlərindən məhrum olmuşdu. Stolıpin seçkiqabağı onları Vıborq bəyannaməsini imzaladıqları üçün günahlandıraraq məhkəməyə cəlb etmiş və elə bir şərait yaratmışdı ki, seçkilərdə iştirak edə bilməmişdilər.

Mərkəzi Asiyadan II Dövlət Dumasına yerli burjuaziya nümayəndələri seçilmişdilər. Abdul Vahid Kari, Rauf Kariev, Taş Pulat Abdulxəlilov, Tleuli Alabergenov, Tavriya quberniyasından Rəşid Madiyev, Ufa quberniyasından Kalimulla Xasanov, Azərbaycandan isə Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov və başqaları seçilmişdilər.

Ural vilayətinin qazax nümayəndəsi Vadican Katoyev öz çıxışlarında çarizmin köçürmə siyasətini kəskin tənqid edə-

rək göstərirdi ki, hökumət aqrar məsələni kəndliləri mərkəzi quberniyalardan Ural, Turqay, Akmolinsk və Yeddisu vilayətlərinə köçürməklə həll etmək istəyir. Türk millət vəkilləri məhsuldar torpaqların yerli əhalidən alınaraq ruslara verilməsi siyasətinə qarşı çıxır, onların bu əməllərini pisləyirdilər. Ufadan seçilmiş başqırd millət vəkili  K.Xasanov öz çıxışlarında məktəblərdə ana dilində tədrisə üstünlük verilməsinin vacibliyinin vurğulayaraq qeyd edirdi ki, Başqırdıstanda müəllimlər başqırdlardan başqa kimlərdən gəldi təyin olunur və bu ancaq yerli əhalinin ruslaşdırılması və xristianlaşdırılması məqsədini güdür. Azərbaycandan seçilmiş millət vəkili müəllim Mustafa Mahmudov Duma kürsüsündən istifadə edərək türklərin təhsil azdlığının məhdudlaşdırıldığını, ana dilində təhsilə izin verilmədiyini deputatların diqqətinə çatdırmış, sonra maarif üçün nəzərdə tutulmuş  büdcəni tənqid etmişdir.

II Dumada millət vəkilləri ilə Stolıpinin başçılıq etdiyi heyət heç cür barışığa gələ bilməmiş və aqrar qanun layihələri ətrafında güclü mübarizə başlamışdı. Stolıpin II Dumanı dağıtmaq üçün bəhanə axtarırdı. Nəhayət, bir çarə tapa bildi. Guya, deputat sosial-demokrat Ozolun evində aparılan axtarış zamanı 55 nəfər sosial-demokrat deputatın çar rejimini devirmək üçün hazırladıqları sui-qəsd planları ələ keçmişdi. Bundan istifadə edilərək 1907-ci il iyunun 3-də Duma buraxılmışdı. Beləliklə, 55 nəfər sosial-demokrat və başqa hərəkatlarda iştirak edən millət vəkilləri Sibirə sürgün olunmuşdular.

1907-ci il iyunun 3-də çarın imzası ilə yeni Dumaya seçkilərə dair seçki fərmanı verildi. Yeni qanun, 1905-ci il 11 dekabr seçki qanunun antidemokratik cəhətlərini qüvvədə saxlayaraq bunlara, prinsipial xarakter daşıyan üç yeni məhdudiyyət əlavə etdi.

Bunlardan biri Avropa Rusiyası quberniyalarında seçkiçilərin miqdarının mülkədarların və iri burjuaziyanın xeyrinə əsaslı surətdə yenidən bölüşdürülməsindən ibarət idi. Bunu da əlavə etmək lazımdır ki, köhnə qanuna görə Dumaya müstəqil

olaraq öz deputatlarını göndərməyə hüququ olan 26 şəhərdən yeni qanun yalnız 5 şəhəri (Peterburq, Moskva, Riqa, Kiyev və Odessa) saxladı. Beləliklə, Avropa Rusiyası əhalisinin 1 faizini təşkil edən torpaq sahibləri bütün seçkiçilərin 64 faizini, yəni üçdə iki hissəsini almış oldu.

İkinci dəyişiklik deputatların seçilməsi qaydasına aid idi. Əvvəllər seçkiçilərin hər bir zümrəsi, həmin zümrə üçün müəyyən edilmiş miqdarda deputatı öz sıralarından özü seçirdi. Yeni seçki qanunu, bütövlükdə təkcə quberniya seçki yığıncağına bütün deputatları seçmək hüququ verirdi. Bu isə mülkədar-burjua seçicilərinə başqa zümrələrin seçkiçiləri içərisindən, o cümlədən kəndli seçkiçiləri zümrəsindən özlərinə əlverişli namizədləri seçib ayırmaq imkanı verirdi.

Üçüncü dəyişiklik, Rusiyanın milli ucqarlarının xalqlarına qarşı çevrilmişdi. Yeni qanuna görə Orta Asiya və Sibir xalqları öz deputatlarını Dövlət dumasına göndərmək hüququndan tamamilə məhrum edildilər. Həştərxan və Stavropol quberniyalarında yaşayan qırğızların və kalmıkların da aqibəti belə oldu. Qafqaz xalqlarının hüquqları isə xeyli məhdudlaşdırıldı. Buradan Dumaya göndərilən deputatların sayı 2-3 dəfə azaldılmışdı. Yeni seçki qanunu əksinqilabın qələbəsini, çarizmin və rus burjuaziyasının müstəmləkəçimillətçi siyasətini əks etdirirdi.

Üçüncü dövlət duması 1907-ci il noyabrın 1-də açıldı. Birinci və ikinci Dövlət dumalarında hökumət özünə qəti əksəriyyət qazana bilmədiyi halda, üçüncü Dövlət dumasında çar hökuməti belə əksəriyyəti əldə etdi. Dövlət dumasında zadəganların və ticarət-sənaye burjuaziyasının yuxarı təbəqələrinin qələbəsini nəzərdə tutan seçki qanunu Dumaya seçkilərdə həyata keçirildi. Üçüncü Dumada hökumətə qarşı müxalifətdə olan kadetlər onunla mübarizə yoluna qədəm qoymurdular. Kadetlərin milli məsələyə dair proqramı başdanbaşa burjua-millətçi xarakter daşıyırdı və Rusiyanın bir sıra millətlərinin ana dilində təhsil almaq hüququnu və öz dini ayinlərini icra

etmək hüququnu etiraf etməkdən uzağa getmirdi. İrtica illərində hökumət milli azdalıq hərəkatına və ölkənin xalqlarının milli mədəniyyətinə qarşı hücumu olduqca gücləndirərək, mədəni-maarif cəmiyyətlərinin fəaliyyətini, milli dillərdə kitab və qəzet nəşrini qadağan etdi. Bu işdə III Dövlət duması hökumətə fəal kömək edirdi.

Mühafizəkar üçüncü Dövlət dumasında Zaqafqaziya müsəlmanlarının yeganə nümayəndəsi Xəlil bəy Xasməmmədov idi. X.Xasməmmədov Dumanın səkkiz daimi komissiyasından bir neçəsinin-imperatora müraciətlər hazırlamaq, sorğular, köçürmə məsələsi və məhkəmə islahatları üzrə komissiyaların tərkibinə daxil idi. III və IV Dövlət dumalarında türk deputatlarının sayı xeyli azalmışdı. Belə ki, I Dumada türklərin 46 millət vəkili olduğu halda, IV Dumada türklərin 7 millət vəkili var idi. 1912-ci ildə fəaliyyətə başlayan IV Dumada zadəganların nümayəndələri 34 faizdən 51 faizə qədər çoxalmışdı. Kəndlilərin nümayəndələri 43 faizdən 24,4 faizə, fəhlələrin nümayəndələri isə 3,4 faizdən 2,3 faizə qədər azalmışdı. Rus cəmiyyətinin başqa sinifləri ilə birlikdə məhkum millətlərin millət vəkillərinin sayı 24,2 faizə enmişdi.

Rusiya Dumalarına seçilən türk deputatlar Müsəlman fraksiyasında birləşmişdilər. Müsəlman fraksiyasının qarşısında duran ən vacib məsələ türk xalqlarının dini-mədəni özünəməxsusluğunu saxlamaq, Rusiya vətəndaşları kimi müsəlmanların da hüquq bərabərliyi əldə etmələrinə çalışmaq, vilayətlərdə torpaqların milliləşdirilməsi, dini işlərdə və yerlərdə idarəetmədə geniş muxtariyyət verilməsindən ibarət idi. Türk deputatlar Duma tribunasından çıxış edərək Rusiya imperiyasının Cənubi Qafqazda yeritdiyi milli qırğın siyasətini, xalqımıza qarşı yol verilən ayrı-seçkiliyi, köçürmə siyasətini, bütöv bir xalqın hüquqsuzluğunu, kölə halına salındığını bütün açıqlığı və kəskinliyi ilə tənqid edir, yalnız türklərin deyil, bütün Rusiya müsəlmanlarının mənafeyini müdafiə edirdilər.

II Dövlət dumasında Müsəlman fraksiyası özünün 11

bölmədən ibarət proqramını qəbul etmişdi. Proqramda vətəndaşların hüquqları, dövlət və dini quruluşun əsasları, yerli özünüidarə, məhkəmə, xalq maarifi, fəhlə və kəndli məsələsi fraksiyanın əsas məqsəd və vəzifələri olmuşdur. Dövlət dumalarında türk deputatlarının fəaliyyəti fraksiya daxili işlərlə məhdudlaşmırdı, Duma komissiya və şöbələrinin işində də fəaliyyət göstərirdilər. II Dumada Müsəlman farksiyası I Dumada olan deputat saylarını mühafizə etmişdilər.

Türk deputatların bütün Rusiyanın Türk-Müsəlman əhalisinin hüquqsuzluğuna qarşı kəskin çıxışları və bunun güclü oyadıcı təsirinin çarizmi vahiməyə salması, başqa səbəblərlə yanaşı, I və II Dövlət Dumalarının buraxılmasında az rol oynamamışdı. Məhz buna görə də III Dumaya seçkilər zamanı Türk-Müsəlman əhalisinin yaşadığı Orta Asiya, Sibir və digər regionlar seçki hüququndan məhrum edilmişdi. III Dövlət Dumasında Rusiya imperiyasının müsəlman ucqarlarından olan deputatlar vahid parlament fraksiyasında yenidən təşkil edildi. Müsəlman fraksiyası 10 nəfərdən ibarət idi. Müsəlman fraksiyası dini etiqad, vicdan azadlığı məsələsinə böyük əhəmiyyət verərək, bu məsələ üzrə özünün xüsusi məruzəsini Dumanın müzakirəsinə təqdim etdi. Fraksiyanın fəaliyyəti bütün qanun layihələrinin müzakirəsində iştirak etmək, Duma iclaslarında vahid hərəkət xəttini işləyib hazırlamaq, məqsəd isə islahatlara nail olmaq idi. Müsəlman fraksiyasını həmişə məktəblərdə tədris dili maraqlandırırdı.

1910-cu ildə fraksiya üzvü Kazan quberniyasından seçilən S.Maksudov Volqaboyu, Ural, Türküstan və Qafqaza səyahət etmişdir. Ufa vilayətində olan zaman burada "Müsəlman cəmiyyətinin" qərargahında yığıncaq keçirmiş və əhalini müsəlman fraksiyasının fəaliyyəti, Dumanın gələcək iclaslarında müzakirə olunacaq məsələlərlə tanış etmişdir.

IV Dövlət Duması 1912-ci ildə noyabrın 15-dən çağırıldı. Müsəlman fraksiyası IV Dumada 7 deputatla təmsil olunurdu ki, bunlar da Ural, Volqaboyu, Krım və Cənubi Qafqaz

türkləri idi. Müsəlman fraksiyasının üzvü, Azərbaycandan olan deputat M.Cəfərov qırğızların münbit torpaqlarının ruslara verilməsindən narazı olduqlarını IV Dumanın deputatlarının nəzərinə çatdırmaq səlahiyyətlərini öz üzərinə götürmüşdü.

I-IV Dövlət dumalarında Müsəlman fraksiyası proqram tələblərinin həyata keçirilməsinə nail olmaq üçün Duma iclasları və komissiyalarının işində fəal iştirak edirdi. Türk deputatları tələblərinin qanunvericilik yolu ilə həyata keçirilməsinə çalışsalar da istəklərinə nail ola bilmirdilər. Ümumiyyətlə, I-IV Dövlət dumalarında türk deputatlarının əldə etdikləri nəticələr çox cüzi idi. Buna çar Rusiyasının milli-müstəmləkəçilik siyasəti imkan vermirdi.

### 3.Türk xalqları yaşayan bölgələrdə Stolıpin aqrar islahatının həyata keçirilməsi

Birinci rus inqilabının qarşısında duran əsas məsələlərdən biri də aqrar məsələnin həll olunması problemi idi. İnqilabın yatırılmasından sonra çarizm bu problemi islahatlar yolu ilə həll etməyə, yəni hakimiyyəti və torpaqları mülkədarların əlində saxlayaraq aqrar böhranın səbəblərini aradan qaldırmağa çalışırdı. I Rusiya inqilabının məğlubiyyətlə nəticələnsə də inqilabi hərəkatların geniş vüsət alması onu göstərdi ki, kəndlərdə, milli ucqarlarda hökumətin sosial dayağı yoxdur.

1905-1907-ci illər inqilabı Rusiyada aqrar məsələsini onun burjua inkişafının milli xüsusiyyəti olduğunu tamamilə təsdiq edərək, bunu başlıca məsələ kimi bütün kəskinliyi ilə irəli sürdü. İslahatdan sonrakı bütün inkişaf sübut etdi ki, həm mülkədar, həm də kəndli təsərrüfatı, feodalizmin saysız-hesabsız qalıqları ilə buxovlansa da, kapitalizm yolu ilə inkişaf edir. 1905-1907-ci illər inqilabı dövründə kəndli hərəkatından qorxuya düşmüş hökumət kəndlilərin torpaq uğrunda mübarizəsini dayandıra bilən tədbirlər görmək qərarına gəldilər. 1905-ci il noyabrın 3-də çar hökuməti mülkədarlardan torpağı satın alıb

kəndlilərə satan Kəndli torpaq bankının fəaliyyətini genişləndirmək haqqında fərman verdi. Torpaq məsələsi ilə əlaqədar daha geniş tədbirlər işləyib hazırlamaq məqsədi ilə hökumət 1906-cı il yanvarın 6-da kəndlilərin pay torpaqlarına malik olmaq hüququna aid qanunların ilkin qaydada işlənib hazırlanması üçün "xüsusi müşavirə" adlanan bir müşavirə çağırdı. Müşavirə zadəganlara məxsus torpaq fondunun toxunulmazlığını saxlamaq barədə mülkədarların və onların siyasi partiyası olan "Birləşmiş zadəganlar şurası"nın xüsusi sifarişini yerinə yetirdi. Müşavirə mülkədar torpaqlarının onlardan hətta qismən alınmasına dair bütün təklifləri rədd etdi və 1906-cı il yanvarın 25-də kəndlilərin öz icma torpaqlarından istifadə etməsində dəyişiklik haqqında yekdilliklə qərar çıxardı. Bu qərarda deyilirdi ki, icma torpağını yenidən dövraşırı bölüşdürməmiş cəmiyyətdə onun üzvü olan hər bir kəndlinin özünə məxsus icma torpaq payını xüsusi mülkiyyətə çevirməyi tələb etməyə ixtiyarı vardı.

Bir müddətdən sonra həmin qərar hökumət tərəfindən bəyənildi və o, Stolıpinin aqrar siyasətinin təməlini qoydu. Bu tədbirdə kəndli icma torpaq sahibliyini ləğv etmək və kəndliləri öz pay torpaqlarının xüsusi sahiblərinə çevirmək nəzərdə tuturdu. 1906-cı il martın 4-də çar hökuməti yer quruluşu adlanan komissiyalar yaratmaq qərarına gəldi. Bu komissiyalar kəndli torpaq sahibliyinin ehtiyaclarını aydınlaşdırmaqla məşğul olmalı, Kəndli bankının əməliyyatlarında ona kömək etməli, kəndlilərin bir yerdən başqa yerə köçürülməsini asanlaşdırmalı, dövlət torpaqlarını icarəyə götürməkdə kəndlilərə yardım göstərməli idi. Komissiyalar pay torpaqlarından istifadə edilməsinin ən yaxşı üsuluna və kənd icmalarının daha xırda təsərrüfat vahidlərinə bölünməsinə dair təkliflər verə bilərdilər.

Komissiyalar quberniyalarda və qəzalarda yaradılırdı. Komissiyalara quberniyalarda qubernatorlar, qəzalarda isə zadəganların seçilmiş nümayəndələri başçılıq edirdilər. Bu komissiyaların üzvlərinin əksəriyyəti hökumət orqanları tərə-

findən təyin olunurdu. Beləliklə, hökumət icma kəndli torpaq sahibliyinin ləğv edilməsini öz nəzarəti altına alırdı və kəndlilərin özlərinə məxsus torpaqları bölüşdürməsinə imkan vermirdi.

1906-cı il iyunun əvvəlində çar hökuməti kəndli icmasının ləğv edilməsi və icma torpaqlarının kəndlilərin şəxsi mülkiyyətinə çevrilməsi barədə öz təkliflərini baxılmaq üçün birinci Dövlət dumasının müzakirəsinə verdi. Əslində isə o, istəmirdi ki, Duma onun təklifini müzakirə etsin. Tezliklə I Duma buraxıldı və icma kəndli torpaq sahibliyindən xüsusi torpaq sahibliyinə keçmək haqqında fərman 1906-cı il noyabrın 9-da Dövlət duması tərəfindən təsdiq edilmədən elan olundu. Bu fərmana əsasən, icma torpağına sahib olan hər bir kəndliyə icma torpağından ona düşən payı xüsusi mülkiyyət kimi almaq hüququ verilirdi. Fərman mülkiyyətçi kəndlilərə köhnə yerdə yaşamaqda davam etmək, yaxud onlara mülkiyyət kimi ayrılmış torpaq sahəsinə keçmək hüququ verirdi. Birinci halda kəndlilər otrub, ikinci halda isə xutor sahibləri adlanırdılar.

1910-cu il iyunun 14-də II Nikolay Dumanın və Dövlət şurasının qəbul etdiyi "kəndli torpaq sahibliyinə dair" qanun layihəsini təsdiq etdi. Yeni aqrar qanunu 1906-cı il 9 noyabr fərmanının prinsiplərini bərqərar edir və icma torpaq sahibliyinin ləğv edilməsi üçün daha böyük imkanlar yaradırdı. 1910-cu il qanunu ilə artıq məcburi qaydada bütün icmaçı kəndlilər, əgər onların yaşadığı icmalarda ödəncə keçildiyi vaxtdan icma torpağı yenidən dövraşırı bölünməyibsə, xüsusi mülkiyyətçilər vəziyyətinə keçirilirdilər. 1911-ci il 29 may qanununa görə kəndlilərin icmadan çıxması üçün kəndli yığıncağının razılığını almaq işi də xeyli asanlaşırdı. İndi bu iş kəndli yığıncağında səslərin üçdə iki hissəsinə əsasən deyil, sadəcə olaraq səs çoxluğuna əsasən mümkün idi.

Hökumət yer quruluşu komissiyalarından istifadə edərək, məcburi qaydada icma kəndli torpaq sahibliyini dağıtmağa və kəndliləri torpaqdan yeni "azad etmə" işinə başladı. 1906-

1916-cı illər ərzində hökumət 16 milyon kəndli həyətindən yalnız 2,1-2,3 milyon həyəti, yəni bu həyətlərin hamısının təqribən 14,4 faizini icma sahibliyindən xüsusi mülkiyyətə keçirə bildi. Lakin, icmadan ayrılmış kəndlilərin az olmasına baxmayaraq, onların bir çoxu tamamilə var-yoxdan çıxdı və öz torpağını itrdi.

Kəndlilər çar aqrar qanununa qarşı qətiyyətlə mübarizə aparırdılar. Onlar öz nümayəndələrini yer quruluşu komissiyalarına göndərməkdən imtina edir, kəndlilərin icmadan ayrılması üçün cəmiyyətin razılığını vermir, torpağın öz xüsusi mülkiyyətinə keçirilməsi barədə ərizə verən kəndliləri təqib edir və onları öz ərizələrindən imtina etməyə məcbur edirdilər. Hökumət öz siyasətindən əl çəkmək istəmir, kəndlilər isə buna kütləvi etirazla cavab verdilər. Kəndli hərəkatı yenidən yüksəlməyə başladı.

Çar hökuməti kəndlilərin mübarizəsini zəiflətmək və müəyyən mənada məhdudlaşdırmaq məqsədilə Stolıpin aqrar qanunun qüvvəsini yalnız bir sıra mərkəzi quberniyalar ilıə məhdudlaşdırıb, qeyri rus quberniyalarının əksəriyyətini, o cümlədən Qafqazı, Orta Asiyanı və Volqaboyunun bir sıra bölgələrini bu qanunun qüvvəsi dairəsindən çıxardı. Çar hökuməti bu rayonlarda öz aqrar siyasətini köhnə torpaq münasibətləri əsasında yeritməkdə davam edərək, rus kəndlilərini milli rayonların kəndlilərindən ayırmağa çalışırdı. Lakin çar hökumətinin bu tədbiri müvəffəqiyyət qazanmadı.

Rusiyanın ucqarlarında Stolıpinin aqrar islahatı yarımçıq və məhdud şəkildə həyata keşirilirdi. Orta Asiyada kənd icmalarının dağılması nəticəsində torpaqlar kəndlilərə xüsusi mülkiyyət kimi deyil, yalnız müvəqqəti istifadəyə veriliridi. Kəndli icmanın dağılmasından sonra torpağın sahibi hesab edilsə də, xüsusi mülkiyyətçi kimi heç bir sənəd almırdı. O, öz torpağını yalnız dövlət torpaqları üzərində hüququ olan şəxsə verə bilərdi. Orta Asiya, Sibir və digər milli rayonların kəndliləri mərkəzi quberniyaların kəndlilərinə nisbətən daha məhdud

hüquqlar əldə etdiklərinə görə dəfələrlə mərkəzi hökumətə şikayət ərizələri və tələblər göndərmişdilər. Türk xalqları regionlarının əksəriyyətinin kəndliləri də onlara ruslarla eyni hüquqların verilməsini tələb edirdilər.

Stolıpin aqrar islahatı Volqaboyu, Sibir və Krımda müvəffəqiyyət qazana bilmədi. O, ucqarlarda natamam şəkildə həyata keçirilmişdi. Məhdudiyyətlər Sibirdə daha çox nəzərə çarpırdı. Sibir torpaqları, o cümlədən türklərin yaşadıqları ərazilər, yenə də əvvəlki kimi Dövlətin mülkiyyəti olaraq qalırdı. Volqaboyu ərazilərdə islahat məcburi şəkildə həyata keçirilirdi. Burada islahatdan boyun qaçıran və ona qarşı çıxan hər bir şəxs üç ay müddətinə həbs edilməli və ya cərimə olunmalı idi. Aqrar islahatın həyata keçirilməsi nəticəsində Krımda pay torpaqları daha çox azalmışdı. Bu isə bir tərəfdən yoxsul təsərrüfatların sayının artmasına, digər tərəfdən isə muzdlu əməkdən istifadə edən iri qolçomaq təsərrüfatlarının çoxalmasına səbəb olurdu.

İnqilabdan əvvəlki dövrə nisbətən çar hökumətinin köçürmə siyasəti də dəyişikliyə uğradı. Hökumət, köçürməni məhdudlaşdırmaq siyasətindən kəndlilərin kütləvi surətdə Orta Asiya, Sibir və başqa yerlərə köçürülməsi siyasətinə keçdi. Kəndlilərin köçürülməsi Stolıpin aqrar islahatının tərkib hissəsini təşkil edirdi. Köçürmə siyasətində məqsəd, Rusiyanın mərkəzi quberniyalarında torpaq çatışmamazlığını aradan qaldırmaq, inqilabi əhval-ruhiyyədə olan kəndliləri mərkəzdən uzaqlaşdıraraq Sibir və Qazaxıstana göndərmək, milli ucqarlarda ruslaşdırma siyasəti yeritmək və qeyri-rus xalqları milli-müstəmləkə zülmü altında saxlamaq üçün köçürülən ruslardan bir vasitə kimi istifadə etmək idi. Orta Asiya, Sibir və digər bölgələrə köçürülən kəndlilər yerli əhalidən alınmış torpaqla təmin edilirdi. Çar hökumətinin köçürmə siyasətini həyata keçirən məmurlar ən münbit torpaqları yerli əhalidən alaraq onları qeyri-münbit torpaqları çəkilməyə məcbur edirdilər. Bu isə bölgələrdə yerli əhalinin üsyanlarına səbəb olurdu. Bu dövr-

də Rusiyanın mərkəzi quberniyalarında kəndli çıxışları zəiflədiyi halda, Orta Asiyada bu hərəkat güclənməkdə idi.

Çarizmin köçürmə siyasəti də onun özünə qarşı çevrildi. Çar hökuməti bu siyasət nəticəsində "həm Rusiyada, həm də ucqarlarda kəndlilərin narazılığının artmasına və onların vəziyyətinin daha da ağırlaşması"na nail oldu. Köçürülənlərin sayı 1905-ci ildə 39 min, 1906-cı ildə 141 min, 1907-ci ildə 427 min, 1908-ci ildə 665 min nəfər idi. Sonra, köçürülənlərin sayı xeyli azalmağa başladı. 1909-cu ildə köçürülənlərin sayı 619 min, 1910-cu ildə 316 min və 1911-ci ildə 183 min nəfər idi. Bununla bərabər, 1910-cu ildən etibarən geri qayıdanların sayı sürətlə artdı. Bu, çar hökumətinin köçürmə siyasətinə bağladığı bütün ümidlərin boşa çıxması demək idi.

Bu siyasətin müvəffəqiyyətsizliyinin iki başlıca səbəbi var idi. Birinci səbəb ondan ibarət idi ki, köçürülənlər əsasən yoxsullar idi. Onlar Orta Asiyaya, Sibirə və başqa yerlərə öz vəziyyətlərini yaxşılaşdırmaq ümidi ilə köçürdülər. Onlar satdıqları torpaqdan və əmlakdan əldə etdikləri az məbləğə və dövlətdən aldıqları azacıq pulu yola xərclədiklərindən, köçürüldükləri yeni yerdə özlərinə təsərrüfat düzəltmək üçün vəsaitləri qalmırdı. Aldanıb var-yoxdan çıxanların bir hissəsi köçürüldükləri yerdə varlıların əsarəti altına düşür, köçürülənlərin çox hissəsi isə peşmançılıqla öz köhnə yurdlarına qayıdırdı. İkinci səbəb, köçürmə işinin düzgün təşkil edilməməsindən ibarət idi. Köçürülənlərdən ötrü çox zaman təsərrüfat üçün yararlı torpaq ayırıb vermirdilər. Kifayət qədər borc verilmirdi. Köçürmə siyasəti qarşısında sırf siyasi məqsədlər qoyan çar hökuməti onun iqtisadi nəticələri barəsində düşünmürdü. Köçürülənlərə kömək göstərilməsinin təşkili üçün geniş tədbirlər əsla görülmürdü. Nəticə etibarı ilə köçürülmə siyasəti kütləvi köçürülmə rayonlarında iqtisadi və siyasi vəziyyətin kəskinləşməsinə səbəb oldu.

Kəndli bankının fəaliyyəti də müvəffəqiyyətsizliyə uğradı. 1906-cı ildən 1916-cı ilədək Kəndli bankı 6,5 milyon

desyatin torpaq almış və kəndlilərə, başlıca olaraq qolçomaqlara təqribən 4,1 milyon desyatin torpaq satmışdı. Bu müddət içərisində Bank torpaqlarında və Kəndli bankının yardımı ilə alınan torpaqlarda 280 minədək otrub və xutor təsərrüfatı yaradılmışdı. Kəndli torpaq bankı torpaqların satışı ilə yanaşı onları icarəyə də verirdi. İcarəyə verilmiş torpaqların haqqı ya pulla, ya da natura şəklində ödənilirdi. Kazan quberniyasında pulla icarə üstünlük təşkil etmişdi.

Çar hökuməti müsəlman dininə etiqad edən xalqları təhlükəli hesab edirdi, çünki Stolıpinin yazdığı kimi, "gərgin günlərdə qiyamçı Zaqafqaziyanın, zahirən sakit görünən Volqaboyunun və narahat Türküstanın özgə xalqları inqilab cəbhəsində olacaqlar". Çarizm müsəlman əhali arasında inqilabi hərəkatın qarşısını almaq üçün bütöv tədbirlər sistemi işləyib hazırladı. Bu tədbirlərdən ən başlıcası "müsəlmanların xristianlaşdırılması" deyilən tədbir idi. Hökumət bu məqsədlə Kazanda ruhani akademiyası nəzdində xüsusi olaraq missionerlik şöbəsi açdı ki, bu şöbə çox keçmədən öz məzunlarının böyük bir qrupunu müsəlman rayonlarına göndərdi. Çar missionerləri bir çox rayonlarda polis orqanlarının köməyi ilə xristianlığı yayırdılar.

Stolıpin aqrar islahatı kənd təsərrüfatında kapitalizmin inkişafını gücləndirdi. Lakin aqrar islahatlar bütövlükdə hökumətin və mülkədarların gözlədikləri nəticələri vermədi. Mülkədarlarla kəndlilər arasında torpaq uğrunda mübarizə Stolıpinin aqrar siyasəti nəticəsində nəinki zəifləmədi, əksinə gücləndi. Çar hökuməti iqtisadi inkişafın və sinfi mübarizənin gedişində qarşıya qoyulmuş vəzifəni yerinə yetirə bilmədi. Stolıpin islahatı kəndli məsələsini gündəlikdən həll edib çıxarmadı. İslahat bütün çətinlikləri və qüsurlarına baxmayaraq türk xalqları yaşayan bölgələrdə kapitalizmin inkişafı, bank və maliyyə sisteminin yaranması, yeni sənaye sahələrinin meydana gəlməsi, burjuaziya və fəhlələrin təşəkkülünə səbəb olmuşdu.

## 4. Türk xalqları Birinci Dünya müharibəsi illərində

Birinci dünya müharibəsi böyük imperialist dövlətləri arasındakı ziddiyyətlərin kəskinləşməsi nəticəsində baş verdi. İmperializm dövründə kapitalizmin qeyri-bərabər inkişafının xüsusilə güclənməsi nəticəsində XX əsrin əvvəllərində böyük dövlətlər arasındakı ziddiyyətlər son dərəcə kəskinləşdi. Bu ziddiyyətlərin ən başlıcası ingilis-alman ziddiyyətləri idi. İqtisadi inkişaf sürəti cəhətdən İngiltərəni ötüb keçən və dünya bazarında onu sıxışdıran Almaniya Yaxın və Orta Şərqdə, həmçinin Afrikada geniş işğalçılıq siyasəti apararaq Britaniya müstəmləkə imperiyasının bütövlüyünə təhlükə törədirdi. İngiltərə bütün qüvvəsini Almaniyanın işğalçı siyasətini sarsıtmağa və öz müstəmləkə torpaqlarını, dənizlərdəki hökmranlığını qoruyub saxlamağa sərf edirdi.

Fransız-alman ziddiyyətləri də olduqca mürəkkəbləşmişdi. Fransa tərəfi Almaniyanın 1871-ci ildə işğal etdiyi Elzas və Lotaringiyanın qaytarılmasını tələb edirdi. Fransanın Afrikadakı müstəmləkələri üstündə Almaniya və Fransa Afrikada da toqquşurdular.

Beynəlxalq münasibətlərdə bir tərəfdən Rusiya, digər tərəfdən isə Almaniya və Avstriya-Macarıstan arasındakı ziddiyyətlər də mühüm yer tuturdu. Çar Rusiyası bu ölkələrlə Yaxın Şərqdə və Balkanlarda toqquşurdu. Avstriya-Macarıstanın Balkanlarda güclənən işğalçılıq siyasəti, burada Rusiya təsirini tamamilə sarsıtmaq təhlükəsi yaradırdı. Rusiya ilə Almaniya arasında ciddi iqtisadi ziddiyyətlər də var idi.

Başlıca imperialist dövlətləri arasındakı ziddiyyətlər iki düşmən qruplaşmanın yaranmasına səbəb oldu. Hər iki qruplaşma üzvləri öz hökmranlığını möhkəmlətmək və xalqları əsarət altına almaq məqsədi ilə dünyanı yenidən bölüşdürmək planları hazırlayırdılar. İmperialist dövlətlərinin hazırlıqları birinci dünya müharibəsinə gətirib çixartdı.

Müharibəni 1914-cü ilin avqustunda Almaniya başlasa da İngiltərə, Rusiya, Fransa da müharibəyə az maraq göstərmirdilər. Birinci dünya müharibəsi müharibə edən ölkələrin iqtisadiyyatı qarşısında müstəsna tələblər qoydu. Müharibə, bütün iqtisadiyyatı cəbhənin ehtiyaclarını ödəməyə keçirməyi tələb edirdi. Rusiya öz iqtisadi geriliyi, ictimai və siyasi quruluşunun çürüklüyü nəticəsində xüsusilə ağır vəziyyətə düşdü. Rusiyanın müharibəyə hazır olmaması, müharibə başlanan kimi birinci növbədə özünü silah və döyüş sursatının çatışmamasında göstərdi. Təhlükəli vəziyyət yaranmasına baxmayaraq, çar hökuməti hərbi istehsalın genişləndirilməsi üçün uzun müddət ciddi tədbirlər görmədi. Çar hökuməti hələ müharibədən əvvəl hərbi məhsul istehsal edən iri xüsusi müəssisələrə top və mərmi sifarişi verməklə kifayətləndi.

Müharibə Rusiyanın onsuzda geridə qalmış iqtisadiyyatını bərbad hala saldı. 15 milyona qədər fəhlə və kəndli cəbhəyə çağırıldığı üçün təsərrüfatdan ayrılmışdı. Cəbhəyə gedən fəhlələri qadınlar və yeniyetmələr əvəz etmişdilər. İş şəraiti də pisləşmişdi. İş vaxtından çox, istirahət günləri və gecələr işləmək qanuni hala çevrilmişdi. Kənddə də vəziyyət ağırlaşmışdı.

Müharibənin elə ilk günlərindən nəqliyyat, birinci növbədə dəmiryol nəqliyyatı ağır vəziyyətə düşdü. Dəmiryol tikintisi demək olar ki, dayandırıldı. Dəmiryollarında vaqonlar və parovozlar çatışmırdı. Dəmiryol nəqliyyatı yük daşımaları həyata keçirə bilmirdi. 1916-cı ildə nəqliyyat ordu üçün ərzaq daşınmasını ancaq əlli faiz yerinə yetirdi. Müharibə illərində kənd təsərrüfatında da vəziyyət çox ağır oldu. Ən çox iş qabiliyyətli kənd əhalisinin orduya səfərbər edilməsi kənd təsərrüfatının kəskin tənəzzülünə səbəb oldu. 1914-cü ildə əkilmiş tarlaların 20 faizindən, 1916-cı ildə isə əkilmiş tarlaların 15 faizindən taxıl yığılmadı. 1915-ci ildə Rusiyada ümumi taxıl yığımı 1913-cü ildəkinə nisbətən 20 faiz, 1916-cı ildə isə 30 faiz azaldı. 1916-cı ilin sonlarına yaxın Rusiya dərin təsərrüfat böhranı keçirirdi. Sənaye, kənd təsərrüfatı və nəqliyyat bərbad

hala düşmüşdü. Müharibə edən ölkələrin heç birində dağıntı Rusiyadakı kimi deyildi. Müharibə dövründə İngiltərə öz sərvətinin 15 faizini itrdiyi halda, çar Rusiyasının itkisi 60 faiz idi.

Birinci dünya müharibəsi Rusiyanın milli ucqarlarının da iqtisadiyyatını səfərbər etmişdi. Sənayenin bir çox sahələri cəbhə üçün işləyirdi. Müharibə başlayandan sonra kəndlilərin vəziyyəti daha da ağırlaşmışdı. Rusiya hökuməti cəbhə üçün vacib olan xammal və sənaye məhsullarının daşınmasını möhkəmləndirmək üçün bir sıra tədbirlər görmüşdü. 1916-cı ilin aprelində Fərqanə dəmiryolu istifadəyə verilmişdi. Yeni sement və pambıqtəmizləmə zavodları işə salınmışdı. Müharibə şəraitində başqa kənd təsərrüfatı bitkiləri əvəzinə yalnız cəbhəni toxuculuq məmulatı ilə təchiz etmək üçün pambıq əkilməsi xalq kütlələrinin narazılığına səbəb oldu. 1916-cı ilin payızından başlayaraq kənd təsərrüfatının bütün sahələrində tənəzzül baş vermişdi. 1917-ci ildən etibarən həm sənaye və həm də kənd təsərrüfatı sahələri böhran keçirirdi. Çələkən adasında neft hasilatı 10 dəfə azalmışdı. Duz,daş kömür çıxarılması da dayanmaqda idi. Yun və boyaq məhsullarının olmaması nəticəsində xalça istehsalı azalmışdı. Ölkədə maliyyə böhranı təminatsız istiqrazların buraxılmasını artırmışdı.

Orta Asiya əhalisinin sosial-iqtisadi vəziyyəti xeyli ağırlaşmışdı. Ölkənin təsərrüfatına dağıdıcı təsir göstərən müharibə bu regionun sosial-iqtisadi problemlərini daha da kəskinləşdirmişdi. Türküstanda 1913-cü ilə nisbətən 1916-cı ildə sənaye məhsullarının qiyməti 4 dəfə artmışdı. Çoxişlənən, tələbat mallarını tapmaq çətinləşmişdi. 1916-cı ilin payızında şəhərlərdə yoxsulluq son həddə çatmışdı. Kəndlilərdən alınan müxtəlif vergilər getdikcə artırılırdı. Əhalinin ən çox narazılığına səbəb olan, etiraz doğuran hərbi istiqrazların yayılması və müharibəni "qələbə ilə sona çatdırmaq" naminə tez-tez pul və əşya ianəsi toplanması idi.

Müharibə illərində Tatarıstanın sənaye müəsissələrinin çoxu cəbhə üçün işləyirdi. Ordunu təchiz etmək və geyim

hazırlamaq üçün toxuculuq məmulatı istehsalı xeyli genişləndirilmişdi. Kazan şəhərindəki ən iri gön-dəri fabriki daha da böyüdülmüşdü. Tatarıstan sənayesinin hərbiləşdirilməsində 1915-ci ildə yaradılmış Kazan hərbi-sənaye komitəsinin böyük rolu olmuşdu. Onun köməyilə sahibkarlar əlverişli hərbi sifarişləri yerinə yetirmək üçün müqavilələr bağlamışdılar. Müharibə bütövlükdə Tatarıstanın sənayesinə də mənfi təsir göstərmişdi. İxtisaslı fəhlələrin çatışmaması, istehsalda əmək məhsuldarlığını aşağı salmış və məhsulun keyfiyyətini pisləşdirmişdi. Orta və xırda müəssisələrin çoxu istehsalı ya ixtisar etmiş və ya da dayandırmışdı. Cəbhə üçün işləyən bəzi müəssisələr də məhsul istehsalını ixtisar etməyə başlamışdılar. Müharibə illərində Tatarıstanda əkin sahələri də xeyli azalmış və məhsuldarlıq aşağı düşmüşdü. Kənd təsərrüfatı alətləri və iş heyvanı çatışmırdı.

Müharibənin birinci ilindən Başqırdıstanda sənaye müəssisələrinin xeyli hissəsi hərbi sursat istehsalına keçmişdi. Dövlətə məxsus müəssisələr çuqun, polad, top mərmiləri, silah istehsal edirdilər. Başqırdıstanda daş kömür çıxarılması xeyli artmışdı. Burada dağ-mədən, metallurgiya sənayesində müharibənin yaratdığı canlanma 1916-cı ilin payızına qədər davam etmişdir. Bundan sonra ölkıdə baş verən təsərüüfat dağıntısının təsiri altında sənaye məhsullarının azalması prosesi başlamışdı. Kişilərin cəbhəyə səfərbərliyə alınması və atların müsadirə edilməsi yüzlərlə ailəni işçi qüvvəsi və qoşqu heyvanından məhrum etmişdi. 1917-ci ildə atı və inəyi olmayan kəndli təsərrüfatları bütün təsərrüfatların 30 faizini təşkil edirdi. Başqa bölgələrdə olduğu kimi burada da əhalinin sosial-iqtisadi vəziyyəti xeyli pisləşmişdi. Müharibə nəticəsində meydana çıxan çətinliklərlə bağlı ən zəruri məhsulların qiyməti artmağa başladığı halda, fəhlələrin real əmək haqqı azalırdı.

Müharibə illərində Krım bilavasitə döyüş zonasında yerləşirdi. Düşmənin hərbi gəmiləri yarımadanı hətta yaşayış məntəqələrini dəfələrlə artileriya atəşinə tutmuşdular. Mühari-

bə başlayandan az sonra, burada da ərzaq məhsullarının, xüsusən çörəyin qiyməti 3, ətin qiyməti 4,5, yağın qiyməti 5, kartofun qiyməti isə 10 dəfə artmışdı. Əsgərlərin və hərbi yüklərin birinci növbədə daşınması ilə əlaqədar olaraq sənaye müəssisələri xammal və yanacaq,əhali isə yaşayış üçün zəruri olan məhsulları ala bilmirdi. Ölkədə işsizlər ordusu yaranmışdı. 1916-cı ildən isə şəhər və fəhlə qəsəbələrində zəruri ərzaq məhsulları kartoçka sistemi ilə verilirdi. Tibbi yardım və sosial qayğı olduqca aşağı səviyyədə idi. Müharibənin bütün ağırlığı xalqın üzərinə düşürdü. Amansız milli-müstəmləkə zülmü, çar məmurlarının zorakılığı və özbaşınalığı, müharibənin gətirdiyi səfalətlər kəndliləri tamamilə müflisləşdirir və onları dilənçi kökünə salırdı.

Müharibə Sibirin iqtisadiyyatına da mənfi təsir göstərmişdi. Sibirin də fabrik və zavodlarının çoxu cəbhə üçün işləyirdi. Cəbhənin tələbatı, sənaye üçün həlledici əhəmiyyət kəsb etdi. Sənayenin hərbi istehsala keçməsi, "dinc" istehsal deyilən sənaye sahələrinin azalması ilə bir vaxtda baş verirdi. Sənaye birtərəfli, hərbi istiqamətdə inkişaf edirdi. Müharibə Sibirdə sosial-iqtisadi problemlər də yaratmışdı. Əmək qabiliyyətli insanların müharibəyə getməsi ailələrin ciddi çətinliklərlə qarşılaşmasına səbəb olurdu. Kənd təsərrüfatında vəziyyət daha pis idi. Əkilməyən torpaq sahələri artır, məhsuldarlıq aşağı düşürdü. Çoxişlənən, gündəlik tələbat məhsulları tapılmır, möhtəkirlik artırdı. Kəndlilərdən alınan müxtəlif vergilər getdikcə artırılırdı. Kəndli təsərrüfatının var-yoxdan çıxması prosesi güclənirdi.

Rusiya dövləti müsəlman xalqlarına etibar etmədiyinə görə, gəncləri əsgərliyə çağırmırdı. Çar hökuməti onlara silah verməkdən ehtiyyat edirdi. Müsəlmanların orduya səfərbərliyə alınmaması həm də bu xalqların hərb sənətinə yiyələnməməsi məqsədini güdürdü. Lakin müsəlmanların orduya çağırılmaması müqabilində onlardan xüsusi vergi alınırdı. 1916-cı ilin 15 iyun tarixli çar fərmanı ilə "özgə xalqlardan olan" vətəndaş-

lar müharibə ilə əlaqəli işlərə səfərbərliyə alındı. Bunu nəticəsində əmək qabiliyyətli əhali təsərrüfatdan ayrılaraq arxa cəbhə işlərinə cəlb olundu. Bu da öz növbəsində xalq təsərrüfatı sahələrində işləyənlərin sayını azaltmışdı. Kənd təsərrüfatı texnikası və iş heyvanları çatışmırdı. İş heyvanlarının çoxu, xüsusilə atlar cəbhə üçün səfərbər edilmişdi. Mal-qaranın sayı da azalmışdı.

Müharibə milli-müstəmləkə zülmünü gücləndirib, məzlum xalqlara yeni əzab və işgəncələr gətirdi. 1916-cı ildə Orta Asiyada çar zülmünə qarşı milli azadlıq uğrunda üsyanlar baş verdi. Qanuna görə orduya səfərbərliyə alınmamalı olan yerli əhalinin cəbhəyə yaxın yerlərdə arxada işləməyə səfərbərliyə alınması haqqında 1916-cı il 25 iyun tarixli fərman üsyanlara səbəb oldu. Belə ki, çağırış zamanı çoxlu sui-istifadəyə yol verilirdi. Məmurlar rüşvət alaraq varlı çağırışçıları azad edir və onların əvzinə çağırışçıların siyahısına çağırış yaşına çatmamış yoxsulları daxil edirdilər. Çar məmurlarının bu siyasəti yerli əhalinin narazılığına səbəb olurdu.

1916-cı ilin iyulun 4-də Türküstanın Xocənt şəhərində səfərbərlik əleyhinə üsyan başlandı. Az sonra Daşkənd, Səmərqənd, Kokand və Əndican əhalisi də üsyançılara qoşuldu. Avqustda Krasnovodsk qəzasında türkmənlər üsyan etdilər. Üsyan qaldırmış qırğızlar Prjevalsk və Tokmak şəhərlərini mühasirəyə aldilar. Milli burjuaziyanın bəzi nümayəndələri isə Rusiyanın əleyhinə çıxaraq Türküstandan rusların çıxıb getmələrini istəyirdilər. Onlar üsyançılarla həmrəy olaraq əsasən xan, bəy və din xadimlərinin mövqeyini möhkəmləndirməyə çalışırdılar. Özbək, türkmən və qırğızların zəif təşkil edilən, aydın proqramı olmayan hərəkatı uzun sürə bilmədi. Onlar arasında hərəkatın zəifliyinin səbəblərindən biri də o idi ki, çıxışlar bir-biri ilə əlaqələndirilmirdi. Üsyanların yatırılmasında Türküstan general-qubernatoru Kuropatkin özünün qəddarlığı ilə seçildi. Nəhayət, rus burjuaziyası başa düşdü ki, ucqarlarda fəhlələrin və kəndlilərin səfərbərliyinin keçirilməsi ancaq vəziyyəti

gərginləşdirir. 1916-cı il iyulun 24-də Dövlət dumasının üzvü Kerenski Dumanın adından Ali Baş Komandanlığın Qərargah rəisi general Alekseyevə göndərdiyi teleqramda pambıq yığımı mövsümü qurtarana qədər çağırışı dayandırmaq göstərilirdi. Baş Qərargahın iclasında ucqarlarda səfərbərliyin məhsul yığımı mövsümü qurtarana qədər təxirə salınması qərara alındı. Orduya səfərbərlik 1916-cı ilin payızında başlandı və dekabrında qurtardı.

Çarizmin milli-müstəmləkə siyasətinə və yerli hakim dairələrə qarşı üsyan Qazaxıstanın Turqay vilayətində daha ciddi şəkil almışdı. Turqay vilayətində baş vermiş üsyana Amangəldi İmanov başçılıq edirdi. Üsyanda 50 min nəfərdən çox insan iştirak edirdi. İstər canlı qüvvə və istərsə də silah cəhətdən yaxşı təchiz olunmamalarına baxmayaraq Amangəldinin dəstələri müvəffəqiyyətlə döyüşürdülər. Üsyançılar polis məntəqəsi binalarını dağıdır, çağırışçı siyahılarını, çarın şəkillərini cırıb məhv edir, yerli hökumət orqanları nümayəndələrini öldürür və çar qoşunu cəza dəstələrinə hücum edirdilər. Cəza dəstələri toplardan istifadə edib üsyanı vəhşicəsinə yatırdırdı. Yerli məmurlar və feodal hakim dairələr üsyançıları çar fərmanına tabe olmağa çağırır, üsyanın yatırılmasına kömək edirdilər. 1917-ci il fevralın 24-də qanlı döyüşdən sonra üsyançı dəstələr döyüşədöyüşə geriyə-səhraya çəkildilər. Amangəldinin başçılıq etdiyi üsyan məğlub olsa da milli azadlıq hərəkatı mütləqiyyətə ağır zərbələr vurdu.

Orta Asiyanın bəzi rayonlarda yerli feodallar xalq hərəkatından öz mənafeləri üçün istifadə etmək istəyirdilər. Türkmənistanın Təcən qəzasında, Şimali Qırğızıstanın bəzi rayonlarında, Özbəkistanın Cizək qəzasında xarici dövlətlərin casusları ilə əlaqədar olan yerli feodal əyanlar üsyana rəhbərliyi öz əllərinə keçirmişdilər. Onlar üsyançıları rus kəndlərinə basqın etməyə və heç bir günahı olmayan adamları öldürməyə təhrik edirdilər. Lakin hərəkat rayonların böyük əksəriyyətində

milli-azadlıq xarakteri daşıyırdı, hərəkatda rus fəhlələri və yoxsul kəndlilər iştirak edirdilər.

Beləliklə, birinci dünya müharibəsi dövründə, bütün ölkədə olduğu kimi, türk xalqları yaşayan bölgələrdə də əhalinin müflisləşməsi və onların ehtiyacının artması sosial-iqtisadi ziddiyyətləri kəskinləşdirdi. Orta Asiyada baş vermiş üsyanlar müharibənin törətdiyi inqilabi böhranın güclənməsinə təsir etmişdi.

## 5. 1917-ci il fevral inqilabından sonra Orta Asiya, Volqaboyu, Sibir və Krımda ictimai-siyasi vəziyyət

Müharibənin gedişində təsərrüfat dağınıqlığının daha da artması, tətil və inqilabi hərəkatın genişlənməsi, kəndlilər içərisində kütləvi narazılığın güclənməsi, məzlum xalqlar arasında həyəcanlar, orduda müharibəyə qarşı etirazlar Rusiyanın inqilabi böhran keçirməsinin aşkar hiss olunan əlamətləri idi. Ölkəni görünməmiş dərəcədə viran qoyan və çoxlu insan tələfatına səbəb olan imperialist müharibəsi inqilabi hərəkatı sürətləndirdi.

1916-cı ilin axırlarında-1917-ci ilin əvvəllərində ölkədə inqilabi mübarizə o qədər gücləndi ki, bu mübarizə çar mütləqiyyətini kökündən sarsıtdı. İmperialist müharibəsinə qarşı xalqın etirazı, çarizmə və kapitalist zülmünə qarşı fəhlələrin mübarizəsi, mülkədar torpaq sahibliyini ləğv etmək uğrunda kəndli hərəkatı, milli zülmü ləğv etmək uğrunda Rusiyanın ucqarlarında yaşayan xalqların mübarizəsi vahid axın halında birləşirdi.

1917-ci il fevralın 26-da Baş nazir Dumanın buraxılması əmrini verdi. Baş nazir çarın adından Dumanın buraxılması əmrini versə də onun əmri yerinə yetirilməmişdi. Əsgərlərin çoxu əmrə itaət etmirdi. Rodziyenkonun sədrliyi altında müvəqqəti Duma komitəsi yaradıldı. Bu komitədə ifrat sağlar və bolşeviklərdən başqa bütün partiyaların nümayəndələri

vardı. Nümayişə çıxan fəhlələr, sənətkarlar və əsgərlər hökumətə qarşı mübarizə aparırdılar. 1905-ci il inqilabından sonra inqilabçıların kimisi öldürülmüş, kimisi Sibirə sürgün olunmuş, bir qismi də Qərb ölkələrinə qaçaraq canlarını qurtarmışdılar. Birdən-birə partlayan bu inqilaba istiqamət verəcək liderlərə ehtiyac vardı.

Xalq həbsxanalara hücum edərək məhkum və həbsdə olanları azad etdi. Onların arasında sosial-demokratların, bolşevik və eserlərin də liderləri vardı. Bu partiyaların nümayəndələri zavodlara, fabriklərə gedərək iğtişaşın artmasına çalışdılar. Duma yerləşən Tavriya sarayına yollandılar. Sovetin toplanması üçün başlanan hazırlıq işlərində iştirak etdilər. Bu çalışmaların nəticəsində tezliklə müvəqqəti İcra Komitəsi yaradıldı. Həmin axşam yəni, fevralın 27-də Peterburq Sovetinin toplanmasına qərar verildi. Menşevik liderlərindən Çxeidzenin sədrliyi altında o axşam Peterburq Soveti toplandı və inqilabın qələbə çaldığını elan etdi. Qərara alındı ki, fəhlə soveti bundan sonra "Fəhlə və əsgər deputatları Soveti" adlandırılsın. "İcra Komitəsi" və başqa komissiyalar bu Sovetə daxil oldular. Duma müvəqqəti komitəsi sonradan Lvovun rəhbərliyi altında yenidən yaradılaraq Müvəqqəti hökumət adını aldı. Lakin ölkə daxilində bu hökumətin heç bir etibarı və nüfuzu olmadı. Beləliklə, ölkədə iki hakimiyyət-Müvəqqəti hökumət və fəhlə-əsgər deputatları soveti yaradılmışdı. Xalqın inqilabdan həllini gözlədiyi məsələlər aşağıdakılar idi:

1. Rusiyanın müharibədən çıxaraq sülh əldə etməsi və gizli müqavilələrin ləğvi.
2. Müəssislər məclisinin tezliklə toplanması.
3. Torpaq islahatı problemi.
4. İşçilərin fabriklər üzərində nəzarət məsələləri.
5. Ölkənin hər yerində bərbad və dağınıq olan istehsalın yenidən təşkil edilməsi.
6. Rus əsarətində olan millətlərin hüquq və azadlıqlarını əldə etməsi.

Müvəqqəti hökumət və Sovetlər bu məsələlərin heç birini həll edə bilmədilər. Partiyalar bir-birləri ilə çəkişir və nə edəcəklərini bilmirdilər. Fevral inqilabının başladığı gündən qərarsızlıq hər tərəfdə baş alıb gedirdi. Müvəqqəti hökumətin üzvlərindən tutmuş polis məmuruna, vətəndaşa qədər bütün siniflərdən olan insanlar inqilabın gedişində müəyyən bir aydınlıq görmürdülər.

Peterburq və Moskvanın ardınca inqilabi çıxışlar bütün ölkəni bürüdü. Gizli fəaliyyət vəziyyətindən çıxan bolşeviklərin rəhbərliyi altında fəhlələr işi dayandırır, nümayişlər təşkil edir, polisi tərksilah edir, siyasi məhbusları həbsxanalardan azad edir, çar hakimiyyəti orqanları nümayəndələrini vəzifədən götürür və Sovetlərə deputatlar seçirdilər. Yerlərdə fəhlələrin çıxışı, əsgərlərin də onlara qoşulması köhnə hökumət orqanları tərəfindən hər cür müqavimət göstərilməsi imkanını aradan qaldırdı.

Mütləqiyyətin devrilməsi xəbəri alındıqdan sonra milli ucqarlarda o cümlədən, Orta Asiyada, Volqaboyu və Sibirdə fəhlələr və əhalinin demokratik təbəqələri Sovetlər yaratmağa, köhnə hakimiyyət orqanlarını ləğv etməyə başladılar. Orta Asiyanın şəhər, qışlaq və aullarında kütləvi mitinq və nümayişlər baş verirdi. Orta Asiyada birinci olaraq martın 3-də Daşkənd fəhlə deputatları Soveti, martın 5-də isə əsgər deputatları Soveti yarandı və az sonra bunlar fəhlə və əsgər deputatları Sovetində birləşdilər. Rus əhalisi yaşayan qəsəbələrdə kəndli deputatları Sovetləri, yerli əhali içərisində isə müsəlman fəhlə deputatları Sovetləri və müsəlman zəhmətkeşləri ittifaqı yaranırdı. Orta Asiyanın Əndican, Səmərqənd, Xocənt, Buxara və digər şəhərlərində də Sovetlər yaranmağa başlamışdı. 1917-ci ilin mart-aprel aylarında Qazaxıstanda yaradılmış 24 Sovetdən 8-i fəhlə, 9-u kəndli və 7-si əsgər deputatları Soveti idi.

Orta Asiyanı mərkəzin inqilabi təsirindən təcrid etməyə və köhnə hərbi-müstəmləkə idarə üsulunu saxlamağa çalışan müvəqqəti hökumət, general-qubernator Kuropatkin başda

olmaqla çar hakimiyyətinin bütün aparatını saxladı. Çar müstəmləkəçilərinin bütün vəzifələrdən qovulmasını, hakimiyyətin fəhlə və əsgər deputatları Sovetlərinə verilməsini tələb edən kütlələrin təzyiqi altında martın 31-də Daşkənd fəhlə və əsgər deputatları Sovetinin, Müsəlman deputatları Sovetinin və kəndli deputatları Sovetinin birləşmiş iclasında Kuropatkinin köməkçiləri ilə birlikdə işdən götürülüb həbs edilməsi haqqında qərar qəbul edildi. Həmin iclasda eyni zamanda yeni qoşun komandanı və hərbi dairə qərargahı rəisi seçildi. Lakin vilayətdə mülki işlərin idarə olunması Daşkənd icraiyyə komitəsinin üç komissarına tapşırıldı ki, burada da çar məmurları üstün yer tuturdular.

Kuropatkin vəzifəsindən uzaqlaşdırıldıqdan sonra Müvəqqəti hökumət, Şepkin başda olmaqla Türküstan komitəsi yaratdı. Hərbi qubernatorlar və qəza rəisləri əvəzinə çar məmurlarından, eserlərdən, menşeviklərdən və burjua millətçilərindən vilayət və qəza komissarları təyin edildi. Türküstan komitəsi Yeddisunun cənub qəzalarında yerli əhalinin 2,5 milyon desyatin torpağının zorla alınması haqqında hələ Kuropatkin tərəfindən hazırlanmış planı təsdiq etdi. Kazak qoşunlarının çox böyük torpaq malikanələrinə toxunulmadı. Türküstan komitəsi Müvəqqəti hökumətin regionda siyasətini həyata keçirən orqana çevrildi. Türküstan komitəsi Orta Asiya xalqlarının sosial-iqtisadi, milli, siyasi və başqa problemlərini həll etmədi.

1917-ci ilin martında özbək burjuaziyasının yaratdığı müsəlman komitələri "Şurayi-islam" təşkilatında birləşdilər. Bu təşkilata milli burjuaziyanın, feodalların və müsəlman ruhanilərinin nümayəndələri daxil idi. 1917-ci il aprelin 16-dan 23-ə qədər "Şurayi-islam" təşkilatının birinci qurultayı keçirildi. Qurultay Türküstan müsəlmanlarının Diyar Sovetini seçdi. Qurultayda təhsil, vəqf torpaqları, müsəlmanların mərkəzləşdirilmiş dini idarəsinin yaradılması və başqa məsələlər müzakirə edilmişdir. Burada həm də Türküstan müsəlmanlarının

ərazi muxtariyyəti ideyasını nəzərdə tutan qərar qəbul olunmuşdu.

Fevral inqilabı Buxara əmirliyi və Xivə xanlığına da öz təsirini göstərmişdi. Burada da rus fəhlələri fəhlə və əsgər deputatları Sovetləri yaratmışdılar. Buxara əmirliyində idarə işlərinin yenidən qurulması uğrunda mübarizə gedirdi. Bu işlərin həyata keçirilməsi ilə Müvəqqəti hökumətin buradakı nümayəndəsi Miller məşğul idi. May ayında Buxarada "Şurayi-islam"ın yerli bölməsi təsis edildi. Miller Buxaranın idarəçiliyindən uzaqlaşdırıldı və koalisiyon hökumət təşkil olundu. Xivədə də Sovetlərlə yanaşı Müvəqqəti komitə də yaradılmışdı. İdarəçiliyi həyata keçirmək üçün həmin komitənin göstərişi nəticəsində Məclis yaradıldı. Müvəqqəti komitə şəhərin təsərrüfat, iqtisadiyyat və mədəni həyatını idarə etməyi öz əlinə almışdı. Beləliklə, bütün bölgədə ikihakimiyyətlik yaradılmışdı.

Fevral inqilabından sonra qazax-qırğız milli hərəkatı Milli Şura yaratmışdı. Milli Şura qazax-qırğız milli muxtariyyətinin yaradılmasını qəbul etdi. 1917-ci ilin dekabrında Bukeyxanovun başçılığı altında Alaş-Orda Muxtar qazax hökuməti təşkil edilmişdi. 1917-ci il oktyabr çevrilişindən sonra hakimiyyətə gələn bolşeviklər bərabərlik və xalqların öz müqəddəratını təyinetmə prinsipini irəli sürsə də işdə imperiyanın keçmiş müstəmləkələrindən olan xalqlara öz talelərini özlərinin həll etmələrinə imkan verilmədi. 1920-ci ilin martında Alaş-Orda dövləti süqut etdi.

Fevral inqilabından sonra Rusiyanın hər yerində olduğu kimi Volqaboyunu da inqilab dalğası bürümüşdü. Martın 2-də Kazanda və quberniyalarda fəhlə deputatları Sovetləri yaradıldı. Martın 10-da əsgər deputatları Sovetləri təşkil olundu. Martın 14-də bunlar Kazan fəhlə və əsgər deputatları Sovetində birləşdilər. Eyni zamanda 1917-ci ilin martın 5-də yerli burjuaziya Quberniya ictimai təhlükəsizlik komitəsi yaratdı. 1917-ci ilin martında Başqırdıstanda da ikihakimiyyətlik yaradılmışdı. Bunlar quberniya ictimai və təhlükəsizlik komitələri, fəhlə və əsgər deputatları

Sovetlərindən ibarət olmuşdu. Çuvaşiyada da belə qurumlar yaradılmışdı.

Müvəqqəti hökumət də rus dilini dövlət dili kimi tanıyır və onun milli ucqarlarda tətbiqini genişləndirirdi. Məhz buna görə də hökumət yerli burjua təbəqələri ilə də toqquşmalı olurdu. IV Dövlət dumasında fəaliyyət göstərən Müsəlman fraksiyasının liderləri "Rusiya müsəlmanlarının mərkəzi bürosu"nu yaratdılar. "Mərkəzi büro" müsəlman xalqlarının milli, hüquqi, sosial-iqtisadi çətinliklərinin aradan qaldırılması haqqında tələblər irəli sürmüşdü. 1917-ci il aprelin 23-24-də Kazan quberniyası müsəlmanlarının birinci qurultayı çağırıldı. Qurultayda Volqaboyu türklərinin burjua nümayəndələri, bəy, qolçomaq və ruhani rəhbərlərinin daxil olduqları quberniya müsəlmanlarının "Milli Şura"sı yaradıldı. Volqaboyu türklərinin milli burjuaziyası bütün müsəlman-türk xalqlarının birliyi ideyasını təbliğ edirdi. Onlar Rusiyada mövcud hakimiyyəti saxlamaqla müsəlman xalqlarına mədəni-milli muxtariyyət verilməsini tələb edirdilər. 1917-ci il mayın 1-dən 17-nə kimi Moskvada keçirilən Ümumrusiya müsəlmanlarının birinci qurultayında milli-məhəlli muxtariyyət, maarif və mədəniyyət, müəssislər məclisi, torpaq və s. məsələlər müzakirə edildi. Tatarların nümayəndəsi Ə.Salikova görə, milli azlıqlara yalnız mədəni muxtariyyət verilməli idi. M.Ə.Rəsulzadənin irəli sürdüyü milli-məhəlli muxtariyyət təklifi səs çoxluğu ilə qəbul edildi. Qurultayın qərarlarında ibtidai təhsilin icbari və pulsuz, təhsilin ana dilində olması, bu prinsipin orta və ali məktəblərdə də gözlənilməsi, rus dilinin xarici dil kimi tədris edilməsi göstərilirdi. Türk-müsəlman xalqlarının müvafiq problemlərini həll etmək üçün qurultayın qərarı ilə Milli Şura yaradıldı. 1917-ci il iyulun 26-dan avqustun 2-nə kimi Kazanda keçirilən Ümumrusiya Müsəlmanlarının ikinci qurultayı Mərkəzi Rusiya və Sibir müsəlmanlarının mədəni-milli muxtariyyətini elan etdi.

İnqilabın ilk günlərindən Sibirin quberniya və qəza mərkəzlərində ictimai təhlükəsizlik komitələri və Sovetlər yaradılmışdı. Fevral inqilabı Dağlıq Altayda da milli azadlıq hərəkatına təkan verdi. Altay ziyalılarının bir qismi milli müqəddaratı təyinetmə və Dağlıq Altaya müstəqillik verilməsi tələbini irəli sürürdü. Müstəqillik ideyasını yerli bəy və tacirlər də müdafiə edirdilər.

Krımda fevral inqilabından sonra hakimiyyət Müvəqqəti hökumətin nümayəndələrinin əlinə keçdi. Burjua və mülkədarların mənafeyini müdafiə edən çar məmurları və qulluqçularının çoxu yenə də öz yerlərində qalırdılar. Krım türklərinin yaratdıqları Müsəlman komitəsi 1917-ci il martın 25-də qurultay çağırdı və qurultay Müsəlman İcraiyyə Komitəsini təsis etdi. Burada Krımın milli-ərazi muxtariyyəti məsələsi əsas məqsəd kimi qarşıda dururdu. Krımın rus əhalisi qeyd olunan məsələlərin həllini istəmirdi. Belə bir şəraitdə milli hərəkatın qabaqcıllarına qarşı təqiblər artır, hadisələrin sonrakı inkişafı ictimai-siyasi vəziyyətə öz təsirini göstərirdi.

İkihakimiyyətlik şəraitində baş verən siyasi böhranlar Müvəqqəti hökumətin sülh, torpaq və çörək ümidində olan xalq kütlələrinin arzularını hələ ödəmək iqtidarında olmadığını göstərdi. Bu siyasi böhranlar Müvəqqəti hökumətin və onu müdafiə edən siyasi qüvvələrin nüfuzuna ciddi mənfi təsir göstərdi. Bolşeviklər belə vəziyyətdən istifadə edərək öz nüfuzlarını xeyli artırdılar. 1917-ci il iyul siyasi böhranından sonra diktaturaya meyil gücləndi və ikihakimiyyətlik sona çatdı. Təkhakimiyyətliyə keçilməsi Rusiyada başlanmış siyasi və iqtisadi böhranı aradan qaldırmadı. Siniflər, siyasi qüvvələr və partiyalar arasında qarşıdurma daha da artdı. Belə bir şəraitdə siyasi qüvvələr ölkəni böhrandan çıxarmaq üçün yollar axtarmağa başladılar. Nəhayət, 1917-ci il oktyabrın 25-də partiya daxilindəki fikir ayrılıqlarına baxmayaraq bolşeviklər kütlələrin narazı hissələrinə arxalanaraq "sülh, torpaq və çörək" şüarı altında dövlət çevrilişi etdilər. Həmin gecə keçirilən toplantıda

torpağın sahiblərindən əvəzsiz alınaraq kəndlilər arasında bölüşdürülməsinə və sülhə qərar verilirdi. Lakin tarix nə rus əsgərlərinin sülhə, nə də rus kəndlisinin torpağa qovuşmayacağını göstərəcəkdir. Belə ki, Rusiyada "inqilabın əksinqilaba qarşı mübarizəsi" adı altında vətəndaş müharibəsi başladı ki, bu da ölkədə milyonlarla günahsız adamın məhv olmasına səbəb oldu. Rus kəndlisinin taleyi torpağa qovuşmaq olmayıb çar-təhkimçi rejiminin aradan qalxaraq bolşevik, kommunist köləlik rejiminin qurulması və yenə gözlədikləri torpağa qovuşa bilməmələri oldu.

Türk xalqları yaşayan bölgələrdə bolşeviklər partiyasının yerli komitələri fəaliyyət göstərirdi. Onların təbliğat-təşviqat işi yaxşı təşkil edilmişdi. Məhz buna görə də Oktyabr çevrilişindən sonra, yəni 1917-1918-ci illərdə onlar demək olar ki, bütün türk xalqları yaşayan bölgələrdə hakimiyyəti ələ almışdılar. 1918-ci ilin fevralında Türküstanda Sovet hakimiyyəti quruldu. 1918-ci ilin aprelində Ümumtürküstan Sovetlər qurultayı toplandı və qurultay RSFSR tərkibində Türküstanın muxtariyyətini elan etdi.

1917-ci ilin axırları-1918-ci ilin əvvəllərində bütün Volqaboyu, Krım və Sibirdə Sovet hakimiyyəti quruldu. 1918-ci ilin yazında kəndlilərin yeni hakimiyyətdən narazılıqları başladı. Şərait Sovetlərin əleyhinə dəyişildi. "Əksinqilab" onlara qarşı duran başlıca qüvvəyə çevrildi. Bu qruplar Rusiyanın bir sıra bölgələrində regional hökumətlərini yaratdılar. Bütün bunlar Rusiyada vətəndaş müharibəsinin başlanmasına gətirib çıxarmış və milli ucqarların Mərkəzi Rusiya ilə əlaqəsi uzun müddət kəsilmişdi.

# TÜRKİYƏ CÜMHURİYYƏTİNİN YARANMASI. TÜRKİYƏ CÜMHURİYYƏTİ XX ƏSRİN 20-80-ci İLLƏRİNDƏ

## 1. Milli-azadlıq hərəkatı və Türkiyə Cümhuriyyətinin yaranması

Vaxtilə dünyada qüdrətli bir dövlət kimi tanınmış Osmanlı imperiyası əslində XIX əsrin axırlarında yarımmüstəmləkə vəziyyətinə düşmüşdü. Üstəlik XX əsrin əvvəllərində özünü göstərən ictimai-siyasi vəziyyət imperiyanı müstəmləkə olmağa doğru sürükləyirdi. Siyasi və iqtisadi həyatda özünü göstərən böhran və tənəzzül həyatın bütün sahələrinə sirayət edirdi. Mütləqiyyat rejiminin hüdudsuz hökmranlığına qarşı yönəlmiş "Gənc türklər" hərəkatı 1908-ci ildə konstitusiyalı monarxiya yaradılması ilə nəticələndi. Bu hərəkat ölkədə kapitalizmin inkişafına müəyyən təkan verməyə başladı. Lakin dünyanın yenidən bölüşdürülməsi uğrunda aparılan birinci dünya müharibəsi sultanlığın aqibətini həll etdi. Hələ birinci dünya müharibəsinin başlanması ərəfəsində imperialist dövlətlər Sultan Türkiyəsini öz aralarında bölüşdürmək haqqında danışıqlara başlamışdılar. Onların 1915-1917-ci illərdə bir-biri ilə bağladıqları sazişlər imperiyanın demək olar ki, bütün torpaqlarını əlindən alınmasını və öz aralarında bölüşdürülməsini nəzərdə tuturdu.

Amerikanın simasında güclü müttəfiq qazanan Antanta bloku Almaniya və onun müttəfiqləri üzərində ardıcıl qələbələr qazanmağa başladılar. Artıq məğlubiyyət qaşılmaz idi. Osmanlı imperiyasının müharibəni davam etdirmək üçün gücü qalmamışdı. Müharibə ölkəni ağır vəziyyətə salmışdı. Ölkə külli insan tələfatı verməklə yanaşı, ağır iqtisadi böhranla üzləşmişdi. Ölkənin daxilində zəruri malların, xüsusilə gündəlik istehlak məsullarının qiyməti 10-15 dəfə artmışdı. Ölkənin maliyyə strukturları bərbad hala düşmüşdü. 1918-ci ilin avqustunda ölkənin xarici borclarının həcmi 2,2 mlrd dollara

çatmışdı. İmperiyanın mövcudluğu artıq sual altında idi. 30 oktyabr 1918-ci ildə bağlanmış Mudros sülhü ilə Osmanlı imperiyası rəsmən müharibədən çıxsa da, bu müqavilə nəinki ölkəni bəladan qurtarmadı, hətta onu daha da ağır duruma saldı. Ölkə rəhbərliyi irəlidə barışıq şərtlərini yumşaltdıra biləcəyinə ümid edirdi. Lakin müttəfiqlər müqavilənin imzalanmasından az bir müddət sonra Osmanlı imperiyasını aradan qaldırmağı qərara aldılar.

Sultan VI Mehmet Vəhyəddin və onun hökuməti müttəfiqlərin əlində oyuncağa çevrildi. Barışıqdan sonrakı ilk altı ay ərzində İngiltərə öz qoşunlarını yeridib Anadolunun cənub-şərq hissəsini, Fransa ilə birlikdə Şərqi Frakiya və Qara dəniz boğazları zonasını işğal etdi. 1919-cu il mayın 15-də İngiltərə, Fransa və Amerikanın razılığı ilə Yunanıstan bütün Qərbi Anadolunu tutmaq niyyəti ilə öz qoşunlarını İzmirə çıxardı. İtaliya da Qərbi və Cənubi Anadolunun bəzi məntəqələrinə qoşun çıxartdı. Bu hal Türkiyə üçün dözülməz və təhqiredici bir vəziyyət idi. İşğalçılara qarşı kəskin etiraz əhval-ruhiyyəsi gündən-günə dərinləşir və kəskinləşirdi.

Mudros barışığından sonra gənc türklər partiyasının konqresində Tələt paşa özünün son hesabatını verərək bildirdi ki, bizim siyasət məğlubiyyətə düçar oldu. Ona görə də bizim hakimiyyəti hər hansı bir formada əldə saxlamağımız mümkün deyil. Gənc türklərin başçıları Ənvər, Tələt və Camal paşa öz siyasətlərinin iflasa uğradıqlarını gördükdən sonra ölkə əhalisinin artmaqda olan qəzəbindən qorxaraq xaricə qaçdılar. Beləliklə də "İttihad və tərəqqi" partiyası ləğv olundu. Onu daha mürtəce partiya olan "Hürriyyət və ittilaf" partiyası əvəz etdi.

Hadisələrin bu istiqamətdə cərəyan edəcəyini Mustafa Kamal qabaqcadan hiss edirdi. Belə ki, Mudros müqaviləsindən sonra orduya buraxılma əmri verilməyə başladı. Mustafa Kamal həmin gün Adanadan baş vəzir Əhməd İzzət paşaya ilk dəfə xəbərdarlıq teleqramını vurdu: "Ciddi olaraq arzu edirəm ki, lazımi tədbirlər görmədən ordunu buraxmayın. Əgər ordunu

buraxsaq və ingilislərin hər sözünə boyun əysək, düşmənin qarşısını almağa imkan olmayacaqdır”. Lakin çox təəssüflə qeyd edilməlidir ki, Mustafa Kamal paşa tərəfindən edilən bütün haqlı etirazlar təsirsiz qalır və ordunun buraxılması işi sürətlə davam etdirilirdi. Çünki əsas məqsəd Antanta dövlətləri ilə hər hansı bir mübarizəyə girməmək idi. Hesab edilirdi ki, belə bir mübarizə əleyhimizə nəticələnəcəkdir.

Sultan və hökumətin ümidsizliyinə baxmayaraq, xalq haqsız işğal və istilalara qarşı özünü müdafiə yolunda hər cür cəhd göstərirdi. Ölkənin müxtəlif yerlərində düşmənlə yerli qüvvələr arasında vuruşmalar olurdu. Digər tərəfdən, işğalçı düşmənə qarşı durmaq və azadlıq üçün yollar axtarmaq məqsədi ilə Anadoluda müxtəlif yerlərdə milli təşkilatlar yaradılırdı. Lakin bu təşkilatlar ayrı-ayrılıqda fəaliyyət göstərdiyi üçün istənilən dərəcədə təsirli deyildilər.

Mustafa Kamal 16 may 1919-cu ildə gəmi ilə İstanbuldan Samsuna doğru hərəkət etdi və 19 may 1919-cu ildə Samsuna çıxdı. 28 may günü bütün komandanların diqqətini cəlb etmək məqsədi ilə gizli bir yazı yayınlayaraq işğal altına alınmış torpaqları azad etmək, imperiyanı dağıdaraq bütün Türkiyəni parçalayıb bölüşdürmək istəyən qüvvələrə qarşı türk millətini birləşməyə və istiqlal mübarizəsinə çağırdı. Sonra Amasiyaya keçdi və iyunun 21-də Amasiya xalqına müraciət etməklə yenə türk millətini birliyə, bütünlüyə və mübarizəyə dəvət etdi. Bu çağırış və müraciətlər ittifaqda olan dövlətlərin təzyiqi ilə Mustafa Kamalın hökumət tərəfindən İstanbula çağırılmasına yol açdı. Yaranmış vəziyyət və baş vermiş hadisələr nəticəsində Mustafa Kamal paşa 7 iyul 1919-cu ildə tutduğu vəzifədən istefa etdiyini hökumətə bildirdi.

Hərbi vəzifəsindən istefa verdikdən sonra ərzurumluların arzusu ilə Şərq vilayətləri müdafiə hüququ milli cəmiyyətinin Ərzurum şöbəsinin fəaliyyət heyətinə sədr seçildi. Cəmiyyət o günlərdə bir az əvvəl qərara alındığı kimi Şərq vilayətlərini təmsil edən bir konqres üçün hazırlıq işləri görürdü. Ərzurum

konqresi 23 iyul 1919-cu ildə toplandı. Konqres bir təsis məclisi kimi 14 gün fəaliyyət göstərdi və 7 avqust 1919-cu ildə bir bəyannamə dərc etdirərək işini qurtardı.

Ərzurum konqresinin toplanışı və işinə başlaması ilə İstanbulda Saray və hökumət tərəfindən Anadoluda yüksələn bu azadlıq səsini boğmaq üçün ciddi bir fəaliyyət başlandı. Mustafa Kamal dövlətə qarşı çıxış edən bir qiyamçı, Ərzurum konqresi isə qeyri-qanuni elan edildi. Mustafa Kamal paşanı həbs etmək üçün hər cür tədbirə əl atıldı. İstanbul hökuməti Ərzurum konqresinin dağılmasını, konqresdə iştirak edənlərin tutularaq İstanbulda hərbi məhkəməyə verilməsini əmr etsə də milli fərdləri bürümüş o zaman ki, ab-hava içində heç bir rəsmi orqan bu əmri yerinə yetirməyə təşəbbüs edə bilmədi.

Əslində bu qədər ağır şərtlər altında böyük bir vətən eşqi ilə heç bir təhlükədən çəkinməyərək keçirilən Ərzurum konqresi türk tarixində mühüm bir dönüş nöqtəsi oldu. Türk Azadlıq Müharibəsinin ilk təməli bu konqresdə qoyulmuş, qəbul edilən tarixi qərarlar milli mübarizənin əsas şərtlərini irəli sürmüşdü.Əsasən də Şərqi Anadolunun parçalanmasına və əsarət altına alınmasına yol verilməyəcəyi qeyd olundu. Bu konqresdə Mustafa Kamalın başçılığı ilə "Nümayəndələr komitəsi" seçildi. Bu,mahiyyətcə Türkiyənin müvəqqəti hökumətini əvəz edirdi.

Mustafa Kamal paşa "Nümayəndələr komitəsi"nin bir sıra üzvləri ilə birlikdə Sivas konqresində iştirak etmək üçün 2 sentyabr 1919-cu ildə Ərzurumdan Sivasa gəldi. Sivas konqresi 4 sentyabr 1919-cu ildə toplandı. Sivas konqresinin başlanmasına mane olmaq üçün Sivasda olan fransız jandarm müfəttişi Bruno da çox təsir göstərdi. Vali Rəşid paşa ilə görüşərək belə bir konqres keçiriləcəyi təqdirdə Sivasın işğal ediləcəyini və konqresin dağıdılacağını bildirdi. İngilislər də belə bir fikirdə olduqlarını Valinin nəzərinə çatdırdılar. Yalnız Mustafa Kamalın hər çətinliyi aradan qaldırmaq əzmi bütün hədə-qorxuları nəticəsiz qoydu. Sivas konqresi ölkənin azadlığı və müstəqilliyi

naminə Mustafa Kamalın başçılığı ilə Antantaya qarşı "Anadolunun və Rumelinin hüququ müdafiə cəmiyyətlərinin birliyi"ni yaratdı. İşğal olunmuş əyalətlərdən başqa bütün yerlər Mustafa Kamalın başçılıq etdiyi "Nümayəndələr komitəsi"nin əlinə keçdi. 1919-cu ilin axrında İstanbulda çağrılacaq parlamentə seçkilər keçirildi. Bu seçkilərdə Mustafa Kamalın tərəfdarları səslərin əksəriyyətini aldılar. Mustafa Kamal özü bu parlamentə deputat seçilməsinə baxmayaraq, İstanbula getməkdən imtina etdi.

Mustafa Kamal paşa 27 dekabr 1919-cu ildə "Nümayəndələr komitəsi"nin üzvləri ilə birlikdə Ankaraya gəldi. Artıq milli mübarizə Ankaradan idarə olunur, İstanbuldakı bir çox hərbi və mülki vətənpərvərlər isə istiqlaliyyət mübarizəsində tapşırıq almaq üçün Ankaraya gəlirdi. Bir az sonra, 16 mart 1920-ci ildə İstanbul Antanta dövlətləri tərəfindən işğal edildi, şəhər xaricilər tərəfindən tamamilə hərbi nəzarət altına alındı. Belə bir vəziyyətdə Məclis fəaliyyət göstərə bilməyəcəyini başa düşərək dağıldı. Bu vaxt millət vəkillərinin bir hissəsi də ingilislər tərəfindən tutuldular. Nəhayət, 23 aprel 1920-ci ildə ölkənin hər yerindən gələn millət vəkillərinin iştirakı ilə Ankarada Türkiyə Böyük Millət Məclisi açıldı. Mustafa Kamal paşa yekdilliklə Məclisin sədri seçildi. Ankarada Böyük Millət Məclisinin açılması və Milli hökumətin yaradılmasından qəzəblənən müttəfiq orduları rəhbərliyi Sultandan təcili tədbir görməyi tələb etdi. Sultan isə Türkiyə ərazisində bir hökumət olduğunu qeyd edərək, Mustafa Kamal paşanı qiyamçı adlandırdı. Sultanın göstərişi ilə hərbi məhkəmə Mustafa Kamala və onun yaxın yoldaşlarına qiyabi surətdə ölüm cəzası kəsmişdi. Lakin artıq xalq silaha sarılaraq Mustafa Kamal paşanın ətrafında birləşmişdi. Onlar Mustafa Kamal hökumətini əsl qanuni hökumət elan edərək hər yerdən onun ətrafında toplaşırdılar.

Mustafa Kamal paşanın artan nüfuzundan və qazandığı uğurlardan qorxuya düşən Müttəfiqlər Sultan hökumətini 1920-

ci il avqustun 10-da Sevr müqaviləsini imzalamağa məcbur etdilər. Müqavilənin şərtlərinə görə, Osmanlı imperiyası İngiltərə, Fransa, İtaliya və Yunanıstan arasında bölüşdürülürdü. Bu müqavilə əslində Türkiyəni faktiki olaraq müstəqil dövlət hüququndan məhrum edirdi. TBMM müqaviləni tanımaqdan imtina edərək, onu türk xalqının maraqlarına zidd elan etdi. Sultan hökuməti isə xalqın maraqlarını düşmənə satdığına görə qanundan kənar elan edildi. Bundan qorxuya düşən sultan müqavilədən imtina edərək onu təsdiqləməyə cəsarət etmədi. Bu cür türklərin qarşısını ala bilmədiyini görən müttəfiqlər onlara arxadan zərbə olsun deyə erməniləri türklər üzərinə qaldırdılar. Əvəzində isə onlara bir sıra ərazilər də vəd olundu. Bunun nəticəsi olaraq qəfildən hücuma uğrayan türklər Qars, Oltu, Sarıqamışı itirdi. Bütün bu daxili və xarici çətinliklərə baxmayaraq, Türkiyə Böyük Millət Məclisi hökuməti qısa bir zamanda vəziyyətə hakim olaraq düşmən qüvvələrinə qarşı müxtəlif cəbhələrdə böyük müvəffəqiyyətlər qazanmağa başladı. Şərq cəbhəsində 15-ci Ordu komandanı Kazım Qarabəkirin tabeçiliyindəki qüvvələr böyük müvəffəqiyyətlər qazandı. 29 sentyabr 1920-ci ildə Sarıqamış, 30 oktyabr 1920-ci ildə Qars yenidən geri alındı. 1920-ci il dekabrın əvvəlində ermənilərin barışıq arzusu nəzərə alındı və Gümrü müqaviləsi imzalanaraq müharibə başa çatdırıldı. Ermənistan tərəfi ağır və əsarətli sülh şərtlərini imzalamağa məcbur oldu.

1920-ci ilin yazında Türkiyə ilə Sovet Rusiyası arasında dostluq münasibətləri yaranmağa başladı. Buna səbəb TBMM-nin başçısı Mustafa Kamal 1920-ci il aprelin 26-da Sovet Rusiyasına qarşılıqlı əlaqələr qurulması ilə bağlı müraciət etmişdi. Sovet hökumətinin cavabında hər iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının zəruriliyi göstərilir və Türkiyə xalqının azadlıq mübarizəsinin qələbəsinə ümid etdikləri bildirilirdi. Sovet hökuməti Türkiyəyə hərtərəfli yardım göstərəcəyini də bildirmişdi. Sovet tərəfinin yardım etmək istəyi onunla bağlı idi ki, Antantanın Sovet Rusiyasına qarşı yönəltdiyi

müdaxiləçi qüvvələri parçalasın. Türkiyəyə yardım Sovet Rusiyasının xilası naminə edilmişdir.

Sovet Rusiyası Ankara hökumətini tanıdı və 1921-ci il martın 16-da onunla Moskva sülh müqaviləsini imzaladı. Bu müqavilə ilə tərəflər belə qərara gəlmişdilər ki, başqası tərəfindən zorla qəbul etdirilən hər hansı müqaviləni tanımayacaqlar. Sovet hökuməti xüsusi olaraq bildirdi ki, Türkiyə Böyük Millət Məclisi tərəfindən tanınmayan Türkiyəyə aid beynəlxalq rəsmi sənədlərin heç birini tanımayacaq. Moskva müqaviləsi Gümrü müqaviləsini də ləğv etmiş və türk ordusunun tutduğu Gümrü rayonu Sovet Ermənistanına qaytarılmışdır. Eyni zamanda Batumi şəhəri ilə birlikdə Batumi limanının ərazisi də Gürcüstana verildi. Türkiyəyə Batumi limanı vasitəsilə sərbəst ticarət etmək ixtiyarı verilirdi.Sovet hökuməti Türkiyəni çar Rusiyası ilə beynəlxalq sənədlərə əsasən razılaşdığı pul və başqa öhdəçiliklərdən azad etmişdir. Tərəflər öz ərazilərində qarşı tərəfə yönəldilmiş təşkilat və qrupların fəaliyyətinə yol verməyəcəklərini öhdələrinə götürürdülər. Bu müqavilə ərazi məsələlərini nizama salır, boğazlarda sərbəst ticarət gəmiçiliyi nəzərdə tuturdu. Sovet hökuməti ilə Türkiyə arasında bağlanan bu müqavilə Türkiyənin beynəlxalq vəziyyətində əsaslı dönüş yaratdı. Antanta dövlətlərini Türkiyəyə güzəştə getməyə və onunla hesablaşmağa məcbur etdi. Bu müqaviləyə əsasən Türkiyəyə əvəzsiz olaraq 10 milyon manat məbləğində maliyyə və silah yardımı haqqında razılıq əldə edilmişdi.

Moskva müqaviləsinin bağlanması Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasındakı münasibətlərə də təsir etdi. 1921-ci il oktyabrın 13-də Qarsda Sovet Rusiyasının vasitəsilə Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında müqavilə imzalandı. Qars müqaviləsinin maddələrinin çoxu Moskva müqaviləsinin məzmununa uyğun idi. Müqavilədə hər iki tərəf arasındakı sərhəd və ərazi məsələlərinin qaydaya salınması yer alırdı. Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməli idi. Batumi şəhəri limanı ilə birlikdə Gürcüstana verilirdi.

Müqavilədə hərbi əsirlər, qaçqınlar və müharibə ilə əlaqədar cinayət edənlərin azad edilməsi də əks olunmuşdu. Müqaviləni imzalayan tərəflər arasında dəmiryol, teleqraf və başqa vasitələrin tezliklə işə salınması göstərilirdi. Bu müqavilə Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında sərhəd məsələlərini və bir sıra siyasi problemləri həll etdi.

Cənub cəbhəsində Adana, Urfa, Antep və Maraş rayonlarında fransız orduları ilə şiddətli vuruşmalar gedirdi. Fransızlar 12 fevral 1920-ci ildə Maraşdan, 11 aprel 1920-ci ildə Urfadan çıxmağa məcbur oldular. 21 oktyabr 1921-ci ildə fransızlarla bağlanan "Ankara müqaviləsi" ölkənin cənub şəhərlərinin azad olunmasını təmin etdi. Bu müqavilə ilə Türkiyə-Fransa silahlı qarşıdurması başa çatır, cənub sərhədi müəyyənləşdirilirdi.

Yunanlar 1920-ci ilin iyununda Qərb cəbhəsində ümumi hücuma keçdilər və bir sıra əraziləri işğal etdilər. Yunanların Qərb cəbhəsindəki irəliləyişi və bir sıra ərazilərin işğalı ilə bağlı Mustafa Kamal paşa cəbhə komandanları ilə görüşmüşdü. Bu görüşdə Mustafa Kamal paşa könüllü qüvvələrin əvəzinə nizami ordu yaradılması zərurətini irəli sürmüşdü. 1921-ci ilin yanvarında yeni yaradılmış ordu hissələri hucuma keçmiş yunan ordusunu İnönü kəndi yaxınlığında qarşıladı. Döyüş yanvarın 10-da səhərdən axşama qədər bütün günü davam etdi. Qərb cəb-həsinin komandanı İsmət paşa müharibə meydanına gəlmiş, döyüşləri bilavasitə atəş xəttindən idarə etməyə başlamışdı. Birinci İnönü döyüşü türklərin qələbəsi ilə başa çatdı. Yunanların itkiləri türklərin itkisindən bir neçə dəfə çox olmuşdu. Bu döyüşdə yunanaların bir sıra yüksək rütbəli zabitləri ələ keçirilmişdi. İnönü kəndi ətrafında baş vermiş döyüş nəticəsində yunanların Qərb cəbhəsində sürətli irəliləyişləri dayandırıldı. Türklərin gücü həm yunanları məğlub etdi, həm də bölgədəki qiyamları yatırtdı. Bu qələbə Türkiyə milli-azadlıq hərəkatında dönüş nöqtəsi oldu. İnönü qələbəsi daxildə və xaricdə böyük əks-səda yaratdı, ciddi siyasi irəliləyişlərə səbəb oldu. Bu qələbə imperialist dövlətlərə artıq milli höku-

mətin sayıla biləcək bir qüvvə olduğunu göstərdi. Bu dəyişikliklərlə əlaqədar idi ki, Antanta dövlətləri 21 fevral 1921-ci ildə toplanan London konfransına İstanbul hökuməti ilə yanaşı, Ankara hökumətini də dəvət etdilər. Ancaq Konfransda İstanbul Hökuməti nümayəndəsi Tofiq Paşa, Türkiyəni təmsiletmə səlahiyyətinin hamısının Ankara hökumətində olduğunu söylədi. Konfransda Ankara hökumətinə təklif edilən sülh Sevr müqaviləsinin bir az dəyişdirilmiş variantı olduğundan rədd edildi. Bu konfrans türk dövlətinin varlığını dünyaya sübut etdi.

İngilislərdən kömək alan yunanlar isə bu məğlubiyyətin əvəzini çıxmaq üçün 23 mart 1921-ci ildə yenidən türklər üzərinə hücuma keçdilər. İsmət paşa yenidən yunan ordusunu İnönü kəndi yaxınlığında qarşıladı. Bu döyüşdə də ağır itkilər verən yunanları türk ordusu artıq bütün cəbhə boyu sıxışdırmağa başladı. Artıq yunanların türklər qarşısında duruş gətirməyə gücü qalmamışdı. Beləliklə, Qərb cəbhəsində düşmənə qarşı ikinci İnönü zəfəri adını alan yeni böyük bir müvəffəqiyyət qazanıldı.

Yunanlar Ankara hökumətinin rədd etdiyi Sevr müqaviləsini həyata keçirmək məqsədi ilə Anadolu torpaqlarına ara vermədən yeni qüvvələr gətirərək, türklərə qarşı yeni bir hücum hazırlayırdılar. Düşmənin bu hücumu 10 iyul 1921-ci ildə bütün Qərb cəbhəsi boyu başladı. Ordu irəlilədikcə yunan qüvvələri ilə türk qüvvələri arasında tez-tez şiddətli döyüşlər olurdu. İstər canlı qüvvə, istərsə də hərbi texnika baxımından türklərdən üstün olan yunanlar bir çox yerləri işğal etdilər. Mustafa Kamal paşa 18 iyul 1921-ci ildə Qərb cəbhəsi qərargahına gəldi və vəziyyəti araşdırdı. Ordunun yenidən təşkil edilib qurulması üçün, Sakaryanın şərqinə qədər geri çəkilməsini lazım bildi. Qərb cəbhəsindəki türk ordusu geri çəkilməyə başlayaraq, Sakarya çayının şərqinə toplandı. Yunan ordusu 23 avqust 1921-ci ildə Sakaryadakı türk mövqelərinə yenidən hücuma başladı. Yunanların hücumu bir çox yerlərdə türklər

tərəfindən dayandırıldı. Sakarya döyüşü 1921-ci il sentyabrın 13-də türklərin qələbəsi ilə başa çatdı.

Yunanların tutduqları bu son mövqelərdən də qovulmaları, türk ordusundan qəti nəticəli bir döyüşə girməyi tələb edirdi. Ancaq bu yol ilə düşmənin Anadoludan tamamilə çıxarılması mümkün ola bilərdi. Baş komandan tərəfindən incəliklərinə qədər hazırlanan hücum planı 27 iyul 1922-ci ildə ordu komandanlarına bildirildi. Onların da fikirləri nəzərə alınaraq Qərb cəbhəsi ordularına 6 avqust 1922-ci ildə gizli olaraq "hücuma hazırlıq" əmri verildi. 26 avqust 1922-ci ildə Qərb cəbhəsində türklərin böyük hücumu başladı. Yunanları işğal etdikləri ərazilərdən qovaraq 9 sentyabr 1922-ci ildə türklər İzmirə çatdılar və şəhəri yunanlardan azad etdilər. 11 oktyabr 1922-ci ildə Antanta dövlətləri və Yunanıstan Mudanya şəhərində Türkiyə ilə barışıq imzaladılar, hərbi əməliyyatlar dayandırıldı. Müqaviləyə görə, Ədirnə də daxil olmaqla Şərqi Frakiyanın yunanlar tərəfindən tərk edilməsi qəbul edildi. 1922-ci il noyabrın 1-də TBMM-in qərarı ilə sultanlıq ləğv edildi. Sultan 1922-ci il noyabrın 17-də ingilis hərbi gəmisində Maltaya, İngiltərə himayəsi altına qaçdı.

Mustafa Kamal TBMM-dəki mühafizəkar ünsürlərin təsirini azaltmaq üçün Məclisin 1923-cü il aprelin 1-də özünü buraxmaq haqqında qərar qəbul etməsinə nail oldu. Mustafa Kamal paşanın tərəfdarları seçkilərdə fəal iştirak etmək üçün Xalq partiyasını yaratdılar.

Türkiyə xalqının milli-azadlıq mübarizəsinin qələbəsi Antanta dövlətlərinin planlarını boşa çıxardığı üçün onlar Lozanna konfransını çağırmağa məcbur olmuşdular. Lozanna sülh konfransı 1922-ci il noyabrın 20-də İsveçrənin Lozanna şəhərində açıldı. İki aydan artıq davam edən müzakirələrdən sonra Lozanna konfransında əsas məsələlər üzrə razılığa gəlinmədiyi üçün 1923-cü il fevralın 4-də konfrans işini dayandırdı. Konfransın ikinci sessiyası öz işinə 1923-cü il aprelin 23-də başladı. Antanta dövlətləri ilə Türkiyə arasında uzun danışıq-

lardan sonra 1923-cü il iyulun 24-də Lozannada sülh müqaviləsi imzalandı. Lozanna konfransında türk diplomatiyası böyük uğur qazanaraq öz iradəsini dünyaya qəbul etdirə bildi. Konfransın qərarlarına görə yeni Türk dövlətinin beynəlxalq aləmdə müstəqil, bütün digər dövlətlərlə bərabər bir varlıq olduğu qətiliklə tanınırdı. Antanta dövlətləri həmçinin kapitulyasiyaların və onlara əsaslanan qeyri-bərabər müqavilələrin ləğvi ilə razılaşdılar.

Konfransda ən çox mübahisə doğuran məsələ boğazlar məsələsi olmuşdur. Belə ki, boğazlardan istifadənin bütün dövlətlər üçün açıq olması məsələsi böyük dövlətlər tərəfindən israrla müdafiə olunurdu. Boğazlara Antanta dövlətlərinin nəzarəti məsələsinə isə türk tərəfi razı olmurdu. Sonda qəbul edilən razılaşmaya görə bütün ölkələrin hərbi gəmiləri istisna olmaqla digər gəmilərin boğazlardan sərbəst keçişi təmin olunurdu. Ankara hökuməti güzəştə getdi və boğazlar üstündə beynəlxalq nəzarət qoyuldu.

Bu konfrans türk dövlətinin varlığının bütün dünyada birmənalı olaraq qəbul edildiyini göstərirdi. Bu konfransdan sonra yeni yaradılmış Türkiyə dövləti dünyanın bütün ölkələri ilə bərabərhüquqlu münasibətlər yaratmaq imkanı əldə etdi. 13 oktyabr 1923-cü ildə Ankara Böyük Millət Məclisinin qərarı ilə Türkiyə dövlətinin mərkəzi oldu. 1923-cü il oktyabrın 29-da TBMM Türkiyəni respublika elan etdi. Bundan sonra respublika prezidentinin seçkisi başlandı. Ankara millət vəkili Mustafa Kamal paşa yekdilliklə Türkiyə Respublikasının ilk prezidenti oldu.

## 2. Türkiyə Cümhuriyyəti 20-40-cı illərdə

XX əsr türk xalqının ictimai-siyasi həyatına keşməkeşli və ciddi dəyişikliklərlə zəngin olan tarixi bir dövr kimi daxil olmuşdur. Yarımmüstəmləkə vəziyyətinə düşmüş Osmanlı imperiyası rəsmi olaraq dağıldı. Orta əsrlərdən miras qalmış sul-

tanlıq rejimi birdəfəlik ləğv edildi. Türk xalqının qələbələri ilə dolu olan milli-azadlıq hərəkatı nəticəsində Türkiyə respublikası yarandı. Respublikanın yaranması ölkənin sosial-iqtisadi həyatının müasirləşməsi və xaricilərin istismarından azad olunması üçün geniş imkanlar açdı. Sultanlıq üsul-idarəsinin ləğvi və respublika quruluşunun yaradılması ölkədə ictimai-siyasi həyatın yeniləşməsi üçün zəmin təşkil etdi. Ölkədə yeni tipli siyasi institutların yaradılmasında, sosial, hüquqi, mədəni və iqtisadi həyatın yenidən qurulmasında, bir sözlə, ölkənin gələcək inkişaf yolunun müəyyən edilməsində Qərbin keçdiyi tarixi inkişaf yolu bir örnək rolunu oynadı.

Mustafa Kamal geniş islahatlar proqramını həyata keçirməyə başladı. Respublikaçılıq, millətçilik, xalqçılıq, dövlətçilik, dünyəvilik və inqilabçılıq prinsiplərinə söykənən və ölkəni demokratik inkişaf yoluna çıxaran bu islahatlar Atatürk inqilabları adı ilə tarixə düşdü. Bu inqilabların məqsədi, Mustafa Kamal tərəfindən "Türkiyəni inkişaf etmiş dövlətlər səviyyəsinə çıxartmaq" olaraq bəyan edilmişdir. Mustafa Kamal özünün ictimai-siyasi həyatı müasirləşdirmək haqqındakı ideyalarını milli-azadlıq hərəkatının qələbəsindən sonra praktik olaraq həyata keçirməyə başladı. Dünyəvilik prinsipi əsasında din və dövlət işlərinin bir-birindən ayrılması və 5 fevral 1937-ci ildə dünyəvilik prinsipinin konstitusiyaya daxil edilməsi Atatürk inqilabının siyasi sahədə gerçəkləşdirdiyi başlıca məsələ idi.

Qadınların ictimai həyata cəlb edilməsi, onların vətəndaşlıq və siyasi hüquqlarının kişilərlə bərabər tutulması, soyadı haqqında qanunun qəbulu, bir sıra ləqəb və ünvanların ləğvi, beynəlxalq saat, təqvim və rəqəmlərin, ölçü vahidlərinin qəbulu Atatürk inqilablarının ictimai sahədə müvəffəq olduğu başlıca müasir tədbirlər idi.

1926-cı ildə şəriətə əsaslanan məcəllənin əvəzinə Avropa nümunəsi əsasında yeni vətəndaşlıq və cinayət kodeksi qüvvəyə mindi. Mustafa Kamalın fikrincə, hüquq sahəsində irəliləyə-

cəyimiz yol sivilizasiya yolu olacaqdır, qanunlar yüz ilin gərəklərinə, millətin gerçək ehtiyaclarına görə hazırlanacaqdır. Çünki sivilizasiya tələblərinə uyğun şəkildə qurulmuş dövlət mexanizmi köhnə qanunlarla işləyə bilməzdi.

1928-ci ildə ərəb əlifbasının yerinə latın əlifbası qəbul edildi və maarif sahəsində geniş islahatlar keçirilməyə başladı. Ərəb və fars dillərində keçirilən dərslər orta məktəb proqramından çıxarıldı və dil türkləşdirilməyə başladı. Milli, demokratik və düyəvi bir maarif proqramı hazırlandı. Qeyri-türk məktəbləri dövlət nəzarəti altına alındı. Onların milli mədəniyyətə və milli hisslərə zidd təhsil tətbiq etmələrinə imkan verilmədi. 1933-cü ildə gerçəkləşdirilən universitet islahatı ilə milli və müasir türk universitetlərinin təməlləri atıldı.

Türkiyə respublikası yaradıldıqdan sonra iqtisadi islahatların da həyata keçirilməsinə başlandı. Bu baxımdan, Respublika rejiminə miras qalmış zəif iqtisadiyyat üzərində, türk millətinə yeni bir həyat vermək üçün atılan addımlar, milli iqtisadiyyatla bağlı verilən qanun və qərarlar, milli mənfəəti nəzərdə tutan böyük kapital qoyuluşları iqtisadi sahədə gerçəkləşdirilən işlər oldu. Milli burjuaziya başa düşürdü ki, o, müstəqilliyi yalnız xarici rəqabətdən qoruna bilən, özünəməxsus iqtisadi bazaya, habelə milli sənayeyə malik olarsa qazana bilər. Müasir sənayenin yaradılmasını ölkənin müdafiə mənafeyi də tələb edirdi. Bu dövrdə kənd təsərrüfatı milli iqtisadiyyatın təməli kimi qəbul edildi. Bu səbəblə kənd təsərrüfatında inkişafa böyük əhəmiyyət verildi. Kənd təsərrüfatı məhsullarının miqdarını artırmaq, keyfiyyətini yüksəltmək, istehsal xərclərini azaltmaq üçün istər texniki, istərsə də hər cür qanuni tədbir görüldü. 1925-ci ildə aşar vergisinin ləğvi kəndlilərin vəziyyətinin yaxşılaşdırılmasında mühüm rol oynadı. Osmanlı dövründə kəndli məhsulun 10 faizini dövlətə verməyə məcbur idi və bu vergi aşar adlanırdı.

Atatürk inqilablarının tariximizdə özündən əvvəlki inqilabi hərəkatlardan ayıran ən mühüm fərq bu inqilabların dünyəvi tə-

mələ əsaslanması idi. Atatürk inqilabları dünyəvi cəmiyyət sistemini qəbul etməklə özündən əvvəlki inqilabi hərəkatlardan köklü surətdə fərqlənir. Bu inqilablar türk millətinin müasirləşmə yolundakı ehtiyac və istəklərinə tam uyğun formada həyata keçirilirdi. Atatürk inqilabları iqtisadi və sosial həyatda öz bəhrəsini verdi. Milli sənaye yarandı, kənd təsərrüfatı yüksəldi.

1925-ci ildə SSRİ ilə Türkiyə arasında üç il müddətinə hücum etməmək və bitərəflik haqqında müqavilə bağlanmışdı. 1938-ci ilədək həmin müqavilənin müddəti bir neçə dəfə artırılmışdı. XX əsrin 20-30-cu illərində SSRİ ilə Türkiyə arasında iqtisadi əməkdaşlığa dair bir neçə saziş imzalanmışdı. Bu illərdə Türkiyə bir sıra digər dövlətlərlə də iqtisadi və siyasi əlaqələr qurmağa başlamışdı. Bütün bu inkişafların nəticəsində Millətlər Cəmiyyəti 1932-ci ildə Türkiyəni sülh yolunda göstərdiyi səyləri ilə bağlı üzvlüyə dəvət etdi. Millətlər Cəmiyyətinin böyük dövlətlərin mənfəətlərini qoruyan bir qurum halına gəlməsinə baxmayaraq, Türkiyə sülhün qorunması istiqamətində yaxşı niyyətini göstərmək məqsədi ilə 1932-ci ilin iyulunda bu quruma üzv oldu.

XX əsrin 30-cu illərinin əvvəllərində İtaliyanın Aralıq dənizində fəallaşması ilə bağlı Qara dəniz boğazlarının əhəmiyyəti artdı. İtaliya Dodekanez adalarında hərbi bazalar yaratmışdı. Türkiyə boğazlar rejiminə yenidən baxılmasını tələb edirdi. 30-cu illərdə Avropada beynəlxalq münasibətlər Türkiyənin xeyrinə dəyişməyə başladı. 1935-ci ilin dekabrında İngiltərə Türkiyə, Yunanıstan və Yuqoslaviyaya vəd etdi ki, İtaliya təcavüzü zamanı onları müdafiə edəcək. SSRİ də Türkiyənin mövqeyini müdafiə edirdi. 1936-cı ilin aprelində türk hökuməti Lozanna müqaviləsini imzalayan dövlətlərə boğazlar məsələsinə yenidən baxmaq haqqında müraciət etdi. Türk hökumətinin bu müraciətinə müsbət cavab verildi. 1936-cı ilin iyunun 22-də İsveçrənin Montre şəhərində doqquz dövlətin iştirakı ilə Qara dəniz boğazlarının rejiminə dair konfrans keçirildi.

Konfransda İtaliya nümayəndə heyəti iştirak etmədi. Konfrans iştirakçıları Türkiyə nümayəndə heyətinin təkliflərinə prinsipcə razı oldular. 1936-cı ilin iyulun 20-də Qara dəniz boğazlarının rejiminə dair Montre konvensiyası imzalandı. Konvensiyaya görə boğazlar zonasında Türkiyənin hüquqları tamamilə bərpa edildi. Boğazlardan keçməyə nəzarət və müşahidə hüququ Türkiyəyə verildi. Bütün ölkələrin ticarət gəmiləri boğazlardan sərbəst keçmək hüququ aldılar. Dinc dövrdə boğazlardan Qara dəniz dövlətlərinin bütün hərbi gəmiləri keçə bilərdi. Boğazlardan Qara dənizə çıxışı olmayan dövlətlərin yalnız yüngül hərbi gəmilərinin keçməsi nəzərdə tutulmuşdu. Bu gəmilər Qara dənizdə üç həftədən çox qalmamalı idi. Türkiyənin iştirak etmədiyi müharibə zamanı boğazları müharibə aparan dövlətlərin hərbi gəmiləri üçün bağlaya bilərdi. Türkiyə müharibədə iştirak edərdisə, türk hökuməti boğazlar rejimini özü tənzimləməli idi. Montre konvensiyası heç bir iştirakçı dövlət tərəfindən ləğv edilməmiş olduğundan hələ də qüvvədə qalmaqdadır.

İngiltərənin razılığı olmasaydı, Türkiyənin boğazlar rejimini bu dərəcədə öz xeyrinə dəyişdirməsi mümkün ola bilməzdi. İngiltərənin Türkiyəyə qarşı bu cür davranışı İtaliyanın Şərqi Aralıq dənizi bölgəsində ortaya çıxardığı təhlükədən irəli gəlmişdi. Belə bir təhlükəyə qarşı İngiltərə Türkiyədə özünə möhkəm bir dayaq görmüş və Türkiyəni öz tərəfinə çəkmək istəmişdi. Montre konvensiyasından sonra türk-ingilis münasibətləri daha da inkişaf etmişdi.

Lozanna konfransından sonra yeni bir dövlətin qurulmasında, sultanlığın və xəlifəliyin qaldırılmasında, dünyəviliyin və digər islahatların həyata keçirilməsində Atatürkün ilk məsləhətçisi həmişə İsmət paşa olmuşdur. Bu səbəblərə görə idi ki, Mustafa Kamal Atatürk 1938-ci ildə öldükdən sonra onun davamçısı İs-mət paşa oldu. Gerçək bu idi ki, İsmət İnönü olduqca qarışıq və sonu müəyyən olmayan dünya şərtləri içində prezidentlik vəzifəsini boynuna götürmüşdü və ediləcək kiçik

bir səhv ölkə həyatını təhlükəyə ata bilərdi. Onu qarşıda tək dünya müharibəsinə olan ehtimallar deyil, mənimsədiyi sistemin ağır məsuliyyətləri də gözləyirdi.

1939-cu ilin sentyabrında ikinci dünya müharibəsi başladı. Türkiyənin bu müharibədə heç bir istəyi və iddiası yox idi. Əsas məsələ ölkənin varlığının davamını təmin etmək və qorumaq idi. Lakin ölkənin coğrafi mövqeyi onu problemlər içində çıxılmaz vəziyyətə salırdı. Lakin İsmət İnönü müharibəyə girməyi heç düşünmürdü. İnönünün siyasəti ölkəni hər nə bahasına olursa olsun müharibədən uzaq tutmaq idi. Çünki Türkiyənin nə yeni torpaqlar qazanmaq istəyi, nə də əlindən çıxmaması üçün qorumağa çalışdığı müstəmləkə torpaqları vardı.

Diplomatik mübarizədə Türkiyəni öz tərəfinə çəkmək və Balkanlara sahib olmaq başlıca yer tuturdu. 1941-ci il iyulun 18-də Almaniya ilə Türkiyə arasında dostluq və hücum etməmək haqqında müqavilə imzalandı. Bu müqavilə ilə Almaniya özünün cənub sərhədlərinin təhlükəsizliyini təmin etdi. Bu müqavilə ilə qəribə bir vəziyyət yaranmışdı. Türkiyə İngiltərə ilə müttəfiq idi, SSRİ ilə Türkiyə arasında da hücum etməmək haqqında razılıq var idi. Bir sözlə imzalanan bu müqavilələr ilə Türkiyə bitərəfliyini qoruyub saxlaya bilmişdi. Lakin Türkiyə üzərində müttəfiqlərin təzyiqi artırdı. Müttəfiqlər Türkiyənin Almaniya ilə olan əlaqələrini yaxşı qarşılamırdılar. Hətta SSRİ Türkiyənin ona hücum edə biləcəyini ya da alman ordusuna tranzit keçid icazəsi verə biləcəyini düşünərək narahat olurdu.

Almaniya Türkiyənin müharibəyə girməsini təmin etmək üçün Egey adaları ilə birlikdə Trakya və Qafqazda ona torpaq vəd etdi. Buna qarşılıq İnönünün cavabı belə oldu: "Türkiyənin torpaq tələbi yoxdur. İngiltərə ilə ittifaqına da xəyanət edə bilməz. Lakin Almaniya Türkiyəyə hücum etmədiyi təqdirdə, Türkiyə Almaniyanın hər hansı bir dövlətlə apardığı müharibədə tərəfsiz qalacaq və hücum etməyəcəkdir".

Müttəfiqlər isə Türkiyənin artıq döyüşə girməsi lazım olduğunu düşünürdülər. Müharibənin daha qısa bir müddətdə başa çatması üçün Türkiyənin müharibəyə girməsi çox əhəmiyyətli idi. Qeyd etmək lazımdır ki, hələ müharibə illərində müttəfiq dövlətlərin toplaşdığı elə bir konfrans olmamışdır ki, orada Türkiyənin hərbi əməliyyatlara qatılması müzakirə edilməsin. Kasablanka konfransında Ruzvelt ilə Çörçill arasında Türkiyənin də müharibəyə qoşulması şərti ilə Balkan cəbhəsinin açılması haqqında razılaşma əldə olunmuşdu. Çörçill müzakirə olunmuş məsələni Türkiyə rəhbərliyinə açıqlamaq üçü 1943-cü il yanvarın 31-də Adana şəhərində Türkiyə prezidenti İsmət İnönü ilə görüşdü. Bu görüşdə Türkiyənin 1943-cü ilin sonuna qədər müharibəyə qoşulmasını istədikləri bildirilmişdi. Buna cavab olaraq Türkiyə tərəfi Sovet dövlətindən ehtiyat etdiklərini və Türkiyənin müharibəyə qoşulması üçün türk ordusunun gücləndirilməsinə ehtiyac olduğunu bildirmişdi. Çörçill bildirmişdi ki, müharibədən sonra SSRİ Türkiyəyə hücum etsə, onlar lazım olan tədbirləri görəcəkdir. O biri tərəfdən də Amerika və İngiltərə Türkiyənin ehtiyac duyduğu qədər ona hərbi texnika verəcəkdir. Bütün bunlara baxmayaraq, Türkiyə rəhbərliyi müttəfiqlərin Türkiyəyə əsaslı bir zəmanət vermələrini istədi.

1943-cü ilin noyabrında dövlət başçılarının Tehran konfransında Sovet tərəfi Türkiyənin müharibəyə qoşulmasında israrlı oldu. 1943-cü ilin dekabrın 4-6-da Ruzvelt və Çörçill Qahirədə İnönü ilə görüşdülər. Türkiyə bu dəfə müttəfiq dövlətlərin təzyiqinin qarşısında geri çəkilməli oldu və İnönü müharibəyə başlamaq qərarını qəbul etdiyini bildirdi. Eyni zamanda İnönü belə bir şərt irəli sürdü ki, Türkiyə müdafiə üçün lazım olan silah və hərbi sursatı almayınca müharibəyə girməyəcəkdir. Müttəfiqlər bu şərti qəbul etdilər və 1944-cü ilin yanvar-fevral aylarında türk və ingilis hərbi heyətləri Ankarada görüşdülər. Ancaq görüşlər fevralın sonunda kəsildi və ingilislər bunu belə əsaslandırdılar ki, Türkiyənin istəyi çox

böyükdür. Görüşlərin yarımçıq kəsilməsi müttəfiqlərin Türkiyə ilə müünassibətlərini pisləşdirdi. Belə bir vəziyyət Türkiyəni rahatsız etməyə başladı. Odur ki, 1944-cü ilin mayında Türkiyə tərəfi Sovet dövləti ilə yaxınlaşmağa təşəbbüs etdi. Lakin Sovet dövləti hər hansı bir yaxınlaşmanın ilkin şərtinin Türkiyənin müharibəyə girməsi olduğunu bildirdi.

1944-cü ilin yayında Almaniyanın hərbi vəziyyətinin son dərəcə ağır olduğunu qətiləşdirən Türkiyə müttəfiq dövlətlərlə münasibətlərini düzəltmək üçün avqustun 2-də Almaniya ilə diplomatik münasibətlərini kəsdi. 1945-ci il yanvarın 3-də isə Yaponiya ilə diplomatik münasibətlərini kəsərək fevralın 23-də onlara müharibə elan etdi. Bütün bunlara baxmayaraq Türkiyə 1945-ci ilə türk-sovet münasibətlərinin gərginləşməsi qayğıları ilə daxil oldu. Sovet dövləti artıq Türkiyə ilə bağlı iddialarını diktə etməyə başlamışdı. Belə ki, 1945-ci ilin 4-11 fevralında keçirilmiş Krım konfransında Stalin Türkiyə ilə münasibətlərə yenidən toxundu. Stalin boğazlar haqqında Montre konvensiyasının Sovet dövləti üçün əlverişsiz şərtlərlə bağlandığını və dünyada qüvvələr nisbətinin dəyişdiyi bir zamanda bu konvensiyanın köhnəlmiş olduğunu bəyan etdi. Amerika boğazlar üzərində Türkiyə hakimiyyətinə xələl ğətirəcək heç bir dəyişikliyə tərəfdar deyildi.İngiltərə isə müstəqilliyi baxımından Türkiyəyə zəmanət verilməsinin zəruri olduğunu açıqladı. Konfrans boğazlar məsələsinin xarici işlər nazirlərinin müzakirəsinə verilməsi və məsələ ilə bağlı Türkiyənin məlumatlandırılması haqqında qərar qəbul etdi.

Krım konfransından sonra Sovet dövləti 1945-ci il martın 19-da bitərəflik və bir-birinə hücum etməmək haqqında 1925-ci il türk-sovet müqaviləsini ləğv olunduğunu bildirdi. SSRİ bu hərəkətini dünyada yaranmış əsaslı dəyişikliklərlə əlaqələndirərək, müqavilənin yeniləşməsinə ciddi ehtiyac olduğunu bildirdi.Türkiyə 1945-ci il aprelin 4-də Sovet dövlətinə günün tələblərinə uyğun yeni bir müqavilə imzalamağa hazır olduğunu bildirdikdə, Sovet dövləti boğazlarda ona tam üstünlük

verilməsi, Qars və Ərdahanın geri qaytarılmasını istədi. Bu gözlənilməz bir tələb idi və İnönünün başçılığı altında toplaşan hökumət bu tələbi qətiliklə rədd etdi.

Müharibədən sonrakı ilk illərdə Türkiyədə əsas daxili problem iqtisadiyyatın sağlamlaşdırılması idi. Hökumətin büdcə kəsirini ödəmək üçün apardığı siyasət inflasiyaya, qiymətlərin bahalaşması və xarici ticarət əməliyyatlarının azalmasına gətirib çıxarmışdı. Türkiyənin ixrac etdiyi kənd təsərrüfatı malları Avropa bazarında rəqabətə dözə bilmirdi. Buna görə də Türkiyə hökuməti bir sıra islahatlar keçirmək qərarına gəldi. Əhalinin əmək münasibətlərini qaydaya salmaq üçün Əmək nazirliyi yaradıldı. İşçilərin sığortası haqqında qanun qəbul edildi. Siyasi partiyaların və həmkarlar təşkilatlarının yaradılmasına icazə verildi. TBMM 1945-ci ildə Torpaq islahatı haqqında qanunu təsdiq etdi. Qanunda ehtiyacı olan hər bir kəndliyə torpaq verilməsi nəzərdə tutulurdu. Dövlətə və yerli orqanlara məxsus becərilməyən torpaqlar yenidən bölüşdürülərək kəndlilərə verilməli idi. Torpaq islahatı 1947-ci ildən həyata keçirilməyə başladı. Respublika dövründə ilk dəfə olaraq ölkə qapıları xarici kapital üçün açıq elan edildi.

1947-ci ildə ingilislər Amerika hökumətinə bildirdilər ki, onlar daha Türkiyə və Yunanıstana hərbi və iqtisadi yardım göstərmək iqtidarında deyillər. Bu yardımın dayandırılması və ingilis qoşunlarının bölgədən çıxarılması bu ölkələr üzərində SSRİ-nin nəzarətinə gətirib çıxarardı. Bu da Aralıq dənizində strateji vəziyyəti köklü şəkildə dəyişirdi. 1947-ci il martın 12-də ABŞ prezidentinin konqresə göndərdiyi məktubda deyilirdi ki, Türkiyə və Yunanıstanı kommunist təhlükəsi hədələyir və həmin ölkələrin hökumətlərinə 400 milyon dollar həcmində yardım göstərilməlidir. Konqres prezidentin xahişini təmin etdi. Hər iki ölkədə bu yardım sosial-iqtisadi sahəyə xərclənmədi. Bu yardım hər iki ölkədə ABŞ-ın nəzarəti altında hərbi məqsədlərin maliyyələşdirilməsinə yönəldi. Türkiyənin "Trumen doktrinası" ilə ABŞ-dan hərbi yardım alması Sovet

dövlətinin reaksiyasına gətirib çıxarsa da, lakin Sovet dövləti Türkiyəyə hərbi müdaxilə etmədi. "Trumen doktrinası"nın qəbul edilməsindən sonra Türkiyə ümumiyyətlə Qara dəniz boğazlarının rejimi məsələsinin müzakirəsindən danışmadı. 1947-ci ilin iyununda qəbul olunmuş "Marşal planı"na əsasən Türkiyə ilə ABŞ arasında 1948-ci il iyulun 4-də bağlanan müqavilə ilə ABŞ kapitalının ölkəyə axını daha geniş miqyas aldı. Bu addım ölkə iqtisadiyyatının liberallaşmasına və azad bazar iqtisadiyyatının inkişafına təkan verdi.

## 3. Türkiyə Cümhuriyyəti 50-80-ci illərdə

Müharibədən sonra bütün dünyada olduğu kimi Türkiyədə də demokratik hərəkat genişləndi. 1946-cı ildə Demokratik Partiya yarandı. DP dövlət kapitalizminin əleyhinə olub, şəxsi sahibkarlığa geniş imkan yaratmaq tərəfdarı idi. 1950-ci il seçkilərində DP qələbə qazandı. Cəlal Bayar prezident, Adnan Menderes isə baş nazir oldu.

DP hakimiyyəti ilk vaxtdan bütün gücünü iqtisadi inkişafa yönəltdi. DP-nin iqtisadi siyasəti Türkiyə Cümhuriyyətinin yaranmasından bəri dövlətin tətbiq etdiyi özəl fəaliyyəti inkişaf etdirmək strategiyasının davamı idi. DP hakimiyyəti istər aqrar, istərsə də sənaye sahələrində böyük layihələrin maliyyələşdirilməsində həm özəl kapitalın, həm də xarici kapitalın fəaliyyətinə əlverişli şərait yaratmaq kursu götürmüşdü. Xarici kapitalın ölkəyə axınını təmin etmək məqsədilə 1950-1954-cü illərdə bəzi qərarlar və qanunlar qəbul edilmişdi. Hələ 1950-ci ilin avqustunda Türkiyə Sənaye İnkişaf Bankı təsis edildi. 50-ci illərdən başlayaraq sənaye sahəsində yeni müəsissələrin inşası, eləcədə köhnə müəsissələrin yenidən qurulması və genişləndirilməsinə başlanıldı. Bu layihələrdə xarici kapitalın iştirakına əlverişli imkanlar yaradıldı. 1954-cü ilin yanvarında qəbul edilən qanun isə xarici kapitalın fəaliyyəti ilə bağlı olan məhdudiyyətləri aradan qaldırdı. Xarici və daxili kapitalın gücü

ilə bir sıra sənaye müəssisələri, o cümlədən dövlət müəssisələri işə salındı. Bu müəssisələrin işə salınması Türkiyənin tekstil, şəkər, kağız, şüşə və bu kimi ilkin zəruri mallarla özünü təmin etməsinə imkan verdi. Ölkə iqtisadiyyatında sənaye istehsalının ümumi həcmi xeyli artdı. Aqrar sahənin də ölkə sənayesinin ehtiyaclarını ödəmək zəminində qurulması kənddə kapitalist münasibətlərinin genişlənməsinə səbəb oldu. DP hakimiyyətinin iqtisadi sahədə həyata keçirdiyi kurs Türkiyənin inkişafına şərait yaratdı, ölkə bir sıra sənaye və kənd təsərrüfatı məhsulları ilə nəinki özünü təmin etmək, həm də onları xarici bazara çıxarmaq imkanına sahib oldu.

Demokratik Partiyanın hakimiyyəti illərində Türkiyənin xarici siyasətinə gəldikdə bu siyasət həmin dövrdə iki güc mərkəzinin region dövlətlərinə olan münasibətləri zəminində formalaşırdı. İkinci dünya müharibəsindən sonra təklənmiş Türkiyə tədricən Qərb blokunun etibarlı üzvünə çevirilirdi. Türkiyənin xarici siyasətinin Qərbə istiqamətlənməsində Sovet dövlətinin Türkiyəyə qarşı ərazi iddiaları və təhdidləri az rol oynamamışdır. Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) yarandığı vaxtdan Türkiyə bu təşkilata maraq göstərirdi. Lakin NATO üzvü olan ölkələr Türkiyənin bu təşkilata üzvlüyünə bir müddət mane oldular. Belə ki, NATO-ya üzv olan ölkələr Türkiyənin bu quruma daxil olmasının SSRİ-nin etirazına səbəb olacağından ehtiyat edirdilər. Lakin Türkiyə öz təhlükəsizliyinin təminatını ABŞ-la birlikdə, onun başçılıq etdiyi ittifaqda görürdü və NATO-ya girməkdə israr edirdi. İngiltərə 1951-ci ildə Türkiyənin Orta Şərq təhlükəsizlik sisteminə qatılacağı təqdirdə onun NATO-ya üzvlüyünü dəstəkləyəcəyini bildirdi. 1951-ci ilin sentyabrında Ottavada toplanan NATO Nazirlər Şurası Türkiyə və Yunanıstanın təşkilata qoşulmasına razılıq verdi. Türkiyə 1952-ci ildə NATO-ya daxil oldu. ABŞ SSRİ ilə Türkiyə arasında münasibətlərin yaxınlaşmasında maraqlı deyildi. 50-ci illərdə Sovet-Türkiyə münasibətləri gərginliyi ilə fərqlənirdi. 1953-cü ildə SSRİ bildirdi ki, Montre konvensiya-

sının qüvvədə qalmasına etiraz etmir və Türkiyəyə qarşı heç bir ərazi iddiası yoxdur. Ona görə də iki ölkə arasında gərginlik müəyyən qədər zəiflədi.

1955-ci ildə İraq, İran, İngiltərə, Pakistan ilə birlikdə Türkiyə Bağdad paktını imzaladı. Lakin 1958-ci ildə İraqda inqilab baş verməsi nəticəsində İraq hökuməti 1959-cu il martın 24-də İraqın Bağdad paktından çıxmasını rəsmi şəkildə elan etdi. 1959-cu il iyulun 25-də bu blokun qalan üzvləri blokun Mərkəz Müqavilə Təşkilatı (SENTO) adlandırılması qərarına gəldilər. Təşkilatın rəhbər orqanları Bağdaddan Ankaraya köçürüldü.

1952-1954-cü illər arasında Yunanıstanın Kiprə yiyələnmək məqsədi ilə İngiltərəyə etdiyi müraciətlərə rədd cavabı verildi. İngiltərə bildirdi ki, adanın status-kvosu dəyişdirilməyəcəkdir. 1954-cü ilin avqustunda Yunanıstan Kipr məsələsi ilə bağlı BMT-yə müraciət etdi. Bundan sonra Türkiyə dövləti də öz rəsmi mövqeyini açıqladı. Türkiyə adanın İngiltərənin nəzarəti altında qalmasını istədi. Türkiyə həmin tarixdən Kipr məsələsi ilə xarici siyasətinin ən əsas məsələlərindən biri kimi məşğul olmağa başlamışdır. 1958-ci ildə Kiprdə yunanların törətdikləri zorakılıqlar yenidən gərginlik yaratdı. İngiltərə məsələni yoluna qoymaq üçün Yunanıstan və Türkiyə ilə birlikdə müzakirələrə başladı. 1959-cu ildə Sürix və Londonda imzalanan sazişlərə əsasən Kiprdə müstəqil respublika yaradılmasına qərar verildi. İngitərə 1960-cı ildə Kiprə müstəqillik verərkən "enozis"i əsassız tələb kimi rədd etdi.

Türkiyə NATO-ya daxil olduqdan sonra ABŞ ilə hərbi xarakterli bir sıra ikitərəfli müqavilə və sazişlər imzalamışdır. 1954-cü ildə bağlanan sazişə görə Türkiyədə ABŞ hərbi-hava bazası yaradılmasına icazə verilmişdi. Türkiyədə ABŞ təsirinin güclənməsi ölkədə müəyyən dairələrin narazılığına səbəb oldu. İqtisadi vəziyyətin pisləşməsi də Bayar-Menderes hökumətinin vəziyyətini pisləşdirdi. Quru qoşunlarının komandanı general Camal Gürsel etiraz əlaməti olaraq istefa verdi və sonra hərbi çevriliş etdi. Çevriliş nəticəsində 1960-cı ildə Camal Gürsel

prezident oldu. İsmət İnönü koalisyon hökumət təşkil etdi. Sürətli yüksəlişi təmin etmək və yaxın gələcəkdə qabaqcıl ölkələrə çatmaq koalisyon hökumətin qarşısında duran başlıca vəzifə oldu. Onun həyata keçirilməsi üçün iqtisadiyyatın istər dövlət bölməsinə, istərsə də özəl bölməsinə kapital qoyuluşunu artırmaq, maliyyə qaynaqları kimi daxili və xarici investorların imkanlarından istifadə etmək nəzərdə tutulurdu.

Ədalət partiyası CXP-nın daxili siyasətini tənqid edir, bu siyasətin bir qrup adamların diktaturasını yaratmağa xidmət etdiyini söyləyirdi. Əsas tələblərdən biri devrilmiş hakimiyyətin həbs olunmuş üzvlərinin əfv edilməsi idi. ƏP Kipr məsələsində də CXP hökumətinin passiv mövqeyini pisləyirdi. CXP hökumətinin öz fəaliyyətini davam etdirməsi mümkünsüz idi və hökumət 13 fevral 1965-ci ildə istefaya getdi. Müxalifət partiyaları bir araya gəldilər və koalisyon hökumət yaradılması şərtlərini razılaşdırdılar. 20 fevralda Ürküplünün başçılığı altında koalisyon hökumət təşkil olundu. S.Ürküplü hökuməti dövründə mühüm hadisə 1965-ci il parlament seçkiləri oldu. 10 oktyabrda keçirilən bu seçkilərdə ƏP deputat yerlərinin çoxunu qazandı və S. Dəmirəl başda olmaqla hökuməti təşkil etdi.

Türkiyə və SSRİ iki ölkə arasında əlaqələrin inkişafına qarşılıqlı maraq göstərirdilər. Bu isə iki ölkənin iqtisadi və elmi-texniki əməkdaşlığına şərait yaradırdı. 1964-1965-ci illərdə xarici işlər nazirlərinin qarşılıqlı səfərləri həyata keçirildi. 1965-ci ilin avqustunda Türkiyənin baş naziri Moskvaya gəldi. 1967-ci ildə iki ölkə arasında imzalanmış sazişə əsasən SSRİ Türkiyədə yeddi iri sənaye müəsissəsinin tikilməsinə kömək etməli idi. Tərksilah, müstəmləkələrin ləğvi və Yaxın Şərq böhranı kimi məsələlərdə SSRİ ilə Türkiyənin mövqelərində oxşar cəhtlər var idi. 1972-ci ilin aprelində SSRİ ilə Türkiyə arasında münasibətlərin prinsipləri haqqında bəyannamə imzalandı. SSRİ-nin köməyi ilə Türkiyədə tikilən müəssisələr içərisində 1977-ci ildə istifadəyə verilən İsgəndərun metallurgiya kombinatı böyük əhəmiyyətə malik idi. 1978-ci ilin

yayında Türkiyənin baş naziri B.Ecevit SSRİ-ə rəsmi səfərə gəldi. 1984-cü ilin sonunda SSRİ hökumətinin sədri N.Tixonovun Türkiyəyə səfəri zamanı 1986-1989-cu illərdə iqtisadi və elmi-texniki əməkdaşlıq proqramı imzalandı.

1960-cı ildə Kipr istiqlaliyyət aldıqdan sonra yunanlar türkləri sıxıdırmağa başladılar. Kiprli türklər özlərini müdafiə etmək üçün təxminən 12 min nəfərlik hərbi birləşmə təşkil etməyə məcbur oldular. Buna cavab olaraq Kipr hökuməti hərbi mükəlləfiyyət tətbiq etdi. Yunanıstanın təzyiqi ilə yeni orduya millətçi Qrivas komandan təyin edildi. Əslində bu ordu Yunanıstan ordusunun bir hissəsi kimi fəaliyyət göstərirdi. Gizli olaraq adaya yunan ordusunun bir diviziyası da gətirilmişdi. Qrivas 1967-ci ildə "enozis"i zorla həyata keçirmək üçün türklərə qarşı hücum əmri verdi. Lakin say üstünlüyünə baxmayaraq yunanlar türklərin müqavimətini qıra bilmədilər, münaqişə uzandı. Yunanıstan ilə Türkiyə arasında müharibə təhlükəsi yarandı. Beynəlxalq ictimaiyyətin təzyiqi altında 1968-ci ildə Yunanıstan gizli olaraq Kiprə göndərdiyi diviziyasını geri çağırmağa məcbur oldu, general Qrivas vəzifəsindən azad olundu və Kiprdən çıxarıldı.

70-ci illərin əvvəllərində Kiprdə birləşmə tərəfdarları yenidən fəallaşdılar. 1971-ci ildə gizli olaraq Kiprə qayıdan Qrivas terrorçu təşkilatı yaratdı. Məqsədi Kiprə Yunanıstanın müdaxiləsi üçün şərait yaratmaqdan ötrü adada vəziyyəti gərginləşdirmək idi. Qrivas tərəfdarları Milli qvardiyada üstünlük təşkil edirdilər. Milli qvardiya 1974-cü ilin iyulunda adanın cənubunda türklərə qarşı qırğınlar törətdi. Türkiyənin diplomatik səyləri heç bir nəticə vermədi. Türkiyə Kipri xarici müdaxilədən müdafiə etmək üçün 1974-cü il iyulun 20-də öz qoşunlarını adaya çıxardı. 1974-cü ilin oktyabrında Kipr problemi BMT Təhlükəsizlik Şurasında müzakirə olundu. Qəbul olunmuş qətnamədə Kiprin ərazi bütövlüyünə, müstəqilliyinə və bloklara qoşulmamaq siyasətinə hörmət, bütün xarici qoşunların çıxarılması, mübahisəli məsələlərinin yunan və türk icma-

ları arasında danışıqlıqlar yolu ilə həll edilməsi nəzərdə tutulurdu. 1975-ci ilin yanvarında BMT baş katibinin vasitəçiliyi ilə icmalararası danışıqlar başlandı. 1975-ci ilin fevralında türk icmasının rəhbərləri Kiprin türk qoşunları tərəfindən tutulmuş hissəsində Kipr türk dövləti yarandığını elan etdilər. 1976-cı ildə R.Denktaş həmin dövlətin prezidenti seçildi. 1983-cü il noyabırın 14-də bu dövlət Şimali Kipr Türk Cümhuriyyəti adlandırıldı. BMT Təhlükəsizlik Şurası türk icmasının qərarını hüquqi qüvvəsi olmayan qərar adlandırdı.

70-ci illərdə beynəlxalq enerji böhranı nəticəsində neft və neft məhsullarının çox sürətlə artması Türkiyə iqtisadiyyatından da yan keçmədi. Türkiyədə iqtisadi çətinliklər qarşısında qaldı. Həm də aydın oldu ki, ölkədə yaradılmış iqtisadi istehsal infrastrukturunun daxili imkanlara əsaslanmaq zəminində fəaliyyəti mümkün deyildir. Ona görə ki, Türkiyə enerji ehtiyatlarının çox böyük hissəsini neft idxalı hesabına ödəyirdi və özünün daxili enerji mənbələri kifayət qədər az idi. Birdən-birə neft və neft məhsullarının qiymətinin artması ölkə iqtisadiyyatını böhran həddinə gətirib çıxartdı. Yaranmış şəraitdə Türkiyə öz iqtisadi inkişaf kursuna korrektələr etməyə başladı və bununla da sonrakı illərdə ölkənin inkişaf strategiyasının ilkin təməlləri qoyuldu.

12 sentyabr 1980-ci ildə Türkiyədə hərbi çevriliş oldu. Kenan Evrenin başçılıq etdiyi Milli Təhlukəsizlik Şurasının hakimiyyəti öz üzərinə götürməsi Türkiyənin tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Hərbi çevriliş nəticəsində siyasi partiyalar və digər ictimai təşkilatlar ləğv edilmiş, ölkənin yeni konstitusiyası və bir sıra yeni qanunlar qəbul olunmuş, Türkiyə cəmiyyətinin siyasi quruluşunda ciddi dəyişikliklər baş vermişdir.

Hərbi rəhbərlik Türkiyənin bağladığı bütün müqavilə və sazişlərə, o cümlədən NATO-ya sədaqətli qaldığını, eyni zamanda başda qonşu dövlətlər olmaqla bütün ölkələrlə hərtərəfli əməkdaşlığı inkişaf etdirəcəyini bildirirdi. ABŞ ilə münasi-

bətlər istər NATO çərçivəsində, istərsə də ikitərəfli qaydada inkişaf etməkdə idi. 29 noyabr 1982-ci ildə iki dövlət arasında "Qarşılıqlı anlaşma haqqında memorandum"un imzalanması Türkiyə-ABŞ yaxınlaşmasının yeni bir göstəricisi oldu. Sovet dövləti ilə münasibətlər sovet qoşunlarının Əfqanıstanı işğal etməsi, eləcə də bu dövlətin Türkiyədəki bəzi separatçı qüvvələri dəstəkləməsi, hətta təşkilatlandırması və silahlandırması səbəbindən xeyli sərinləşsə də Ulusu hökuməti qonşu dövlətlərlə münasibətlərdə olan gərginliklərin aradan qaldırılmasına cəhd göstərdi.

ABŞ-ın rəsmi dairələri Türkiyədəki bu dövlət çevrilişini razılıqla qarşıladılar, ona tərəfdar olub kömək edəcəklərini bildirdilər. NATO da bu işə müsbət münasibətdə olduğunu bildirdi. Lakin bəzi Avropa dövlətləri hərbi diktatura yaradılması ilə əlaqədar Türkiyə demokratiyasının taleyi üçün narahat olduqlarını bildirdilər.

MTŞ-nin qərarı ilə ictimai təşkilatların fəaliyyətinin qadağan olunması barədəki göstəriş müəyyən qədər götürüldü və beləliklə də ictimaiyyətin nüfuzlu dairələrinin konstitusiya layihəsinin hazırlanmasında iştirak etmələri üçün şərait yaradılmış oldu. Yeni konstitusiya ətrafında Türkiyə mətbuatında geniş diskussiya başlandı. 1982-ci il konstitusiyasının hazırlanmasında siyasi partiyalar iştirak etmədilər. 1982-ci il konstitusiyası 1924 və 1961-ci il konstitusiyaları ilə müqayisədə güclü dövlət və nüfuzlu hakimiyyət olması məsələsinə daha çox əhəmiyyət verirdi.

1983-cü ilin aprelində qəbul olunmuş siyasi partiyalar haqqında qanun MTŞ-nin fəaliyyətinə qarşı partiyaların çıxış etmələrini qadağan edirdi. Partiyalara həmçinin dindən siyasi məqsədlər üçün istifadə etmək qadağan edilirdi. Həmin qanuna əsasən partiyalar xarici təşkilatlardan hər hansı bir kömək ala bilməzdilər. Partiyaların bütün işi və onların təbliğat fəaliyyəti ancaq türk dilində olmalı idi. MTŞ partiyaların siyasi fəaliy-

yətinin qadağan olunması barədəki qanunun da 1983-cü il aprelin 24-də ləğv olunması barədə qərar qəbul etdi.

Partiyaların yenidən fəaliyyətə başlamalarına icazə verilməsi Türkiyənin siyasi həyatında çox mühüm hadisə idi və o, ölkədə çox böyük siyasi fəallığa səbəb oldu. Yeni yaranmış partiyalar içərisində hərbçilərin ümid bəslədiyi partiya MDP idi. Hərbçilər öz siyasi arzularının bu partiya tərəfindən reallaşacağına inanırdılar. Bu partiyanın yaradıcısı istefada olan general Turqut Sunalp idi. 1983-cü il mayın 20-də Ana Vətən Partiyası fəaliyyətə başladı. Bu partiyanın başçısı Turqut Özal oldu. Parlament seçkiləri ərəfəsində 10-dan çox siyasi partiya fəaliyyətə başladı. 1983-cü il noyabrın 6-da keçirilmiş parlament seçkilərində Ana Vətən Partiyası səslərin 45 faizdən çoxunu topladı. Turqut Özalın başçılığı ilə hökumət təşkil olundu.

Tədqiqatçıların yekdil fikrinə görə həmin vaxtdan Türkiyə həyatının müxtəlif sahələrində yeni bir inkişaf mərhələsi başladı ki, tarixi ədəbiyyatda bu liberal dəyişikliklər dövrü kimi xarakterizə olunur. İstər siyasi həyatda, istərsə də iqtisadi həyatda liberal dəyərlərə üstünlük verilməsi Ana Vətən Partiyasının dönməz fəaliyyət kursu oldu. 80-ci illərdə daxili siyasi həyatın demokratikləşdirilməsi, növbəti parlament seçkilərinin demokratik təməllər əsasında keçirilməsi, mülki hakimiyyətin daha da gücləndirilməsi sahəsində görülən tədbirlər Özal hakimiyyətinin başlıca uğurları sayılır. Məhz bu səbəblərə görə Turqut Özal az bir zamanda istər ölkə daxilində, istərsə də ölkə xaricində öz sözü və nüfuzu olan bir baş nazir kimi tanındı.

Ölkə hərbi üsul idarədən uzaqlaşdıqca 1982-ci il konstitusiyasına yenidən baxılmasına zəruriyyət yaranırdı. 1986-cı ilin aprelində Turqut Özalın təklifi ilə keçmiş siyasi liderlərin üzərindəki qadağalar götürüldü. Siyasi qadağaların ləğvi imkan verdi ki, hərbi çevrilişdən əvvəl partiya başçıları olan siyasi liderlər açıq mübarizəyə qoşulsunlar. Yaranmış şəraitlə bağlı olaraq Ana Vətən Partiyası parlamentə vaxtından əvvəl seçkilər

keçirilməsinə qərar verdi. TBMM və ölkə prezidenti bu təklifi dəstəklədilər. Seçkilər 1987-ci ilin noyabrına təyin olundu.

AVP seçki qabağı təbliğat mərhələsini yüksək səviyyədə həyata keçirdi. Təbliğat gedişində daim diqqət mərkəzində duran məsələ iqtisadiyyatda qazanılmış nailiyyətlər idi. Bu partiya eyni zamanda təbliğ edirdi ki, onların hakimiyyəti dövründə ölkədə demokratik qanun-qayda və təhlükəsizlik şəraiti yaradılmışdır. Bu seçkilərdə AVP xüsusi kapitala geniş yer verməyi, əhalinin sosial problemlərini həll etməyi, bir sözlə Türkiyəni qabaqcıl və müasir dövlətə çevirməyi vəd edirdi. 1987-ci ilin parlament seçkilərində 7 siyasi partiya iştirak etsədə, parlamentdə 3 siyasi partiya təmsil olundu. AVP bu seçkilərdə 65 faizə yaxın səs toplayaraq tək başına hökuməti təşkil etdi. 1989-cu ilin payızında prezident K.Evrenin prezidentlik müddəti başa çatdığından Turqut Özal oktyabrda öz namizədliyini irəli sürdü. TBMM-də Özal tərəfdarlarının çoxluq təşkil etməsi onun ölkə prezidenti seçkilərində qalib gəlməsinə səbəb oldu. Turqut Özal bir prezident kimi fəaliyyətində öz sələflərindən fərqli yol tutmuşdu. Turqut Özal istər baş nazir, istərsə də prezident kimi öz fəaliyyətilə Türkiyə həyatının bütün sahələrinə bir yenilik gətirmişdir.

# TÜRK XALQLARI SSRİ-NİN TƏRKİBİNDƏ

## 1. SSRİ-nin təşkili. 20-30-cu illərdə türk xalqlarının sosial-iqtisadi vəziyyəti

Rusiyada Oktyabr çevrilişindən sonra 1918-ci ilin martında Türküstan quberniyasının ərazisində RSFSR-in tərkibində Türküstan Muxtar Sovet Sosialist Respublikası yaradıldı. Qısa müddət ərzində Xivə xanlığı və Buxara əmirliyi Rusiya bolşeviklərindən asılı olmayaraq müstəqil fəaliyyət göstərdilər. Rusiyada vətəndaş müharibəsi zamanı rus qoşunları Kokandı, Buxaranı, Xivəni tutdular. Bu zaman Türkiyənin dəstəyi ilə bolşeviklərə qarşı mübarizə hərəkatı (basmaçılar) təşkil olundu. Lakin, hərəkat uzun müddət müqavimət apara bilmədi. Belə ki, hərəkatın əsas qüvvələri rus qoşunları tərəfindən 1922-ci ildə məhv edildi. Ayrı-ayrı dəstələr isə 1933-cü ildə təslim oldular. 1920-ci ilin fevralında Xivə xanlığı və Buxara əmirliyi Qızıl Ordu tərəfindən tutuldu. Xarəzm və Buxara Xalq Sovet Respublikaları yaradıldı. 1920-ci ilin avqustunda Türküstan MSSR-in qazaxlar məskunlaşmış Sırdərya və Yeddisu əraziləri RSFSR tərkibindəki Qırğızıstan MSSR-na daxil edildilər. 1920-ci ilin sentyabrında RSFSR ilə Xarəzm Sovet xalq respublikası arasında ittifaq müqaviləsi bağlandı. Eyni zamanda iqtisadi saziş də imzalandı. 1920-ci ilin noyabrında RSFSR və Buxara Sovet respublikası müvəqqəti hərbi-siyasi saziş, 1921-ci ilin martında isə ittifaq müqaviləsi və iqtisadi saziş bağladılar.

Rusiyanın başqa ucqarlaırnda olduğu kimi, Orta Asiyada da Sovetlər hakimiyyətinin yaradılması uğrunda mübarizə oktyabr inqilabının tərkib hissəsi idi. Burada Sovetlərin qələbəsi Kommunist partiyası başda olmaqla fəhlə sinfinin rəhbərliyi altında baş verirdi.

Hələ 1918-ci ilin əvvəllərində başqırd və tatar xalqlarının muxtariyyətinin yaradılmasına hazırlıq görülməyə başlandı. Lakin burada başlanan vətəndaş müharibəsi həmin tədbirin

yerinə yetirilməsinə mane oldu. 1919-cu il martın 20-də Başqırdıstan Sovet Muxtar Respublikası elan olundu. 1920-ci il mayın 27-də Tatarıstan MSSR, 1920-ci il iyunun 24-də Çuvaş muxtar vilayəti yaradıldı. 1925-ci il aprelin 21-də Çuvaş muxtar vilayəti Çuvaş MSSR-ə çevrildi. Orta Asiya ərazisində RSFSR tərkibinə daxil olan Türküstan MSSR və iki müstəqil sovet xalq respublikası-Xarəzm və Buxara respublikaları mövcud idi. 1923-cü ilin oktyabrında Xarəzm respublikası, 1924-cü ilin sentyabrında isə Buxara respublikası özlərini sosialist respublikası elan etdilər.

Lakin Orta Asiyanın üç respublikasının sərhədləri onların ərazisində yaşayan xalqların sərhədlərinə uyğun gəlmirdi. Həmin xalqların əraziləri ayrı-ayrı hissələrə parçalanmışdı ki, bu da çar hökumətinin köhnə müstəmləkəçilik siyasətindən miras qalmışdı.

1921-ci ilə kimi bolşeviklər keçmiş Rusiya imperiyası ərazisinin əksər hissəsində hakimiyyəti ələ keçirmişdilər. RSFSR keçmiş Rusiya imperiyası ərazisinin 92 faizini tuturdu. İndiki Orta Asiya türk respublikalarının əraziləri o zaman qismən RSFSR-in tərkibinə daxil idi.

Polşaya uğursuz inqilabi yürüşdən sonra kommunis rəhbərlərinin bəziləri Şərqin dünya inqilabının bazalarından biri olacağı barədə qənaətə gəldilər. Lenin və Trotski Krımda islam ölkələrində inqilab üçün baza kimi müsəlman sosialist respublikası yaratmağa çalışırdılar. Tatar kommunisti Sultan Qaleyev bütün "inqilabçı müsəlmanlar" üçün Tatar-Başqırd respublikası və müsəlman Qızıl Ordusu təşkil etmək ideyasını irəli sürdü, lakin bu ideya qəbul olunmadı.

Bolşeviklər sovet rejimli respublikaların formal müstəqilliyinə son qoymağa və onları vahid ittifaqda birləşdirmək ideyasını həyata keçirməyə başladılar. Həmin müstəqil respublikalarda bolşevik rejiminin mövcudluğu bu işi daha da asanlaşdırırdı. 1922-ci il dekabrın 30-da Sovet Sosialist Respublikaları İttifaqının yaradıldığı elan edildi. SSRİ yaradılarkən

onun tərkibinə RSFSR, Ukrayna SSR, Belorusiya SSR və ZSFSR daxil oldu. ZSFSR 1922-ci ildə Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR-dən təşkil olunmuşdu. SSRİ-nin yaradılmasından dərhal sonra uzun illər davam edən daxili ərazi sərhədlərinin müəyyənləşdirilməsi başlandı.

Sovet Sosialist Respublikaları İttifaqı yaradıldıqdan az sonra sovet respublikaları xarici siyasət sahəsindəki funksiyalarını SSRİ dövlətinə verməli və xaricdəki diplomatik nümayəndəliklərini bağlamalı oldu. 1923-cü ilin avqustunda müttəfiq respublikaların Xalq Xarici İşlər Komissarlıqları SSRİ Xalq Xarici İşlər Komissarlığının Müvəkkilləri İdarəsinə çevrildi. Eyni zamanda respublikaların müdafiə, sərhədlərə yenidən baxmaq, dövlət təhlükəsizliyi, xarici ticarət, büdcə, rabitə, pul dövriyyəsi kimi səlahiyyətləri mərkəzi orqanlara verildi. Bunlar əslində müttəfiq respublikaların suveren hüquqlarının əlindən alınması, onların SSRİ adı altında Sovet imperiyası tərkibinə daxil edilməsi demək idi.

1924-cü ilin sentyabrında Türküstan MSSR MİK-in sessiyası, həmçinin beşinci Ümumbuxara və beşinci Ümumxarəzm qurultayları milli-dövlət bölgüsü keçirilməsi haqqında qərar çıxardılar. 1924-cü ilin oktyabrında SSRİ MİK-in ikinci sessiyası həmin qərarları təsdiq etdi. Milli bölgü nəticəsində özbək xalqı vahid Özbəkistan Sovet Sosialist Respublikasında, türkmən xalqı Türkmənistan Sovet Sosialist Respublikasında birləşdi. Qırğızlar RSFSR tərkibində Qara qırğız (1925-ci ildən Qırğızıstan adlanmağa başladı) muxtar vilayətində birləşdilər. Əvvəlki Qırğızıstan MSSR isə Qazaxıstan MSSR adlandırıldı. Qaraqalpaqlar Qazaxıstan MSSR tərkibinə daxil olan Qaraqalpaq muxtar vilayətini təşkil etdilər. Türküstan MSSR-in qazaxlar yaşayan vilayətləri Qazaxıstanın qalan hissəsi ilə yenidən birləşdi. Buxara və Xarəzm SSR, həmçinin Türküstan MSSR ləğv olundu.

1925-ci ilin fevralında Özbəkistan və Türkmənistan respublikalarının Sovetlər qurultayları keçirildi. Həmin qurultaylarda

bu respublikaların SSRİ tərkibinə daxil olması haqqında qərarlar qəbul edildi. 1925-ci il mayın 13-də SSRİ-nin üçüncü Sovetlər qurultayı Özbəkistan SSR-ni və Türkmənistan SSR-ni Sovet Sosialist Respublikaları İttifaqı tərkibinə qəbul etdi. 1936-cı ilin 5 dekabrında isə Qırğızıstan və Qazaxıstan Muxtar Sovet Sosialist Respublikaları RSFSR-in tərkibindən çıxarılaraq rəsmi olaraq SSRİ-nin tərkibinə daxil edildilər. Həmçinin Qaraqalpaq muxtar vilayəti Özbəkistan SSR-in tərkibinə birləşdirildi.

Orta Asiya respublikalarında bərpa dövrü bir qədər uzun çəkdi. Orta Asiyada mülkədar torpaq sahibliyi 1925-1927-ci illərin torpaqsu islahatına qədər mövcud idi. Torpaq-su islahatları torpaq və su üzərində yerli əhali ilə buraya köçürülmüş kəndlilərin hüquqlarını bərabərləşdirdi. Orta Asiyada xalq təsərrüfatının bərpası yalnız 1927-1928-ci illərdə başa çatdırıldı.

Sənayeləşdirmə birinci növbəli vəzifə kimi hələ 1925-ci ilin sonunda irəli sürülmüşdü. Ənənəvi sənayeləşdirmədən fərqli olaraq SSRİ-də sənayeləşdirmənin ağır sənayenin inkişafından, istehsal vasitələri istehsalından başlanması nəzərdə tutulurdu. Bu xətt "sosialist sənayeləşdirməsi" adlandırılırdı. Onun başlıca məqsədi ölkənin sosial-iqtisadi geriliyini aradan qaldırmaqdan, iqtisadi cəhətdən xaricdən asılılığı yox etməkdən, ilk növbədə baza sənaye sahələrini inkişaf etdirməkdən ibarət idi.

Zəruri maddi və maliyyə vəsaitlərinin olmaması üzündən bu vəzifələrin yerinə yetirilməsi ləngiyirdi. Dünya ölkələri də ictimai quruluşu yad bir ölkəyə yardım etmək, borc vermək istəmirdilər. Yeganə yol bu vəsaitləri daxildə tapmaq idi. Bunun üçün ölkədə olan vəsaitlərin bölgüsünü daha çox mərkəzləşdirmək, ona möhkəm nzarət etmək tələb olunurdu. Bu da mərkəzləşdirilmiş planlaşma əsasında mümkün idi. Ona görə də 1927-ci ildə ilk beşillik plan hazırlandı. O, 1928-1932-ci illəri əhatə edirdi. Planda ölkəni sənayeləşdirmək üçün daxili ehtiyat mənbələrində istifadə olunması ön plana çəkilirdi.

1928-ci ildən Türkmənistanda sənayeləşmə prosesi başlandı. İlk növbədə yüngül və yeyinti sənaye müəssisələri yaranmağa başladı. Nebitdağda neft, Qara Boğazkolda sulfat turşusu, Qaraqumda kükürd çıxarılmağa başlandı. Xüsusilə 30-cu illər neft sənayesinin inkişafında mühüm mərhələ oldu. Çeleken yarımadasında vətəndaş müharibəsi nəticəsində dağıdılmış yataqlar istismara verildi və Nebitdağdakı yeni yataqlar işləndi. İkinci Dünya Müharibəsinin başlaması ilə SSRİ-nin qərb bölgələrindəki sənaye obyektlərinin Orta Asiyaya köçürülməsi prosesi nəqliyyatın da sürətli inkişaf zərurətini meydana gətirdi ki, nəticədə Aşqabad dəmiryolu Krasnovodska qədər uzadıldı. 1924-cü ildən 1940-cı ilədək sənayedə və təsərrüfatın digər sahələrində çalışan fəhlələrin sayı 34 mindən 188 minə qədər artdı.

Türkmənistanın sənayesi, xüsusilə neft və kimya sənayesi sürətlə inkişaf edirdi. İkinci beşillikdə respublikada neft hasilatı 13 dəfədən çox artmışdı. İkinci beşilliyin axırında respublikada 300-ə yaxın iri sənaye müəssisəsi var idi. 1937-ci ildə sənaye məhsulu bütün xalq təsərrüfatı məhsulunun 69 faizini təşkil edirdi. Bu, Türkmənistanın sənaye respublikasına çevrildiyini göstərirdi.

Özbəkistanda sənayeləşmə dövründə yüngül və yeyinti sənayesini əhatə edən bir sıra sənaye müəssisələri tikildi. Müharibədən əvvəlki beşillik dövründə Özbəkistanda 500-dən artıq sənaye müəssisəsi inşa olunmuşdu. Bunlar arasında, "Daşselmaş" Maşınqayırma Zavodunu, Daşkənd Parça Kombinatını, Çirçik Elektrokimya Kombinatını göstərmək olar. Neft emalı artmış, yeni şəhərlər salınmış, Çirçik, Bekabad, Kattakurqan və başqa bu kimi köhnə şəhərlər bərpa edilmişlər.

Özbəkistan SSR-də ikinci beşillikdə Daşkənd toxuculuq kombinatının birinci növbəsi, Daşkənd kənd təsərrüfatı maşınları zavodu və bir sıra başqa müəssisələr tikilmişdi. Neft və qaz hasilatı təxminən 8 dəfə, elektrik enerjisi istehsalı 3 dəfə artmışdı.

1928-37-ci illərdə Qazaxıstan sənayesinin inkişafına Sovet büdcəsindən 2 mlrd. rubl vəsait ayrılmışdı. Bunun da nəticəsində burada 200-dək iri sənaye müəssisəsi yaradıldı. Bunların ən böyükləri qismində Çimkənd Qurğuşun, Balxaş Misəridən Zavodlarını, Karaqanda Kömür Mərkəzi və Türküstan-Sibir dəmiryolunun çəkilişini göstərmək olar.

Qazaxıstanda ikinci beşillikdə 120 iri sənaye müəssisəsi tikilmişdi. Əlvan metallurgiya məhsulları təxminən üç dəfə artmışdı. Emba, Aktyubinsk neft rayonlarında neft hasilatı təxminən 2 dəfə çoxalmışdı. Karaqanda hövzəsi kömür hasilatını 5,5 dəfə artırmışdı. Ümumittifaq sənaye istehsalında Qazaxıstanın rolu xeyli yüksəlmişdi. O, SSRİ-də qurğuşun hasilatında birinci yerə, neft hasilatında ikinci yerə, daş kömür hasilatında üçüncü yerə çıxmışdı. Qazaxıstan SSRİ-nin mühüm yeyinti sənayesi mərkəzlərindən birinə çevrilmişdi. Respublikanın ərazisində 1000 km yeni dəmiryol xətti çəkilib istifadəyə verilmişdi, təxminən 1000 km dəmiryol xətti isə çəkilməkdə idi.

20-30-cu illərdə Qırğızıstan sənayesi sürətlə inkişaf edirdi. 1924-cü ildə Bişkeki Alma-Ata və Novosibirskə birləşdirən dəmiryolunun tikintisi başa çatdı. Sənaye sahəsində sənayeləşdirmə dövründə mühüm irəliləyişlər əldə olundu. Elektrostansiyalar və sement zavodları tikildi. 1940-cı ildə Qırğızıstan şaxtaları bütün Orta Asiyanın istifadə etdiyi kömürün 88%-i qədər kömür emal edirdi. Respublikada həmçinin, əlvan metallurgiya, sürmə və civə sənayesi, qida (şəkər istehsalı) və yüngül sənaye sahələri də inkişaf edirdi. Sürmə və civə istehsalına görə respublika SSRİ-də ilkin yerlərdən birini tuturdu.

Krım, Volqaboyu və Sibirin sovetləşməsi vətəndaş müharibəsi zamanı dağılmış xalq təsərrüfatının bərpası ilə başlanmışdır. Sovet hakimiyyəti bu vilayətlərdə öz hakimiyyətini möhkəmlətməyə yönələn tədbirlər həyata keçirməyə başladı. Sürətlə və məcburi olaraq sosialist quruculuğu həyata

keçirilirdi. 1925-ci ildə sənayeləşmə başlandı. Volqaboyunda, Uralda, Sibirdə bir çox sənaye müəssisələri tikildi.

Volqaboyu, Ural və Sibirin sovetləşməsi dövründə iri sənaye müəssisələri tikilib istifadəyə verildi. 1931-32-ci illərdə ilk növbədə Ural Maşınqayırma Zavodu istifadəyə verildi. Yüngül və yeyinti sənayesi məhsullarının istehsalı xeyli sürətləndi. Həştərxan Balıq Konserv Kombinatı yaradıldı. Başqırdıstanda motor zavodu inşa edildi, Sterlitamakda neft çıxarılmağa başlandı. Beloresk Metallurq və Baymak Mis Zavodları yenidən quruldu. Tatarıstanda birinci beşillikdə sənaye məhsulu 3,5 dəfə artdı. Udmurtiyada yenidən İjevsk Maşınqayırma Zavodu yaradıldı. Motosikl zavodu tikildi.

1933-34-cü illərdə yeni texnika ilə təchiz olunmuş onlarla iri müəssisə istifadəyə verildi. Bunlardan, Ural və Kramatorsk Ağır Maşınqayırma Zavodlarını, Çelyabinsk Traktor Zavodunu, Solikamsk Kalium Kombinatını və başqalarını göstərmək olar. Dubrovsk və Kemerovo elektrostansiyaları istismara verildi. Artıq 30-cu illərin sonlarında bu rayonlar Sovetlər Birliyinin iri sənaye mərkəzinə çevrilmişdilər.

Bütövlükdə Orta Asiya sənayesinin inkişafı İkinci Dünya müharibəsi illərinə təsadüf edir. Müharibə illərində SSRİ-nin qərb ərazilərindən Qazaxıstan ərazisinə 140 sənaye müəssisəsi və 1 mln. adam köçürüldü. Müharibə illərində həmçinin yeni zavodlar, mədən və şaxtalar tikildi.

Sənayeləşmə gedişində ciddi səhvlərə də yol verilmişdi. İlk növbədə sənayeləşmə kütlələrin, xüsusən kəndlilərin dilənçiləşməsi hesabına aparılmışdı. İkinci, sənayeləşmə, xüsusən ağır sənayenin inkişafı çox sürətlə aparılmışdı. Bu da əhalinin istismarı hesabına edilmişdi. Üçüncüsü, sənayeləşmə siyasəti SSRİ-nin totalitar dövlət kimi formalaşmasına başlıca şərti olmuşdur. Dördüncüsü, sənayeləşmə Sovet imperiasının müstəmləkəçilik siyasətini daha da gücləndirmişdi. Ucqarlar, o cümlədən türk xalqları yaşayan ərazilər sənaye üçün xammal mənbəyinə çevrilmişdilər.

20-ci illərdə həyata keçirilən tədbirlərdən biri də kollektivləşdirmə siyasəti idi. Burada məqsəd fərdi kəndli təsərrüfatlarını kolxoz və sovxozlarda birləşdirmək, dövlət idarəçiliyinə verməkdən ibarət idi. 1929-cu ildən başlanan bu proses çox ağrılı keçmiş və faciəli nəticələrə gətirib çıxarmışdır. Kollektiv təsərrüfatların təşkilinin könüllülük prinsipləri əsasında həyata keçirilməsi bildirilsə də, lakin işdə onlar zoraki yolla təşkil edilirdi. Kolxoza üzv olmaq istəməyənlər qolçomaqlığa salınır, həbs edilir, istehsal vasitələrindən məhrum edilirdilər.

Kollektivləşdirməni ilk növbədə başlıca taxıl rayonlarında-Şimali Qafqazda, Volqaboyunun bəzi rayonlarında həyata keçirmək tələb olunurdu. Bu yerlərdə kollektivləşdirmə 1930-cu ilin payızı, yaaxud 1931-ci ilin yazında başa çatdırılmalı idi. Digər rayonlar üçün də bu cür "ikili" müddətlər göstərilirdi. Başlıca məqsəd aşağı pillələrdəki fəalların kollektivləşdirməni birinci müddətdə, hətta ondan əvvəl yerinə yetirməyə səy edəcəklərini gözləmək idi. Bu, baş tutsa idi partiya rəhbərliyinin qələbəsi kimi qəbul olunacaqdı. Əgər bu baş tutmasa, kəndlilərin narazılığı genişlənsə, bütün nöqsanlarda yerlərdə əyintilərə yol verənləri günahlandırmaq olar, partiya rəhbərləri isə günahsız qalardılar.

Çox yerlərdə on minlərlə ortabab kəndlilər də qolçomaqlığa salınmışdılar. Bəzi rayonlarda kolxoza girməkdən imtina etdiyinə görə ortabab kəndlilərin 80 faizi qolçomaq əlaltısı kimi mühakimə olunmuşdu. Minlərlə adam soyuq vaqonlarda Urala, Sibirə, Qazaxıstanın şaxtalı ərazilərinə göndərilmişdilər. Təqribi hesablamalara görə bu qəbildən repressiyalara məruz qalanların sayı 10 milyondan çox olmuşdu.

Orta Asiya respublikalarında da kollektivləşmə prosesi başlandı. İlk növbədə aqrar sahədə kollektiv təsərrüfatlar yaranmağa başlamışdı. 1929-1930-cu illərdə Qazaxıstanda heyvan sürüləri, torpaq sahələri və mülkiyyət iri sahibkarlardan müsadirə olunaraq kəndlilərə verildi. Həmçinin, Çar Rusiyası tərəfindən kazaklara verilmiş Qazaxıstan torpaqları geri

alınaraq kəndlilərin ixtiyarına verilirdi. Ümumilikdə 1929-cu ildən sürətlə həyata keçirilən kollektivləşmə prosesi nəticəsində 1937-ci ildə artıq, 97,5 faiz təsərrüfat kolxozlarda birləşdirildi, əkin sahələri isə 1,5 dəfə artırıldı. Bununla yanaşı, bu proses heyvanların kütləvi kəsimi sayının kəskin aşağı düşməsinə səbəb oldu ki, bu da 1929-33-cü illərdə ölkədə aclığın yaranmasına səbəb oldu.

1929-cu ildən başlayaraq Qırğızıstanda kənd təsərrüfatının kollektivləşməsi prosesi başlandı. Kollektivləşməyə qarşı çıxanlar öldürülür, həbs edilir və mülklərindən məhrum olunurdular. Burada da zoraki yolla qolçomaqları bir sinif kimi ləğv etmək kollektivləşdirmənin mühüm istiqaməti idi. Burada da kollektivləşdirmə bir çox faciələrin mənbəyi oldu. 1941-ci ildə Qırğızıstanda artıq 300 heyvandarlıq kolxozu fəaliyyət göstərirdi.

Türkmənistanda 1929-cu ildən kənd təsərrüfatının kollektivləşməsi prosesinə pambıq plantasiyalarının yaranması ilə başlanıldı. 1929-cu ildə artıq təsərrüfatın 15 faizi kolxozların üzvü olmuşdu. 1940-cı ildə bütün təsərrüfatlar kolxozlarda birləşdirilmiş, kəndlilər isə kolxoz üzvü olmuşdular. İkinci Dünya Müharibəsi ərəfəsində Türkmənistan SSRİ-də pambıq istehsalına görə artıq ikinci sıraya (Özbəkistandan sonra) yüksəlmişdi. Kənd təsərrüfatında əsas yeri pambıqçılıq və heyvandarlıq tuturdu. Bu illərdə ölkədə 134 sovxoz və kolxoz fəaliyyət göstərirdi. Ölkə iqtisadiyyatnda Qaraqum kanalı xüsusi yer tuturdu. Qaraqum kanalı Türmənistanın cənub və cənub-qərb rayonlarını su ilə təchiz edirdi. 1929-cu ildən başlayan kollektivləşmə nəticəsində orta təbəqə (“kulak”) tamamilə məhv edildi.

Özbəkistanda da 1929-cu ildən kollektivləşmənin həyata keçirilməsinə başlandı. 1932-ci ildən artıq torpaqların üçdə iki hissəsi kolxozlarda birləşdirildi. 30-cu illərin ortaları üçün kəndli təsərrüfatlarının 90 faizdən çoxu zorakı yolla kollektivləşdirilmişdi. Kollektivləşdirmə kəndlilərin maddi marağını

öldürürdü. Onlar əslində tarixən bağlı olduqları torpaqdan məhrum olunurdular. Özbəkistanın kolxoz və sovxozları müharibə illərində dənli bitkilərin istehsalını iki dəfə artıraraq respublikanın çörəyə olan tələbatını təmin etmişlər.

1929-cu ildən kollektivləşmənin həyata keçirilməsinə başlandı. Kollektivləşdirmə-xırda kəndli təsərrüfatlarının kolxozlarda birləşdirilməsi Volqaboyu və Krımda da özünü göstərirdi. Burada kollektivləşmənin sürətləndirilməsi üçün komsomol yürüşünə başlanıldı. Ayrı-ayrı regionlarda xüsusi mülkiyyətdən kollektivləşməyə keçilməsinə dair göstərişlər verildi. Burada da kəndlilərin hüququ geniş miqyasda pozulur, kollektivləşdirmə demək olar ki, zor gücünə aparılırdı. Uralın və Sibirin xam və istifadəsiz torpaqlarında yeni texnika ilə təmin olunmuş iri taxılçılıq sovxozları yaradıldı. Bu sovxozlar ölkədə çörək məhsulları istehsalı və satışı ilə məşğul olmaqla yanaşı, kəndli təsərrüfatlarının kollektivləşməsinə şərait yaratdılar, kəndlilər üçün kollektiv istehsal baxımından məktəb rolunu oynadılar.

Bu ərazilərdə kollektivləşmə prosesinin 1932-ci ildə yekunlaşdırılması nəzərdə tutulsa da, kənd təsərrüfatı texnikasının çatışmazlığı və kəndlilərin bir hissəsinin kolxoza daxil olmaq istəməməsi bunu həyata keçirməyə imkan vermədi. Kollektivləşmənin ən qızğın çağında taxıl tədarükü çərçivəsində bütün taxılın alınması nəticəsində 1932-ci ilin sonlarında Aşağı və Orta Volqada, Cənubi Ural və Sibirin cənubunda aclıq başlandı. Aclıq şüurlu surətdə hazırlanmışdı. Dövlətin kifayət qədər taxıl ehtiyatı var idi, lakin o, ixrac olunurdu. Sovet imperiyası çərçivəsində 1932-1933-cü illərdə acından ölənlərin sayı 10 milyondan çox olmuşdu.

Sosialist islahatlarının tərkib hissələrindən biri də Sovet mədəni quruculuğu idi. Mədəni quruculuqda Sovet siyasətinin mahiyyətini bolşevik rejiminə xidmət edən yeni təhsil sistemi və mədəni maarif şəbəkəsi yaratmaq, kommunizm ideologiyası ilə aşılanmış kadrlar yetişdirmək təşkil edirdi. Sosialist ideolo-

giyasına, sovet quruluşuna sadiq olan, onu irəli aparan yeni ziyalı ordusunun formalaşdırılması mədəni quruculuğun ən zəruri vəzifələrindən biri idi. Ziyalı kadrların hazırlanmasında ali təhsil müəssisələri mühüm rol oynamışdılar.

SSRİ-də 1932-ci ilin sonlarından etibarən həyata keçirilən pasportlaşma sistemi bəzi bölgələr əsasən sərhəd rayonları istisna olmaqla, kəndlilərə tətbiq edilməmişdi. Kəndlilərə pasport verilmirdi və bunun da nəticəsində onlar bir yerdən başqa yerə getmək hüququndan məhrum olurdular. Xalq arasında bu qərarı "bolşeviklərin ikinci təhkimçilik hüququ" adlandırırdılar.

1930-cu ildən 1953-cü ilədək davam edən repressiyalar nəticəsində praktiki olaraq bütün müsəlman ruhaniləri, milli ziyalı təbəqəsinin əsas hissəsi sıradan çıxarıldı. Təsadüfi deyil ki, repressiyalara məruz qalanlar içərisində "düşmən casusu", "panislamist", "pantürkist" adlandırılanlar üstünlük təşkil edirdilər. Bütün SSRİ-də aparılan bu siyasət türk xalqlarını məhv etmək, onların dilini əllərindən almaq, tarixi köklərindən ayırmaq, onları çoxəsrlik qədim tarixindən məhrum etməyə hesablanmışdı. Partiya orqanlarından yerli kadrlar çıxarılır, müxtəlif böhtanlarla həbs olunurdular. Onları əsasən rus məmurları əvəz edir və beləliklə, yerli əhali idarəçilikdən kənarlaşdırılırdı. Bu da türk xalqları yaşayan bölgələrdə Mərkəzə oxşar totalitar-avtoritar rejimin formalaşmasına səbəb oldu.

## 2. İkinci Dünya müharibəsi və türk xalqları

İkinci dünya müharibəsi imperialist ölkələrinin qeyri-bərabər inkişafı və onlar arasında ziddiyyətlərin dərinləşməsi nəticəsində baş verdi. Müharibə əsasən Almaniya, İtaliya və Yaponiyanın hakim dairələri tərəfindən hazırlanmışdı. Almaniya, İtaliya və Yaponiya hərbi blokunun fikrincə birinci dünya müharibəsi nəticəsində onların mənafeləri zərər çəkib və artıq dünyanın yenidən bölüşdürülməsi vaxtı çatmışdır. ABŞ, İngiltərə və Fransanın dünya bazarında ağalığı alman bloku

ölkələri tərəfindən qısqanclıqla qarşılanırdı. İstər iqtisadi, istərsə də hərbi mənafelərin toqquşması Almaniya və onun tərəfdarlarını digər bloka qarşı sıx birləşməyə məcbur edirdi.

1 sentyabr 1939-cu ildə Hitler Almaniyası Polşaya hücum etdi. 3 sentyabrda İngiltərə və Fransa dövlətləri Almaniyaya müharibə elan etdi. İngiltərənin ardınca onun dominionları da Almaniyaya müharibə elan etdilər. İkinci dünya müharibəsi başlandı. İngiltərə və Fransa Almaniyaya müharibə elan etsələr də hərbi əməliyyatlara başlamadılar. Onlar həm də güman edirdilər ki, Almaniya Polşadan SSRİ-yə hücum edəcəkdir. 1940-cı ilin yazına qədər Avropada "qəribə müharibə" getdi. Müttəfiqlərin fəaliyyətsizliyindən istifadə edən Almaniya təcavüzü davam etdirirdi.

Almaniya hələ 1940-cı ilin ikinci yarısından SSRİ-yə hücum etmək planı hazırlamağa başlamışdı. Bu plan 1940-cı il dekabrın 18-də Hitler tərəfindən təsdiq olunmuşdu. Belə ki, həmin plana görə 1941-ci ilin payızına qədər SSRİ diz çökdürülməli idi. Almaniya 1941-ci ilin iyunun 22-də bütün sərhəd boyu 190 diviziya ilə SSRİ üzərinə hücuma keçdi.

Hitlerçilərin işğalçılıq planlarına görə türk xalqları yaşayan ərazilərdə Almaniyadan asılı olacaq "Böyük Türküstan" dövləti yaradılması nəzərdə tutulurdu. Şimali və Cənubi Azərbaycan, Orta Asiya, Başqırdıstan, Tatarıstan, Krım, Şimali Qafqaz, Qərbi Çin və Əfqanıstan bu dövlətin tərkibinə daxil olmalı idi.

Sovet rəhbərliyi ölkəni vahid hərbi düşərgəyə çevirmək məqsədi ilə ciddi tədbirlər gördü. 1941-ci il iyunun 30-da İ.Stalin başda olmaqla fövqəladə səlahiyyətə malik Dövlət Müdafiə Komitəsi yaradıldı. Bütün xalqı faşizmə qarşı müharibəyə səfərbər etmək üçün ideoloji və siyasi tədbirlər gücləndirilirdi. Ölkə iqtisadiyyatı hərbi relslər üzərində yenidən qurulmağa başlandı. Hərbi qayda-qanunlar tətbiq olundu. Partiya, dövlət və təsərrüfat orqanlarının, ictimai təşkilatların işi müharibə dövrünün tələblərinə uyğun olaraq yenidən qurulmuşdu. 1941-ci ilin ikinci yarısı üçün planlara yenidən baxıldı. İyunun

axırında “1941-ci ilin üçüncü kvartalı üçün xalq təsərrüfatı səfərbərlik planı”, avqustun 16-da isə “1941-ci ilin dördüncü kvartalı və 1942-ci il üçün Volqaboyu, Ural, Qərbi Sibir və Orta Asiya rayonları üzrə hərbi təsərrüfat planı” təsdiq edildi. Bu planlar ağır sənaye məhsulları, hərbi sursat və hərbi texnika istehsalının elə inkişafını nəzərdə tuturdu ki, faşist işğalçıları ilə mübarizədə maddi-texniki üstünlük SSRİ-yə keçsin. Volqaboyunda, Uralda, Qərbi Sibirdə, Orta Asiyada yeni hərbi komplekslər yaradıldı. Fəhlə və qulluqçuların xeyli hissəsinin döyüşən orduya çağrıl-ması ilə əlaqədar olaraq, müəssisə və idarələrin fasiləsiz işləməsini təmin etmək üçün tədbirlər görüldü. Türk xalqları yaşayan bölgələrdə xalq təsərrüfatı qısa müddətdə yenidən quruldu. İş vaxtından əlavə işin məcburi qaydası qoyuldu, növbəti və əlavə məzuniyyətlər ləğv edildi, sovet orqanlarına fəhlə və qulluqçuları məcburi surətdə başqa işə keçirmək hüququ verildi, hərbi sənaye fəhlələrinin və qulluqçularının özbaşına işdən çıxıb getməsinə görə məsuliyyət müəyyən edildi. Əhalini ərzaq və sənaye məhsulları ilə fasiləsiz təmin etmək məqsədi ilə təchizat norması qoyularaq kartoçka sisteminə keçildi.

Düşmən hücumuna məruz qalan Qərb rayonlarından sənaye və digər obyektlərin, əhalinin Şərqə köçürülməsi tədbirləri həyata keçirilmişdi. Bu işə rəhbərlik edən xüsusi Köçürmə Şurası yaradılmışdı. 1941-ci ildə 1500-dən artıq müəssisənin avadanlığı, fəhlə kollektivləri cəbhəboyu rayonlardan Şərqə köçürüldü. Köçürülmüş avadanlıq tikintilərə və işləyən müəssisələrə göndərilir, beləliklə, köçürülmüş zavodların bərpa edilməsi və işə salınması sürətlənirdi. 1941-1942-ci illərdə ölkənin içərilərinə 25 milyona yaxın adam, 2 mindən artıq sənaye müəssisəsi, 14 milyona yaxın qaramal, 11 min traktor və sairə köçürülmüşdü. Ümumiyyətlə, Şərq bölgələrində 2593 sənaye müəssisəsi tikilmiş və yenidən qurulmuşdu. 1942-ci ilin ortalarında hərbi ləvazimat istehsalının dörddə üçü bu bölgələrin payına düşürdü. Uralın, Qərbi Sibirin, Qazaxıstanın və başqa

rayonların metallurgiya zavodları hər növ qara və əlvan metallar istehsalını artırmışdılar. Maqnitoqorskda 4 ay ərzində Avropa miqyasında ən böyük domna peçi tikilib işə salınmışdı. Müharibənin iki ili ərzində Uralda sənaye istehsalı 3,6 dəfə, Qərbi Sibirdə 2,8 dəfə, Volqaboyunda 3,4 dəfə artmışdı. Ural əsl mənada keçmiş sovet ordusunun cəbbəxanasına çevrilmişdi.

Müharibə elmi-tədqiqatların dinc istiqamətini dəyişdi. Qısa müddətdə Cənubi Uralda boksit, Qazaxıstanda volfram, molibden, mis, Tatarıstanda neft yataqları aşkar edilib mənimsənildi. Hərbi sənayedə yeni texnologiyalar təklif olundu.

1941-1945-ci illərdə Azərbaycanda Sovet Ordusuna 640 min nəfərədək adam səfərbər edilib cəbhəyə göndərildi. Respublikada 1941-1942-ci illərdə 402-ci. 223-cü, 416-cı, 271-ci, 77-ci diviziyalar təşkil olundu. Bakı Ordunun mühüm cəbbəxanalarından birinə çevrildi. Bakı neftçiləri müharibə illərində ölkəyə 75 milyon tona qədər, yəni SSRİ-də istehsal olunmuş neftin dörddə üçünü verdilər. Sovet hərbi təyyarələrinin istifadə etdiyi benzinin 85-90 faizini Bakı verirdi. Görkəmli kimyaçı alim Yusif Məmmədəliyevin rəhbərliyi ilə respublikada yüksək keyfiyyətli təyyarə benzini istehsalının səmərəli texnologiyası işlənib hazırlanırdı. Bakıda "Katyuşa" raketi, "Şnakin" pulemyotu istehsal edilir, "YAK-3" qırıcı təyyarəsi yığılırdı. Bakıda 130-dan çox silah və onun hissələri hazırlanırdı. Azərbaycanın kənd əməkçiləri də müharibə illərində cəbhəyə 500 min ton pambıq və digər strateji xammal məhsulları vermişdilər. Müharibə illərində Azərbaycan vətəndaşları müdafiə fonduna 15 kiloqram qızıl, 952 kiloqram gümüş, 311 milyon manatlıq istiqraz vermişdilər. Müharibə meydanlarında qəhrə-manlıqlarına görə Azərbaycandan 121 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 30 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə, 176 min nəfər SSRİ orden və medalları ilə təltif edilmişdi.

Almaniyaya qarşı müharibədə Qazaxıstan vətəndaşları da digər sovet xalqları kimi fəal iştirak etmişlər. Müharibə

dövründə Qazaxıstanda 20-dən çox atıcı diviziya və digər birləşmələr yaradılmışdı. Qazaxıstan əhalisindən 74, 75, 81, 105, 106, 310, 312, 314, 316, 328, 387, 391 və digər diviziyalar təşkil olunmuşdu. Müharibə illərində Qazaxıstanda yeni sənaye müəssisələrinin tikintisi davam etdirildi. Müharibənin ilk 2 ili ərzində Qazaxıstanda 25 mədən, 11 əlvan və qara metallurgiya obyekti, 19 yeni kömür şaxtası, 4 neft çıxarma və neft emalı zavodu fəaliyyətə başladı.

1942-1943-cü illərdə dəmiryolunun tikintisi davam etdirilirdi. Makat-Orsk və Akmola-Maqnitoqorsk xətlərinin tikintisi başa çatdırıldı. Müharibə illərində Qazaxıstan bütün ölkədə misin 30 faizini, polimetal ərintisinin 70 faizini, qurğuşun istehsalının isə 85 faizini verirdi. Son dərəcə çətin olan belə bir şəraitdə ordunu və arxa cəbhəni təmin etmək məqsədilə əkin sahələrini genişləndirmək, kənd təsərrüfatı istehsalını artırmaq üçün ölkənin şərq rayonlarının kolxozçuları və sovxoz fəhlələri fədakarlıqla çalışırdılar. 1942-ci ildə şərq rayonlarında əkin sahəsi 2,2 milyon hektar artdı. Müharibə illərində Qazaxıstanın kənd təsərrüfatı ölkəyə 30,8 milyon pud çörək, 14,4 milyon pud kartof və tərəvəz, 15,8 milyon pud ət, 319,4 min ton süd vermişdi. Qazaxıstan müharibədən əvvəlki dörd ilə nisbətən müharibənin dörd ili ərzində dövlətə 22 milyon pud çox taxıl verdi, ət təhvilini isə bu müddətdə iki dəfə çoxaltdı. 1944-cü ildən dövlət tədarükü artdı ki, bu da əhalinin ərzaqla təmin edilməsini yaxşılaşdırmağa imkan verdi.

Belə uğurların əldə olunmasında respublikanın qadınlarının və yeniyetmələrinin rolu böyük olmuşdur. Qadınların nisbi çəkisi sənayedə 50 faiz, yüngül və yeyinti sənayesində 80-90 faiz təşkil edirdi. Hərbi xidmət yaşına qədər olan yeniyetmə və gənclər sənayedə çalışan fəhlələrin 35-40 faizini təşkil edirdi. Qazaxıstanın əsas işçi qüvvəsini köçürülənlər təşkil edirdi. Müharibənin əvvəlində Əmək Orduları yaradılmışdı ki, respublika üzrə bunların sayı 700 min nəfərə çatırdı. Bunlardan cəmi 200 min nəfərini qazaxlar təşkil edirdi. 1943-1944-ci illər-də

Qazaxıstana bir sıra xalqlar sürgün olunmuşdular ki, onlar da Əmək Ordularına cəlb olunurdular. Onlara yeni yaşayış yerlərini tərk etmək qadağan olunmuşdu.

Döyüş qəhrəmanlıqlarına görə yüzlərlə qazaxıstanlı medal və ordenlərlə təltif olunmuş, 500 nəfəri isə Sovet İttifaqı Qəhrəmanı adını almışdır ki, bunlardan da 2-si qadındır, 4 nəfər qazaxıstanlı-T. Begeldinov, S. Luqanskiy, İ. Pavlov və L. Beda 2 dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər. Bir çox qazaxıstanlı partizanların tərkibində düşmənin arxa cəbhəsində döyüşmüşdür. Müharibə illərində döyüş texnikasının hazırlanması məqsədilə Qazaxıstan vətəndaşlarından 480,3 milyon manat pul toplanmışdı.

Qırğızıstan əhalisi də faşizmə qarşı mübarizədə fəal istirak etmişdir. Bu müharibədə 360 minə qədər qırğız iştirak etmiş və onlardan 80 mindən çoxu döyüşlərdə həlak olmuşdur. Bundan əlavə 30 mindən çox qırğız hərbi sənayedə işləmək üşün respublika hüdudlarından kənara göndərilmişdir. Bunların arasında “sinfi əlamətləri”nə görə şübhəli şəxslər üstünlük təşkil edirdi ki, onların da üzərində ciddi nəzarət var idi. Müharibə illərində respublikanın kolxoz və sovxozları müharibəyə qədərki beşilliklə müqayisədə planı artıqlaması ilə yerinə yetirirdilər. Qığızıstan 4,5 milyon pud taxıl, 2,7 milyon pud kartof və tərəvəz, 2,8 milyon pud ət plandan artıq təhvil vermişdi. Müharibə illərində Qırğızıstan şəkər çuğunduru istehsalını da xeyli artırmışdı.Bu məhsulların böyük hissəsi əhalidən məcburi qaydada toplanırdı. Kənd əhalisi isə aclıq içərisində yaşayırdı. Buna baxmayaraq qırğızlar da müdafiə fonduna əmək haqqının müəyyən hissəsini, dövlət istiqraz vərəqələri, qiymətli əşyalar və sairə verirdilər.

Müharibədə qırğız döyüşçüləri mərdliklə döyüşmüş, onlardan 150 mini müxtəlif orden və medallarla təltif olunmuşlar. 72 qırğız Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Müharibə Türkmənistanın iqtisadi inkişafına təkan vermişdi. Bunun da səbəbi SSRİ-nin Qərb bölgələrindən isteh-

sal müəssisələrinin respublikaya köçürülməsi idi. Bununla yanaşı respublikanın nəqliyyat sistemi də təkmilləşdi. Dəmiryol nəqliyyatının hərəkət cədvəli hərbi dövrün şəraitinə uyğunlaşdırıldı. Sərnişin qatarlarının sayı azaldıldı. Ən mühüm dəmiryol qovşaqlarının və xətlərinin buraxıcılıq qabiliyyətini tezliklə artırmaq üçün tədbirlər görüldü. Türkmənistanda xeyli müəssisə və sex işə salındı. Sənayenin neftçıxarma və kimya sahələri inkişaf etməyə başladı.

Türkmənistanda texniki bitkilərin əkin sahəsi genişləndirildi. Buna həm də pambıqçılıq kolxoz və sovxozlarının kənd təsərrüfatı texnikası ilə və gübrələrlə təchiz edilməsi kömək edirdi. Türkmənistan kolxozçuları və sovxoz fəhlələri kənd təsərrüfatı məhsulları istehsalını artırmaq üçün böyük fədakarlıqla çalışırdılar. Bütün kolxozçular fəal işləyir, habelə qadınlar və yeniyetmələr kolxoz işində elə iştirak edirdilər ki, kolxozlarda işçi qüvvəsi çatışmadığı hiss olunmurdu.

Alman faşizminə qarşı müharibənin əvvəlində 87-ci əlahiddə türkmən briqadası yaradıldı. Sonralar briqada 76-cı atıcı diviziyanın tərkibinə verildi. Müharibə illərində 19 min türkmən əsgər və zabiti müxtəlif orden və medallarla təltif olunmuşdur. 51 türkmən döyüşçüsü Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Müharibə illərində Özbəkistan hökuməti respublikanın xalq təsərrüfatının hərbi qaydalara uyğunlaşdırılması və yenidən qurulması planını işləyib hazırlamışdı. 200-dən artıq iri sənaye müəssisəsi silah və hərbi sursat istehsalına keçdi. Özbəkistana müharibə illərində 100-dən çox müəssisə köçürüldü. Bunlardan 55 müəssisə Daşkənd vilayətinə, 14 müəssisə Səmərqəndə, 12 müəssisə Buxara vilayətinə, qalanları isə Özbəkistanın başqa bölgələrinə köçürülmüşdü. Köçürülən müəssisələrin bazasında daha 47 yeni müəssisə təşkil olundu, həmçinin yerli obyektlərin gücü artırıldı. 1942-ci ilin ortalarında Özbəkistanda sənayenin hərbi qaydalara uygunlaşdırılması prosesi əsasən başa çatdı.Əhalinin yaşayışı xeyli ağırlaşdı. Şəhərlərdə kartoçka

sisteminə keçildi. Fəhlə və qulluqçular hər günə 400-500 qram, himayələrində olanlar isə 300-400 qram çörək alırdılar. Müharibə illərində Özbəkistana milyondan artıq adam köçürüldü ki, bunların da 200 mindən çoxu uşaqlar idi. Özbəkistanda 113 hərbi hospital yerləşdirildi ki, bu hospitallara xeyli müəssisə və idarə xidmət göstərirdi.

1941-1945-ci illər ərzində əhali tərəfindən müdafiə fonduna 650 milyon manat dəyərində pul və qiymətli kağızlar, 22 milyon manatdan çox qiymətli əşya, 55 kiloqramdan çox qiymətli metal toplanmışdı. Özbəkistan cəbhəyə 2 mindən çox təyyarə, 1,7 mindən çox aviamotor və bu qədər minamyot, 560 min minam-yot mərmisi, 330 min paraşüt və başqa hərbi sursat vermişdir.

Özbəkistan müharibə illərində dövlətə 4,5 milyon ton xam pambıq, 1 milyon 282 min ton taxıl, 482 min ton kartof və tərəvəz, 57,5 ton meyvə, 259 min ton ət vermişdir. Özbəkistanın kolxoz və sovxozları müharibə illərində taxıl istehsalını 2 dəfə artırıb respublikaların çörəyə tələbatını ödəyirdilər.

Özbəkistandan olan hərbçilər də müharibədə fəal iştirak etmişdilər. Özbək döyüşçülər Moskva və Kursk uğrunda gedən döyüşlərdə, eləcə də Şərqi Avropadakı döyüşlərdə igidliklə döyüşmüşlər. 120 min özbək döyüş orden və medalları ilə təltif olunmuşdur. Bunlardan 338 nəfəri Sovet İttifaqı Qəhrəmanı adını almışdır. Təkcə Dneprin azad olunmasında iştirak edən 100-dən çox özbək döyüşçü Sovet İttifaqı Qəhrəmanı adını almışdır.

Faşist Almaniyası 1942-ci ilin yayında cənubda sovet qoşunlarını darmadağın etmək, Qafqaz rayonunu tutmaq, Volqaya çıxmaq, Stalinqradı və Həştərxanı işğal etmək istəyirdi. 1942-ci ilin aprelində sovet qoşunlarının Krımda hücumu uğursuzluqla nəticələndi. Sevastopol işğal olundu. Cənub-qərb istiqamətində hadisələr daha böyük uğursuzluqla inkişaf edirdi. Krımdakı məğlubiyyətdən sonra sovet qoşunları xeyli zəiflədilər. 1942-ci ilin sonunda almanlar Volqa və Şimali Qafqaza

doğru hücuma başladılar. Sovet qoşunlarının bir hissəsi mühasirəyə düşdü. Göstəriş olmadan geri çəkilmək üçün sərt cəza tədbirləri tətbiq olundu. Buna yol verən komandirlər və komissarlar Vətən xainləri elan edilirdilər.

Almanlar Qafqazda və Volqaboyunda məğlubiyyətə uğradıqdan sonra faşist Almaniyası anladı ki, yerli xalqların köməyi olmadan bu əraziləri ələ keçirmək mümkün deyildir. Müharibənin əvvəlində on minlərlə sovet əsgəri əsir götürüldülər. Bunların arasında qazaxlar, özbəklər, qırğızlar, türkmənlər və digər xalqlar var idi. Bunların 80 faizi faşist düşərgələrindəki qeyri-insani şəraitə dözməyərək məhv oldu. Qalanları isə 1943-cü ilin mayında yaradılan "azad türk diviziyası"nda birləşdilər. Diviziyanın tərkibində Azərbaycan legionu da var idi. Azərbaycan legionu müstəqil Azərbaycan dövlətinin yaranması uğrunda Almaniya tərəfindən Qafqaz uğrunda gedən döyüşlərdə iştirak edirdi. "Azad türk diviziyası"nın tərkibinə Krım və Volqaboyu tatarları da daxil olmuşdu. Lakin mühacirlərin Almaniya hökuməti təmsilçiləri ilə danışıqları heç də uğurlu getmirdi. Belə ki, mühacirlərin müstəqillik uğrunda apardıqları mübarizə almanlar tərəfindən qəbul edilmirdi. Belə olduqda, Məmməd Əmin Rəsulzadə və Şimali qafqazlı Səid Şamil Almaniyadan çıxıb getmək məcburiyyətində qaldı. 1943-cü ilin payızında Almaniya hökumətinin köməyi ilə Berlində Azərbaycan parlamenti və hökuməti yaradılmışdı. Fətəlibəyli-Düdəginski bu "hökumətin" başçısı oldu. Alman hökuməti "mühacir Azərbaycan hökumətini" tanıdı. Bu hökumət 1944-cü ilin qışına qədər fəaliyyət göstərdi. Müharibə başa çatdıqdan sonra Azərbaycan legionunun hissələri tamamilə dağıldı.

Faşizmə qarşı mübarizədə Sovet imperiyası tərkibində olan xalqlar, o cümlədən türk xalqları fəal iştirak etmişdilər. Onların bütün maddi, mənəvi və insan ehtiyatları sovet-alman müharibəsinə səfərbər edilmişdi. Bu xalqların da yerüstü və yeraltı sərvətləri müharibənin ehtiyaclarına yönəldilmişdir. Həmin xalqlardan müharibəyə səfərbərliyə alınanlardan 80 milli

diviziya və briqada yaradılmışdır. Onlar öz doğma vətənlərindən uzaqlarda "vətəni" müdafiə etmiş, çoxları öz həyatlarını qurban vermişdilər. Buna cavab olaraq isə Sovet rəhbərliyi bir sıra xalqları, o cümlədən Krım tatarlarını, bulqarları, qaraçaylıları, balkarları , ahıska türklərini və başqalarını öz doğma vətənlərindən, guya cəbhədən uzaq yerlərə-Sibirə, Orta Asiyaya köçürmüşdü. Köçürülənlərin çoxu düşdükləri şəraitə dözə bilməyərək həlak olurdular.

1942-ci ildə Sovet rəhbərliyi bütün Azərbaycan xalqını Şərqə-Sibirə köçürmək istəyirdi. Burada, şübhəsiz ki, Qafqazda gedən döyüşlərdə azərbaycanlıların türklərlə birləşəcəyi barədə təbliğatın da rolu olmuşdur. Lakin respublika rəhbərliyi Stalini inandıra bildi ki, azərbaycanlıların köçürülməsi, neft, pambıq kimi strateji məhsulların istehsalının azalmasına səbəb olar və orduda döyüşən azərbaycanlı əsgərlərə pis təsir göstərər.

1945-ci il mayın 8-də faşist Almaniyası danışıqsız təslim olmaq aktını imzaladı. Almaniyanın təslim olmasından sonra müttəfiqlər Uzaq Şərqdə, Yaponiya ilə müharibəni başa çatdırmağa başladılar. SSRİ-nin Yaponiyaya qarşı müharibəyə girməsi hələ Krım konfransında müəyyənləşdirilmişdi. Ona görə də SSRİ 1945-ci il avqustun 8-də Yaponiyaya müharibə elan etdi. 1945-ci il sentyabr ayının 2-də Yaponiyada təslim olmaq haqqında aktı imzaladı. Beləliklə, dünya tarixində baş vermiş ən dəhşətli müharibə-İkinci Dünya müharibəsi başa çatdı. İkinci dünya müharibəsi bəşəriyyətə ağır zərbə vurdu. Milyonlarla insan həlak və şikəst oldu, minlərlə şəhər, kənd və məntəqə tamamilə dağıdıldı. Dünya iqtisadiyyatına böyük zərbə vuruldu.

### 3. Türk xalqları 50-80-ci illərdə

Müharibədən sonrakı illərdə Qazaxıstan SSRİ-nin xalq təsərrüfatının bərpasında fəal iştirak etmişdir. 50-60-cı illərdə Qazaxıstanda 900-dən çox iri sənaye müəssisəsi və sexi tikilib

işə salındı. Ust-Kamenoqorsk titan-maqnezium kombinatının, Pavlodar alüminium və alüminium oksidi zavodunun, Şərqi Qazaxıstanda sink zavodunun, Turqay boksit mədənlərinin yaradılması, mövcud əlvan metallurgiya müəssisələrinin yenidən qurulması və genişləndirilməsi ölkədə əlvan metal istehsalında Qazaxıstanın rolunu daha da artırdı. Karaqanda metallurgiya kombinatı tikildikdən sonra Qazaxıstan qara metallurgiyanın da mühüm bazasına çevrildi. Turqay düzündəki nadir dəmir filizi yatağı əsasında ildə 26,5 milyon ton filiz verən Sokolovo-Sarbay filizsaflaşdırma kombinatı yaradıldı. Bu kombinat Cənubi Ural və Qazaxıstan qara metallurgiya sənayesinin əsas xammal bazasına çevrildi. Karaqanda və Ekibastuz kömür hövzələrində yeni şaxtalar tikildi. Respublikada sənaye məhsulu istehsalı 2,1 dəfə artdı.

50-60-cı illərdə Sovet İttifaqında xam və istifadəsiz torpaqların istifadə edilməsi proqramı həyata keçirildi. Qazaxıstanda bu müddətdə 4 milyon hektardan çox xam torpaq əkin üçün yararlı hala gətirilməli idi. Bu məqsədlə respublikaya minlərlə insan köçürüldü.

60-80-ci illərdə Qazaxıstan kommunist partiyasına Dinmuxamed Kunayev rəhbərlik etmişdir. Onun dövründə də respublikada sənayeləşmə davam etdirildi, Alma-Atada, Karaqandada, Ekibastuzda, Pavlodarda iri müəssisələr, energetika obyektləri, dəmir və avtomobil yolları tikildi. Qazaxıstana digər respublikalardan köçürmələr davam etdirilirdi, lakin, Kunayev qazax rəhbər kadrlarının irəli çəkilməsinə kömək edirdi. 50-ci illərin sonunda qazax etnosu Qazaxıstan əhalisinin cəmi 30 faizini təşkil edirdi. 70-ci illərdən başlayaraq Qazaxıstanda yerli əhalinin sayı tədricən artmağa başladı ki, bu da etnik balansın dəyişməsi ilə nəticələndi. Yalnız 1989-cu ildə qazaxlar öz tarixi vətənlərində üstünlük təşkil etməyə başladılar. 1989-cu il SSRİ əhalisinin siyahıya alınmasına görə "ikinci böyük etnik qrup olan ruslar Qazaxıstan əhalisinin 37,8 faizini təşkil etmişlər". Respublikanın yeddi vilayətində isə ümumiyyətlə,

rusların sayı qazaxlardan çox olub. SSRİ-nin dağılması və Qazaxıstanın müstəqillik əldə etməsindən sonra, buraya müəyyən səbəblər ucbatından köçürülmüş xalqlar öz ata-baba yurdlarına qayıtmağa başladı ki, bu da etnik mənzərənin köklü formada dəyişilməsinə gətirib çıxardı. Lakin Qazaxıstan yenə də əvvəlki kimi çoxmillətli respublika olaraq qalır.

SSRİ-də yenidənqurma başladıqdan və Qorbaçovun hakimiyyətə gəlişindən sonra Kunayev iqtisadiyyata pis rəhbərlik etdiyinə və korrupsiyaya görə vəzifəsindən uzaqlaşdırıldı. 1986-cı ilin dekabrında onun yerinə Ulyanovsk vilayət partiya komitəsinin rəhbəri Gennadi Kolbin (milliyətcə rus) təyin edildi. Bu təyinata etiraz əlaməti olaraq, minlərlə qazax tələbəsi Alma-Atada mitinq keçirdi. Məsələyə ordunun qarışması ilə minlərlə qazaxın qanı axıdıldı. 200 nəfərdən artıq insan həlak oldu. Bu ruslaşma və sovetləşmə siyasətinə qarşı ilk etiraz aksiyası idi və 1986-cı il sovet tarixinə millətlərarası toqquşma ili kimi daxil oldu. Hələ Qazaxıstan hadisələrindən bir neçə ay əvvəl mart-aprel aylarında Yakutiyada yakut tələbələri ilə rus gəncləri arasında qarşıdurma olmuşdu.

G.Kolbin islahatlar aparmağı, qazax dilinin istifadəsini genişləndirəcəyini, hətta onun respublikada rəsmi dil kimi elan olunacağını söz verməklə vəziyyəti sakitləşdirməyə çalışdı. Yaranmış vəziyyətdən ehtiyat edən sovet rəhbərliyi 10 yanvar 1987-ci ildə Qazaxıstan KP MK-nin ikinci katibi vəzifəsinə milliyyətcə qazax olan Səidullah Kubaşovu gətirmək məcburiyyətində qaldı. Hadisələrin bir daha təkrarlanmaması üçün DTK vasitəsilə iştirakçılar təqib olunmağa, həbs edilməyə başlandı. Alma-Ata hadisələri Orta Asiyada milli məsələnin ciddi olduğunu və imperiyaya nifrətin gücləndiyini göstərdi. Qazaxıstanda müstəqil ictimai təşkilatlar meydana gəlməyə başladı. 1989-cu il iyunun 22-də Nursultan Nazarbayev Qazaxıstan KP MK-ın birinci katibi seçildi.

Qırğızıstanda da başqa Orta Asiya Respublikalarında olduğu kimi müharibədən sonrakı illərdəki ictimai-siyasi və

iqtisadi vəziyyət SSRİ-nin ümumi siyasətindən asılı idi. 1946-53-cü illərdə on minlərlə qırğız vətəndaşı həbs olundu və uzun müddət üçün həbsxanalarda saxlanıldı. Stalinin ölümündən sonra mərkəzləşmiş hakimiyyət zəifləməyə başladı və mərkəzi hakimiyyətin bəzi səlahiyyətləri yerlərə verilməyə başladı. 1957-ci ilin 11 fevralında "Vilayət, mahal regional-inzibati məsələlərin həllinin müttəfiq respublikalara verilməsi" barədə fərman imzalandı. Yerli və təsərrüfat əhəmiyyətli məsələlər birbaşa Qırğızıstan rəhbərliyinin başçılığı ilə həyata keçirilməyə başladı.

1956-cı ildən başlayaraq Qırğızıstanın ictimai-siyasi həyatında ciddi dəyişikliklər baş verdi. Rəsmi olaraq Stalin rejimi tənqid olunmağa başlandı, bir çox repressiyaya məruz qalmış şəxslərə bəraət verildi. Həmin dövrlər respublikaya rəhbərlik edər İ.Razzakov tərəfindən bir sıra milli maraqlarla üst-üstə düşən tədbirlər həyata keçirildi. Qırğız ziyalılarına, yeni milli kadrların yetişdirilməsinə diqqət ayrıldı, qırğız dilinin statusu artırıldı, hətta respublikadakı rus məktəblərində belə tədrisinə başlandı.

Qırğızıstanda 50-60-cı illərdə 130-dan çox sənaye müəssisəsi və sexi tikilib işə salındı. Elektrotexnika, radioelektron, avtomobil, cihazqayırma kimi yeni sənaye sahələri yaradıldı. Sənaye məhsulunun ümumi həcmi iki dəfə artdı. Orta Asiyada istehsal olunan daş kömürün 39 faizini Qırğızıstan verirdi.

Lakin, respublika rəhbərliyinə T.Usubaliyevin (1961-85) gəlişi ilə mərkəzləşmə meylləri yenidən sürətləndi. Rus məktəblərində qırğız dilinin tədrisi yenidən yığışdırıldı. Ümumiyyətlə qırğız dili ictimai həyatda ikinci plana keçdi. 1978-ci ildə Qırğızıstanın yeni qəbul olunmuş Konstitusiyasına isə dövlət dili ilə bağlı maddə ümumiyyətlə daxil edilmədi.

Qazaxıstan kimi Qırğızıstanın da çoxmillətli olması və qırğızların başqa etnik azlıqlarla müqayisədə heç də mütləq üstünlüyü təşkil etməməsi siyasi sistemdə öz əksini tapmışdır. 1989-cu ildə SSRİ əhalisinin siyahıya alınmasının nəticələrinə

görə qırğızlar respublika əhalisinin 50 faizini təşkil etmişlər. 1985-ci ildə T.Usubaliyevin istefaya getməsindən sonra hakimiyyətə A.Masaliyev gəldi. Masaliyevin hakimiyyətə gəlişi respublikanın ictimai-siyasi həyatında, demək olar ki, heç bir yenilik olmadı. Ancaq Masaliyevin kadr siyasəti respublikada kütləvi narazılığın yaranmasına səbəb oldu, hətta partiyadaxili mübarizənin kəskinləşməsi halı da müşayiət olunurdu. Bütün gücünü partiyadaxili mübarizəyə həsr edən hakim qruplaşma ölkədə siyasi, iqtisadi və sosial vəziyyətin dəyişilməsinə diqqət yetirmirdi.

SSRİ-nin dağılması ərəfəsində Qırğızıstanın "siyasi ellitası faktiki olaraq demokratik əhval-ruhiyyəli və mühafizəkar düşüncəli təbəqəyə bölünmüşdü". Münasibətlərin getdikcə kəskinləşməsi, birinci növbədə mərkəzdə gedən və Sovet imperiyasının hər tərəfini bürümüş demokratik hərəkatın təsiri ilə olurdusa, digər tərəfdən, Masaliyevin düzgün olmayan kadr siyasəti və daxili siyasət məsələlərinin düzgün həll olunmamasının nəticəsi idi. Demokratik hərəkatın genişlənməsi 1990-cı ildə respublikanın görkəmli siyasi şəxsiyyətlərinin və parlament üzvlərinin də daxil olduğu Qırğızıstan Demokratik Hərəkatının yaranmasına səbəb oldu.

SSRİ-nin tərkibində Özbəkistanın yüngül və yeyinti sənayesi, eyni zamanda ağır sənayesi inkişaf etmişdir. İri istilik (Daşkənd 1971, Sırdərya 1975) və hidroelektrik (Çarvaksk 1972) stansiyaları tikildi, yeni neft və qaz yataqları istismara verildi. Respublikada elektrotexnika, radioelektronika, avadanlıq istehsalı və aviasiya texnikası sahələrini əhatə edən maşınqayırma sənayesi yaradıldı. Elektrik enerjisi istehsalı 2,5 dəfə, maşınqayırma məhsulları istehsalı 3 dəfə, əlvan metallurgiyada istehsal 6,5 dəfə artdı. Ən böyük qaz kəməri olan Buxara-Ural xəttinin çəkilməsi nəticəsində Özbəkistan qazı Ural müəssisələrinə nəql edilirdi. Özbəkistanda çox zəngin qızıl ehtiyatı aşkar edilmiş və Muruntau qızıl filizi yatağının işlənilməsinə

başlanılmışdır. Yeni iri həcmli pambıqçılıq rayonları salındı və Özbəkistan SSRİ-nin nəhəng pambıq bazasına çevrildi.

1959-83-cü illər respublikaya Şərəf Rəşidov rəhbərlik edirdi. Ş.Rəşidovun rəhbərlik etdiyi dövr Özbəkistan tarixinin Sovet dövründə ən yaxşı səhifələri kimi qeyd olunur. Lakin, 1969-cu ildə Daşkənddə etnik zəmində kütləvi iğtişaşlar başladı. Lakin, bu hadisələr tezliklə yatırıldı. Ş.Rəşidovun 1983-cü ildə hakimiyyətdən getməsi ilə "pambıq işi" adı altında araşdırmaya başlandı. Açılmış cinayət işində respublika rəhbərliyinin korrupsiya əməlləri araşdırılarkən 1983-cü ilin 30 oktyabrında Ş.Rəşidov dünyasını dəyişdi.

İstintaq qrupunun Özbəkistanda təhqiqatları zamanı mərkəzi partiya və sovet orqanlarına müstəntiqlər tərəfindən qanunların kobud şəkildə pozulması, özbaşınalıq, istintaq altında olan şəxslərin şərəf və ləyaqətinin təhqir edilməsi, kütləvi qanunsuzluqlarla bağlı vətəndaşların yüzlərlə şikayət və məktubları daxil olmuşdur. 1989-cu ilə kimi davam edən bu özbaşınalığın qarşısını almaq məqsədi ilə SSRİ Ali Soveti müvafiq komissiya yaratsa da, artıq bütün Özbəkistanı əhatə edən etiraz dalğasını sakitləşdirmək mümkün olmadı.

80-ci illərin ikinci yarısında Özbəkistanda baş qaldıran milli hərəkat antirus xarakteri almağa başladı. 1988-ci ilin dekabrında Daşkənddə xüsusən gənclərin iştirakı ilə mitinq keçirildi. Özbəkistan rəhbərliyinin hadisələrə vaxtında reaksiya verməməsi prosesi getdikcə idarəolunmaz edirdi. Sonradan hərəkat ahıska türklərinə qarşı çevrildi. Hadisələrin mərkəzi Fərqanə vilayəti oldu. 1989-cu ilin 23-24 mayında Fərqanə vilayətində milli zəmində baş vermiş münaqişədə mindən çox adam iştirak etmişdir. Münaqişə zamanı 52 nəfər xəsarət almış, bir neçə iştirakçı isə öldürülmüşdü. Türklərin evlərinə və xüsusi mülkiyyətinə ciddi ziyan dəydi. Münaqişəni yalnız dövlət və hüquq-mühafizə orqanlarının işə qarışmasından sonra yatırtmaq mümkün oldu. Bundan sonra vəziyyət müəyyən qədər sabitləşsə də iyunun əvvəllərində türklərin kütləvi qaydada

öldürülməsi, evlərinin yandırılması və qovulması prosesi başlandı. İyunun 12-nə kimi davam edən qırğınlar Fərqanə vilayətinin dağlıq kənd rayonlarını da əhatə etməklə türklərin kütləvi qovulması ilə nəticələndi. Bu hadisələrdən dərhal sonra SSRİ Ali Sovetinə SSRİ Baş Prokurorunun müavini A.Suxarevin göndərdiyi məktubda Fərqanə vilayətində 3-12 iyunda baş vermiş hadisələr nəticəsində 112 nəfərin öldürüldüyü bildirilirdi.

Özbək tarixçilərinə görə bu qanlı hadisələr mərkəzin təhlükəsizlik orqanları tərəfindən törədilmiş və "türk kartı"ndan istifadə etməklə Özbəkistanı totalitar dövlətə daha sıx bağlamaq məqsədi daşımışdır. Vəziyyətlə əlaqədar yaradılmış dövlət komissiyasının sədri Q.Qədirov Özbəkistan rəhbərliyinə ünvanladığı məlumatında göstərirdi ki, daxili işlər orqanları və prokurorluq cinayətlərin qarşısını almaq iqtidarında olmayıb. Bu da onu göstərir ki, hadisələrin inkişafında mərkəzin təhlükəsizlik orqanlarının rolu olub.

Müharibədən sonrakı illərdə Türkmənistanda neft-qaz kompleksi yaradıldı, neftçıxarma sənayesi inkişaf etdirildi, Qaraqum kanalı inşa edildi. Kənd təsərrüfatının bütün sahələrinin inkişaf etdirilməsi üçün tədbirlər görüldü. Bunun sayəsində kənd təsərrüfatı məhsulları istehsalı çoxalmağa başladı. Kənd təsərrüfatı məhsulları istehsal edən yardımçı təsərrüfatlar əhalinin kənd təsərrüfatı məhsulları ilə təchiz edilməsində mühüm rol oynayırdı.

50-60-cı illərdə Türkmənistanda 60-dan çox müasir müəssisə və sex işə salındı. Sənayenin neftçıxarma, kimya, maşınqayırma kimi sahələri də inkişaf edirdi. Maşınqayırma məhsulları və metal emalı iki dəfə, elektrik enerjisi istehsalı 2,5 dəfə, kükürd hasilatı 2,5 dəfə, neft emalı 1,8 dəfə artdı. Türkmənistan neft çıxarılmasına görə Sovet İttifaqında üçüncü yerə çıxdı. Türkmənistanda hətta şərabçılıq sənayesi də inkişaf etdirilirdi. Aşqabad, Murqab, Sandıqaç və digər şəhərlərdə şərab istehsalı müəssisələri yaradıldı.

Türkmənistan Sovet imperiyası üçün xammal bazası üçün və İttifaq büdcəsinə özünün başlıca sərvətlərindən əldə etdiyi gəliri verirdi. Türkmənistan bununla bərabər Moskvadan heç vaxt əlavə güzəşt və dotasiya tələb etmirdi. Türkmənistan hər il mərkəzi hökumət büdcəsindən 344 milyon manat alırdı və öz sərvətlərindən əldə olunan gəlirin 530 milyon manatını Moskvaya verirdi.

SSRİ-nin dağılması ərəfəsində Türkmənistanda da milli məsələ özünü biruzə verirdi. Türkmən dilinin rəsmi səviyyədə işlədilməməsi və vətən tarixinin təhrif olunması ziyalıların, o cümlədən, cəmiyyətin geniş təbəqələrinin narazılığına səbəb olmuşdu. 1985-ci ildə S.Niyazov hakimiyyətə gəldikdən sonra Türkmənistanda mövcud olan tayfaçılıq münasibətlərinə qarşı çıxmış, millətin vahid tam kimi birləşməsinə çalışmışdır. Respublika hökumətinin 1989-cu ildə verdiyi bir qərarla respublikada rus dili ilə yanaşı, türkmən dili də rəsmi status aldı.

1944-cü ilin oktyabrında Tuva Muxtar Respublikası RSFSR-in tərkibində muxtar vilayətə çevrildi. 1945-ci ildə Krım MSSR ləğv edildi.

1953-cü ilin 5 martında Stalinin ölümündən sonra bir çox repressiya olunmuş partiya və dövlət adamları bəraət aldılar. 1957-ci ilin 9 yanvar tarixində SSRİ Ali Sovetinin Rəyasət Heyətinin qərarı ilə balkarların, kalmıkların və qaraçayların milli muxtariyyətləri bərpa edildi.

1954-cü ilin 19 fevralında Ukraynanın Rusiyaya birləşdirilməsinin 300 illiyi ilə əlaqədar Krım vilayəti Ukraynaya verildi. Buraya qərbi ukraynalıların yerləşdirilməsi başlandı. Lakin, Krım türkləri doğma yerlərə qayıtmaq uğrunda mübarizəni dayandırmadılar. 1956-cı ildə Krım tatarları xüsusi qeydiyyatdan çıxarıldılar. 1967-ci ildə SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Krımda yaşayan tatar milliyyətindən olan vətəndaşlar barədə" fərman verdi. Fərmana görə tatarlar digər xalqlarla bərabər hüquqlar aldılar. Lakin, pasport rejiminə görə

onların Vətənlərinə qayıtmaları mümkün olmadı. Tatarların bir hissəsi yalnız yenidənqurma vaxtı geri dönə bildilər.

1956-cı ilin 28 aprel tarixli fərmana əsasən köçürülmüş xalqların, o cümlədən, ahıska türklərinin xüsusi yaşayış yerlərinə qayıtmasına qoyulmuş məhdudiyyət aradan qaldırıldı. Bundan sonra "ahıska türklərinin hərəkatı" başlandı. Belə ki, bu fərman ahıska türklərinin hüquqlarını bərpa edə bilmədi. 1964-cü ilin fevralında Daşkənd vilayətində onlar ahıska türklərinin azadlığı uğrunda Müvəqqəti Təşkilat Komitəsi yaratdılar.

1968-ci ilin 30 may tarixində SSRİ Ali Sovetinin Rəyasət Heyəti ahıska türklərinə Gürcüstanın digər xalqları ilə bərabər hüquqlar verən fərman verdi. Onlar İttifaqın istənilən yerində, o cümlədən Gürcüstanda yaşayış hüququ əldə edə bilərdilər. Lakin, Gürcüstan rəhbərliyi onların tarixi yaşayış yerlərinə qayıt-malarına etiraz etdi.

60-80-ci illərdə Krımda sənaye inkişaf edirdi. Simferepol, Sevastopol və Kamış-Burun hidroelektrik stansiyaları yarımadanı elektrik enerjisi ilə təmin edirdilər. Kerç dəmir filizinin əsasında Kamış-Burun Kombinatı və Kerç Metallurgiya Zavodu inşa edildi. Həmçinin, Krımda kimya sənayesi və gəmiqayırma inkişaf etdirildi.

80-ci illərdə Şimali Krım kanalının ikinci hissəsi tikildi və müəssisələrin istehsal gücü artırıldı. 325 yeni istehsal xətti istifadəyə verildi, 146 sex və sahə mexanikləşdirildi ki, nəticədə 20 min nəfər işçi əl əməyindən azad oldu. Sənayenin əsas fondu 2,3 milyard manatı aşdı.

50-80-ci illərdə Volqaboyu və Sibir sürətlə inkişaf edirdi. Volqa, İrtış, Ob, Yeniseydə hidroelektrik stansiyalar tikildi, metallurgiya və kimya zavodları inşa edildi. Volqa-Don kanalının çəkilişi xalq təsərrüfatı üçün mühüm rol oynadı.

Başqırdıstan inkişaf etmiş sənaye və kənd təsərrüfatı respublikasına çevrildi. Neft hasilatı və emalı genişləndirildi və nəticədə respublika SSRİ-nin əsas neft bazalarından birinə çevrildi. Bakı neftçilərinin köməkliyi ilə Tuymaz, İşimbay,

Şkanov, Arlan, Çekmaquşda neft hasil olunmağa başlandı. Ufa, Salavat və İşimbayda neft emalı, Sterlitamakda kimya, elektroenergetika, maşınqayırma zavodları işə salındı. Respublikada soda, turşu və sement istehsal olunurdu.

Tatarıstan neft, sintetik kauçuk, kimyəvi məhsullar, kinofotomateriallar, tibbi pereparatlar, maşınqayırma, yüngül və yeyinti sənayesi üzrə ixtisaslaşmışdı. 1976-cı ildə Kamsk Avtomobil Zavodu istismara verildi.

Volqaboyu və Sibirin xam torpaqlarının istifadə olunması taxıl istehsalını artırdı. Lakin, Şərqi Sibirin xam torpaqları istifadə olunmadı. 1964-cü ildə bu işdə kobud səhvlər olduğu aşkarlandı. Belə ki, Sibirin yeni əkin sahələri eroziyaya uğradı və otlaqlara çevrildi.

Sibirin və Uzaq Şərqin məhsuldar qüvvələrini sürətlə inkişaf etdirmək məqsədi ilə Sovet hökumətinin qərarına əsasən 1957-ci ilin mayında ölkənin şərqində yeni iri elm mərkəzi-SSRİ Elmlər Akademiyasının Sibir Şöbəsi yaradıldı. Novosibirsk rayonunda elm şəhərciyinin tikintisinə başlandı. 1958-ci ildə Sibir şöbəsinin tərkibində 16 elmi-tədqiqat institutu, 3 filial-Uzaq Şərq, Qərbi və Şərqi Sibir filialları və Krasnoyarskda Elmlər Akademiyasının fizika institutu fəaliyyət göstərirdi.

1960-cı illərin əvvəllərində Xruşşovun təşəbbüsü ilə taxıl sahələrinin dörddə birində qarğıdalı əkilməyə başlandı. Qərbi Sibirdə də qarğıdalı istehsalı genişləndirildi. 1964-cü ilin yayında Qərbi Sibirdə neft və qaz yataqları tapıldı. Artıq 80-ci illərdə SSRİ-də hasil olunan neftin üçdə ikisi və qazın 60%-ni Qərbi Sibir verirdi. Bununla yanaşı Qərbi Sibirdə maşınqayırma, metal istehsalı, tikinti materialları sənayesi və ağac emalı müəssisələri geniş inkişaf etdirildi. Qərbi Sibirin bütün taxıl məhsullarının 40%-ni Altay verirdi. Şərqi Sibir isə əlvan və qara metallarla zəngindir. Burada çıxarılan almaz xalq təsərrüfatının inkişafında mühüm əhəmiyyətə malik idi. Şərqi Sibirdə həmçinin, maşınqayırma, kimya və meşə sənayesi inkişaf etdirildi.

# TÜRK DÖVLƏTLƏRİ XX ƏSRİN 90-cı İLLƏRİ - XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ

## 1. Azərbaycan-Türkiyə münasibətləri

Azərbaycan və Anadolu türkləri əsrlər boyu bir-biri ilə sıx əlaqədə olmuş, bir-birinə kömək etmiş, arxa durmuşlar. Məhz buna görə də heç təsadüfi deyil ki, Azərbaycanın bir çox görkəmli şəxsiyyətləri tarixin ayrı-ayrı mərhələlərində Türkiyədə fəaliyyət göstərmiş, orada öz istedadlarını tamamilə biruzə verə bilmişlər, həm Türkiyə xalqı qarşısında, həm də Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmişlər. Onların hamısı bizim dostluğumuzun, qardaşlığımızın böyük tarixidir, rəmzidir. XX əsrin əvvəllərində mühacirət həyatı keçirməyə məcbur edilən bir çox ziyalılarımız da Türkiyənin məfkurə həyatında çox mühüm rol oynadılar. Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə, A.V.Yurdsevər, Ə.Cəfəroğlu kimi azərbaycanlı şəxsiyyətlər Türkiyənin ictimai-siyasi, mədəni həyatına müsbət təsir göstərməklə yanaşı, həm də Türkiyə ictimaiyyətində Azərbaycan haqqında obyektiv fikir yaradılmasında əvəzsiz xidmət göstərmişlər.

Sovet İttifaqının dağılması, beynəlxalq səhnədə siyasi vəziyyətin və qüvvələr nisbətinin köklü şəkildə dəyişməsi, bütün postsovet məkanında yeni müstəqil dövlətlərin yaranması ilə nəticələndi. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş Konstitusiya aktı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa olundu. Müstəqilliyinin bərpası nəticəsində Azərbaycan Respublikası beynəlxalq hüququn subyektinə çevrildi və beynəlxalq münasibətlərdə iştirak etməyə başladı. Bu şəraitdən istifadə edən Azərbaycan Respublikası müasir dövrün reallıqlarını və xalqın milli mənafelərini nəzərə alıb fəal xarici siyasət yeritməyə başladı. Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti beynəlxalq hüququn prinsipləri əsasında həyata

keçirilirdi. Ölkənin sosial-iqtisadi və siyasi problemlərinin həlli onun həm də xarici siyasət fəaliyyətindən asılı idi. Azərbaycan Respublikası geosiyasi mövqeyini, mənafelərini, beynəlxalq münasibətlərin inkişaf meyillərini nəzərə alan xarici siyasət proqramı hazırladı və həyata keçirməyə başladı. Dünya ölkələri ilə əməkdaşlıq Azərbaycanın xarici siyasət fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrildi. Azərbaycanın dünya ölkəri ilə əlaqələrində qonşu və inkişaf etmiş dövlətlər mühüm yer tuturdu.

Azərbaycan xarici siyasətində Türkiyə ilə əməkdaşlığa xüsusi önəm verirdi. Azərbaycanın Türkiyə ilə əməkdaşlığı strateji xarakter daşıyır. 1991-ci ilin noyabrın 9-da dünya ölkələri arasında Türkiyə 1918-ci ildə olduğu kimi yenə də Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlət oldu. Türkiyə Azərbaycanın dövlət müstəqilliyini tanımaqla Azərbaycanın dünya birliyinə qatılması üçün, bir növ, "pəncərə"açа bildi. 1992-ci il yanvarın 14-də Azərbaycan ilə Türkiyə arasında səfirliklərin açılması razılaşdırıldı. Həmin vaxtdan Türkiyənin Azərbaycanda, 1992-ci ilin avqust ayından isə Azərbaycanın Türkiyədə diplomatik missiyası fəaliyyətə başlamışdır. Diplomatik münasibətlərin yaradılması iki ölkə arasında qarşılıqlı əlaqələrin inkişafında geniş perspektivlər açdı.

Azərbaycan və Türkiyə arasında iki tərəfli əlaqələrin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri mühüm rol oynadı. Dövlətlərarası səviyyədə ilk rəsmi səfər Türkiyə ilə münasibətlərdə ehtiyatlı hərəkət edən prezident A.Mütəllibovun Türkiyəyə gəlməsi ilə baş tutdu. 1992-ci ilin yanvarın 23-də Türkiyədə olan Mütəllibov bir sıra görüşlər keçirdi. Danışıqlar tərəflərin dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında müqavilə, hərbi əməkdaşlığa dair saziş və başqa sənədlərin imzalanması ilə yekunlaşdı. Prezidentlər müqaviləni ikitərəfli münasibətlər tarixində yeni mərhələ və gələcək əməkdaşlığın bünövrəsi kimi qiymətləndirmişdilər.

Türkiyənin baş naziri S.Dəmirəlin 1992-ci ilin mayında Azərbaycana ilk səfəri də bir çox cəhətlərdən diqqəti cəlb etdi. Azərbaycan parlamentində çıxış edən S.Dəmirəl "böyük türk dünyası reallığa çevrildi" deyərək Azərbaycan Respublikası ilə Türkiyənin əlaqələrini qardaş xalqların münasibətləri kimi səciyyələndirdi. Tərəflər xüsusi tarixi və mədəni tellərlə bağlanan Türkiyə ilə Azərbaycan arasında birgə danışıqlıqlar aparılmasının faydalı olduğunu bildirmişlər.

1992-ci ilin əvvəllərində türk respublikaları ilə münasibətləri nizamlamaq məqsədi ilə Türkiyə Xarici İşlər Nazirliyi yanında Xüsusi İdarə yaradıldı. İdarənin əsas vəzifəsi türk dövlətləri ilə iqtisadi, elmi və mədəni sahələrdə fəaliyyətlərini əlaqələndirmək, ilk növbədə isə dövlətin idarə olunması və diplomatiya sahəsində Türkiyənin təcrübəsindən türk dövlətlərinin yararlanmasına imkan yaratmaq idi. Türkiyə Respublikasının Xarici İşlər naziri Hikmət Çətin bu məsələ ilə bağlı bildirmişdi ki, Türkiyə türk dövlətlərinə müxtəlif yardım göstərəcəkdir. Lakin bunu heç də "nüfuz uğrunda yarışda iştirak kimi" qiymətləndirmək olmaz.

Türkiyə eyni zamanda bütün Qafqazın taleyində önəmli rolu olan üç əsas region dövlətindən biridir. Türkiyə həmişə Qafqaz siyasətinə çox ciddi əhəmiyyət vermiş və bölgədə cərəyan edən hadisələrə fəal müdaxiləsi ilə seçilmişdir. XX əsrin ortalarından isə Türkiyə Qafqazda təkcə öz maraqlarını deyil, həm də bütöv Qərb dünyasının mənafeyini qorumaq missiyasını öz üzərinə götürmüşdür. Türkiyənin Qafqaz siyasətində həm strateji maraqlar, həm Türkiyənin öz milli mənafeləri, həm etnik, həm də dini amillər özünü daim büruzə vermişdir. Hətta, bəzən Türkiyə özünün strateji və milli maraqlarını təhlükə altına qoyaraq, açıq-aşkar etdiyidini təssübkeşlik nümayiş etdirmiş və nəticədə öz müttəfiqləri ilə münasibətlərinə sərinlik gətirmişdir.

1992-ci il noyabr ayının 1-də Azərbaycan prezidenti Əbülfəz Əliyevin Türkiyəyə rəsmi səfəri başladı. Türkiyənin

Baş naziri Süleyman Dəmirəllə görüşdə Azərbaycan prezidenti bildirdi ki, Azərbaycanla Türkiyə arasında bütün sahələrdə sıx əlaqələr yaradılmalıdır. Danışıqlardan sonra iki ölkə arasında iqtisadi və mədəni əlaqələrin inkişafına dair bir sıra dövlətlərarası sənədlər imzalandı. Noyabr ayının ikisində Azərbaycan prezidenti Ankarada Azərbaycan səfirliyinin rəsmi açılışı mərasimində iştirak etdi. Süleyman Dəmirəl Azərbaycan prezidentinin Türkiyəyə səfərini dostluq bayramı və dövlətlərarası əməkdaşlığın ən yüksək zirvəsi kimi qiymətləndirmişdi. Eyni zamanda qeyd etmişdi ki, Azərbaycan müəyyən çətinliklərə baxmayaraq, tezliklə ayağa qalxacaq və bölgədə güclü iqtisadiyyata malik dövlət olacaqdır. Bu işdə Azərbaycan Türkiyənin hərtərəfli köməyinə arxayın ola bilər. Türkiyə prezidenti Turqut Özal da Azərbaycan prezidentinin bu səfərinə yüksək qiymət vermiş və bildirmişdi ki, Əbülfəz Əliyevin səfər çərçivəsində keçirdiyi görüşlər Türkiyə üçün əsl bayrama çevrilmişdi. Səfər müddətində aparılan danışıqlar nəticəsində Türkiyənin Azərbaycana 250 mln. dollar kredit verməsi və az sonra bir o qədər də vəsait ayırması barədə müqavilə imzalandı.

1993-cü il aprel ayının 12-14-də Türkiyə Respublikasının prezidenti Turqut Özalın Azərbaycana səfəri oldu. Bu səfər onun Orta Asiya respublikalarına və Azərbaycana 11 günlük rəsmi səfəri çərçivəsində gerçəkləşdirildi. Azərbaycana Türkiyənin iri şirkətlərinin təmsilçiləri ilə birlikdə gələn Turqut Özal hər iki dövlətin iş adamları ilə görüşdü. Səfər çərçivəsində qarşılıqlı münasibətlərin hüquqi-normativ bazasının yaradılması sahəsində mühüm addımlar atıldı. Turqut Özalın səfəri vaxtı Azərbaycana Türkiyədən 500 min ton buğda gətirilməsinə başlanıldı. Səfərin yekunlarına həsr olunmuş mətbuat konfransında Turqut Özal bildirmişdi ki, Azərbaycan torpaqlarını işğal altında saxlayan və hərbi müdaxiləni davam etdirən Ermənistandan təcavüzə son qoymasını, işğal etdiyi torpaqlardan geri çəkilməsini gözləyirik. Sülhün, insan hüquqlarının, demokratiyanın üstünlüyü prinsiplərinin gözlənilməsi

Qafqaz ölkələrindən ən səmimi təmənnamızdır. İndiki dövrdə zorla başqasının torpaqlarına sahib çıxmaq mümkün deyil, müasir dünya buna hər vəchlə yol verməz.

Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi, elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdəki kursun yüksələn xətt üzrə inkişafını təmin etdi. Türkiyənin beynəlxalq aləmdəki yeri və rolunu yüksək dəyərləndirən Heydər Əliyevin qənaəti belə idi ki, bütün ölkələrlə əməkdaşlıq etmək istəyən Azərbaycanı Türkiyə ilə xüsusi münasibətlər bağlayır. Bu münasibətlərimiz eyni kökdən boyatma, iki ölkədə yaşayan bir millət olmağımız, birliyimizi möhkəmləndirmə zərurətidir.

1994-cü ilin yanvar ayında Türkiyə prezidenti Süleyman Dəmirəl Azərbaycan prezidenti Heydər Əliyevə məktubla müraciət edərək iki qardaş ölkə arasında əlaqələrin möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verdiyini bildirmişdi. Türkiyə prezidenti Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi Türkiyəyə rəsmi səfərə dəvət etdi.

Heydər Əliyevin Türkiyəyə 1994-cü ilin fevralın 8-də prezident kimi etdiyi ilk rəsmi səfəri faydalı oldu. Görüş zamanı Heydər Əliyev bildirdi ki, Türkiyə ilə Azərbaycan arasında yaranmış əlaqələr yeni mərhələyə keçir. İndiki görüşlərin və danışıqların nəticələri görülmüş işlərin daha da irəliləməsi, genişlənməsi, ölkələrimizin bir-birinə daha da yaxınlaşması üçün yeni imkanlar açır. Danışıqlar 16 mühüm sazişin imzalanması, "Dostluq, qarşılıqlı anlaşma və hərtərəfli əməkdaşlıq haqqında" onillik müqavilənin bağlanması ilə başa çatdı. Səfərin siyasi və iqtisadi əhəmiyyətini qeyd edən Azərbaycan prezidenti əsas nəticələrdən biri kimi diqqəti imzalanmış sənədlərə çəkdi.

Süleyman Dəmirəl prezident kimi Azərbaycan Respublikasına rəsmi səfərini 1995-ci ilin dekabrında reallaş-

dırdı. Bununla da ölkələrimiz arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini göstərdi. Bu görüş zamanı prezident Heydər Əliyev bildirdi ki, "Azərbaycan xalqı öz tarixinin ən çətin dövrlərində Türkiyənin dəstəyini almışdır". Türkiyə prezidenti Azərbaycanın qonşu dövlətlərlə normal münasibətləri şəraitinin onun ölkəsi üçün də çox faydalı olmasını önə çəkmişdi.

Azərbaycan iqtisadiyyatının inkişafının müasir tələblərə uyğun qurulmasında marağı olan Türkiyə dövlətinin Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin genişləndirilməsində rolu çox böyük olmuşdur. Odur ki, bu qardaş ölkələrin üst-üstə düşən mənafeləri iqtisadi əlaqələrin daha sıx və hərtərəfli inkişafını tələb etmişdi. Türkiyə ilə Azərbaycan arasında təşkil edilmiş iqtisadi əlaqələrin əsas məqsədi əvvəla, onların ixtiyarında olan iqtisadi potensialdan və təbii sərvətlərdən qarşılıqlı olaraq səmərəli istifadə etmək, hər iki dövlətin iqtisadiyyatının müstəqil inkişafını təmin edə biləcək bütün imkanları səfərbər etməkdən ibarət olmuşdur. Azərbaycanla Türkiyə arasında mövcud olmuş iqtisadi əməkdaşlığın özülündə hər iki tərəf üçün əhmiyyətli olan dünya iqtisadiyyatına inteqrasiya etmək, iqtisadiyyatın istehsal imkanlarını cəmiyyət və dövlət üçün həyati əhəmiyyət kəsb edən mühüm sosial-iqtisadi vəzifələrin həllinə istiqamətləndirmək məqsədi dayanmışdır. Məhz bu məqamları nəzərə alaraq Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığına xüsusi yanaşma tələb olunur. Bu da Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə keçid dövründə çox lazımlı hal olmuşdur.

Türkiyənin Azərbaycanda iqtisadi siyasətini şərh edərkən Azərbaycan üçün müsbət amil olaraq bunları qeyd etmək olar:

1.Nəzərə almaq lazımdır ki, Azərbaycan iqtisadiyyatında Türkiyə şirkətlərinin geniş fəaliyyəti investisiyanın ümumi həcmini artırır, bu da inkişaf üçün əsasdır.

2. Türkiyə şirkətlərinin Azərbaycan iqtisadiyyatında iştirakı iqtisadi sahələrin dünya standartları səviyyəsində qurulmasına,

iş yerlərinin sayının artmasına və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasına kömək edir.

3. Türkiyənin Azərbaycanda öz şirkətlərinin mənafelərini qoruması elə Azərbaycan iqtisadiyyatının qorunması deməkdir.

4. Türkiyənin Azərbaycandakı iqtisadi maraqları bu dövlətin siyasi maraqlarının dayaq elementlərindəndir. Bu da Türkiyənin Azərbaycana siyasi dəstəyini artırır.

Türkiyənin Azərbaycanda iqtisadi siyasətinin Türkiyə üçün də müəyyən həlledici amilləri vardır:

1. Azərbaycan Türkiyənin ixracat məhsulları üçün faydalıdır.

2. Azərbaycan türk şirkətlərinin qazanc əldə etməsi üçün ucuz xammal və işçi qüvvəsinin olması baxımından əlverişli iqtisadi məkandır.

3. Azərbaycan Türkiyənin Orta Asiya ilə iqtisadi əlaqələrində tranzit ölkədir.

4. Azərbaycan qlobal və regional geosiyasi nöqteyi-nəzərdən Türkiyəni Qafqazda Rusiya və İran təzyiqindən qoruyan ölkədir.

Türkiyənin regionun mühüm iqtisadi layihələrini özündə cəmləşdirən Şərq-Qərb enrji dəhlizində öz strateji maraqları vardır. 1995-ci il dekabrın 7-də Türkiyə prezidenti S. Dəmirəl Azərbaycana səfər edərkən bildirdi ki, Xəzər neftinin bir hissəsinin Türkiyə üzərindən Aralıq dənizi sahilinə nəql edilməsi və buradan da dünya bazarlarına göndərilməsi barədə layihənin etibar qazanması Türkiyə ilə Azərbaycan arasındakı əməkdaşlığın böyük gələcəyinə işıq saçır. Eyni zamanda 1995-ci il dekabrın 8-də prezidentlərin imzaladıqları birgə bəyanatda da tərəflər, Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılacaq ilkin neftin iki istiqamətdə dünya bazarına çıxarılması haqqında Azərbaycan Respublikasının və neft konsorsiumunun qərarından məmnun olduqlarını qeyd edərək ayrıca olaraq əsas neft kəmərinin Türkiyənin Ceyhan limanına yönəldilməsi barədə istəklərini təsdiq etdilər.

1997-ci ilin may ayında Azərbaycan prezidenti Heydər Əliyev Türkiyədə rəsmi səfərdə olarkən “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında” bəyannamə imzalandı. Heydər Əliyev Ankarada jurnalistlərə verdiyi müsahibəsində bu bəyannamənin Azərbaycan-Türkiyə əlaqələrində strateji xarakter daşıdığını göstərdi. Onun fikrincə, bu sənədə əsasən hər iki ölkə strateji tərəfdaşdır. Sənədə əsasən beynəlxalq aləmdə bir çox məsələlərdə həm Türkiyənin, həm də Azərbaycanın eyni mövqedə olması, məsləhətlər aparmaq və bir-birinə dəstək vermək də nəzərdə tutulurdu.

Türkiyənin Azərbaycan siyasətində Dağlıq Qarabağ münaqişəsinin həlli əsas yer tutur. Hələ 1992-1993-cü illərdə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən geniş işğalı zamanı Türkiyə öz televiziya kanalları vasitəsilə beynəlxalq ictimaiyyətin diqqətini bu münaqişəyə cəlb etməyə böyük səy göstərirdi. Bu baxımdan 1993-cü il aprel ayının 6-da Türkiyənin BMT-dəki daimi nümayəndəsi Mustafa Aksin jurnalistlərə bəyan etdi ki, Türkiyə Azərbaycana qarşı həyata keçirilən ayrı seçkilik siyasətinə tab gətirə bilmir və Azərbaycan torpaqlarının işğalına yol verməyəcəkdir. Türkiyə prezidenti Turqut Özal Azərbycan Respublikasına rəsmi səfəri zamanı xəbərdarlıq səciyyəli açıqlamasında bildirmişdi ki, “Azərbaycan torpaqlarının işğalı qəbul edilə bilməz. Erməni buradan çıxmasa, çıxarılacaq...”

Prezident Süleyman Dəmirəl 1994-cü ildə ki, bəyanatında Türkiyənin Azərbaycan ilə Ermənistan arasındakı münaqişənin aradan qaldırılması üçün ən mükəmməl bir mexanizm olan ATƏM-in Minsk konfransında Azərbaycanın haqlı tələblərini həmişə dəstəkləyəcəyini vurğuladı. 1997-ci il martın 24-də Türkiyənin Xarici İşlər nazirliyi Rusiyanın Ermənistana qanunsuz olaraq silah göndərməsi ilə əlaqədar bəyanat vermişdi. Qanunsuz silah verilməsinin bölgədə sülhə və əmin-amanlığa mənfi təsir göstərdiyini vurğulayan Türkiyə tərəfi Avropada

adi silahlı qüvvələr haqqında müqavilə çərçivəsində Rusiya və Ermənistanın öz üzərinə götürdükləri öhdəliklərə də diqqəti cəlb edir. Bəyanatda daha sonra deyilirdi ki, Türkiyə bölgədəki münasibətlərin dinc yolla aradan qaldırılmasını burada sülh və təhlükəsizliyin təmin edilərək uzunmüddətli sabitlik yaranmasının əsas şərti sayır.

Müstəqil dövlət quruculuğu yolunda Azərbaycana siyasi və iqtisadi yardım göstərən Türkiyə Respublikası ordu quruculuğu sahəsində də öz potensialından bəhrələnməyə imkan yaratmışdır. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı ildən-ilə genişlənərək, Azərbaycan ordusu üçün zabit kadrlarının hazırlanmasında, hərbi təlimlərin keçirilməsində, maddi-texniki bazanın möhkəmləndirilməsində və ordumuzun NATO standartları səviyyəsində qurulmasında mühüm rol oynamışdır. 1999-2002-ci illərdə hərbi əməkdaşlıq sahəsində imzalanmış bir sıra sənədlər iki ölkə arasında hərbi əlaqələrin daha dolğun əməli xarakter kəsb etməsinə, Azərbaycan ordusunun potensialının yüksəlməsinə təsir göstərmişdi.

2001-ci ilin martında Ə.N.Sezərin Heydər Əliyevlə Ankarada apardığı müzakirələrdə tərəflər münaqişənin ədalətli həllində Türkiyənin "real köməyinin vaxtının çatdığı" qənayətində həmrəy oldular. Türkiyə tərəfi sərhədlərin zorla dəyişdirilməsinə qarşı olduğunu bir daha vurğuladı. Habelə Minsk Qrupu ilə həmsədr dövlətlərin Azərbaycanın tək olmadığını hiss edərək bununla hesablaşmaları məsələsinə toxunuldu. Türkiyə prezidenti Abdullah Gül və baş nazir R.T.Ərdoğan Ermənistanla münasibətlərində Dağlıq Qarabağla əlaqədar şərt-tələbdən imtina ediləcəyinə və sərhədlərin açılacağına dair məsələlərlə bağlı mövqelərini açıqlayarkən bildirmişlər ki, "Ermənistan Azərbaycana təcavüzü aradan qaldırmayana qədər Türkiyə ilə münasibətlər qura bilməz. "Ümumiyyətlə, Azərbaycan-Ermənistan münaqişəsi ilə əlaqədar Türkiyə ikitərəfli əsasda Yerevanı münaqişənin həll edilməsinin onun da maraqlarına aid olmasına inandırmağa çalışır. Emənistan rəhbərliyi

ilə ikitərəfli əlaqələri saxlamaqda davam edir və ictimai səviyyədə inandırmağa çalışır ki, təcavüzə son qoyulmalıdır.

2001-ci ilin martında Azərbaycan prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri və səfər zamanı vergilər, maliyyə, Azərbaycan təbii qazının Türkiyəyə nəql edilməsinə dair saziş və digər sənədlərin imzalanması qarşılıqlı faydalı əməkdaşlıq siyasətinin davam etdirilməsinə əlavə şəraitin yaradılması baxımından əhmiyyət kəsb edir.

Heydər Əliyevin xarici siyasət kursunu uğurla davam etdirən prezident İlham Əliyev də dövlət başçısı kimi ilk səfərindən birini Türkiyəyə etmişdi. Heydər Əliyevin "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir!", Mustafa Kamal Atatürkün isə "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevinci-mizdir!" kəlamlarına əsaslanan Azərbaycan-Türkiyə əməkdaşlığı prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Prezident İlham Əliyev 2003-cü ildən bu yana daim türk dünyasının birliyinin daha da möhkəmləndirilməsinin, eləcə də Türkiyə ilə münasibətlərin ən yüksək səviyyəyə çatmasının təşəbbüskarı kimi çıxış etmiş, bu istiqamətdə müsbət nəticələri olan bir sıra konkret addımlar atmışdı. Ölkəmizdə fəaliyyət göstərən diplomatik korpus arasında demək olar ki, ən fəalı Türkiyə səfirliyidir. Türkiyə səfirliyi öz fəaliyyəti ilə iki qardaş ölkə arasındakı əlaqələrə mühüm tövhələr verməkdədir. Azərbaycanda işləməkdən qürur hissi keçirdiyini deyən Türkiyə diplomatlarını hər zaman müxtəlif səpkili tədbirlərin mərkəzində görmək mümkündür.

Hər iki ölkənin parlamentlərində dostluq qruplarının uğurlu fəaliyyəti Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olmasının əyani təcəssümüdür. Rəsmi Bakı və Ankara beynəlxalq təşkilatlar çərçivəsində də həmrəylik nümayiş etdirillər. Azərbaycanla bağlı istənilən sənədin nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində müzakirəsi zamanı ölkəmiz birinci olaraq Türkiyənin dəstəyini hiss edib. Eyni zamanda

rəsmi Bakı da Ankaraya daim birmənalı dəstək nümayiş etdirib.

Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında prezident İlham Əliyevin 2004-cü il aprelin 13-15-də Türkiyəyə rəsmi səfəri mühüm rol oynadı. Səfər zamanı İ.Əliyev prezident Ə.N.Sezər, baş nazir R.T.Ərdoğan, TBMM-nin sədri B.Arınc və digər rəsmi şəxslərlə görüşdü, parlament üzvləri qarşısında çıxış etdi. Səfər zamanı Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında birgə bəyanat, mülki aviasiya və mədəniyyət sahəsində əməkdaşlığa dair protokollar və başqa sənədlər imzalandı.

2006-cı ilin aprelində Türkiyə Respublikasının prezidenti Ə.N.Sezər və onun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının prezidenti İ.Əliyevin dəvəti ilə Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər çərçivəsində prezident Ə.N.Sezər Azərbaycan Respublikasının prezidenti İ.Əliyev, baş nazir A.Rasizadə, Milli Məclisin sədri O.Əsədov ilə görüşlər keçirmişdir.

2007-ci ilin noyabrında Türkiyə Respublikasının prezidenti A.Gül Azərbaycana rəsmi səfər etmişdir. Azərbaycan və Türkiyə prezidentlərinin təkbətək və geniş tərkibdə görüşləri keçirilmişdir. Eyni zamanda prezidentlərin iştirakı ilə Azərbaycan-Türkiyə Biznes Forumu keçirilmişdir. Türkiyə prezidenti həmçinin Baş nazir və Milli Məclisin sədri ilə görüşmüşdür. Türkiyə prezidenti Gəncə şəhərinə də səfər etmişdir. Səfər zamanı Azərbaycan və Türkiyə arasında beş sənəd imzalanmışdır.

2008-ci ilin avqustunda Türkiyə Respublikasının baş naziri R.T.Ərdoğan Azərbaycana işgüzar səfər etmişdir. Səfər zamanı Azərbaycan prezidenti İ.Əliyev ilə R.T.Ərdoğan arasında təkbətək və nümayəndə heyətləri səviyyəsində görüş keçirilmişdir. Bu səfərdə Türkiyə tərəfinin irəli sürdüyü “Qafqaz Sabitlik və Əməkdaşlıq Platforması” müzakirə edilmişdir.

Ancaq 2009-cu ilin oktyabrın 10-da Türkiyə ilə Ermənistan XİN-lərinin imzaladıqları Sürix protokolları Ankara-Bakı münasibətiərində soyuqluq yaratsa da, Türkiyənin baş naziri R.T.Ərdoğanın may 2010-cu il Bakı səfərindən sonra bu soyuqluq aradan qaldırıldı. Baş nazir Ərdoğanın Bakıya səfəri Azərbaycan və Türkiyə arasındakı strateji tərəfdaşlıq münasibətlərinin mövcud durumunu və gələcək inkişaf perspektivlərini müəyyən etməklə son günlərin ən mühüm siyasi hadisəsinə çevrildi. Bu səfər Türkiyə və Azərbaycanın bir-birinə nə qədər bağlılığını, Türkiyə Respublikasının tarixin müxtəlif dönəmlərində olduğu kimi indi də Azərbaycanın yanında olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan-Türkiyə münasibətləri müasir mərhələdə ən yüksək səviyyədə inkişaf etdirilərək yeni əməkdaşlıq imkanları açmışdır. Azərbaycanın bölgədə lider dövlət statusu qazanması, əlverişli sərmayə mühiti, ticarət və biznes imkanları iqtisadi əlaqələrin gücləndirilməsinə münbit şərait yaratmışdır. Dünyanın inkişaf etmiş ölkələri Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul edərək iqtisadi sahədə əməkdaşlığa böyük önəm verirlər. Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin dinamik inkişafına sübut kimi ölkəmizdə 1200-dən artıq türk şirkətinin fəaliyyət göstərməsidir. Türkiyədən olan iş adamları Azərbaycanda geniş biznes mühitinin olduğunu və işgüzar fəaliyyət göstərmək üçün hər cür şəraitin yaradıldığını bildirirlər.

Regional və qlobal layihələrin həyata keçirilməsində Azərbaycan və Türkiyə dövlətləri vahid mövqedən çıxış edirlər. Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin fəaliyyətə başlaması region dövlətləri arasında iqtisadi sahədə əməkdaşlığın dərinləşməsində mühüm rol oynadı. Bu nəhəng layihənin ardınca Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismara verilməsi dost ölkələrin enerji təhlükəsizliyi məsələlərində də ortaq mövqedən çıxış etdiklərini sübuta yetirdi. Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarının Türkiyə vasitəsilə dünya bazarlarına çıxarılması regional əməkdaşlığın daha da inkişafına, eyni

zamanda iqtisadi potensialımızı gücləndirməyə xidmət edir. Bu yollar, bu dəhlizlər açılandan sonra bu yollar vasitəsilə Xəzər dənizinin şərq sahillərindən təbii ehtiyatlar qərbə nəql edilir. Bakı-Tbilisi-Qars dəmiryol xəttinin tikintisi də aparılır. Azərbaycan, eləcə də iştirakçı dövlətlər üçün strateji əhəmiyyət daşıyan dəmiryol xəttinin istismara verilməsi qarşıda böyük perspektivlər açır. Bakı-Tbilisi-Qars dəmiryolu nəinki Türkiyəni Azərbaycanla, Türkiyəni Orta Asiya ilə birləşdirəcək, Avropanı Orta Asiya ilə birləşdirəcəkdir. Bu yol iqtisadi cəhətdən səmərəli olmaqla yanaşı, eyni zamanda qardaş ölkələri birləşdirəcəkdir. Region dövlətləri arasında reallaşdırılan layihə subregional inteqrasiyanın, sülh və sabitliyin, nəqliyyat təhlükəsizliyinin möhkəmlənməsinə müsbət təsir göstərəcək. Dövlət və hökumət başçılarının intensiv qarşılıqlı səfərləri ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin daha da dərinləşməsinə gətirib çıxarıb.

Türkiyə ilə Azərbaycan arasında münasibətləri keyfiyyətcə yeni mərhələyə qaldıracaq bir sıra məsələlər üzrə də mühüm razılıqlar əldə olunub. Onlardan xüsusi qeyd olunması vacib sayılanlardan biri 2010-cu ilin sentyabrında yüksək səviyyəli Strateji Tərəfdaşlıq Şurasının qurulmasıdır. Şübhəsiz ki, bu Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığı daha da gücləndirən ən mühüm addımlardan biri olacaq. Bütün bunlar ölkələrimiz və xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən, onun sarsılmazlığından xəbər verirdi. Bu Şuranın yaradılmasına münasibət bildirən Azərbaycan prezidenti İlham Əliyev qeyd etdi ki, Şuranın fəaliyyəti çox uğurlu olacaqdır. Biz çalışmalıyıq ki, ölkələrimiz arasında münasibətləri bütün sahələrdə sürətlə irəliyə aparaq. İqtisadi sahədə qarşılıqlı ticarətin təşviqi və genişlənməsi üçün əlavə tədbirlər görülməlidir. Qarşılıqlı sərmayənin qoyulması üçün əlavə imkanlar araşdırılmalıdır.

Göründüyü kimi, Azərbaycan ilə Türkiyə münasibətlərinin dostluq və strateji əməkdaşlıq xarakteri kəsb etməsi nəinki hər

iki dövlətin mənafelərini təmin edir, eləcə də bütün regionda sabitliyin qorunması, sosial-iqtisadi tərəqqi və inteqrasiya üçün əlverişli şəraitin yaradılmasına təsir göstərən mühüm amil rolunu oynayır. İkitərəfli əlaqələrin bugünkü səviyyəyə yüksəlməsi isə Azərbaycan Respublikasının müstəqillik dövründə Türkiyə ilə əlaqələrin inkişafına yönəlmiş ardıcıl, məqsədyönlü xarici siyasəti ilə bilavasitə bağlıdır. Çoxşaxəli xarici siyasət kursu yeridən Azərbaycan Respublikası bu günə qədər Avropa strukturları ilə hərtərəfli inteqrasiya xəttini fəal surətdə həyata keçirsə də, qardaş Türkiyə ilə qarşılıqlı münasibətlərin inkişafına ciddi diqqət yetirmiş, strateji tərəfdaşlığın yaranıb dərinləşməsinə nail olmuşdur.

## 2. Azərbaycan Respublikasının Orta Asiyanın türk dövlətləri ilə əlaqələri

Azərbaycan Respublikasının xarici siyasətində Orta Asiyanın türk dövlətləri ilə münasibətlər də mühüm yer tutur. Azərbaycanın Orta Asiyanın türk dövlətləri ilə bir-birlərinin müstəqilliklərini 1991-ci ildən tanımalarına və diplomatik əlaqələr yaratmalarına baxmayaraq qarşılıqlı münasibətlərin inkişafı yalnız 90-cı illərin ortalarından başlanır. Bu da təsadüfi olmayıb, yeni yaranmış dövlətlərin özlərinin xarici siyasət fəaliyyətlərində yol verdikləri subyektiv səhvlərin nəticəsi idi. Lakin Orta Asiyanın türk dövlətləri arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi yeni müstəqillik qazanmış dövlətlərin xarici siyasət fəaliyyətinin tərkib hissələrindən biri kimi müəyyənləşdirildi.

Ümumiyyətlə, Azərbaycan Orta Asiyanın türk xalqları ilə tarixən mövcud olmuş əlaqələrlə bağlı idi. Tarixin müəyyən mərhələlərində müxtəlif xarakterli olmuş bu əlaqələr beynəlxalq hüquq normalarına uyğun, qarşılıqlı faydalı əməkdaşlıq əsasında yenidən qurulur. Azərbaycanın Orta Asiyanın dörd

türk dövləti ilə münasibətlər saxlaması və inkişaf etdirməsi bir sıra amillərlə şərtlənir.

Qazaxıstanla müstəqil dövlətlər səviyyəsində tanınma 1991-ci il dekabrın 21-də baş vermiş, 1992-ci ilin avqustunda dövlətlərarası diplomatik əlaqələr qurulmuşdur. Qazaxıstanın Azərbaycanda 1993-cü ilin oktyabrında və Azərbaycanın Qazaxıstanda 1997-ci ilin aprelində səfirlikləri fəaliyyətə başlamışdır.

Orta Asiyada Azərbaycanın ən yaxın müttəfiqi və strateji tərəfdaşı rolunda Qazaxıstan Respublikası çıxış edir. Hər iki ölkə həm Xəzərin hüquqi statusu, həm də enerji daşıyıcılarının hasilatına xarici kapitalın cəlb edilməsi və dünya bazarlarına çıxarılması məsələsində eyni və ya oxşar mövqedən çıxış edərək, bir-birinin maraqlarını qarşılıqlı təmin edir.

1991-ci il sentyabrın 30-da A.Mütəllibovun Qazaxıstana rəsmi səfəri gedişində bağlanan "Dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında müqavilə" on il müddətinə bağlanmış və uzadılacağı nəzərdə tutulmuşdur. Müqavilədə Azərbaycan və Qazaxıstanın mövcud sərhədlər daxilində bir-birlərinin suverenliyini, ərazi bütövlüyünü qəbul etdiyi, qarşılıqlı münasibətlərdə bir-birlərinin daxili işlərinə qarışmamaq prinsipini rəhbər tutacaqları bildirilirdi. Eyni zamanda tərəflər kollektiv təhlükəsizlik sisteminin tələblərini, o cümlədən özlərinin sülhü daha da möhkəmləndirmək səylərini nəzərə almaqla müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıqlarının zəruriliyini vacib sayırdılar. Tərəflər eyni zamanda digər sahələrdə də qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi üçün ortaya çıxacaq fikir ayrılıqlarını və mübahisəli məsələləri yalnız siyasi vasitələrlə, məsləhətləşmələr və birbaşa danışıqlar yolu ilə həll edəcəklərini öhdələrinə götürdüklərini bildirirdilər. Bu müqavilə 1996-cı ilə qədər, yəni ikitərəfli qarşılıqlı əlaqələrin intensiv inkişafının başlanmasınadək dövlətlərarası münasibətləri tənzimləyən başlıca sənəd sayılır.

Prezidient N.Nazarbayevin Azərbaycan Respublikasına 1996-cı ilin sentyabrında ilk rəsmi səfəri ilə iki dövlətin münasibətlərində yeni mərhələ başladı. Görüşlərin yekunu kimi, dövlətlərarası münasibətlərin hüquqi-normativ bazasını təşkil edən 13 sənəd imzalandı. Səfər zamanı bildirildi ki, Azərbaycanla Qazaxıstan arasında əlaqələrin inkişafı üçün geniş imkanlar mövcuddur. Həm bölgədə, həm də beynəlxalq təşkilatlarda bir çox məsələlərdə hər iki dövlətin mövqeyi üst-üstə düşür. Azərbaycanla Qazaxıstan bir-birilə normal siyasi münasibətlərə və faydalı iqtisadi əməkdaşlığa böyük önəm verirlər. 1996-cı ilin mayın 13-də Qazaxıstan da Transqafqaz nəqliyyat dəhlizi haqqında Sərəxsdə imzalanmış sazişə qoşulub.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 1997-ci ilin iyun ayının 10-11-də Qazaxıstanda rəsmi səfərdə oldu. Danışıqlarda dövlətlər arasında ticarət iqtisadi münasibətlərinin, xüsusən nəqliyyat kommunikasiyaları və neft-qaz sahələrində əlaqələrin inkişaf etdirilməsi haqqında bəyannamə, neftin beynəlxalq bazarlara nəqlində əməkdaşlıq haqqında memorandum imzalandı. Prezident Heydər Əliyev 1998-ci ilin mayında Qazaxıstanın yeni paytaxtının təqdimatı mərasimində iştirakı çərçivəsində qazax həmkarı ilə müəyyən məsləhətləş-mələr apardı.

Ermanistanın Azərbaycana təcavüzünə, Dağlıq Qarabağ probleminə münasibətdə də Qazaxıstan Azərbaycanın ərazi bütövlüyünü və bölünməzliyini müdafiə etdiyini bildirib. Qazaxıstan Rusiya ilə birlikdə 1991-1993-cü illərdə iki dəfə münaqişənin aradan qaldırılması işində tərəflər arasında vasitəçilik etmişdir. Xəzər dənizinin statusu ilə bağlı Qazaxıstanın mövqeyi Azərbaycanla üst-üstə düşür.

Bu gün məhz Azərbaycan, Rusiya və Qazaxıstanın Xəzərin dibinin bölünməsinə dair imzaladığı ikitərəfli sazişlər, problemin həlli istiqamətində əsas amilə çevrilib. 2004-cü ilin mart ayında Qazaxıstana rəsmi səfəri zamanı Azərbaycan prezidenti İlham Əliyev Xəzərin statusu məsələsinin həllində Bakı,

Moskva və Astananın imzaladığı ikitərəfli sazişlərin əsas götürülməsini vacib sayıb. Səfər zamanı tərəflər neft maşınqayırması, neft kimyası, nəqliyyat, kənd təsərrüfatı, elmi-texniki və mədəni-humanitar sahələrdə əməkdaşlığı genişləndirmək qərarına gəldilər.

Qazaxıstan prezidenti N.Nazarbayevin 2005-ci ilin mayın 24-də Azərbaycana rəsmi səfəri zamanı imzalanan "Strateji əməkdaşlıq və tərəfdaşlıq haqqında" saziş xüsusi əhəmiyyət daşıyır. Qazaxıstan Azərbaycana həm də mühüm nəqliyyat dəhlizi kimi yanaşır. Qazaxıstan rəhbərliyi iki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlığı gücləndirərək, Qafqaz vasitəsilə beynəlxalq bazara alternativ çıxış əldə etmək niyətindədir. 2009-cu ilin oktyabrında Qazaxıstan prezidentinin Azərbaycana rəsmi səfəri əhəmiyyətli olmuşdur. Danışıqların nəticəsində ölkə-lərarası enerji əməkdaşlığının dərinləşdirilməsi, ticarət-iqtisadi əlaqələrlə bağlı yaranan borcların ödənilməsi, kənd təsərrüfatının inkişafı sahəsində işbirliyi haqqında birgə bəyannamə imzalanıbdır.

Ümumulikdə isə, Azərbaycan-Qazaxıstan münasibətlərinin ötən dövrdəki sabit inkişaf dinamikası, dövlətlər arasınad 70-dən çox sənədin imzalanması qarşılıqlı faydalı əməkdaşlıq perspektivinə ümidli olmağa əsas verir. Bu habelə tərəflərin indiyədək nümayiş etdirdikləri qarşılıqlı təmkinli diplomatik davranışın davam etdirilməsindən çox asılıdır.

Özbəkistan və Azərbaycan Respublikaları arasında diplomatik əlaqələr 1992-ci ilin yanvarında qurulubdur. 1996-cı ilin iyun ayında Azərbaycanın Özbəkistanda və 1998-ci ildə isə Özbəkistanın Azərbaycanda səfirlikləri fəaliyyətə başlamışdır. Müstəqilliyinin ilk illərində Özbəkistan-Azərbaycan münasibətləri ciddi böhran vəziyyətində oldu. Tərəflər arasındakı soyuqluq bir sıra hallarda özünü açıq-aşkar biruzə vermişdir. Ə.Elçibəy hakimiyyəti dövründə Özbəkistan müxalifətinin liderlərinin Azərbaycanda qəbul edilməsi və sonradan onların Türkiyəyə getməsinə kömək göstərilməsi iki ölkə arasında

siyasi gərginliyə səbəb olmuşdur. O cümlədən Azərbaycan rəhbərliyinin Özbəkistanın daxili siyasi problemlərinə müdaxiləsi, yəni münasibət bildirməsi rəsmi Daşkənd tərəfindən ciddi narazılıqla qarşılanmışdı. Bu gərginlik 1996-cı ilə qədər, yəni hər iki ölkə arasında tam həcmli diplomatik münasibətlər qurulana qədər davam etmişdir.

1996-cı ilin mayında Özbəkistan prezidenti İ.Kərimovun Azərbaycana ilk rəsmi səfəri qarşılıqlı əlaqələrə müsbət təsir göstərdi. Səfər müddətində danışıqlarda əsas mövzulardan biri Orta Asiyanı Qara dəniz sahilləri ilə birləşdirəcək kommunikasiyaların açılması məsələsi oldu. Eyni zamanda regional sabitliyin qorunması məsələləri, beynəlxalq məsələlərdə qarşılıqlı əməkdaşlığın istiqamətləri tərəflər arasında imzalanmış müqavilə və sazişlərdə əksini tapdı. Özbəkistan prezidentinin Azərbaycana səfəri bir çox sənədin imzalanması, o cümlədən tərəflər arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin bağlanması ilə nəticələndi.

1997-ci ilin iyun ayında isə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Özbəkistanda rəsmi səfərdə oldu. Bu səfər zamanı Özbəkistanla Azərbaycan arasında əməkdaşlığın inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında saziş imzalandı. Tərəflər habelə əməkdaşlıq üzrə hökumətlərarası müştərək komissiyanın yaradılmasını qərara aldılar. Komissiyanın birinci iclası 1998-ci il fevral ayının 26-da Bakıda, ikinci iclası isə 1998-ci ilin sentyabr ayında Daşkənddə keçirildi.

Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə Özbəkistanın mövqeyi mövcud sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü, münaqişələrin həllində zor işlədilməsinin yolverilməzliyi prinsiplərinə əsaslanırdı. Eyni zamanda Özbəkis-tan münaqişəni sülh yolu ilə həll etməyin tərəfdarı olduğunu bildirməsinə baxmayaraq Ermənistana münasibətdə ehtiyyatlı hərəkət edir. Mövcud münaqişənin həlli məqsədi ilə beynəlxalq

və regional təşkilatlar çərçivəsində hazırlanmış bəyanat və sənədləri imzalamaqla kifayətlənir.

2004-cü ilin martında Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Özbəkistan Respublikasına rəsmi səfər etmişdir. Səfər zamanı tərəflər arasında strateji əməkdaşlığın daha da möhkəmləndirilməsi haqqında bəyannamə də daxil olmaqla 6 mühüm sənəd imzalanmışdır. Bu səfər zamanı Özbəkistan prezidenti Azərbaycanı Özbəkistanın Cənubi Qafqazda əsas tərəfdaşı adlandıraraq, Bakı ilə Daşkəndin geosiyasi vəziyyətində oxşarlıq olduğunu bildirib. Bu, hər iki ölkənin dünyanın aparıcı güc mərkəzlərinin diqqətində olmasından irəli gəlir. Azərbay-canla Özbəkistan beynəlxalq terrorizm və narkotik qaçaqmalçılığına qarşı birgə mübarizə aparmağa dair də razılığa gəliblər. Bunda başqa, iqtisadi-ticarət əlaqələrinin inkişafı prioritet kimi qəbul edilib.

Hazırda Özbəkistanda Azərbaycana məxsus 10-na yaxın iri və orta müəssisə fəaliyyət göstərir. İki ölkə arasında 80-nə yaxın hökumətlərarası sənəd imzalanıb. Tərəflər arasında iqtisadi əməkdaşlıqda əsas yer dəmiryolu nəqliyyatı, ərzaq məhsulları və kənd təsərrüfatına verilir. Bu da ölkələrarası ikitərəfli əlaqələrin sürətlənməsi və inkişafına öz müsbət təsirini göstərir.

Qırğızıstan Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1991-ci ilin dekabrında tanıyıb, 1992-ci ilin oktyabrında isə tərəflər arasında diplomatik münasibətlər qurulub. 1998-ci ildə isə Qırğızıstanın Azərbaycanda və Azərbaycanın Qırğızıstanda diplomatik nümayəndəlikləri açılıbdır. Azərbaycanla Qırğızıstan arasında ikitərəfli münasibətlərə gəldikdə isə 1993-cü ilin dekabr ayının 23-də Aşqabadda MDB üzvü olan dövlət başçılarının görüşündə Azərbaycan prezidenti H.Əliyev Qırğızıstan prezidenti Ə.Akayevlə görüşdü. Söhbət zamanı qeyd olundu ki, ikitərəfli münasibətləri möhkəmlətmək üçün ənənələrin, mədəniyyətlərin, dinin ümumiliyi, dil yaxınlığı kimi

möhkəm bünövrə vardır və buna əsaslanaraq iki dövlət arasında əlaqələri inkişaf etdirmək, dərinləşdirmək lazımdır.

1995-ci ilin avqust ayında Azərbaycan prezidenti H.Əliyev Qırğızıstanda rəsmi səfərdə oldu. Görüşdə tərəflər bölgə dövlətlərinin iqtisadi inteqrasiyasının gücləndirilməsini vacib saydılar. Səfər çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması danışıqların əsas mövzusu oldu və bildirildi ki, Qafqaz bölgəsində sülhün və əmin-amanlığın bərpa olunması iqtisadi münasibətlərin daha da inkişafına müsbət təsir göstərə bilər.

1997-ci il aprel ayının 23-də Qırğızıstan prezidenti Ə.Akayev Azərbaycana rəsmi səfərə gəldi. Səfərdə əsas məqsəd "qardaş türk dövlətləri arasında dostluq və əməkdaşlığı daha da genişləndirmək və dərinləşdirmək"dən ibarət olduğu bildirildi. H.Əliyev Azərbaycanla Qırğızıstanın baxışları və mövqelərinin üst-üstə düşdüyünü və bunun dövlətlərarası münasibətlərin gələcək inkişafı üçün yaxşı əsas olacağını qeyd etdi. Danışıqların yekunu olaraq 13 sənəd, o cümlədən Azərbaycan ilə Qırğızıstan arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı.

Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə Qırğızıstan əsasən bitərəf mövqe tutub. 1994-cü ilin may ayında MDB-nin vasitəçiliyi ilə Ermənistan ilə Azərbaycan arasında atəşkəs haqqında müqavilə Bişkek şəhərində imzalanmışdır. Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, dinc yolla tənzimlənməsinin tərəfdarı olan Qırğızıstanın son vaxtlar problemə münasibətdə fəallığı xeyli azalıb.

Qırğızıstan prezidenti Ə.Akayevin ümumtürk birliyinə və eyni zamanda Azərbaycanla münasibətlərə xələl gətirə biləcək bəzi anlaşılmaz hərəkətləri də olmuşdur. 1997-ci ilin aprelində Qırğızıstan prezidenti Ə.Akayev Ermənistana rəsmi səfəri zamanı "erməni soyqırımı" abidəsini ziyarət etmiş və abidənin önünə əklil qoymuşdu. Ə.Akayevin bu hərəkəti yol verilməz

diplomatik addım sayıla bilər. Qırğızıstan tərəfinin yol verdiyi daha bir səhv Azərbaycan ərazilərinə hərbi təcavüz etmiş Ermənistana Qırğızıstan tərəfinin hərbi sursat satması oldu. Azərbaycan buna rəsmi etirazını bildirmiş, Qırğızıstan tərəfi isə araşdırmalar aparacağını bildirmişdi. Araşdırmalardan sonra Qırğızıstan tərəfi bildirdi ki, belə bir fakt həqiqətən mövcud olub, lakin bu dövlət səviyyəsində baş verməmişdir. Hansısa özəl bir şirkətin ticarət fəaliyyətinin nəticəsidir.

1995-ci ildən bu yana hər iki ölkənin rəsmi nümayəndələri qarşılıqlı səfərlər etmiş və ikitərəfli əlaqələrin qurulması istiqamətində danışıqlar aparmışlar. Tərəflər dövlət və hökumət qurumları arasında 40-a qədər müxtəlif saziş, müqavilə və digər hüquqi-normativ sənəd imzalamışlar. Lakin bunlar əməkdaşlığın daha da inkişaf və genişləndirilməsi üçün kifayət etmir. Bir sözlə, bir millətin bu iki dövlətinin də ümumtürk birliyinə yönəlik birgə fəaliyyəti arzuolunandır və mümkündür. Hazırda Azərbaycan-Qırğızıstan münasibətləri sabit məcrada inkişaf edir.

Türmənistanla Azərbaycan arasında diplomatik əlaqələr 1992-ci ilin yayında quruldu. Lakin səfirliklər səviyyəsində münasibətlərin yaradılmasına 1997-ci ildən başlanıldı. Azərbaycan hökuməti Türkmənistanda diplomatik nümayəndə-liyin təsisi barədə 1997-ci ilin aprelində qərar qəbul etsə də, dövlətlər arasındakı anlaşılmazlıq üzündən səfirin fəaliyyətə başlaması yalnız 2000-ci ildə mümkün oldu. Türkmənistan 1998-ci ildə ölkəmizdə öz səfirliyini açsa da, tezliklə maliyyə problemlərini əsas gətirərək Bakıdakı səfirliyinin fəaliyyətini müvəqqəti olaraq dayandırmışdır. Əslində isə Türkmənistanın bu addımı Xəzərin statusu ilə bağlı yaranan narazılıqlar ucbatından baş vermişdi.

Dövlətlərarası münasibətlər yaradıldığı vaxtdan etibarən tərəflər bir məsələdə ciddi problemlərlə üzləşmişdilər. Bu da Xəzərin hüquqi statusu və onun karbohidrogen ehtiyatlarının istismarı məsələlərinə fərqli yanaşma ilə əlaqədar olaraq

yaranmışdı. Xəzər dənizində əməkdaşlıq, onun karbohidrogen ehtiyatlarının işlənməsi və xarici bazarlara çıxarılması məsələsində Türkmənistanın qeyri-prinsipial mövqeyi bu ölkənin tərəfdaş imicinə ciddi xələl gətirir. Azərbaycan bütün məsələlər üzrə Türkmənistanla konstruktiv dialoq aparmağa, anlaşılmazlıqları aradan qaldırmağa, dostluq və tərəfdaşlıq münasibətlərinə xələl gətirən sərt addımlardan çəkinməyə dəfələrlə cəhd göstərsə də, onun bu səylərinə qarşı tərəfdən adekvat münasibət göstərilməmişdir.

Lakin Xəzərin statusu məsələsində aralarında olan narazılıqlara baxmayaraq, həm Azərbaycan, həm də Türkmənistan dövlət başçıları çoxtərəfli görüşlərdə, regional və beynəlxalq təşkilatlar çərçivəsində keçirdikləri ikitərəfli görüşlərdə bildirirdilər ki, Azərbaycanla Türkmənistan arasında əlaqələri inkişaf etdirmək üçün geniş imkanlar möcuddur və bu imkanlardan istifadə edilməlidir.

Dövlətlərarası ikitərəfli əlaqələrin qurulmasında 1996-cı ilin martında S.Niyazovun Azərbaycan Respublikasına ilk və yeganə rəsmi səfəri müəyyən rol oynadı. Azərbaycan prezidenti Heydər Əliyevlə aparılan danışıqlarda iki ölkə arasındakı münasibətlərin inkişafına dair əldə olunmuş razılaşmaları müsbət qiymətləndirmək olar. Danışıqların yekunu olaraq, Azərbaycan və Türkmənistan arasında "Dostluq və Əməkdaşlıq haqqında" müqavilə imzalanmışdır.

Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə Türkmənistanın mövqeyi Orta Asiyanın digər türk dövlətlərinin mövqeyindən heç də fərqlənmir, demək olar ki, üst-üstə düşür. Belə ki, Türkmənistan da digər dövlətlər kimi Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, münaqişəni sülh yolu ilə həll etməyin tərəfdarı olduğunu bildirməsinə baxmayaraq Ermənistana münasibətdə ehtiyatlı hərəkət edir, onun təcavüzkar tərəf kimi adını çəkmir. Azərbaycanla olduğu kimi onunla da ikitərəfli və çoxtərəfli əlaqələr saxlayır. Mövcud münaqişənin həlli məqsədi ilə regional və beynəlxalq

təşkilatlar çərçivəsində hazırlanmış bəyanat və sənədləri imzalamaqla kifayətlənir.

Müstəqillik dövründə Azərbaycan iqtisadiyyatını Orta Asiyanın türk dövlətlərinin iqtisadiyyatı ilə birləşdirən başlıca amillər iqtisadiyyatın inkişafındakı oxşar cəhətlərin, iqtisadiyyatın modernləşdirilməsi, iqtisadi həyatın demokratik və bazar iqtisadiyyatı normalarına keçməsi təşkil etmişdir. Bu dövrdə müstəqillik əldə etmiş türk dövlətləri başqa dövlətlərdə hər hansı istehsal sahəsinə investisiya qoya bilmirdilər. Orta Asiyanın türk dövlətlərinin Azərbaycan iqtisadiyyatına və əksinə Azərbaycanın onların iqtisadiyyatına investisiya qoymasından söhbət gedə bilməzdi. Bu dövlətlər iqtisadi əlaqə sahəsində başlıca olaraq bir-biriləri ilə əməkdaşlığı ticarət sahəsində aparırdılar. Qazaxıstan və Türkmənistanla isə neft məhsullarının dünya bazarlarına ötürülməsi sahəsində də birgə fəaliyyətlər də mövcuddur. 1996-cı ildən sonra bu dövlətlər arasında mövcud olmuş müsbət irəliləyişlərə baxmayaraq iqtisadi əlaqələrin vəziyyətini qənaətbəxş qiymətləndirmək olmaz. Belə ki, həmin dövrdə bu dövlətlər arasında mövcud olan iqtisadi əlaqələrin müxtəlif formalarından yalnız ticarət əlaqələri sahəsində müntəzəm olaraq iş aparılmışdır. Kapital qoyuluşu, müştərək müəssisələrin yaradılması və başqa sahələrdə olan əlaqələrin inkişaf etdirilməsi istiqamətində heç bir iş görülməmişdir.

Onu da qeyd etmək lazımdır ki, Orta Asiyanın türk dövlətlərindən yalnız Qazaxıstan Respublikası ilə əlaqələrimiz sabit və normal inkişaf yolu keçmişdir. Orta Asiyanın digər türk dövlətləri ilə münasibətlərdə Azərbaycan Respublikası vaxtaşırı müəyyən problemlərlə qarşılaşmış, bəzən bu problemlər müəyyən zaman keçdikdən sonra aradan qaldırılmış, bəzən isə həlli mümkün olmayan problem səviyyəsinə çatmışdır.

## 4. Türk dövlətləri çoxtərəfli siyasi əlaqələr sistemində

Türk dövlətlərinin beynəlxalq münasibətlərin subyektinə çevrilməsi və xeyli dərəcədə ona təsir etməyə başlamasına tarixin qanunauyğun inkişafının nəticəsi kimi baxılmalıdır. SSRİ-nin dağılması nəticəsində türk xalqlarını təmsil edən 5 müstəqil dövlətin yaranması qüvvələr nisbətinin dəyişməsində mühüm rol oynadı. Eyni zamanda bir sıra türk xalqlarının muxtar qurumlarının möhkəmlənməsi dövlətçilik ənənələrinin bərpa edilməsi yolunda ciddi addım sayılmalıdır. Türk xalqlarının təmsil etdikləri müstəqil və muxtar dövlət qurumları ciddi siyasi, iqtisadi, hərbi, ərazi potensialına malikdirlər.

Türk dünyasının hərbi-iqtisadi potensialına gəldikdə qeyd etmək kifayətdir ki, müstəqil və muxtar türk qurumlarında ildə 200 milyon tondan artıq neft, 160 milyard kubmetr qaz, 250 milyon tona yaxın kömür çıxarılır, 17 milyon ton polad, 9 milyon tona yaxın çuqun, 16 milyon ton qara metal, 3550 milyard kilovat saat elektrik enerjisi, 3 milyon tondan artıq pambıq lifi, müasir silahlar, maşın və mexanizmlər istehsal edən zavodlar, müxtəlif məhsullar buraxan fabriklər fəaliyyətdədir. Türk xalqlarının ərazilərində becərilən taxıl və digər yeyinti məhsulları nəinki özlərini, bir sıra digər ölkə xalqlarını da dolandıra bilər. Bütün bu və digər imkanlar türk dünyası daxili inteqrasiya üçün əlverişli özül ola bilər.

Bütün bunlarla yanaşı qeyd edilməlidir ki, türk dünyasının qabaqcıl ölkələrin inkişaf axınına qoşulması yolunda ciddi çətinliklər və maneələr mövcuddur. İlk növbədə onu qeyd etmək lazımdır ki, türk xalqlarının inkişaf səviyyələri müxtəlifdir. Siyasi məsələlərə gəldikdə isə qeyd edilməlidir ki, türk dünyasının birliyinin yaranması həm Qərbi, həm də Şərqi narahat edir.

Türk dövlətləri arasında çoxtərəfli əlaqələrin qurulması və inkişaf etdirilməsi sahəsində dövlət başçılarının artıq ənənəvi

xarakter almış Zirvə toplantıları xüsusi yer tutur. Zirvə toplantıları türk dövlətlərinin dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik-hüquqi dövlətlər yaradılması, siyasi prinsiplərin bərqərar edilməsi sahəsində mühüm rol oynayır. Zirvə toplantılarının keçirilməsi təşəbbüsü Süleyman Dəmirələ məxsusdur. O, 1992-ci ilin mayında Türkiyənin baş naziri vəzifəsində Azərbaycana və Orta Asiyaya rəsmi səfəri zamanı belə bir təşəbbüslə çıxış etmişdir. Azərbaycan rəhbərliyi bu təklifi dəstəkləmişdi və respublikamız Zirvə toplantılarının fəal iştirakçılarındandır. 2011-ci ilədək olan müddətdə türk dövlət başçılarının 10 sammiti keçirilmişdir.

Türk dövlət başçılarının ilk Zirvə toplantısı 1992-ci il oktyabrın 30-31-də Ankarada keçirilmişdir. Bu toplantıda türk dövlətlərinin inteqrasiyasına xidmət edən qərarlar qəbul edilmişdi. Əsasən iqtisadi əlaqələrə həsr edilən bu toplantının başlıca məqsədi həm də siyasi-mənəvi birliyin yaradılmasına çalışmaqdan ibarət idi. Yekun "Ankara Bəyannaməsi"nin qəbulu dövlətlərimiz arasındakı əlaqələrin inkişafı yolunda mühüm irəliləyiş oldu. Bununla gələcək inteqrasiyaya və növbəti Zirvə toplantılarına təkan verildi.

Ankarada əldə olunmuş razılığa görə ikinci Zirvə toplantısı 1993-cü ilin mayında Bakıda keçirilməli idi. Ancaq bu toplantı əvvəlcə təxirə salındı, sonra da onun vaxtı 1994-cü ilin yanvarına dəyişdirildi. Lakin sammit bir qədər gec baş tutdu və həm də Bakıda keçirilmədi. Buna səbəb Rusiyanın bu tədbirin Bakıda keçirilməsinin əleyhinə olması idi. Rusiya tərəfi bunu onunla əsaslandırırdı ki, Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşdiyi bir vaxtda belə bir toplantının Bakıda keçirilməsi Orta Asiyanın türk dövlətləri ilə Ermənistanın münasibətlərində gərginlik yaradar.

Türk dövlət başçılarının ikinci Zirvə toplantısı 1994-cü il oktyabrın 18-19-da İstanbulda keçirildi. Bu toplantıda dövlət başçılarının Ankara toplantısından keçən müddətdə siyasət, təhsil, mədəniyyət və iqtisadiyyat sahələrində, habelə digər

sahələrdə münasibətlərin qənaətbəxş inkişaf etdiyi qeyd olundu. Toplantıda çıxış edən Azərbaycan prezidenti Heydər Əliyev qeyd etdi ki, bu toplantılar xalqlarımızın tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrin ümumiliyi, dil və fəaliyyət birliyi əsasında qurulub. Bu əsasda ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə böyük imkan var. Azərbaycan prezidenti keçid dövrünü yaşayan keçmiş Sovet respublikalarının bir-birinin köməyinə daha çox ehtiyacı olduğunu və türk dövlətləri ilə əlaqələrə xüsusi önəm verdiyini vurğuladı. Heydər Əliyev bəyan etdi ki, əgər Xəzəryanı dövlətlər öz enerji daşıyıcılarını dünya bazarlarına çıxarmaq üçün Azərbaycan ərazisindən istifadə etmək istəsələr, onlara bunun üçün tam şərait yaradılacaqdır.

Bu sammitdə dövlətlərarası sərhədlərin zorla dəyişdirilməsinin yolverilməzliyi vurğulandı və Ermənistan-Azərbaycan münaqişəsi, Kipr, Bosniya və Herseqovina məsələləri müzakirə edildi. Dövlət başçıları Zirvə toplantıları qərarlarının yerinə yetirilməsini nəzərdən keçirmək və növbəti toplantılara hazırlıq görmək üçün xarici işlər nazirlərinin məsləhətləşmələr keçirmələrini qərara almışdılar. Dövlət başçıları əmin olduqlarını bildirmişdilər ki, İstanbul toplantısı dövlətlər arasında əməkdaşlığın daha da möhkəmlənməsinə, regionda inkişafa və tərəqqiyə, sabitliyə, sülhə və təhlükəsizliyə öz töhvəsini verəcəkdir.

İstanbul toplantısının qərarına uyğun olaraq, dövlət başçılarının üçüncü Zirvə görüşü 1995-ci ilin avqustun 27-28-də Qırğızıstanda keçirildi. Dövlət başçıları əvvəlcə qırğızların "Manas" dastanının 1000 illiyinə həsr olunan şənliklərə qatıldılar. Zirvə toplantısının gündəliyinə beynəlxalq və regional problemlərə dair fikir mübadiləsi, türk dövlətləri arasında iqtisadi əməkdaşlığı genişləndirmək kimi məsələlər daxil idi. Mədəni-humanitar əlaqələrin inkişaf etdirilməsi ilə bağlı məsələlər də müzakirə olundu. Danışıqlardan sonra "Bişkek Bəyannaməsi" imzalandı. Toplantıdan sonra təşkil olunmuş mətbuat konfransında prezident Heydər Əliyev Azərbaycanla

Orta Asiyanın türk dövlətləri arasında iqtisadi əlaqələrin lazımi səviyyədə olmamasından təssüfləndiyini bildirdi və qeyd etdi ki, Azərbaycan rəhbərliyi tarixi keçmişimizi, ümumi köklərimizi əsas tutaraq bütün türk dövlətləri ilə daha sıx iqtisadi, elmi-texniki və mədəni əməkdaşlığın yaradılmasını istəyir.

Dövlət başçılarının dördüncü Zirvə toplantısı 1996-cı ilin oktyabrın 21-22-də Özbəkistanda keçirildi. Görüşdən əvvəl dövlət başçıları Əmir Teymurun anadan olmasının 660 illiyinə həsr edilən mərasimlərdə iştirak etdilər. Gündəlikdə dövlətlərarası ticarət-iqtisadi və humanitar münasibətlərin inkişaf etdirilməsi, türk dövlətlərinin tarixində əlamətdar günlərin qeyd olunması, TÜRKSOY təşkilatı vasitəsilə gerçəkləşdirilən mədəni-humanitar inteqrasiyanın gücləndirilməsi, türk dövlət başçılarının növbəti toplantısının keçiriləcəyi yerin və vaxtın müəyyənləşdirilməsi məsələlərinin müzakirəsi nəzərdə tutulmuşdu. Zirvə görüşündə Özbəkistan prezidenti İslam Kərimov türk dövlətlərinin daimi fəaliyyət göstərən katibliyinin yaradılması təklifi ilə çıxış etdi. Bu təklif digər dövlətlərin rəhbərləri tərəfindən dəstəkləndi.

Dövlət başçılarının beşinci Zirvə toplantısı 1998-ci ilin iyunun 9-da Qazaxıstanda keçirildi. Bu görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri və ATƏT-in “Lissabon prinsipləri” əsasında həllinin dəstəkləndiyi bildirildi. Dövlət başçıları terrorizmə, dini ekstremizmə və separatizmə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın səmərəli mexanizmini yaratmağın, habelə bu sahədə informasiya mübadiləsinin zəruriliyini bir daha vuğulamışdılar. Türk dövlətlərinin daimi fəaliyyət göstərən katibliyinin mühüm rolu qeyd edilmiş və Türkiyədə daimi katiblik yaratmaq qərara alınmışdı.

Altıncı Zirvə toplantısı 2000-ci ilin aprelin 8-də nəhayət ki, Bakının evsahibliyi ilə keçirildi. Bu toplantının keçirildiyi günlərdə Azərbaycanda həm də “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyinə həsr olunmuş yubiley təntənələri təşkil

olunmuşdu. Toplantıya qatılan dövlət başçıları yubiley mərasimlərində də iştirak etdilər. Sammitdə görülən diqqətəlayiq işlərdən birini dövlət başçılarının görüşləri sisteminin strukturlaşdırılmasına aid tədbirlər təşkil edir. "Bakı Bəyannaməsi"ndə isə ilk toplantıdan keçən müddətdəki fəaliyyətin uğurları və çatışmamazlıqları qeyd olundu.

Türk dövlət başçılarının yeddinci Zirvə görüşü 2001-ci il aprelin 26-27-də İstanbulda keçirildi. Bu tədbirdə beş ölkəni dövlət başçıları, Özbəkistanı isə həmin ölkənin Ali Məclisinin sədri təmsil edirdilər. Bu toplantı türk dövlətlərinin çoxşaxəli əməkdaşlığına ciddi təsir göstərdi. Öz işini aprelin 27-də başa çatdıran toplantı "İstanbul Bəyannaməsi" adlı sənəd qəbul etdi. Azərbaycan tərəfinin təkidi ilə bu sənədə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aşağıdakı məzmunda maddə salındı: "Dövlət başçıları BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsi haqqında müvafiq qətnamələrini dəstəklədiklərini bildirmiş və onların yerinə yetirilməsinin vacibliyini vurğulamışlar". Türkmənistan prezidentinin xahişinə əsasən, növbəti görüşü 2002-ci ildə Aşqabadda keçirmək qərara alındı. Müəyyən səbəblər üzündən 2001-ci il İstanbul sammitindən sonra bir xeyli müddət növbəti toplantı keçirilmədi.

Səkizinci Zirvə toplantısı 2006-cı ilin avqustunda Antalyada keçirildi. Bu toplantının keçirilməsi xeyli geciksə də, türk dünyasının üzləşdiyi çoxsaylı problemlərin həlli yollarının axtarışı baxımından diqqətçəkici oldu. Bu toplantının başlıca yekunlarından biri də Türk Parlament Assambleyasının yaradılmasına dair Qazaxıstanın təklifinin müzakirəsi əsasında çıxarılan qərardan ibarətdir.

Dövlətçiliyin inkişafına dair əlaqələrin möhkəmləndirilməsi yolundakı mühüm addımlardan birini Türk Parlament Assambleyasının yaradılması təşkil edir. Türk birliyinin reallaşması istiqamətində mühüm addım sayılan Parlament Assambleyası 2008-ci ilin noyabrında İstanbulda yarandı. Parlament Assam-

bleyasının yaradılması ilə bağlı keçirilən konfransda Azərbaycan, Türkiyə, Qırğızıstan parlamentlərinin sədrləri və Qazaxıstan Parlamenti sədrinin müavini iştirak etmişdilər. Yekunda Parlament Assambleyasının yaradılmasını nəzərdə tutan bəyannamə imzalanmışdır. Bəyannamə gələcəkdə digər ölkələrin qoşulması üçün açıq elan edilmişdir. Türkiyə Prezidenti Abdullah Gül konfransa müraciətdə təsisçi dövlətlərin ümumi tarixi, mədəni və dil bağlılıqlarının olmasına istinad edərək, bəyannaməni əməkdaşlığın genişləndirilməsi istiqamətində tarixi addım kimi dəyərləndirmişdir. O, qeyd etmişdir ki, əgər bu dövlətlər həmrəylik ruhunda birgə hərəkət etsələr, fəaliyyətlərini əlaqələndirsələr, onlar Avrasiyaya sülh, sabitlik və rıfah gətirəcəklər. A.Gül həmçinin bildirmişdir ki, türk dövlətlərinin qardaşlığı heç kimi hədəf seçməmişdir, əksinə bu birlik regionun sabitliyi, sülhü üçün qəlb və zəkanın ittifaqını özündə əks etdirir. Parlamentlər səviyyəsində əməkdaşlıq birgə layihələrin reallaşdırılmasını asanlaşdıra bilər.

Nəzərdə tutulurdu ki, Parlament Assambleyasının toplantıları bir dəfədən az olmayaraq keçirilir. Parlament Assambleyasına sədrlik növbəlilik və əlifba sırası ilə həyata keçirilir, səlahiyyət müddəti isə bir ildir. Qurumun iclasları sədrliyi həyata keçirən ölkədə keçirilir.

Doqquzuncu Zirvə görüşü 2009-cu ilin oktyabrında Naxçıvanda keçirildi. Sammitdə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan prezidentlərlə təmsil olunmuşdular. Türkmənistan prezidenti toplantıya qatılmayaraq Naxçıvana Nazirlər Kabineti sədrinin müavini X.Saparılıyevi göndərmişdir. Özbəkistan isə ümumiyyətlə, sammitə qatılmamışdır. Bu sammitin Naxçıvanda keçirilməsi olduqca müsbət hadisə sayılır. Həmin tədbir diplomatiksiyasi baxımdan çox uğurlu gediş hesab olunur. Belə bir sammitin Naxçıvanda keçirilməsinə həmdə onun beynəlxalq sənədlərlə, yəni Moskva və Qars müqavilələri ilə təsbit olunmuş statusunun xeyli möhkəmləndirilməsi kimi baxılır. "Naxçıvan sammiti" ötən müddət ərzində türk dövlətləri

və topluqlarının əməkdaşlığının genişlənməsində əsaslı dəyişikliklərin baş verdiyini qeyd etmişdi. Müzakirələrdə türk dövlətləri arasındakı əlaqələrin və əməkdaşlığın əsas istiqamətləri olaraq iqtisadiyyat, mədəni-humanitar, ekoloji təhlükəsizlik, Avropa və Asiya ölkələri ilə münasibətlər, müxtəlifyönlü təhlükələrdən birgə müdafiə və başqa məsələlər əsas yer tutmuşdur. "Naxçıvan sammiti" öz işini türk dövlətlərinin Əməkdaşlıq Şurasının yaradılması barədə sazişin və "Naxçıvan Bəyannaməsi"nin imzalanması ilə başa çatmışdır.

Onuncu Zirvə toplantısı 2010-cu ilin sentyabrında İstanbulda keçirildi. Toplantıda Türkiyə prezidenti A.Gül, Azərbaycan prezidenti İ.Əliyev, Qazaxıstan prezidenti N.Nazarbayev, Türkmənistan prezidenti Q.Berdiməhəmmədov, Qırğızıstanın keçid dövrü prezidenti R.Otunbayeva iştirak edirdilər. Özbəkistan prezidenti bu Zirvə toplantısına da qatılmamışdı.

Türkiyə prezidenti Abdullah Gül türk dövlətləri arasında əməkdaşlığın güclənməsində Naxçıvanda keçirilən toplantıda qəbul edilən qərarların mühüm rol oynadığını bildirdi, həmin qərarların əhəmiyyətini xüsusi vurğulayaraq dedi: Naxçıvanda qəbul etdiyimiz mühüm qərarlardan biri də Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılmasıdır. Məlum olduğu kimi, Şuranın katibliyi İstanbulda olacaqdır. Bugünkü toplantıda Katibliyin strukturunun yaradılması ilə bağlı qərar qəbul edəcəyik. Bu çərçivədə Şuranın baş katibi də təyin ediləcək. Türkiyə prezidenti əlavə etdi ki, Türkdilli Ölkəriin Əməkdaşlıq Şurasının yaradılması geniş coğrafi ərazini əhatə edən Türk dünyasının qarşılaşdığı problemlərin həllində də vacib rol oynayacaqdır. Bu, həmçinin ölkələrimizi və xalqlarımızı bir-birinə daha sıx bağlayacaq, bölgədə sülhə və sabitliyə xidmət edəcəkdir. Ankarada fəaliyyət göstərən TÜRKSOY, Bakıda fəaliyyət göstərən Türkdilli Ölkələrin Parlament Assambleyası, Astanadakı Türk Akademiyası isə Şuranın gücləndirilməsi istiqamətində çalışacaqdır.

Zirvə görüşündə, həmçinin qərara alındı ki, türk mədəniyyətinin qorunması üçün Bakıda vəqf, universitetlər arasında fəaliyyətin gücləndirilməsi üçün qurum, Astanada Akademiyanın tərkibində muzey, tarixi araşdırma fondu yara-dılsın. Sonda dövlət başçıları Zirvə toplantısının yekun sənədini imzaladılar. Qərara alındı ki, növbəti Zirvə toplantısı 2011-ci ildə Qazaxıstanda keçirilsin.

TÜRKSOY təşkilatının əsası 1992-ci ilin iyununda 6 türk dövlətinin mədəniyyət nazirlərinin İstanbulda keçirilən toplantısında qoyulmuşdur. Türk dövlətlərinin mədəniyyət nazirlərinin Daimi Şurası adlanan bu təşkilata 1992-ci ilin dekabrında Bakıda keçirilən toplantıda TÜRKSOY adı verilmişdir. Azərbaycan və Türkiyə rəhbərliyinin siyasi iradələrinin ortaya qoyduğu fəaliyyətlər nəticəsində, Azərbaycan Respublikası beynəlxalq mədəni əməkdaşlıq təşkilatı olan TÜRKSOY-un yaradıcılarından biri oldu. 1993-cü il iyulun 12-də Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə təmsilçiləri səkkiz maddədən ibarət "TÜRKSOY-un strukturu və fəaliyyət prinsipləri haqqında müqavilə"ni imzaladılar. Təşkilatın məqsədi türk xalqları və ölkələri arasında mədəni əlaqələri genişləndirmək, xalqların mədəniyyət və incəsənətini qorumaq, dirçəltmək və inkişaf etdirmək idi. Sonralar Tatarıstan, Başqırdıstan, Tuva, Xakasiya, Şimali Kipr Türk Cümhuriyyəti də bu təşkilata daxil olmuşdur.

Mənəvi-humanitar inteqrasiyada TÜRKSOY başlıca vasilələrdən hesab olunur. Onun yaradılması ilə əslində mənəvi inteqrasiyada yeni bir mühüm mərhələ başlamışdır. TÜRKSOY çərçivəsində sıx əməkdaşlıq Azərbaycanla Türkiyənin elmi-mədəni əlaqələrinin hüdudlarını genişləndirdi, imkanlarını artırdı. Türk dünyasında mədəni əməkdaşlığa və mənəvi birliyə təkan verən birgə tədbirlər sırasında eposlarımızın yubileylərinin təntənələrlə keçirilməsinin xüsusi yeri vardır. TÜRKSOY türk xalqları arasında mədəni əlaqələrin inkişafına böyük töhvə vermiş, keçirilən tədbirlərdə bütün türk

dünyasının nümayəndələrinin iştirakını təmin etmişdir. TÜRKSOY-un 2009-cu ilin oktyabrında keçirilən iclasında o, Türk Mədəniyyətinin Beynəlxalq Təşkilatı adlandırıldı. TÜRKSOY beynəlxalq təşkilat kimi tanınaraq, YUNESKO ilə birbaşa əlaqə qurmuşdur.

Ümumtürk həmrəyliyi və birliyinin formalaşmasında türk dövlət və topluluqlarının ənənəvi (illik) "Dostluq, qardaşlıq və işbirliyi" qurultaylarının çox böyük rolu vardır. Bu günə qədər 12-si keçirilən həmin qurultaylardan birincisi 1993-cü ilin martında Antalyada oldu. Bu qurultayda ümumtürk birliyinin tarixi zərurət olması və türk dünyasındakı inteqrasiyanın məqsədləri, istiqamətləri, vasitələri, üsulları müzakirə edildi.

Ümumilikdə bu qurultaylar "Ümumtürk Evi"nin qurulması işinə özlərinin böyük töhvələrini vermişlər. 1999-cu ilin iyulunda Türkiyədə keçirilən yeddinci qurultayda Milliyətçi Hərəkat Partiyasının başqanı D.Baxçalı ümumtürk birliyi yolunda sözdən işə keçilməsinə və əməli addımlar atılması mərhələsinə başlanılmasına dair çağırış etdi. Bu qurultayda türk dünyasıdaxili inteqrasiya ilə bağlı aşağıdakılar təklif olundu:

1. Mənəvi bağların daha da möhkəmləndirilməsi üçün ortaq dil, əlifba, televiziya və radio, Elmlər Akademiyasının yaradılması, ümumtürk YUNESKO-sunun təşkili.

2. Avropa ittifaqına bənzər ortaq türk bazarının yaradılması.

3. Avropa Parlamentinə oxşar ümumtürk Məclisinin qurulması.

On birinci qurultay 2007-ci ilin noyabrında Bakıda keçirildi. Bu, Türkiyədən kənarda keçirilən ilk qurultay idi. 30 ölkədən 800-ə yaxın nümayəndənin qatıldığı qurultayda İ.Əliyev, R.T.Ərdoğan, Şimali Kipr Türk Cümhuriyyətinin prezidenti Ə.Tələt və digər tanınmış dövlət adamları iştirak edirdilər. Bu qurultayın keçirilməsində məqsəd türk dövlət və topluluqları arasında dostluq, qardaşlıq və əməkdaşlıq əlaqələrini inkişaf etdirmək, informasiya mübadiləsini və bir-birilərini yaxından tanımalarını təmin etmək, türk mədə-

niyyətinin zənginliklərini təbliğ etmək, iqtisadi inkişaf sahəsində qarşılıqlı əməkdaşlığı genişləndirən tədbirlər görmək, türk dövlət və topluluqlarının ümumi problemlərinin birlikdə həlli yollarını araşdırmaq olmuşdur.

Azərbaycan prezidenti İlham Əliyev bu qurultayda çıxışında aşağıdakı məsələlərə diqqət yetirilməsini vacib saydı: 1.Türk diasporalarının gücləndirilməsi; 2. erməni lobbisinə qarşı mübarizənin gücləndirilməsi; 3. "Dağlıq Qarabağ problemi"nin ədalətli həlli məsələsinin daha da qabardılması; 4. BTC-nin Türkiyə və Azərbaycanın enerji təhlükəsizliyini təmin etməsi; 5. ümumtürk tarixinin yazılması.

Qurultayda çıxış edən Türkiyənin baş naziri R.T.Ərdoğan Orta Asiyanın türk dövlətlərinin də daxil olduğu Türkdilli Dövlətlər Birliyi yaratmaq ideyası ilə çıxış etmişdir. Bu ideyada əsas məqsəd xarici siyasət arenasında birgə fəaliyyəti əlaqələndirməkdir. Bu layihə Türkiyə tərəfindən Antalya qurultayında irəli sürülmüşdür və Bakıda irəliyə doğru daha bir addım atılmışdır. R.T.Ərdoğan xüsusilə xarici siyasət sahəsində birgə addımlar atan və istənilən məsələdə biri digərinin hüquqlarını müdafiə edən türk dünyası qurmaq arzusundadır. Bakıda keçirilən qurultayda Türkmənistan və Özbəkistanın iştirak etmədiyini nəzərə alsaq, R.T.Ərdoğanın müəllifi olduğu ideyanı gerçəkləşdirmək üçün hələ buna qədər müxtəlif sahələrdə bir çox layihələrin gerçəkləşdirilməsi vacibdir. Ərdoğan çıxışında bildirmişdir ki, Avropa dövlətlərinin birliyi olduğu kimi türkdilli dövlətlərin də birliyinin olması təbiidir və türkdilli dövlətlər də həmçinin xarici siyasətlə bağlı məsələləri əlaqələndirmək üçün zəmin yaradan belə bir struktur formalaşdıra bilər.

Bunun üçün ilk növbədə türk respublikaları arasında mövcud problemlər öz həllini tapmalıdır. Bundan sonra türk dövlətləri arasında iqtisadi əməkdaşlıq ittifaqı təşəkkül tapmalı və bu ittifaq sözügedən layihənin əsasını təşkil etməlidir.

Qurultay çərçivəsində türk dövlətləri arasında elm, texnika, mədəniyyət, təhsil, iqtisadiyyat, ticarət, turizm və maliyyə

sahələrində əməkdaşlıq, türk dünyasının mədəni irsinin təbliği, türk gəncliyinin qarşısında duran vəzifələr, onların milli ruhda tərbiyə olunması problemləri, müasir qloballaşma proseslərinin türk xalqlarının həyatına təsiri müzakirə edilmişdir. Türk dünyasını narahat edən bir sıra digər problemlər-Qarabağ münaqişəsi, Şimali Kiprin beynəlxalq təcriddən çıxarılması, ahıska türklərinin öz tarixi torpaqlarına qayıdışı sahəsində mövcud olan çətinliklər ətrafında da fikir mübadiləsi aparılmışdır.

Türk xalqlarının inteqrasiyasında əsas məsələlərdən biri də hələlik öz dövlətçiliklərinə malik olmayan türk topluluqlarının da çoxtərəfli əməkdaşlıqda fəal iştiraklarına müvəffəq olunmasından ibarətdir. Lakin türk dövlətləri və topluluqlarının bir araya gəlməsinin onların siyasi birliyi ilə nəticələnə biləcəyi ehtimalı müəyyən beynəlxalq və regional dairələrdə narahatlıq yaradır. Bütövlükdə isə türk dünyası coğrafiyasındakı siyasi yarımçıqlıq ümumtürk birliyini əngəlləyən başlıca amillərdəndir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. Abdullayev M.İ Azərbaycan-Türkiyə əlaqələri. Bakı, 1998.
2. Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı, 2000.
3. Azərbaycan-Türkiyə münasibətləri. Bakı, 1997.
4. Azərbaycan beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələrdə. Bakı, 1997.
5. Azərbaycan-Türkiyə: Dostluq, qardaşlıq, strateji əməkdaşlıq. Bakı, 1997.
6. Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001.
7. Azərbaycan-Qazaxıstan. Bakı, 1997.
8. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992.
9. Cavad Heyət. Türklərin tarix və mədəniyyətinə bir baxış. Bakı, 1993.
10. Cəfərova V. Dünya dövlətlərinin siyasi sistemi: Türkiyə Respublikası. Bakı, 2000.
11. Cahangirli C. Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri. Bakı, 2006.
12. Əliyev H. Müstəqilliyimiz əbədidir. I-XXII kitablar. Bakı, 1997-2007.
13. Əliyev N, Şahbazov E. Heydər Əliyev və Azərbaycan neftinin inkişafı. Bakı, 1997.
14. Əliyev Q.M. Azərbaycan nefti dünya siyasətində. Avtoreferat. Bakı, 2003.
15. Əhmədov M. Azərbaycan: yeni neft erası və beynəlxalq siyasət. Bakı, 1997.
16. Fazil Qaraoğlu. Türk millətinin tarixi, qurduğu dövlətlər və ata-babaları. Bakı, 2007.
17. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalşması. Bakı, 2003.

18. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın xarici siyasət prioritetlərinin müəyyənləşməsi. Bakı, 2005.
19. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005.
20. Hüseynov E.K. Azərbaycan Respublikasının Türkiyə ilə iqtisadi və mədəni əlaqələri. Avtoreferat. Bakı, 2000.
21. İsmayılov İ. Türk dünyası XX əsrin 90-cı illərində. Bakı, 2001.
22. Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı 1996.
23. Qasımov M.C. Azərbaycan-Türkiyə diplomatiksiyasi münasibətləri. Bakı, 1998.
24. Qasımov Ə., Qasımov M. İpək yolu bəşəriyyətin tərəqqi yoludur. Bakı, 1999.
25. Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, 2002.
26. Mustafayev R. Azərbaycan və yeni dünya. Bakı, 1993.
27. Muxtarova Ə. Heydər Əliyev və türk dünyası. / Tarix və onun problemləri, 2003, №1.
28. Mehdiyeva N.C. XIX əsrin birinci yarısında Mərkəzi Asiya və Qazaxıstanın fəthi uğrunda İngiltərə ilə Rusiya arasında mübarizə. "Təfəkkür" Universitetinin Elmi əsərləri. IV buraxılış. Bakı, 1998.
29. Mehdiyeva N.C. Rusiya tərkibindəki türk xalqları fevral inqilabından sonra. Azərbaycan tarixinin çağdaş problemləri. Bakı, 2000.
30. Mehdiyeva N.C. XIX əsrin birinci yarısında Krım. ABU. Elmi konfransın materiallları. Bakı, 2002.
31. Mehdiyeva N.C. Türk xalqlarının tarixi. Yeni dövr. Bakı, 2003.
32. Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, 2005.
33. Mirzəyev R. "Əsrin müqaviləsi"ndən başlanan yol. Bakı, 2000.

34. Məmmədli K. Altay xalqları. Bakı, 1996.
35. Musayev İ. Azərbaycanın xarici siyasəti. III hissə. Bakı, 2010.
36. Nuriyev S. Müasir sivilizasiya və milli inkişafın xüsusiyyətləri. Bakı, 1998.
37. Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində. Bakı, 2005.
38. Seyidzadə D. Azərbaycanı XX əsrin əvvəllərində müstəqilliyə aparan yollar. Bakı, 1998.
39. Səfərov R.Ş. 90-cı illərdə Azərbaycanın beynəlxalq vəziyyəti və xarici siyasəti. Metodik vəsait. Bakı, 1999.
40. Sofiyev M. Türkiyə 1918-1923-cü illərdə. Bakı, 1966.
41. Sofiyev M. Türkiyə-Azərbaycan əlaqələrində yeni mərhələ. Elmi konfransın materialları. Humanitar və sosial-siyasi elmlər. Bakı, 1998.
42. SSRİ tarixi. II hissə. Bakı, 1963.
43. SSRİ tarixi. Bakı, 1978.
44. SSRİ tarixi. II hissə. Bakı, 1982.
45. Şahbazov E. Heydər Əliyev və Azərbaycan neftinin inkişafı. Bakı, 1997.
46. Türk və Qafqaz xalqları tarixinin bəzi məsələləri. Bakı, 1997.

## Türk dilində

1. Abasov R. Bağımsız Kırğızıstan. İpek yolunda on zor yıl. Avrasiya Etüdleri, 2002, №1
2. Araz Osman Nuri. Azerbeycanın Hazar ekonomisi ve stratejisi. İstanbul, 2001.
3. Aydın T. Türkiye Orta Asiya türk cümhuriyyetleri arasında ekonomik ilişkiler. Yeni türk dergisi, 1997, №15.
4. Akşin Apdülahat. Atatürkün dış politika ilkeleri ve diplomatisi. Ankara, 1991.

5. Armaoğlu Tahir. 20 Yüzyıl siyasi tarihi (1914-1980). Ankara, 1989.
6. Armaoğlu Tahir. 20 Yüzyıl siyasi tarihi (1980-1990). Ankara, 1991.
7. Baskın Oran. Türk dış politikası. Kurtuluş svaşından bu güne. Olğular, belgeler, yorumlar. (cilt I. 1919-1980). İstanbul, 2002.
8. Bilge Suat. Türkiye-Sovyetler Birliyi ilişkileri. Ankara, 1992.
9. Ersanlı Bahar. Bağımsızlığın ilk yılları. Ankara, 1994.
10. İrfan Ülkü, Ali Hasanov. Süleyman Demirel ve türk dünyası. İstanbul, 2002.
11. İrfan Ülkü. Bağımsızlıktan sonra Azerbeycan. İstanbul, 2000.
12. Kumkale Tahir. Tarihten günümüze türk-rus ilişkileri. İstanbul, 1997.
13. Kocabaş Süleyman. Kuzeyden gelen tehdit. Türk-rus mücadilesi. İstanbul, 1990.
14. Mahir Kaynak. Büyük Orta Doğu projesi ve Türkiye üzerine stratejik analizler. İstanbul, 2005.
15. Saray Mehmet. Yeni Türk Cümhuriyyetleri tarihi. Ankara, 1996.
16. Suat İlhan. Türklerin geopolitiği ve Avrasyacılıq. Ankara, 2005.

## Rus dilində

1. Аббасов. А. Содружество взаимозависимых государств.Москва, 2002.
2. Аббасбейли А, Аббасбейли Э. Гейдар Алиев и мировая политика. Баку, 1997.
3. Аббасбейли А. Кавказ в современной геостратегии. Баку, 2003.

4. Аврех А. Я. Столыпин и судбы реформ в России. Москва,1991.
5. Аврех А. Я.Царизм и IV дума. Москва, 1981.
6. Азербайджанско-казахские литературные связи. Баку, 1990.
7. Бабаходжаев А.Х. Провал английской политики в Средней Азии и на Среднем Востоке (1918-1924). Москва, 1962.
8. Багиров А. Н. Азербайджан в международных экономических связах Советсково государства на современном этапе. Автореферат. Баку, 1991.
9. Бартолд В.В. Очерк истории туркменсково народа. Соч, т. II. Москва, 1963.
10. Башкирия в революции 1905-1907 гг.Уфа, 1987.
11. Бекмеханов Е. Б. Присоединение Казахстана к России. Москва, 1957.
12. Бекмеханова Н.Е. Многонациональное население Казахстана и Киргизии в эпоху капитализма (60-е годы XIX в.-1917г.) Москва, 1986.
13. Бендриков К.Е. Очерки по истории народного образования в Туркестане (1865-1924 гг.). Москва, 1960.
14. Василевский Е.Г. Идейная борьба вокруг Столыпинской аграрной реформы. Москва, 1960.
15. Гаджиев К. С. Геополитика. Москва, 1997
16. Гордиенко А.А. Создание Советской национальной государственности в Средней Азии. Москва, 1959.
17. Дубровский С.М.Столыпинская земельная реформа. Москва, 1963.
18. Дугин А. Основы геополитики. Москва, 1999.
19. Дулов В.И. Социально-экономическая история Тувы XIX-начала XX в.Москва, 1956.
20. Искандаров Б. И. Восточная Бухара и Памир в период присоединения Средней Азии к России Москва, 1960.

21. Крым в прошлом и настоящем. Москва, 1988.
22. Мехтиев Р.А. Азербайджан: вызовы глобализации. Баку, 2004.
23. Мир и Россия на пороге XX века. Москва, 2001.
24. Мурадвердиев А.Ш. Азербайджанская нефть и капитал. Москва, 2001.
25. Наджафов Э. Южный Кавказ: тернистый путь к безопасности. Москва, 2005.
26. Народы Поволжья и Приуралья. Москва, 1985.
27. Народы Средней Азии и Казахстана. Москва, 1962.
28. Народы Сибири. Москва-Ленинград, 1956.
29. Независимый Азербайджан: новые ориентиры в 2-х томах. Москва, 2000.
30. Потапов Л. П. Очерки по истории алтайцев. Москва-Ленинград, 1953.
31. Полоскова Т. Диаспоры в системе международных связей. Москва, 1998.
32. Пясковский А.В. Революция 1905-1907 годах в Туркестане. Москва, 1958.
33. Пясковский А. В. Восстании 1916 года в Средней Азии и Казахстане. Москва, 1960.
34. Радлов В.В. Из Сибири. Страницы дневника. Москва, 1989.
35. Саядов О.С. Азербайджан на меридианах международных отношений. Баку, 1991.
36. Саядов С.А. Азербайджан: международные связи и взаимопонимания. Баку, 1991.
37. Сеидзаде Д.Б. Азербайджанские дерутаты в Государственной Думе России. Баку, 1991.
38. Сидельников С.М. Образование и деятельность первой Государственной думы. Москва, 1962.
39. Сидельников С.М. Аграрная реформа Столыпина. Москва, 1973.

40. Скотова С.Г. Из истории Юго-Восточной Сибири. Москва, 1989.
41. Сулейманов Б.С. Революционное движение в Казахстане 1905-1907 годах. Алма-Ата, 1977.
42. Сухерева О.А. Бухара XIX-начала XX в. Москва, 1966.
43. Татары Среднево Поволжья и Приуралья. Москва, 1940.
44. Токарев С.А. Очерк истории якутсково народа. Москва, 1940.
45. Троицкая А.Л. Материалы по истории Кокандсково ханства XIX в. Москва, 1969.
46. Тухтаметов Т.Г. Россия и Хива в конце XIX-начале XX в. Москва, 1969.
47. Усманов Х.Ф. Развитие каритализма в сельском хозяйстве Башкирии в пореформенный период 60-90-е годы XIX в. Москва, 1981.
48. Халфин Н.А. Политика России в Средней Азии (1857-1868). Москва, 1960.
49. Чернявский С.И. Новый путь Азербайджана. Москва, 2002.
50. Эмир-Илясова Э.И. Азербайджан в системе международных отношений.Баку, 2000.

## Dövri mətbuat

1. " Azərbaycn" qəzeti, 1991-2011-cü illər.
2. "Xalq qəzeti", 1994-2011-ci illər.
3. "Respublika" qəzeti, 1996-2010-cı illər.
4. "Həyat" qəzeti, 1992-ci il.
5. "Hürriyət" qəzeti, 1996-2001-ci illər.
6. "Zaman" qəzeti, 1999-cu il.
7. "Tarix və onun problemləri". Bakı, 1996-2010.
8. "Dirçəliş-XXI əsr". Bakı, 1998-2005.
9. "Beynəlxalq həyat". Bakı, 1998.

## İnternet materialları


1. bbc.co.uk.russian
2. navigator.kz.
3. oilgas.kz.
4. premia.org.kg.
5. www.türk republics.com
6. www.tukmenbashy.net
7. www.mfa.gov.az
8. http//://stra.teg.ru/
9. http//:www.casia.org
10. http//:www.centrasia.ru
11. www.geopolitica.ru
12. www.kavkaz.com
13. http//:www.azerbaijan.az
14. www.turtsia.ru
15. www.history.com
16. http//:www.ataturk.net
17. http//:tr.wikipedia.org
18. http//:www.webhatti.com
19. http//:www.turkcebigi.com
20. http//:www.turkish-media.com
21. http//:www.zevkli.org
22. www.osmanlıtarihi.tr
23. www.eurasia.org.ru
24. www.press-service.uz
25. www.slavmir.ru

| | |
|---|---|
| **Nəşriyyatın müdiri** | ***Kamil Hüseynov*** |
| **Baş redaktor** | ***İsmət Səfərov*** |
| **Redaktor** | ***İsabə Hüseynova*** |
| **Korrektor** | ***Səbiyyə Səmimi*** |
| **Кompyuter operatoru** | ***Təranə Baxşəliyeva*** |
| **Dizayner** | ***Vüsalə Axundova*** |

**Ramin Qurbanov**
**Türk xalqlarının tarixi**
**-------------------------------------**
***Dərs vəsaiti***

***Çapa imzalanıb . 04. 2011. Kağız formatı 60x84 1/16.***
***Həcmi ç.v. Sifariş . Sayı 00.***
**------------------------------------------------------------------------**
***" İqtisad Universiteti " Nəşriyyatı.***
***AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6***